**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT TƏHLÜKƏSİZLİYİ XİDMƏTİNİN**
**HEYDƏR ƏLİYEV ADINA AKADEMİYASI**

# MULTİKULTURALİZMƏ GİRİŞ

**MÜHAZİRƏLƏR TOPLUSU**
**(Dərs vəsaiti)**

Dövlət Təhlükəsizliyi Xidmətinin
Heydər Əliyev adına Akademiyasının
Elmi Şurasının 29 sentyabr 2017-ci il
tarixli iclasının (protokol № 4) qərarı
ilə nəşrə tövsiyə edilmişdir.

**BAKI-2018**

**Tərtib edənlər:** **Cəlal Qasımov**
filologiya elmləri doktoru, professor,

**Kəminə Həvilqızı**
filologiya elmlər namizədi, dosent

**Könül Şıxiyeva**
siyasi elmlər üzrə fəlsəfə doktoru

**Elmi redaktor:** **Müşfiq Ramazanov**
iqtisad üzrə fəlsəfə doktoru, dosent,

**Rəyçilər:** **Mehparə Sadıqova**
psixologiya elmləri üzrə fəlsəfə doktoru

**Mehman Həsənov**
siyasi elmlər üzrə fəlsəfə doktoru

Mühazirələr toplusunda multikulturalizm fənninin predmeti və əhəmiyyəti, inkişaf mərhələləri, etnik-milli müxtəliflik, tolerantlıq, insan hüquqlarının qorunması, eləcə də Ulu Öndər Heydər Əliyevin multikultural baxışlar sistemi kimi aktual məsələlər təhlil edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu istiqamətdə gördüyü işlərin əhəmiyyəti də dərs vəsaitində öz əksini tapmışdır.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

© DTX-nin Heydər Əliyev adına Akademiyasının nəşriyyatı, 2018

## MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| **GİRİŞ**............................................................................. | | **7** |
| **MÖVZU 1.** | **“Multikulturalizmə giriş” fənninin predmeti və əhəmiyyəti**...................................... | *9* |
| *1.* | *Multikulturalizmin elm kimi yaranması, predmeti və ona dair müxtəlif yanaşmalar*............ | *9* |
| *2.* | *Multikulturalizmin metodoloji əsasları və ictimai-siyasi elmlər sistemində yeri*............ | *16* |
| **MÖVZU 2.** | **Multikulturalizm ideyalarının yaranması və inkişaf tarixi**............................................ | **21** |
| *1.* | *Qədim azərbaycanlıların mifik təsəvvürlərində tolerantlıq*................................................ | *21* |
| *2.* | *Azərbaycanda qədim və erkən feodalizm dövrünün sosial-siyasi təlimlərində multikulturalizm ideyaları*................................................ | *26* |
| *3.* | *Azərbaycanda İslamın yayılması və İslamda tolerantlıq*.................................................... | *36* |
| *4.* | *N.Tusinin görüşlərində tolerantlıq ideyaları* | *43* |
| *5.* | *Orta əsrlərdə Azərbaycanda tolerantlıq ənənələrinin inkişafında Azərbaycan poetik məktəbinin rolu*.................................................... | *48* |
| *6.* | *Azərbaycanın sufi mütəfəkkirlərinin görüşlərində tolerantlıq ideyaları*........................... | *53* |
| *7.* | *XIX əsr XX əsrin əvvəllərində Azərbaycan maarifçilərinin dünyagörüşündə tolerantlıq və multikulturalizm ideyaları*.............................. | *58* |
| **MÖVZU 3.** | **Multikulturalizm siyasəti və müxtəlif multikultural modellər**........................................ | **64** |
| *1.* | *Qərb ölkələrində multikulturalizmin meydana gəlməsinin tarixi səbəbləri. Qərb ölkələrində multikulturalizm siyasətinin nəzəri-ideoloji əsasları (Artur Şlezinqer-kiçik, Maykl Lind, Natan Qleyzer, Riçard Bernstayn)*.................. | *64* |

| | | |
|---|---|---|
| *2.* | *Qərb ölkələrində etnik –mədəni müxtəlifliyin yaranmasında immiqrasiya prosesinin rolu. Avropa ölkələrində (Böyük Britaniya, Almaniya, Fransa) multikulturalizm...............* | *70* |
| *3.* | *Kanada, Avstraliya, Cənubi Afrika Respublikasında multikulturalizm. ABŞ-da multikulturalizm siyasətinin xüsusiyyətləri. "Əridən qazan" ("Melting pot") konsepsiyası.............* | *73* |
| *4.* | *Qərb ölkələrində multikulturalizm siyasətinin iflasa uğramasının səbəbləri. Rusiyada multikulturalizmin meydana gəlməsinin tarixi şərtləri və səbəbləri. Müasir dövrdə Rusiyanın etnik-mədəni problemləri. Rusiyada immiqrasiya prosesləri. Rusiyada Azərbaycan əmək miqrantları...................................................* | *75* |
| **MÖVZU 4.** | **Dini dəyərlər, tolerantlıq və multikulturalizm.....................................................** | **78** |
| *1.* | *Tolerantlığın inkişaf tarixi.............................* | *78* |
| *2.* | *Tolerantlıq Azərbaycanda dini təhlükəsizliyin əsası kimi.......................................................* | *85* |
| **MÖVZU 5.** | **Etnik-milli müxtəliflik və multikulturalizm...........................................................** | **93** |
| *1.* | *Azərbaycanın polietnik təkamülünə baxış və onun tolerantlıq ənənələri..........................* | *93* |
| *2.* | *Müasir Azərbaycanda etnik-mədəni müxtəliflik: problemlər və perspektivlər......................* | *114* |
| **MÖVZU 6.** | **Multikulturalizm və dil siyasəti...................** | *118* |
| **MÖVZU 7.** | **Multikulturalizm və xarici siyasət................** | **123** |
| *1.* | *Multikulturalizm daxili siyasətin mühüm bir elementi kimi.................................................* | *123* |
| *2.* | *Multikulturalizm dövlətin uğurlu xarici siyasət fəaliyyətinin bir amili kimi.............................* | *124* |
| *3.* | *Azərbaycan Respublikasının multikulturalizm siyasəti və beynəlxalq təşkilatlar....................* | *127* |

| | | |
|---|---|---|
| **MÖVZU 8.** | **Multikulturalizmin beynəlxalq hüquqi əsaslar.........................................................** | **139** |
| 1. | *Multikulturalizmin beynəlxalq hüquqi sənəd-lərdə əksi........................................................* | *139* |
| 2. | *Milli Azlıqların Müdafiəs haqqında Çərçivə Konvensiyası..................................................* | *141* |
| 3. | *İrqi ayrı-seçkilyin bütün formalarının ləğvi haqqında Beynəlxalq Konvensiya....................* | *144* |
| 4. | *"UNESCO-nun Mədəni Özünümifadə Müxtə-lifliyinin Qorunması və Təşviqinə dair Konvensiya"..................................................* | *147* |
| 5. | *Dözümlülük prinsipi haqqında Bəyannamə"* | *148* |
| **MÖVZU 9.** | **Multikulturalizm və insan hüquqlarının qorunması..................................................** | **151** |
| 1. | *İnsan hüquq və azadlıqlarının təşəkkülü, inkişafı və siyasi mahiyyəti..............................* | *151* |
| 2. | *Demokratik cəmiyyətlərdə insan hüquq və azadlıqlarının təmin və müdafiə edilməsi va-sitələri mexanizmləri.....................................* | *159* |
| 3. | *Azərbaycan Respublikasının Konstitusiyasın-da insan hüquqları və multikultural dəyərlərin hüquqi əsasları...............................................* | *170* |
| **MÖVZU 10.** | **Multikultural təhlükəsizlik və onun təmin olunması....................................................** | **180** |
| 1. | *Multikultural təhlükəsizlik siyasəti: mahiyyəti və prinsipləri..................................................* | *180* |
| 2. | *Azərbaycan Respublikasında multikulturalizm təhlükəsizliyi və onun təmin olunması.............* | *183* |
| **MÖVZU 11.** | **Heydər Əliyev Azərbaycan multikultura-lizm modelinin banisi kim...........i................** | *192* |
| **MÖVZU 12.** | **Multikulturalizm – Azərbaycan Respub-likasının dövlət siyasəti kimi.........................** | **193** |
| 1. | *Azərbaycançılıq ideologiyası və multikultura-lizmin qarşılıqlı nisbəti...................................* | *199* |

| | | |
|---|---|---|
| *2.* | *Azərbaycanda dinlərin tarixi............................* | *205* |
| **MÖVZU 13**. | **Müasir Azərbaycanın dövlətçilik təcrübə-sində multikulturalizm həyat tərzi kimi.......** | 220 |
| **İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT...........................** | | **229** |

# GİRİŞ

İctimai və siyasi model olaraq multikulturalizm cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklərə münasibətdə dövlətin apardığı konkret siyasəti əks etdirir. Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair iclasında Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan çoxmillətli ölkədir, bu bizim böyük sərvətimizdir: "Azərbaycan nümunəsi göstərir ki, müxtəlif dinlərin, millətlərin nümayəndələri bir yerdə, qardaşlıq, dostluq şəraitində yaşaya bilərlər. Azərbaycan bundan sonra da çalışacaq ki, ölkə daxilində bütün bu məsələlər sağlam zəmində həll olunsun, regionda və dünyada dinlərarası, sivilizasiyalararası dialoq daha da dərinləşsin".

Bu məqsədlə ölkə başçısı 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etmişdir. Cənab prezident qeyd edib: "Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır". Etnik və dini dəyərlərin toqquşma və qarşıdurma vasitəsinə çevrildiyi bir vaxtda bu, dünyaya bir mesaj, bir çağırış kimi başa düşülməlidir.

Çox sevindirici haldır ki, 2008-ci ildən başlayaraq, Azərbaycan həm coğrafi, həm tarixi, həm də mədəni əsaslara malik olan multikulturalizmi inkişaf etdirir. Çünki ölkəmizdə bütün xalqların nümayəndələri əsrlər boyu bir ailə kimi yaşamaqdadırlar, tolerantlıq yüksək səviyyədədir və böyük əksəriyyət multikulturalizmə “hə” deyir.

O da qeyd olunmalıdır ki, siyasi-mədəni və siyasi-etnik coğrafiya olaraq Azərbaycan həmişə çoxkomponentli və mozaik daxili mikrostruktura malik olub. Bu cür zəngin mədəni keçmiş isə müasir cəmiyyətimizin əsas multikultural və tolerant keyfiyyətlərini müəyyən edir. Bu isə kütləvi sosial təfəkkürün və sosial fəlsəfənin Azərbaycan modelini yaradir. Multikulturalizmin Azərbaycan modeli hazırda dövlət tərəfindən dəstəklənir və

qlobal mədəni sistemə milli dəyərlərimizin aparıcı komponentlərindən biri kimi təqdim edilir.

Beləliklə, multikulturalizm bu gün Azərbaycanda gedən demokratik proseslərin ayrılmaz tərkib hissəsi kimi çıxış edir.

Şübhəsiz, Qərbi Avropa ölkələri ilə müqayisədə Azərbaycanın demokratik inkişaf sahəsində real təcrübəsi azdır. Amma mənəvi təcrübəsi böyükdür. Dastanlarımızdan, nağıllarımızdan, klassik ədəbi nümunələrimizdən qədim demokratik prinsiplərlə bağlı yetərincə misal və nümunələr göstərmək olar. Tarix boyu Azərbaycanın mənəvi həyatında tolerantlıqdan xeyli danışmaq mümkündür. Bunlar təbii ki, multikultural tərzin Azərbaycan cəmiyyətinə öncədən xas olmasına bir sübutdur.

Bu baxımdan "Multikulturalizmə giriş" fənnindən mühazirələr toplusu adlı dərs vəsaiti aktuallıq kəsb edir. Dərs vəsaitində multikulturalizmin müxtəlif aspektləri - "Multikulturalizmə giriş" fənninin predmeti, obyekti və ictimai-siyasi elmlərlə əlaqəsi; multikuturalizm ideyalarının yaranması, inkişaf tarixi və mərhələləri; multikulturalizm siyasəti və multikultural modellər; dini dəyərlər, tolerantlıq və multikulturalizm; etnik-milli müxtəliflik və multikulturalizm; multikulturalizm və dil siyasəti; multikulturalizm və sosial-iqtisadi inkişaf; multikulturalizm və xarici siyasət; multikultural təhlükəsizlik və onun təmin olunması; multikulturalizmin beynəlxalq hüquqi əsasları; multikulturalizm və insan hüquqlarının qorunması; Heydər Əliyev və multikultural dəyərlər; müasir Azərbaycanın dövlətçilik təcrübəsində multikulturalizm dövlət siyasəti və həyat tərzi kimi məsələlər tədqiq olunmuşdur.

Multikulturalizm haqqında müxtəlif elmi əsərlər və məqalələr yazılmasına baxmayaraq, kursant və dinləyici heyəti üçün ilk dəfə olaraq belə bir dərs vəsaiti hazırlanmışdır. Bu dərs vəsaiti kursant və dinləyicilərdə multikulturalizm siyasəti haqqında ümumi dünyagörüşünün formalaşması baxımından əhəmiyyətlidir.

# MÖVZU 1

## "Multikulturalizmə giriş" fənninin obyekti, predmeti və ictimai-siyasi elmlər sistemində yeri

**Plan:**

1. Multikulturalizmin elm kimi yaranması, predmeti və ona dair müxtəlif yanaşmalar
2. Multikulturalizmin metodoloji əsasları və ictimai-siyasi elmlər sistemində yeri

### *1. Multikulturalizmin elm kimi yaranması, predmeti və ona dair müxtəlif yanaşmalar*

Multikulturalizm-eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun olan siyasətdir. O, ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və ahəngdarlığına, azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir. Humanist və demokratik nəzəriyyə, yaxud ideologiya olaraq multikulturalizm, tolerantlığın təcəssümüdür ki, onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil.

Multikulturalizm 1960-cı illərin sonunda Kanadada meydana gəlmişdir. Termin kimi o, 1970-ci illərdə ədəbiyyatda əks olunmuşdur. The Harper Colins sosiologiya lüğətində (1991) Multikulturalizmin belə bir tərifi verilir: "Multikulturalizm – bir çox cəmiyyətlərin xüsusiyyəti kimi plüralizmin –mövcudluğunun etiraf olunması və inkişafı deməkdir. Multikulturalizm mədəni müxtəlifliyin, məsələn azlıqların dilinin müdafiəsi məsələsini öz qarşısına qoyur.

Eyni zamanda o, azlıqların mədəniyyəti ilə əsas mədəniyyətin qeyri-bərabər münasibətlərini nəzərdə saxlayır”.

Müasir ictimai inkişafın, xüsusilə də onun səbəblərinin və istiqamətinin tədqiq olunmasının mühüm metodoloji əsaslarından biri ictimai inkişafda mədəniyyətin aparıcı roluna dair elmi müddəadır. Bu müddəa mədəni- sivilizasion yanaşma adlanır. Mədəni-sivilizasion yanaşmaya əsasən, dünya kommunist sisteminin dağılması soyuq müharibə dövrünə son qoyaraq iki bir-birinə zidd olan siyasi sistemin hərbi, siyasi, iqtisadi və ideoloji qarşıdurmasına da son qoydu. Nəticədə, xalqlar öz mədəni dəyərlərinə müraciət etməyə imkan əldə etdilər. Bu barədə Samuel Hantinqton “Sivilizasiyaların toqquşması və dünya düzəminin yenidən qurulması” adlı kitabında qeyd edir: “Yeni dünyada xalqlar arasında əsas fərqlər ideoloji, siyasi, iqtisadi deyil, mədəni xarakter daşıyır”. Öz tarixinə, dininə, dilinə, mənəvi dəyərlərinə müraciət edən xalqlar, öz kimliklərini müəyyən edirlər”.

İnqlehart Ronalda görə isə dövlət başçıları və qanunlar dəyişə bilər, lakin mədəniyyətin əsas aspektlərii dəyişmək üçün çoxlu illər tələb olunacaqdır. Ralf Darendorfun fikricə, “İnstitusional mühitin, yəni qanunların dəyişməsi üçün ay kifayətdir, iqtisadi şəraitin dəyişməsinə bir iki il tələb olunur, amma şüurun dəyişməsinə onilliklər tələb olunur.” Pain qeyd edirdi: “Mədəniyyət siyasətdən daha vacibdir, çünki Mədəniyyət stereotipləri siyasi doktrinalardan əvvəl gəlir və onların əsasını təşkiil edir.”

Beləliklə, multikulturalizm ilk növbədə mədəniyyətin ictimai inkişafda aparıcı rol oynadığını, etnik-mədəni qrupların maraqlarının tanınmasını və həyata keçirilməsi ideyasına əsaslanır. Bu qrupların tələblərinin əsasında dil və din məsələsidir.

İctimai inkişafda mədəniyyətin aparıcı roluna dair qeyd olunan elmi müddəa müasir dövrdə xalqların həyatında mədəniyyətin mühüm rol oynadığını göstərməklə cəmiyyətdə et-

nik-mədəni müxtəlifliklərin qalxmasının səbəbini izah edir. Belə olan bir şəraitdə etnik-mədəni müxtəlifliklərin tənzimlənməsinin ən optimal vasitəsi kimi multikulturalizm özünü büruzə verir. Buna görə də, multikulturalizmin tədqiq olunmasında mədəni-sivilizasion yanaşmanın böyük metodoloji əhəmiyyəti vardır.

Multikulturalizmə dair ədəbiyyatlarda multikulturalizm liberal eqalitarian və kommunitarian yanaşmalar vasitəsilə əsaslandırılır:

1. Liberallara (Kimlika) görə, fərdin özü istədiyi dəyərləri seçir. O, icma həyatına münasibətdə öz hüquq və azadlıqlarını daha uca tutur. Liberallar muxtariyyət və bərabərlik kimi liberal dəyərlərə əsaslanır**.** Kommunitarianism və millətçilik nəzəriyyələrini tənqid edərək, Kimlika qeyd edir ki, liberalizm insanın özünə hörmət ilə onun mənsub olduğu qrupun mədəniyyəti arasında dərin əlaqənin olduğunu göstərir. Kimlikaya görə, azlıqlar öz mədəniyyətlərini qorumaqda çətinlik çəkdiklərinə görə onlara xüsusi qayğı göstərilməlidir**.**

2. Kommunitarian (Çarlz Teylor) fərdin cəmiyyətə münasibətdə əsas olduğuna dair ideyanı təkzib edirlər. Atomizmin yerinə onlar holizmi müdafiə edirlər. Teylorun "tanıma siyasəti" holizmin kollektiv mədəni dəyərlərin vacibliyini göstərir. Müxtəlif mədəniyyətlərə bərabər əhəmiyyətin verilməsi ənənəvi liberal cəmiyyətin azlıqlara xüsusi hüquqların veril-məsini istəyən cəmiyyətlə əvəz olunmalıdır.

Multikulturalizm tərcümədə çoxmədəniyyətlilik deməkdir. Çoxmədəniyyətlilik dedikdə isə ilk növbədə etnik, irqi, dini və mədəni müxtəlifliklər, bu müxtəlifliklərin əsasını təşkil edən dəyərlər nəzərdə tutulur. Müasir dövrdə dünya ölkələrinin əksəriyyətində etnik, irqi, dini və mədəni müxtəlifliklər mövcuddur. Bu müxtəlifliklər tarixi prosesin inkişafının nəticəsi kimi obyektiv xarakter daşıyır. Onlar xalqların etnik-mədəni dəyərlərini, mədəniyyətlərini xarakterizə etməklə

onların dünyagörüşü, fəaliyyətlərinin əsasını təşkil edir və həyatında müsbət rol oynayır.

Stenford Ensiklopediyasında qeyd olunur ki, multikulturalizm məfhumuna bütün məzlum qruplar-afro-amerikanlılar, qadınlar, cinsi azlıqların nümayəndələri, şikəstlər və s. aid edilsə də, multikulturalizmin tədqiqatçılarının əksəriyyəti adətən bu məfhuma etnik və dini azlıqları təşkil edən immiqrantları (mühacirləri) (məs.ABŞ-dakı Latın amerikalıları, Qərbi Avropada müsəlmanları), milli azlıqları (məs. katalonları, baskları, uelsliləri, kvebekliləri) və yerli xalqları (məs. Şimali Amerikadakı yerli xalqları, Yeni Zellandiyadakı maoriləri) daxil edirlər.

Multikulturalizm – sosial ədalət, imkanların bərabərliyi, demokratiya kimi anlayışların müzakirə olunan terminlər sırasına daxildir**.**

Multikulturalizm cəmiyyətin inkişafının məhsulu, cəmiyyətdə baş verən hadisələr tərəfindən meydana gəldiyinə görə o, öz mahiyyətinə görə ilk növbədə sosial hadisədir. Sosial hadisə kimi formalaşan multikulturalizm digər sosial hadisələrə (siyasətə, iqtisadiyyata, mədəniyyətə, mənəviyyata, ictimai şüurun müxtəlif formalarına və s.) təsir göstərir, onlarla qarşılıqlı münasibətdə olur.

Multikulturalizm etnik-mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən dəyərlərin qorunması və inkişafını nəzərdə tutur. Bu, isə insanların hüquqi və azadlıqlarının müdafiə olunmasının tərkib hissəsidir. Multikulturalizmi təbliğ edən ölkə onu dövlət ideologiyasının tərkib hissəsi, dövlət siyasəti səviyyəsinə qaldırır. Bir sosial hadisə kimi meydana gələn multikulturalizmin inkişafının sonrakı mərhələləri onun dövlət ideologiyasına, dövlət siyasətinə çevrilməsidir. Bu mərhələlərin reallaşmasında əsas rol dövlətə məxsusdur.

Multikulturalizmin vətəndaşların həyat tərzinə çevrilməsi onun inkişafının ən yüksək mərhələsidir. Bu mərhələdə

vətəndaş cəmiyyəti multikulturalizmin cəmiyyətdə yayılmasında olduqca fəal rol oynayır. Multikulturalizm ideyaları ictimai şüurda möhkəmlənir. Azərbaycanda multikulturalizmin dövlət siyasəti və həyat tərzinə çevrilməsi onun yüksək inkişaf mərhələsindən xəbər verir.

Etnik, irqi, dini və mədəni müxtəlifliklər dövlət tərəfindən tənzimlənmədikdə və yaxud düzgün tənzimlənmədikdə cəmiyyətin inkişafının müxtəlif sahələrində ciddi problemlərə, hətta münaqışələrə səbəb olur. Buna görə də, bu müxtəlifliklərin düzgün tənzimlənməsi hər bir çoxmədəniyyətli dövlət üçün böyük praktiki əhəmiyyət kəsb edir.

Etnik, irqi, dini və mədəni müxtəlifliklərlə bağlı dövlətin üzləşdiyi problemlərin həll edilməsinin mümkün siyasət modellərindən biri multikulturalizmdir. Bir siyasət modeli kimi multikulturalizm ötən əsrin 60-cı illərində Kanadada meydana gəlmişdir. Multikulturalizm siyasətinin meydana gəlməsindən əvvəl etnik, irqi, dini və mədəni müxtəlifliklərlə üzləşən dövlətlər bu müxtəliflikləri əsasən iki siyasət modeli vasitəsilə tənzimləməyə çalışırdı: *assimilyasiya və ya izolyasiya* (təcridolma). Assimilyasiya siyasəti milli azlıqların mədəni-etnik dəyərlərini titul etnosun mədəniyyətinə qatmaqla cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin ləğv edilməsini nəzərdə tutur. İzolyasiya siyasəti isə milli azlıqların mədəni-etnik dəyərlərinin titul etnosun (əhalinin çoxluğunu təşkil edən etnos) etnik-mədəni dəyərləri ilə hər hansı bir əlaqəsinin qarşısını almaqla milli azlıqların cəmiyyətə inteqrasiya olmalarına imkan vermir. *İzolyasiya* siyasəti 2 formada özünü büruzə verir:

1. O, milli azlıqların ölkəyə daxil olub orada məskunlaşmasına mane olur.

2. Cəmiyyətdə artıq məskunlaşmış müəyyən qrup adamların assimilyasiyasına mane olmaq məqsədilə onları təcrid edir. İkinci halda bu siyasət aparteid adlanır.

Tarixi hadisələrin gedişatı hər iki siyasət modelinin səmərəsizliyini göstərdi. Belə ki, müasir ictimai inkişafda mədəniyyətin aparıcı rol oynadığı bir dövrdə assimilyasiya siyasətinin düzgün olmadığı kimi, qloballaşma, mədəniyyətlərin qovuşduğu bir şəraitdə izolyasiya siyasətinin də yanlış olduğu müəyyən olundu. Etnik, irqi, dini və mədəni müxtəlifliklərin tənzimlənməsinə yönəlmiş assimilyasiya və izolyasiya siyasətlərinin iflasa uğraması ötən əsrin 60-70-ci illərində əvvəlcə Kanadada, sonra isə Avropanın bir sıra çoxmədəniyyətli ölkələrində multikulturalizm siyasətinin meydana gəlməsinin başlıca səbəblərindən biri olmuşdur.

Multikulturalizm müəyyən birləşmiş cəmiyyət daxilində etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunmasına və inkişafına yönələn bir siyasətdir. Multikulturalizm assimilyasiya siyasətindən fərqli olaraq milli azlıqların etnik-mədəni dəyərlərinin ləğv edilməsinin qarşısını almaqla, bu dəyərləri qorumaqla yanaşı, izolyasiya siyasətindən fərqli olaraq milli azlıqların etnik-mədəni dəyərləri ilə titul etnosun etnik-mədəni dəyərlərinin bir-birinə qarşılıqlı təsir etmələri üçün lazımi şərait yaradır və milli azlıqların yaşadıqları cəmiyyətə inteqrasiya olmaları üçün əlverişli şərait yaradır. Başqa sözlə desək, multikulturalizm nə milli azlıqların etnik-mədəni dəyərlərini assimilyasiyaya uğradır, nə də ki, onların bu dəyərlərinin inkişafını cəmiyyətin inkişafından təcrid edir. Multikulturalizm titul etnos ilə milli azlıqların etnik-mədəni dəyərlərinin inkişafı üçün eyni şərait yaratmaqla onların mədəniyyətlərinin qarşılıqlı təsiri üçün zəmin yaradır.

Ədəbiyyatda multikulturalizmin zəif və güclü formalarının olamalarına dair fikirlər mövcuddur. Multikulturalizmin zəif və güclü formaları bir-birindən seçilir. London İqtisad Məktəbinin professoru Çandran Kukatasın fikrincə, multikulturalizmin zəif və güclü formaları cəmiyyətdə mövcud olan etnik – mədəni müxtəlifliyə münasibətdə aparılan siyasətlərdəndir.

Multikulturalizmin zəif forması azlıqlara öz etnik-mədəni dəyərlərini qorumaq üçün azadlıq verir. Lakin azlıqlar öz imkanları ilə bu dəyərlərini qorumaq iqtidarında olmurlar və nəticədə cəmiyyətdəki hakim etnik-mədəni dəyərləri qəbul etmək onlar üçün ən optimal çıxış yolu olur. Başqa sözlə desək, onlar elə bir vəziyyətə düşürlər ki, onlara bilərəkdən, xarici təzyiq olmadan, öz istəkləri ilə titul xalqın etnik-mədəni dəyərlərini qəbul etmək sərf edir. Öz mədəni kimliyini, etnik-mədəni dəyərlərini qorumaq isə çətin olur, baha başa gəlir. Mövcud vəziyyətdə onların başqa çıxış yolu olmadığına görə, onlar xoşluqla assimilyasiyaya gedirlər, yəni yaşadıqları cəmiyyətə inteqrasiya olunurlar.

Multikulturalizmin zəif formasından fərqli olaraq onun güclü forması etnik azlıqlara öz etnik-mədəni dəyərlərini qorumaq üçün azadlıq verməklə yanaşı onların yaşadıqları cəmiyyətə bütün sahələrində fəal iştirak etmələri üçün hər cür şəraitin yaradılmasını tələb edir. Multikulturalizmin güclü forması cəmiyyətdəki etnik-mədəni müxtəlifliyə münasibətdə dözümlüyün nümayiş etdirilməsi ilə kifayətlənmir. O, bu müxtəlifliyin dövlət tərəfindən inkişaf etdirilməsini, onun maddi, hüquqi və mənəvi cəhətdən dəstəklənməsini vacib hesab edir.

Çandran Kukatas multikulturalizmin qeyd olunan formalarının hər birinin liberalizm nəzəriyyəsinə əsaslandığını göstərir. Lakin zəif multikulturalizm klassik liberalizmə, güclü multikulturalizmin isə müasir liberalizmə əsaslanır.

Bir çox minilliklərlə ölçülən təkamül nəticəsində ruhi mədəniyyət bəşəriyyətin sosial inkişafının, intellektual və mənəvi tərəqqisinin universal əsası olmuşdur. O, informasiya və etik qlobal cəmiyyətin formalaşması səviyyəsinə və tempinə, istehlak sənayesinə, xalqların tarixi məsuliyyətinə, siyasətə və idarəçiliyə, sülh və beynəlxalq münasibətlər mədəniyyətinə böyük təsir göstərir. Mədəni mübadilə və qarşılıqlı zənginləşmə, xalqların sosial-mədəni inkişaf təcrübəsini,

dünya mədəniyyə-tinin tarixi qanunauyğunluqlarını bilmə və yaradıcı şəkildə istifadə etmə qloballaşma şəraitində Azərbaycanın davamlı, rəqabət qabiliyyətli və təhlükəsiz inkişafı üçün mühüm nəzəri və praktik əhəmiyyət kəsb edir.

Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir. Digər mədəniyyətlərin mahiyyətini, xüsusiyyətlərini, tarixini və nailiyyətlərini öyrənmədən, onlara qarşı tolerant münasibət, onların nümayəndələrinə hörmət mümkün deyildir.

Avropa və bəzi qərb dövlətləri multikulturalizmi idarə etməyin kifayət qədər mürəkkəb kulturoloji vəzifə olması ilə əlaqədar ondan imtina etmişlər. Bəzi xalqların nümayəndələri bu və ya digər dövlətlərin milli mədəniyyətinə nə assimilyasiya, nə inteqrasiya olmağı arzu etmirlər. Bu vəzifənin həlli üçün bütün dünyada Homo sapiens tipli insandan Homo culturalies tipli insana keçid beynəlxalq proqramının bütün dünyada işlənib hazırlanması və tətbiq edilməsi zəruridir.

## *2. Multikulturalizmin metodoloji əsasları və ictimai-siyasi elmlər sistemində yeri*

Elmi idrakın təkamülü elmi tədqiqatların metodoloji prinsipləri kimi, həm də elmin anlayışlar aparatının məzmunu haqqında təsəvvürün, məqsədyönlüyünün müzakirəsini və düzəldilməsini şərtləndilirir.

Multikulturalizmin tədqiqat obyekti kimi seçilməsi və onun tədqiqat metodologiyasına yönəlməyimiz bir sıra məsələlərlə bağlıdır:

- bu fenomenin və onun miqyasının müasir cəmiyyətin ictimai-mədəni həyatında aktuallaşması;

- müasir elmi və siyasi təsəvvürlərdə multikulturalizm anlayışının məzmununun transformasiyası;

- çoxmədəniyətliyin adekvat olmayan, çox vaxt ziddiyyətli qiymətləndirilmə və inkişaf etmiş Qərb ölkələrinin həya-

tında multikulturalizmin rolu, tədqiqat ədəbiyyatlarında və bir sıra müasir dövlət xadimlərinin çıxışlarında qeyri-qərb mədəniyyətlərinə münasibət;

- müasir elmdə tədqiqatın müxtəlif konsepsiyalarından ən optimalını, münasib olanı seçmək cəhdi.

Mənəvi mədəniyyətin nəzəri və tarixi məsələləri ilə, xüsusən də müxtəlif regionların tarixi fəlsəfəsi, son onilliklər müasir elmin nailiyyətləri və ümumdünya fəlsəfəsinin tarixinə komparativist yanaşmanı tələb edir. Bu baxımdan multikulturalizmin sosial-humanitar elmlərlə müqayisədə metodoloji əsasını öyrənmək və həmin elmlərlə uzlaşdırmaq daha məqbuldur. Hər şeydən öncə onlara multikulturalizm anlayışının məzmununun təyini aiddir. Əgər mədəniyyət və multikulturallıq (çoxmədəniyyətlilik) anlayışları qlobal ictimai-mədəni inkişafın tarixi universal fenomenini ifadə edərək mədəniyyət tarixinin, metakulturologiyanın və digər elmlərin tədqiqatının obyekti olaraq qalırsa, multikulturalizm anlayışı sosiomədəni tarixin universal təzahürünü onlar kimi əks etdirməklə dövlət siyasətinin həmin dövlətdə yaşayan qeyri-əsas xalqların mədəniyyətinə münasibəti müasir siyasi və elmi ədəbiyyata nisbətən təzəlikcə daxil edilib.

Real siyasi təcrübənin və siyasi ideologiyanın bir hissəsi olan yeni dövrün multikulturalizm konsepsiyası əvvəlcə müxtəlif mədəniyyəti, mentaliteti, siyasi və iqtisadi statuslu Qərb ölkələri etnoslarının (humanizm, insanın irqi, etnik və dini mənsubiyyətindən aslı olmayaraq hüquqların azadlıqlarına riayət etmək) birgə yaşama tolerantlığını təmin edən hüquqi-siyasi normaların təyininə yönəlmişdir ki, bu da qərb dövlətlərin siyasi və mədəni əsaslarının sabitliyinə xələl gətirməsin.

Lakin zaman ötdükcə, müasir Qərb ölkələrinin sosial-iqtisadi inkişafı və hazırki dövrdə regiondakı hərtərəfli böhranın şaxələnməsinin qanunauyğunluğuna görə multikulturalizmin məzmunu siyasi ideologiya və real siyasət kimi köklü

dəyişikliklərə məruz qalıb və ondan imtina etmək qərarına gəliblər. Keçmişdə bu siyasətin təşəbbüskarları qismində çıxış edən Qərb hakimiyyət başçılarının saysız-hesabsız bəyanatları bunun sübutudur. Hazırda multimultikulturalizmi həqarətlə multi-kulti adlandırırlar, kulti hissəsi daha çox qeyri-Qərb millətlərin mədəniyyətinə aiddir.

Yuxarıda deyilənlərə istinadən, gələcəkdə multikulturalizm problemlərinə həsr olunmuş elmi tədqiqatlarda aşağıda qeyd olunan məsələlərə diqqəti yönəltmək lazımdır:

- Müasir dövrdə bu universal fenomenin ictimai mədəni inkişafına marağı son dərəcədə fəallaşdıran səbəblərin elmi-obyektiv təhlilinə;
- Milli azlıqlarının və titul millətlərin vəziyyətindəki fərqin təhlilinə;

Multikulturalizmin mədəniyyətini araşdıran müasir tədqiqatlarda işıqlandırılması çox zaman inkişaf etmiş Qərb ölkələrinin titul millətinə və milli azlıqların münasibətin iqtisadi və siyasi-hüquq vəziyyəti nəzərə alınmadan aparılır. Milli azlıqların və titul millətin vəziyyətindəki fərqliliklərin təhlili milli və konfensional münasibətlərin obyektiv mənzərisinin üzə çıxarılmasını qəbul etməyə və daha sonra inkişaf etmiş müasir Qərb dövlətlərində multikulturalizmi inkar etməyə, yaranmış problemlərin həllinin yeni modellərinin seçilməsinə kömək etmiş olardı.

İndiki dövrdə iqtisadi, siyasi-mədəni qloballaşma və antiqloballaşma proseslərinin çarpazlaşması kontekstində multikulturalizmin tədqiqatının aparılması da diqqət tələb edir.

Müasir multikulturalizmin qərb ölkələrinin siyasi və iqtisadi inkişafı qanunauyğunluqları ilə ərəb baharından törəyən və artan müxtəlif iqtisadi böhranın əlaqəsi xüsusi tədqiqatın, elmi dəyərləndirmənin obyekti olmalıdır. Qərb dövlətləri tərəfindən dəstək alan bu hərəkat haqlı təlaşla və Şərqdən mühacirlərin sayının artmasından yaranan qorxu ilə qarşılandı. Bu qorxu eyni zamanda, yeni gələn mühacirlərlə onlar-

dan əvvəl gəlmiş və məskunlaşmış mühacirlərin mümkün birləşməsi proqnozu ilə də artır. Bu baxımdan Qərb cəmiyyəti multikultarizmə yox dedi və bəzi ölkələr artıq miqrasiya siyasətində daha radikal addımlar atdı.

Multikulturalizmin problemlərinin uğursuz həlli nəticəsində kəskinliklə artmaqda olan situasiyadan çıxış aşağıdakı hallarda görünür:

- əsas millətlərin nümayəndələrinə və mühacirlərə bölünməmək şərtilə əhalinin sosial cəhətdən əzilmiş bütün təbəqələrinin sosial-iqtisadi problemlərin həlli üçün düşünülmüş iqtisadi islahatların qəbulu ilə real təkamül yollarının axtarışında;
- qlobal mədəniyyətin bir hissəsi kimi mühacirlərin mədəniyyətinə hörmətdə;
- qeyri-peşəkar əmək növlərini icra edənləri yalnız real və ya potensial asayişi pozan qastrabayterlər kimi, əgər onlar islam ölkələrindəndirsə gələcəyin terrorçuları kimi təqdim etməmək: Qərbə gətirilən intellekt və investisiyalar isə biləkdən yada salınmır. İndiki dövrdə mühacirlər üçün qərb siyasəti çıxış yolunu onların mədəni assimiliyasiyasında görür.

Milli və regional mədəniyyətlərin tarixi və müasir vəziyyətinin müsbət rolunun qəbul edilməsində oxşarlıqlar müxtəlif mədəniyyətlər daşıyıcılarının tarixi mənəvi birliyinin sübutu kimi dini sabitliyin əsaslarını pozmadan ayrı-ayrı dövlərlərdə müxtəlif etnik və din nümayəndələrinin harmonik birgə yaşamalarına və tolerantlığa imkan yarada bilər. Bu da, müasir Qərb dünyasında mühacirlərə, xüsusən də İslam dünyasının mühacirlərinə, neqativ münasibətin aradan götürülməsində mühüm addımlardandır.

Tədqiqatın maraqlı obyektlərinin sırasına mədəniyyət və müasir multikulturalizm və bu sahədə aparılan qərb mərkəzçiliyinin müqayisəli tədqiqatlarını, həmçinin sovet və postsovet məkanlarındakı multikulturalizmi də aid etmək olar.

Beləliklə, özündə dövlətlərin siyasi tarixini də ehtiva edən multikulturalizm mədəniyyət sahəsində cəmiyyətin siyasi tarixinin üzvü hissəsi və deməli, cəmiyyətdəki etnomilli və konfessional münasibət kimi, həm onun inkişafının nisbi sabitlik dövrünün, həm də müxtəlif xarakterli böhran dövrlərini elmi tədqiqatlarının aktual obyektlərindən biri olub və olaraq da qalmaqdadır..

Müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan düşünülmüş multikulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Bunun sübutlarından biri Azərbaycan Respublikasının inkişafıdır ki, burada Azərbaycanın milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndəlləri harmonik inkişaf edirlər. Multikulturalizmdən imtina etmək yaxşı heç nə vəd etmir, çünki bu, təəssüf ki, bütün dünyada getdikcə artan anlaşılmazlığa, fobiyaya, qarşıqoymaya və qarşıdurmaya, milli və dini münaqişələrə aparıb çıxaran yoldur.

"Multikulturalizmə giriş" – inteqrativ bir fəndir. O, fəlsəfə, politologiya, tarix, etnoqrafiya, sosiologiya, kulturologiya və bu kimi bir sıra ictimai elmlərin müddəalarından istifadə edir. "Multiиkulturalizmə giriş" fənninin qarşısında əsas məqsədə kursantlara multikulturalizm mahiyyətini, modellərini və tolerantlığın, Azərbaycan Respublikasınının multikulturalizm siyasətinin mahiyyətini, onun xüsusiyyələrini və bu siyasətin ölkədə uğurla həyata keçirilməsinin səbəblərini izah etməkdir. "Multikulturalizmə giriş" fənninin böyük idraki, praktiki, siyasi, ideoloji, mənəvi-tərbiyəvi əhəmiyyəti vardır.

# MÖVZU 2

## Multikulturalizm ideyalarının yaranması, inkişaf tarixi və mərhələləri

**Plan:**

1. Qədim azərbaycanlıların mifik təsəvvürlərində tolerantlıq
2. Azərbaycanda qədim və erkən feodalizm dövrünün sosial-siyasi təlimlərində multikulturalizm ideyaları
3. Azərbaycanda İslamın yayılması və İslamda tolerantlıq
4. N. Tusinin görüşlərində tolerantlıq ideyaları
5. Orta əsrlərdə Azərbaycanda tolerantlıq ənənələrinin inkişafında Azərbaycan poetik məktəbinin rolu
6. Azərbaycanın sufi mütəfəkkirlərinin görüşlərində tolerantlıq ideyaları
7. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan maarifçilərinin dünyagörüşündə tolerantlıq və multikultiralizm ideyaları

### *1. Qədim azərbaycanlıların mifik təsəvvürlərində toleranlıq*

Hər bir xalqın tarixinin, ilkin ictimai fikrinin öyrənilməsində miflər mühüm əhəmiyyət kəsb edir. Xalqların ictimai fikir tarixi əvvəlcə mifologiya şəklində olmuş, sonra əski dinlər, inanclar sistemi gəlmişdir. Mifoloji şüur ictimai şüurun formalarından biridir. Mifoloji şüur qədim insanın hələ təbiətdən ayırılmadığı, fövqəltəbii qüvvələrin təsiri nəticəsində yaranan ilkin emosional şüur formasıdır. Mifoloji şüur fərdə, mifoloji düşüncə isə kollektivə məxsusdur. L.Brül mifoloji düşüncəni məntiqəqədərki təfəkkür, şüur tipi kimi qiymətləndirir. Bəşəriyyətin lap qədim çağlarında, insanın özünü təbiətdən ayırmadığı dövrdə mifoloji şüurun da söykəndiyi xaotik təfəkkür tərzi olmuşdur ki, buna da ədəbiyyatda mifoloji təfəkkür deyilir. Mifoloji təfəkkürdə yaranan ideyalardır, mifoloji şüurun yaratdığı isə konkret

məhsuldur. Yəni, mifoloji təfəkkürdə qədim insanların öz dünyaları ilə bağlayan ilk ibtidai "dini" təsəvvürlərin formalaşması əsas yer tutur, mifoloji şüura isə dini-mifoloji strukturların sabitləşməsi və onların ibtidai cəmiyyəti idarə edən qüvvəyə çevrilməsi xasdır. Mifoloji təfəkkürdə ibtidai insanların təbiət qüvvələri qarşısında keçirdiyi qorxu hissi başlıca rol oynayır. Mifoloji şüurda isə qorxu müəyyən inam və sitayişlərə, dini mərasim və rituallarla əvəz olunmuşdur.

İbtidai təfəkkürdən sonra mifoloji şüurun formalaşması, əsasən, qədim dünyanın mənzərəsinin xaotik quruluşundan harmonik quruluşa - nizamlılıq, sistemlilik, tarazlılıq düzümünə başlaması ərəfəsinə təsadüf edir.

Mif dünyanın işarələrlə, sakral obrazlarla dərkidir. Mifologiyaya verilən təriflərdən biri belədir: "Mifologiya dünyanı özünəməxsus qanun və vasitələrlə ölçən və izah edən dinamik işarələr sistemidir". Yəni, mifologiya əski gerçəkliyi simvollarla izah edən bir sistemdir. Mirzə Kazımbəy bu barədə yazırdı: "Əfsanəsiz xalq, rəvayətsiz ölkə yoxdur, köçəri xalqlarda əfsanə şifahi hekayələr şəklində nəsildən-nəsilə keçir, yarım-mədəni xalqların inanclarının özülünü, yazılarının başlıca məzmununu, ədəbiyyat və tarixlərini təşkil edir, maariflənmiş xalqlarda müqəddəs irs kimi xalqın təxəyyülünə qida verir".

Miflər sinifli cəmiyyətə qədər xalqların tarixinə işıq salır, onun öyrənlməsində əhəmiyyətli bir mənbəyə çevrilir. Qədim azərbaycanlıların yaratdığı müxtəlif xarakterli miflər zamanın sərhədlərini aşaraq, Azərbaycan ərazisində yaşayan tayfaların dünyagörüşlü, əxlaq tərzini, ailə-məişət həyatını, təbiətə, ətraf mühütə olan münasibətini və s. öyrənməyimizə yardımçı olur. Bu baxımdan mif xalqımızın tarixinin tədqiqində, onun tarixi dərkində əhəmiyyətli rol oynayır. "...mif xalqın özü haqqında söylədiyi ən kamil həqiqətin bədii ifadəsidir". Mif xalqların tarixində ilkdir, başlanığıcdır. Hansı xalqın mifik təfəkkürü güclüdürsə, onun tarixdəki

sonrakı mövqeyi də güclü olur. Çünki siyasi təfəkkürün genezisi mifologiya ilə bir başa bağlıdır. Məşhur folklorşünas alim Y. Lotman deyirdi ki, "Kim əcdadı-nın adını çəkə bilirsə, o siyasi cəhətdən mövcuddur".

Mifologiya konkret etnik-mədəni birliklərin arxaik dövrlərdə meydana çıxan universal sistemidir. M.Kazımbəy mifologiyanın mahiyyətindəki universalizmə diqqət çəkərək yazırdı ki, mifoloji mətnlər "bütün xalqlarda və tayfalarda eynidir" və bütün fərqlər ayrı-ayrı xalqların əxlaqi anlayışları, insan düşüncəsinə təsir edən amillər ilə bağlıdır. Ortaq xarakter daşıyan mifoloji abidələrin bir çoxlarının sonrakı dövrlərdə də müxtəlif türk xalqlarında izlərinə rast gəlmək mümkündür. Məsələn, türklərin yaranış əfsanələrindən olan Ergənikondan çıxış və xilasedici bozqurdla bağlı miflər bir çox türk xalqlarında xeyli deyim və inancların meydana gəlməsinə səbəb olmuşdur. Qeyd edək ki, qurd bir totem kimi türk xalqlarının böyük əksəriyyətində tarixən ulu əcdad, xilasedici, yolgöstərən, müqəddəs bir varlıq kimi qəbul edilmiş və xalqın mifoloji təfəkküründə, özünəməxsus parlaq bir yer tutmuşdur. Qurdun qorxmazlıq, toxunmazlıq simvolu kimi xalqın mifik dünya görüşündə özünə yer tutması el arasında qurdun bədən əzalarına qarşı müxtəlif münasibətlərin bu günə qədər qorunub saxlamasında da öz əksini tapmışdır.

Yeni dövr və orta yüzillər mədəniyyətlərindən fərqli olaraq arxaik mədəniyyətlərdə nəinki ideoloji sahədə, hətta bötövlükdə etnik-mədəni sistem daxilində elə bir gözəgəlimli diferensiasiya (fərq) yoxdur. Onların başlıca səciyyəvi cəhəti sinkretizmdir (bir şeyin inkişafının ilk mərhələsi üçün səciyyəvi olan ayrılmazlıq, qovuşuqluq).

Arxaik sinkretizmin özülü və başlıca şərti mifologiyadır. Başqa sözlə, bütövlükdə qədim mədəniyyətin, yaxud tək-tək etnik-mədəni sistemlərin bərpası üçün birinci olaraq mifologiyanı öyrənmək gərəkdir. Onun ayrı-ayrı ünsürlərinin

araşdırılması və bu yolla milli mifologiyanın bərpası, öz növbəsində, konkret etnik-mədəni sistemin bərpasını təmin edir.

Bugünkü ayrı-ayrı dillər və etnoslar çox-çox qədimlərdə mövcud olmuş müəyyən etnolinqvistik (yaxud etnik-mədəni) birliklərdən törəmişlər. Belə birliklər dövründə isə mifoloji düşüncə hakim idi və mifoloji sistem cəmiyyətin ideologiyası kimi fəaliyyət göstərirdi. Müəyyən coğrafi, bioloji və nəhayət, ictimai-iqtisadi amillərin təsiri ilə həmin birliklər təbii olaraq parçalanır (etnik və linqvistik diferensiasiya), ictimai-siyasi şüurun inkişafı mifoloji sistemin rolunun azalmasına səbəb olur. Yeni yaranmış hər bir etnik sistem isə mifoloji irsi tam yox, qismən mənimsəyib yaşada bilir.

Kosmoqonik miflər hər bir mifoloji sistemin özəyini təşkil edir. Bu miflərin məzmunu "nizamlayıcı kosmik başlanğıcla dağıdıcı xaotik başlanğıcın mübarizəsi", dünyanın (kosmosun) yaranması, təbii obyektlərin formalaşması və s. hadisələrdən ibarətdir. Dünyanın və kainatın sonu barədə süjetləri əhatə edən esxatoloji mifləri də bu sıraya aid etmək gərəkdir. Çünki mifoloji düşüncədə kosmoqonik proses müəyyən zaman və məkan sərhədləri olan dövri hadisə kimi qavranılır.

"Əvvəllər Göy Yerə yaxın idi. Adamlar bir-birini öldürüb qan tökürdülər, bərəkətin qədrini bilmirdilər. Bunu görəndə Tanrının qəzəbi tutdu, Göyü Yerdən uzaqlaşdırdı. Firon dünyanın padşahıydı. Adamların hamısı bir dildə danışırdı. Firon bir qala tikdirirdi. Adamların hamısı bu qalaya daş daşıyırdı. Bir hamilə qadın da daş aparırdı. Yolda sancısı tutdu, həmlini qoydu yerə. Əlini tutdu Göyə ki, ey Yerin-Göyün sahibi, sən bu zülmü götürmə! O gündən hərə bir dildə danışmağa başladı, qala da yarımçıq qaldı".

"Nuh böyük bir gəmi düzəltdirir, bütün canlılardan ora gətirir. Tufan başlanır. Yer üzünü su basır. Yer üzərindəki bütün canlılar tələf olur. Xeyli vaxt keçir, gəminin bir yerindən deşik açılır, gəmiyə su dolmağa başlayır. Deşiyi

bağlaya bilmirlər. Nuh deyir ki, kim deşiyi bağlaya bilsə, onun arzusunu yerinə yetirəcək. Bu zaman gəmidə olan böyük bir ilan qıvrılıb deşiyi qapayır, gəmiyə daha su dolmur. Bir qədər sonra tufan sakitləşir, su çəkilir. Nuh gəmidəki canlıları Yer üzərinə buraxır. Bu hadisədən bir müddət keçir. Bir gün ilanın yadına Nuh peyğəmbərin dediyi söz düşür. O, Nuhun yanına gəlib verdiyi sözü yadına salır. Nuh ondan nə istədiyini soruşur. İlan deyir: Mən istəyirəm ki, mənim nəslimə dünyadakı ən şirin şeyi yeməyə izin verəsən. Nuh razı olur. Qaranquşla arını dünyada ən şirin şeyi axtarmağa göndərir. Qaranquşla arı uzun müddət gəzir, hər şeyin şirinliyini yoxlayırlar. Axırda arı deyir ki, ən şirin şey insan ətidi. Onlar geri qayıdanda qaranquş insanları xilas eləməkdən ötrü aldadıb arının dilini dimdikləyib qoparır. Arı danışa bilmir, vızıldaya-vızıldaya birtəhər qaranquşdan soruşur:

- Sən məni niyə bu günə saldın?

Qaranquş arının sözünü cavabsız qoymur:

- Niyə sən təkcə insan ətinin şirinliyini gördün? O bizə ev tikir, isti yuva qurur, bizi qoruyur. Sən bunları niyə görmədin? Arı nə qədər vızıldayırsa cavab verə bilmir, dili tutulur.

Onlar Nuhun yanına gedirlər. Arı özünü qabağa verir. Çox çalışır, çox vızıldayır, ancaq bir şey qandıra bilmir. Qaranquş deyir:

- Ən şirin şey torpaqdı.

Nuh ilana yemək üçün torpağı verir. İşin içində kələk olduğunu başa düşən ilan qaranquşu tutub məhv etmək istəyir. Lakin qaranquş uçub onun əlindən çıxır. İlan yalnız onun quyruğunu dişləyə bilir. Elə o gündən arı vızıldayır, qaranquşun da quyruğu haça qalır.

## 2. *Azərbaycanda qədim və feodalizm dövrünün sosial-siyasi təlimlərində multikulturalizm ideyaları*

**Zərdüştilik.** Bu dinin banisi Zərdüştün anadan olduğu yer, həyat və fəaliyyət zamanı məsələsi onu tədqiq edən alimlər üçün uzun müddət qaranlıq qalmış və indi də tam aydınlaşmır. Orta əsrlərin bir çox müsəlman müəllifləri, eləcə də Əbu Reyhan Biruni (973-1048/50) bu peyğəmbərin vətəninin Azərbaycan olduğunu demişlər. İngilis şərqşünası Cekson da bu fikirdədir. Onun təsdiq etdiyinə görə, bu peyğəmbərin anadan olduğu, uşaqlığını və gəncliyini keçirdiyi yer Azərbaycandakı Savalan ətrafıdır. Müasir alimlər bu məsələ haqqında fikir yürütmək məsələsində iki düşərgəyə bölünürlər. Zərdüştiliyin rus tədqiqatçısı E.O.Berzin özünün "Zərdüşt nə öyrədirdi?" məqaləsində Azərbaycanın Zərdüştün vətəni olduğuna şübhə etmir. Bu fikrə Azərbaycan alimlərindən A.Əhədov, A.Şükürov və G.Abdullazadə, S.Qasımova da qoşulurlar.

Əks düşərgədən olan başqa alimlər onlara qarşı çıxış edirlər. Bunlardan ingilis alimi Meri Boysu misal göstərmək olar. Həmvətənimiz tarixçi İ.Əliyev də onunla həmrəydir. Onların fikrincə, Azərbaycanda "yanmış kömürləri" və "çoxsaylı maqları (atəşpərəstləri)" olan zərdüştilik məbədlərinin olduğuna baxmayaraq, haqqında söhbət gedən bu dinin vətəni Azərbaycan olmaya da bilər. Zərdüştün yazdığı himnlərin məzmunundan və dilindən çıxış edərək baxışlarını möhkəmləndirirlər. Meri Boys hətta çox uzağa gedərək belə deyir ki, bu peyğəmbər həqiqətdə Volqa çayından şərqdəki Asiya çöllərində yaşamışdır. Zərdüştün anadanolma tarixini tədqiqatçıların çoxu zərdüştiliyin müqəddəs kitabı Avestaya görə hesablayırlar. Bu təxminən b.e.ə. 1500-1200, yaxud b.e.ə. 1000-600-cü illər arasına düşür.

Hələ yoxsul bir uşaq ikən, görünür, yeddi yaşına yaxın onu ruhani (din xadimi) olmağa hazırlayırdılar. Artıq 15

yaşında Zərdüşt ruhani olur. 20 yaşından 30 yaşadək o, tərki-dünya həyat tərzi keçirərək bütünlüklə öz hisslərinə, duyğularına qapılır. Saatlarla daldığı düşüncələrini və bunun nəticəsində əldə olunan özünüdərkin nəticələrini gil lövhəciklər üzərində yazır.

O, qatlarda başlanğıcda özünü atsürvan – ruhani (din xadimi), mantran –mantr (ovsun) yazan, sonda isə vaedemna – «ilahi ilhamlı müdrik müqəddəs» adlandırır. Rəvayətlərə görə, Zərdüşt həqiqət axtarışında diyar-diyar dolaşarkən dəfələrlə zorakılıqlarla, müharibələrlə, qarət və qətllərlə, mal-qara oğruları ilə qarşılaşmışdır. Bütün bu hallarda o özünün gücsüz olduğunu görürdü. Ancaq ədalətə, əxlaqi təmizliyə can atması onu tanrının – Ahurun güclülərə də, zəiflərə də eyni dərəcədə aid olan, təmiz ideyaların təntənəsinə yönələn, əmin-amanlıq və qayda-qanun yaradan, dinc həyatı təmin edən qanununu axtarmağa sövq edirdi.

Budur, artıq 30 yaşında ikən ona vəhy gəldi. Bu hadisə qatlardan birində (Yasna, 43) belə təsvir edilir: bahar bayramında iştirak edən Zərdüşt dan söküləndə yemək hazırlamaq üçün çaya su gətirməyə yollandı. O, axının ortasından su doldurub sahilə qayıtmağa başladı. Elə bu zaman yaz səhərinin təmiz havasında onun qarşısında bir xəyal görünüb və onu işıq saçan Ahuramazdanın (Azərbaycan dilindəki mənbələrdə Hürmüzd, Hormuz variantları vardır) və başqa beş zatın yanına gətirdi. Bu zaman bu yeddi tanrı (ilahə) ona vəhy verdilər.

Zərdüşt bu uca tanrıların (ilahələrin) verdikləri bütün o təlimləri və vəhyləri bəşəriyyətə verməyə (ötürməyə) çalışaraq onları ayrıca bir vəhylər kitabında "Avesta"da yazır.

Bu iki başlanğıc arasındakı mübarizə son nəticədə bir ümumi, dünya miqyaslı münaqişəyə (konfliktə) çevrilir. Bu dünya miqyaslı böyük ümumi prosesdə insana böyük rol vermişdir. Zərdüşt qatlarda deyir: "Mən varlığın başlanğıcındakı iki ruh haqqında danışmaq istəyirəm. Onlardan işıqlı ruh

(Spenta-Manyu) şər ruha (Anhra Manyuya, Ahra Manyuya) dedi: "Bizim fikirlərimiz də, təlimlərimiz də, iradəmiz də, əqidələrimiz də, sözlərimiz də, işlərimiz də, inancımız da (dinimiz də), canlarımız da bir-birinə uyğun gəlmir…" Bu iki ruhdan Druc (yalan, hərc-mərclik) ruhu şər işini, Artu (həqiqət, qayda-qanun) isə səmanı paltar kimi geyinən ən müqəddəs ruhu və Ahura-Mazdanı (xeyir Allahını) öz düzgün işləri ilə razı salanları seçdi. Bu iki ən ilk ruh düşüncədə də, sözdə də, işdə də biri xeyirxah, o biri yaramaz olan əkizlər kimi meydana gəldilər. Onlardan yaxşısını bədniyyətlər yox, xoşniyyətlər düzgün seçdilər”.

Zərdüşt öz təliminin başlanğıcında hind-İran tayfa dinində sayı çox olan bütün allahları ataraq xeyir allahı (tanrısı, məbudu) Ahura-Mazda kainatı və bütün canlı varlıqları, insanları və heyvanları yaradıb onlara xeyirlə şər, həqiqətlə (doğru ilə) yalan arasında azad seçim imkanı vermiş vahid bir Allah araya gətirmişdi. Burada onu qeyd etmək yerinə düşərdi ki, dini ideologiya tarixində ilk dəfə məhz zərdüştilikdə ictimai bəla problemi irəli sürülmüşdü. Belə ki, zərdüştiliyə qədərki sayı çox olan xeyir və şər allahları (tanrıları) cürbəcür qurbanlarla razı salınırdılar: onlardan bəzilərinə ehtiram əlaməti olaraq, başqalarına isə dəhşət və qorxudan qurban kəsirdilər. Ancaq onlarda ümumdünya xeyir və şər ideyaları hələ yox idi. İnsanlar taleyə boyun əyərək onun bütün “hədiyyələrini” dinməz-söyləməz qəbul edir, hətta, nə yollasa, ona təsir göstərməyə belə çalışmırdılar. Birinci olaraq Zərdüşt öz təlimində ictimai bəla ilə mübarizənin bütün imkanlarından söz açdı. Budur, burada insana böyük rol verilir, o könüllü olaraq xeyir və şər düşərgələrindən birini seçməklə düzgün seçim etməlidir. Bu mənəvi seçim azadlığında şəxsiyyətin əsarətdən qurtulması öz əksini tapmışdır. Bu peyğəmbərin təliminə görə, insan Xeyrin, Həqiqətin (Doğrunun) və Vicdanın Şər, Yalan və Qaranlıq üzərində qələbəsinə kömək etməlidir.

Bəs insan iki başlanğıcın gərgin mübarizəsində nəyə müraciət etməlidir? Hər şeydən qabaq “dinc əməyə”, “xoş (saf) niyyətə”, “yaxşı (xeyirxah) sözə”, “yaxşı əmələ”. İnsan şər üzərində qələbəyə kömək etməlidir. Bu qələbə heç də sitayiş və dualarla əldə edilmir. Fövqəltəbii qüvvələrin bu həyatda və o dünyadakı (axirətdəki) xoşbəxt həyatda mərhəmətini bol-bol qurbanlar kəsməklə də qazanmaq mümkün deyil. Bundan əlavə, mal-qaranı qurbanlıq məqsədilə məhv etmək də cinayətkarlıqdır. Zərdüşt öz sözünə belə davam edir: “Ahura-Mazdanın yaratdığı bütün şeylərdən birinci yerə mal-qara qoyulmuş-dur… Ahura-Mazdanı mədh etmək və mal-qaraya yem vermək – biz bunları hər şeydən yaxşı sayırıq”.

Xeyrin Şər üzərində qələbəsi maddi nemətlərin kənd təsərrüfatında səylə çalışmaq, torpağı becərmək, mal-qaraya qayğı ilə yanaşmaq yolu ilə çoxaltmaqla əldə edilir. “Avesta”ya, onun daha sonrakı kitabı “Vendidat”a (“Dayvlar əleyhinə” (Divlərə qarşı) qanun) görə, taxıl becərmək şər başlanğıca zərbə vurur və Xeyrin işini on min dua oxuyanda olduğu qədər irəli aparır. “Taxıl cücərəndə divləri tər basır, xırmanda döyülən taxıl sovrulub təmizlənəndə divlər gücdən düşür, (dəyirmanda) un çəkiləndə divlər fəryad edirlər… Qoy həmişə evdə un qidası olsun ki, divlər yaralansınlar (iflic olsunlar) – bundan onların ağızları od tutub yanır və onlar qaçıb aradan çıxmağa çalışırlar”-deyə “Avesta”da bu haqda bəhs olunur. Sonra deyilir: “…onlar evə də, kəndə də, vilayətə də, ölkəyə də dilənçilik və iflas (xarabazarlıq) gətirirlər. Onlarla silah gücünə mübarizə aparmaq lazımdır”. Peyğəmbər öz təliminin tərəfdarlarına bu həyatda şər qüvvələrlə real mübarizədən ibarət belə bir çağırışla müraciət edir.

Yuxarıda sadalanan mübarizə üsulları və yolları ilə yanaşı, səxavət göstərmək, vicdanlı olmaq, əhdə vəfa etmək kimi adi xeyirxahlıqlar da nəzərdə tutulurdu.

“Avesta”da ictimai quruluşun və hüquqi institutların tam mənzərəsi canlandırılmış, ideal cəmiyyət - sülh, səadət cəmiyyəti, düşmənçilik və zorakılığın olmadığı, əmək adamlarının cəmiyyəti təsvir olunmuşdur. “Avesta”da göstərilir ki, “Mən (Zərdüşt) müharibələri rədd edib, silahı bir yana tullamağı istəyən Məzda dininə inanıram… kəndlərin dağılması, mal-qaranını talanı və oğurluğun əleyhinəyəm… get-gəl azadlığı, mənzil, mülk toxunulmazlığı tərəfdarıyam”.

Zərdüşt qarəti, qətli, yalanı, zülmü, hiyləni, basqını, ədalətsizliyi, tamahkarlığı və s. şər qüvvə olan Əhrimənin əməli hesab edir. Yer üzündə olan bütün yaxşılıqları, xeyirxahlıqları, paklıqları və s. hamı üçün nemətlərin yaradıcısı olan Hörmüzün əməli sayır.

**Azərbaycanda manilik.** Qeyd etmək lazımdır ki, artıq b.e. I minilliyin ilk əsrlərində Qərbi Midiyanın (yaxud o zaman adlandırıldığı kimi, Atropaten Midiyasının) vilayətlərində o dövr üçün səciyyəvi olan ictimai ədalətlə səciyyələnən dini-etik təlimlər geniş yayılmışdı. Azərbaycanda da yayılmış belə təlimlərdən birinin banisi Mani hesab olunur. Manilik adı almış dini hərəkat onun adı ilə bağlıdır. Bu təlim rəsmi zərdüştiliyə qarşı yönəlmişdi, odur ki, zərdüştilik onu küfr (kafirlik, dinsizlik) hesab edirdi. Nəqqaş Maninin öz şəxsiyyəti çoxcəhətli olmuşdur. Bəzi məlumatlara görə, onun yaşadığı dövr 216/217-ci illərdən 274/276-cı illərədək olan fasilədə tərəddüd edir. Bu tarixi 240-274-cü illər olaraq göstərməklə onun cəmi 34 yaş yaşadığını bildirən müəlliflər də vardır. Onu istedadlı rəssam, filosof və mühəndis kimi tanıyırdılar. Onun istedadlı bir rəssam olduğu Firdovsinin (934-1020/1030), Nizaminin (1141-1209), Hafizin (təqr. 1325-1389/1390) xatirələrində və ayrı-ayrı əsərlərində öz əksini tapmışdır.

Maninin bir filosof olduğu haqqında geniş məlumatlar bizə ərəb alimi Əbdürrəhman Cahizdən (775-868), xristian ilahiyyatçıları Avqustindən (IV-V əsrlər) və odessalı

Yefremdən (VI əsr), habelə XIX əsrin fransız rəssamı Qogendən (1848-1903) gəlib çatmışdır. Mani iyirmi dörd yaşında özünü peyğəmbər elan edərək öz missioner fəaliyyətinə Şərqdə (Həmədanda) başlamışdır. Onun atası əsilzadə nəsildən olan Babil aramilərindən (arameylərindən), anası isə iranlı qadın idi. Hələ gənc ikən o, Şərqi İranda və Hindistanda olmuş, buddizmlə, (brahmanizmlə və Orta Asiyanın yerli dinləri ilə tanış olmuşdur. Artıq 243-cü ildə I Şapur onu yeni bir "dünya dini"nin banisi kimi qəbul etmiş və o, hökmdara özünün "Şapurakan" ("Şapurun kitabı", "Şapurnamə") əsərini təqdim etmişdir. Rəsmi olaraq tanınmış manilik təliminin tarixi də elə həmin zamandan başlayır. Bundan başqa o "Sirlər kitabı", "İki prinsip haqqında kitab", "Praqmataya" ("Nəsihətnamə"), "İncil" adlı əsərlərində də özünün yeni təlimini şərh etmişdir. Manilik zərdüştilikdən ardıcıl dualizmi ilə fərqlənirdi. Maniliyə görə, Xeyir və Şər (Nur və Zülmət) hər ikisi ilkdir.

Mani öz dinini yeganə düzgün, hamı üçün ümumi, bütün mövcud dinləri əvəz edən bir din sayırdı. Guya elə Mani özü də bu dünyaya məhz bu məqsədlə – bütün dinləri birləşdirib bir din etməyə göndərilmişdir.

Bu din özündə müxtəlif dinlərin: zərdüştlük, xristianlıq, buddizm kimi dinlərin ünsürlərini birləşdirərək, sanki aşağı təbəqələrin ierarxiyanın (aşağıdan yuxarı tabeçilik qaydasının) zinəti və sərvəti əleyhinə etirazını əks etdirirdi. Maninin təlimi allaha və iblisə, göylərə və cəhənnəmə, hər bir adamın öləndən sonra mühakimə olunacağına, müqəddəs möminlərin səma qüvvələri arasında əbədi həyat sürəcəyinə əsaslanırdı. Manilik kilsə ayinlərinin sadələşdirilməsinə çalışır, ümumi bərabərlik təbliğ edir, bu da öz növbəsində insanları istismarın istər dünyəvi, istər ruhani növünə qarşı mübarizəyə yönəldirdi. Maninin təlimi də Zərdüştün təlimi kimi olduqca dualist bir təlim olub yalnız bir şeydə ondan fərqlənirdi: o, pessimist

(bədbin) səciy-yə daşıyırdı, yəni bu təlimdə iki başlanğıcın mübarizəsində Xeyrin (yaxşılığın) qələbəsi inkar edilirdi.

Mani dünyaya şərin tam təcəssümü kimi baxırdı. O elə hesab edirdi ki, daha yaxşı olar ki, insan dünya işlərindən imtina etsin, öz həyatını tərkidünyalıqla və ismətlə keçirtsin. Belə olsa, insanın ruhu səmalara ucala bilər.

Maniliyin zərdüştiliyin həyatsevər prinsiplərindən bu köklü fərqi Maninin köhnə dinə hörmətlə yanaşmasına maneçilik törətmirdi. Onun düşüncəsində zərdüştilik də, xristianlıq da, buddizm də hər biri düzgün dinlərdir, yalnız insanlar bu dini başa düşmədiklərindən təhrif etmişlər. Mani özü isə Yer üzünə göndərilmişdir ki, əsl dini bərpa etsin. Bu münasibət islam dininin iudaizm və xristianlığa münasibəti ilə üst-üstə düşür. Bizə gəlib çatmış mənbələrə görə, Maninin təlimi onun özünün tərtib etdiyi və ardıcıllarının qoruyub saxladıqları yeddi kitaba daxil olmuşdur. Bunlardan birincisi "Böyük", yaxud "canlı" ("Diri") İncil adı ilə tanınır. O hər biri əlifbanın bir hərfi ilə başlayan 22 hissədən ibarət idi. Yeddi kitabın hamısının əlyazmalarında xeyir ilə şərin, işıq ilə qaranlığın mübarizəsi mövzusuna həsr olunmuş çoxlu gözəl illüstrasiya var. Öz dinini 40 il təbliğ edən Mani dualizm prinsipi– Nur və zülmətin mübarizəsini ön plana çıxarmışdır. Nur ruhu, zülmət isə bədəni (materiyanı) təmsil edir. Dünya inkişafı prosesinin məqsədi qəlbində yer tapmış nur ünsürlərini materiyanın (bədənin) hakimiyyətindən azad etməkdir. Maniyə görə, allah dünyada şəri yaratmamışdır və deməli, dünyanı da o yaratmamışdır, çünki dünya (materiya şərdir, zülmətdir) – materiya allahdan asılı olmayaraq mövcuddur, insan isə materiya ilə nurun qarışığıdır. Nurun hissəciklərinin materiyadan (bədəndən) azad olmasına yalnız qatı asketizm vasitəsilə nail olmaq mümkündür. Manilik xristianlığın bir sıra prinsiplərini rədd etmişdir. Maniçilik heyvan əti yeməyi qadağan edir, mütiliyi təbliğ edirdi, asayiş və rahatlığı qorumağı üstün tuturdu. Uyğur türklərinin döyüşkən ruhuna

uyğun olmasa belə, onlar maniliyi qəbul etmişdilər. İslam dini və buddizm yayılana qədər uyğurlar arasında manilik geniş yayılmışdı.

Mani hələ özü sağ ikən onun təlimi Şərqdə sürətlə yayılmışdı. Bu dinin yayılmasının başlanğıcında onu xeyirxahcasına qəbul edən Sasanilər sarayının yuxarı təbəqəsi onun kütlələrə sürətlə artan təsirini gördükdə, öz siyasətini kəskin olaraq dəyişir. Maninin yoldaşlarını (tərəfdarlarını, əshabələrini), ardıcıllarını izləməyə başlayırlar. İrandan qaçmağa məcbur olan Mani özü uzun illər sərgərdan həyat keçirdikdən sonra ora qayıda bilir. Sasanilər sülaləsinin IV hökmdarı Bəhramın hakimiyyəti (273-276) zamanı Mani həbsxanaya salınır və işgəncələrdən ölür.

Sosial təlimində insanların hüquq bərabərliyinə üstünlük verən maniliyin dini-fəlsəfi və sosial ideyaları hakim qüvvələrin təqibinə baxmayaraq, həm Atropatenada, həm də Albaniyada, sonralar isə Şərqdə və Avropada məzdəkilərin, pavlikianların, albiqoyçuların, katarların və b.-nın ideoloji təlimlərində geniş yer tapmışdı. Maniliyin İşıq Allahını Əqllə birləşdirməsi (beş təzahürdən dördünün bilavasitə Əqllə bağlılığı) və Şərin əbədiliyini qəbul etməsi sonrakı təlimlərdə rasionalizm və dialektikanın inkişafı üçün geniş imkanlar yaratmışdır.

**Məzdəkilik.** Azərbaycanda dövran sürən başqa bir dini-etnik təlim V əsrdə meydana gəlmiş və adını öz banisi Məzdək-Bamdadın adından götürmüş məzdəkilər təlimi idi. Məzdək-Bamdad V əsrin 50-ci illərində anadan olmuş, bəzi mənbələrə görə 528/529-cü illərdə, bəzilərinə görə isə 524-cü ildə ölmüşdür. Nizamülmülkün (1017-1092) "Siyasətnamə" əsərində qeyd olunduğuna görə, Məzdək mənşəcə kahin silkindən idi. O öz ideyalarını Həmədan şəhərində yaymağa başlamışdı. Bu təlim din pərdəsi altında aparılan güclü antifeodal hərəkata çevrilmişdi. Məzdək deyirdi: "Allah öz nemətlərini yaratmışdır ki, insanlar onları öz aralarında tən

bölsünlər. Ancaq insanlar bir-birinə qarşı ədalətsizlik edirlər. Ona görə də əmlak varlılardan alınıb yoxsullar arasında bölünməlidir”.

Məzdəkilər oğurluğu, yalanı, zülmü pisləyir, bir yandan kahinlərin, başqa yandan dünyəvi əyanların (aristokratiyanın, zadəganların) əməkçi əhalini ikiqat istismar etməsinə qarşı çıxırdılar. Məzdəkin yaydığı ideyalar çox halda onun özündən qabaqkı dini təlimdən – manilikdən götürülmüşdü. Onlar maniliklə özlərinin pessimizminə (bədbinliyinə) və asketizminə (tərki-dünyalığına) görə yaxın idilər. Məzdəkin fikrincə, insan özünə oxşayanı (insanı) öldürməməli, ət yeməməlidir, ancaq o İşığın Qaranlıq üzərində qələbəsinə, cəmiyyətin bütün üzvləri arasında dözümlülüyün (müasir terminlə desək, “tolerantlığ”ın) və qardaşcasına məhəbbətin artmasına kömək etməlidir. Bərabərhüquqluluğun və qardaşlığın əldə olunması üçün isə acgözlüyü və paxıllığı doğuran səbəblərin kökünü kəsmək zəruridir. Elə buna görə də məzdəkilik əmlakın ümumi olmasına çağırırdı. Belə çağırış həyat nemətlərinin ədalətli, tən bölgüsü, insanlar arasında fərqin aradan qaldırılması tələbi bu hərəkata icmaçı kəndliləri, feodallardan asılı təhkimli kəndliləri və qulları çəkib gətirirdi. Sonralar bu hərəkata peşə sahibləri, şəhər yoxsulları, xırda və orta torpaq sahibləri də qoşuldular.

Əmlak ümumiliyi ilə yanaşı, məzdəkilik qadınların da ümumi olmasına çağırırdı. Bu nə demək idi? Biz bilirik ki, zərdüştilik təlimi kişilərlə qadınların bərabərliyi uğrunda mübarizə aparırdı, sasani qanunlarına görə isə qadın əslində özünün ən yaxın qohumu olan kişinin olmalı idi. Bu, ata da ola bilərdi, ər də, qardaş da, oğul da. Ola bilsin məzdəkiliyin qadınların ümumiliyinə çağırışı onunla bağlı meydana gəlmişdi ki, cəmiyyətin aşağı təbəqələrinin varlı ailələrin qadınları sırasına daxil olmuş qızlarının və bacılarının düşdükləri yeni mühitdəki vəziyyətini bir qədər yaxşılaşdırmaq mümkün olsun. Ondan başqa, belə izah qadınların bu

hərəkata cəlb edilməsi üçün bir stimul ola bilərdi. Məzdəkilik ardıcılları belə hesab edirdilər ki, keçmişdə xeyir qüvvələr şər qüvvələr üzərində qalib olduğu üçün insanlar sülh və dostluq şəraitində yaşamışlar. Ancaq tarixi inkişafın müəyyən pilləsində əks proses baş vermiş, Şər qüvvələr təsadüfən Xeyir qüvvələrə qalib gəlmişdir. Elə bu zamandan Yer üzündə şər, paxıllıq, oğurluq və müharibələr meydana gəlmişdir. Buna görə də, məzdəkiliyin növbəti çağırışlarından biri istehsal vasitələri və məhsulları üzərində ümumi mülkiyyətin xas olduğu ibtidai-icma quruluşuna qayıdışa çağırış idi.

Məzdəkilər hərəkatı bir neçə onillik müddətində davam etmişdir. Öz missioner fəaliyyətinin qızğın çağlarında Məzdəkin moizələri elə inandırıcı idi ki, o özünün sosial (ictimai) islahatlara dair ideyalarından xoşu gələn şah I Qubadın rəğbətini qazana bilmişdi. Bu ideyalar düşmənə qarşı fəal müqavimət göstərmək işində imperiyanın gücünü artırmalı idi. Ancaq I Qubadın oğlu I Xosrovun (VI əsrin I yarısı) hakimiyyəti dövründə Məzdək kafir (dinsiz) elan olundu. Hərəkat bütünlüklə yatırıldı, “peyğəmbər” və onun çoxlu ardıcılları öldürüldü. Qeyd etmək lazımdır ki, məzdəkilik ideyaları xalqın ağlını uzun müddət çaşdırdı, onların Azərbaycanda təsiri lap islam dininin tarix səhnəsinə çıxdığı zamanadək hiss olunurdu. Bundan da sonra məzdəkilik ideyaları başqa bir dini etik təlimin – Azərbaycanda IX əsrdə yayılmış xürrəmilər hərəkatının əsas prinsipləri sırasına daxil oldu.

"Məzdək deyirdi ki: ‘Tanrı torpaqdan yeməyi və bütün ehtiyacları, xalq onları aralarında bərabər bölüşsün deyə yaratmışdır. Heç bir kimsə digərinin payından alıb götürə bilməz. Hər kəsin varlıq baxımından bərabər olması üçün, qətiliklə birinin ortaya çıxıb zəngindən götürərək kasıba verməsi lazımdır. Hər kim olursa olsun, kimsənin bir başqasından daha çox varlıq, mal-mülk və birdən çox qadına sahib olmağa haqqı yoxdur…" "İnsanlar, qibtə, əzab, qisas, yoxsulluq, ehtiras kimi beş şeytan tərəfindən düzgünlükdən

uzaqlaşdırılar. Bunları məğlub etmək və yaxşı bir inanc yolunda getmək üçün zənginlik ortaq və qadın-kişi bərabər haqlara sahib olmalıdır..."

### *3. Azərbaycanda İslamın yayılması və İslamda tolerantlıq*

VII əsrin I yarısında Ərəbistan yarımadasında meydana gələn İslam dini və onun əsasında yaranan güclü Ərəb xilafəti öz nüfuzunu qıraq ərazilərə yaymaq üçün irimiqyaslı savaşlara başladı. Tarixdən İslamın və bir dövlət olmaq etibari ilə Xilafətin (peyğəmbərin xəlifələri tərəfindən idarə olunduğu üçün belə adlanırdı) "yer üzünə yayılma çağı" adlanan dövrü başlandı.

Azərbaycan ərazisinə ərəblərin ilk hücumları 639-cu ilə təsadüf edir. "643-644-cü illərdə, xəlifə Ömərin dövründə, ərəblər tarixi Azərbaycan ərazisinin yalnız cənub və Dərbəndədək Xəzər sahili torpaqlarını tuta bildilər. 705-ci ildə isə Xəlifə I Validin zamanında ərəb qoşunları Mehranilər sülaləsini hakimiyyətdən uzaqlaşdıraraq Aqvan knyazlığına son qoydular. Bu dövrdən etibarən Şimali Azərbaycan torpaqları da Ərəb xilafətinin tərkibinə qatılmış oldu. Ölkə xilafət qanunları və canişinləri tərəfindən idarə olunmağa başladı. Azərbaycan, Ermənistan və digər əyalətləri də içərisinə alan əl-Cəzirə adlanan dördüncü əmrliyin tərkibinə daxil idi. Bu əmirliyin paytaxtı əvvəlcə Dvin şəhəri, Abbasilər taxta çıxdıqdan sonra Bərdə şəhəri oldu.

"Bütün insanlar qardaşdırlar; bütün insanlar Allah qarşısında bərabərdirlər" kimi müddəaları Şərqdə çox yayılmış pul-əmtəə münasibətlərini inkişaf etdirib, onları dini cəhətdən izah edərək əsaslandırması, ayin (sitayiş forması) məsələsində sadəliyi, təbii ki, insanları cəlb edirdi. Buna qədim Şərqin dinlərinə məxsus ayinçiliyin, xüsusən zərdüştilik üçün səciyyəvi olan ibadət zamanı möminin pak olması tələbinin qalması da təsir göstərirdi.

İslam dini təkcə üç qitənin – Avropanın, Asiyanın və Afrikanın qovuşduğu yerdə (coğrafi ərazidə) meydana gəlməmişdi, demək olar ki, o, həm də dağılmaqda olan quldarlıq quruluşunun Ərəbistanda qalmaqda davam edən qəbilə-tayfa münasibətləri ilə erkən orta əsrlər feodalizminin bir-birindən ayrıldıqları yolayrıcında meydana gəlmişdir. İslamın ehkamlarından həm onun yayılma sərhədlərinin sürətlə genişləndirilməsinə siyasi cəhətdən bəraət qazandırmaq üçün, həm də yeni sosial prinsiplərin möhkəmləndirilməsi üçün istifadə olunur. İslam məzlum aşağı təbəqələrin ideologiyasına çevrilməyə (ilkin xristianlıqda olduğu kimi) macal tapmadı, o özünün yaranmasının elə başlanğıcından dövlət dini rolunda çıxış etməyə başladı. Buna görə də, artıq Məhəmmədin Məkkədən Mədinəyə köçdüyü (hicrət etdiyi) zamandan İslamda mənəvi-əxlaqi və fəlsəfi məsələlərdən daha çox müsəlman cəmiyyətinin ictimai-siyasi quruluşunun, onun həyat və fəaliyyətinin hüquqi cəhətlərinin prinsiplərinə diqqət verilirdi. Məhəmməd öz fəaliyyətinin ilk mərhələsində öz missiyasını (ilahi tapşırığını) yerinə yetirmək üçün təbliğat, dilətutma, qorxutma yollarından istifadə edir, yəni insanların şüuruna təbliğat fəaliyyəti ilə təsir göstərirdi. Bu haqda V.Bartold yazırdı*:* “Məkkədə Məhəmməd heç kəsin hökmdarı deyildi, o insanları tövbəyə, imana və fəal məhəbbətə dəvət edərkən yalnız onların könüllü iradəsinə müraciət edə bilərdi; təbii ki, Məkkə surələrində insanın vəzifələri və məsuliyyəti haqqında təlim Allahın hər şeyə qadir olması haqqında təlimdən daha çox yer alır. Müsəlman icmasının yarandığı (formalaşdığı), Məhəmmədin yeni din təbliğatından öz hərbi gücü ilə dinsizləri (kafirləri) və başqa dinlərdən onları dəhşətə gətirən bir teokratik (dini) dövlətin başçısına çevrildiyi Mədinə dövründə isə bütünlüklə başqa bir mənzərənin şahidi oluruq. İndi İslam süst bir dindən döyüşkən bir dinə çevrilir. Məhəmmədin Mədinəyə gəlişindən (622-ci il) onun ölümünədək (632-ci il) keçən on il dinc din və sosial həyat islahatçısının təlimini

bütün dünyaya müharibə elan etmiş bir dinə çevrilmək üçün yetərli oldu”.

İslamın dini şüura verdiyi ən böyük töhfə onun təkallahlılığı (tövhidi) dəqiq və qeyd-şərtsiz elan (ifadə) etməsindən ibarətdir: “Allah – Özündən başqa tanrı (məbud) olmayan, [daima] diri və var (mövcud) olandır…”. İnsanlar bu Allahı əvvəllər də tanıyırdılar, ancaq çoxlu tanrılardan biri kimi. İndi onlara elan (bəyan) edilirdi ki, bu tək tanrının adıdır, ümumiyyətlə, başqa tanrılar yoxdur. Kim başqa tanrılara inanır, düzgün yoldan sapmışdır və ona, buna görə cəza veriləcək. Bütün dünyanı – göyləri, yeri, ulduzları, dağları, bitkiləri, insanı Allah yaratmışdır. Dünyada hər şey Allahın istəyi (iradəsi) ilə baş verir. Odur ki, Quran xristianlığın İsanı ilahiləşdirməsini qəbul etmir. İsa İslamda bir insan kimi qəbul olunur və ona həqiqi (haqq) peyğəmbər kimi ehtiram göstərilir. Bu zaman hətta ona başqa peyğəmbərlərə verildiyindən daha yüksək yer (status) verilir. O – Məsihdir, günahsız, məsum həyat keçirmişdir və mütləq yenidən qiyamətdən qabaq bəşəriyyətin xilası üçün dönəcəkdir. İstənilən başqa din kimi, İslam dini də öyrədir ki, hər bir insan öz mənəvi həyatına görə özü cavabdehdir: “Hər kəs bir günah qazanarsa, mütləq o günahı özünün zərərinə qazanmış olur” (4.Qadınlar surəsi, ayə 111); “Doğru yolu tutan özünə savab, doğru yoldan azan isə özünə günah qazanır”. (10 Yunus surəsi, ayə 108). İnsanın ölümündən sonrakı taleyi onun öz həyatını necə yaşamasından asılı olacaq. Deməli, onun ruhu cənnətə də düşə bilər, cəhənnəmə də, cənnətdə çoxlu bol sulu dərin çaylar, şirəli (dadlı) meyvə-tərəvəz var, cəhənnəm isə bunun əksinə olaraq, ərinmiş metalla, qaynayan maye (su) ilə dolu, hər şeyi məhv edən alovlu od olan bir yer kimi təsvir edilir. İnsan öz həyatı üçün məsuliyyət daşıyır: Allah insanı azad yaratmışdır. Beləliklə, dini inanc hər bir insanın azad seçimindən irəli gəlməlidir, o özü bilər: Allaha inanmaq lazımdır, yoxsa yox. Quranda

deyilir: «Dində məcburiyyət (zorakılıq) yoxdur” (2. Əl-Bəqərə (İnək surəsi), ayə 256). Ancaq bu azadlıq o demək deyil ki, hər kəs istədiyini edə bilər.

İslama görə, tolerantlıq müxtəlif inanclı insanlar arasında bir körpüdür. Allah belə buyurur: "Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq..." (49. Hucurat surəsi, ayə 13). İnsanların bir-birini tanıması, qarşılıqlı münasibətlərinin formalaşmasının əsası tolerantlıqdan keçir. İslam dinində tolerantlıq dinin əsas ünsürü kimi qəbul edilir. İslamın birinci əsas mənbəyi olan Quranda uca Allah belə buyurur: "Sizin dininiz sizə, mənim dinim mənə aiddir" (109. Kafirun surəsi, ayə 6). Quran tolerant olmaq üçün ədalətli olmağımızı əmr edir: "Söz söylədiyiniz zaman qohumunuz olsa belə, ədalətli olun..." (6. Ənam surəsi, ayə 152). Allahın "De: "İstər inanın, istərsə də inanmayın..." (17. İsra surəsi, ayə 107). "De: "Haqq Rəbbinizdəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın..." ("Kəhf" surəsi, ayə 29) sözləri İslamın dini etiqad azadlığına verdiyi dəyəri göstərir. Quran "Dində məcburiyyət (zorakılıq) yoxdur" (2. Bəqərə surəsi, ayə 256) ayəsi ilə inanmaq azadlığının prinsipini formalaşdırıb.

İslamı insanlara çatdıran Hz.Məhəmməd (s) peyğəmbər bütün müsəlmanlara, xüsusilə idarəçilərə belə buyurub: "Kim müsəlman olmayan əhalidən birinə zülm edərsə, onların haqqını qiyamət günü mən müdafiə edəcəyəm", "Kim bir zimmiyə zülm edər, yaxud ona daşımaqdan aciz olduğu bir yük yükləyərsə, onun haqqını azaldar və ya istəyi olmadan bir şeyini alarsa, mən həmin adamın düşməniyəm". "Bir müsəlmana, yaxud zimmiyə qəsdən zərər verən şəxs lənətlənib". Hz.Məhəmməd başqa bir hədisində də bunları bildirib: "Allah qiyamət günündə insanlara əziyyət edənlərə əziyyət edəcəkdir". Budur Hz.Məhəmmədin tolerantlığı.

Ortodoksal İslamın bütün ictimai şüur sahəsində inhisarını aradan qaldırmaq istəyində və İslamın mötədil (yumşaq)

rasionalist tənqidçiləri olan Mötəzililər (banisi Vasil ibn Əta VIII əsrdə yaranmışdı) deyirdilər: “Qurana hər cür ehtiram göstərib onu mədh etmək axmaqlıq əlamətidir”. Elə onlar da insan azadlığının məhdud olmadığı prinsipini irəli sürmüşlər: “Xeyrin və şərin yaradıcısı insan özüdür, bunun Allaha dəxli yoxdur”. Möcüzə deyə bir şey yoxdur. Mötəzili kəlamının ən böyük xidmətlərindən biri müsəlman apologetikasının (dinin məntiqi dəlillər-lə müdafiə edilməsi) yaradılmasıdır. Onlar xristian, yəhudi, Zərdüşt və başqa dinlərin nümayəndələri ilə polemikalar aparmış, İslamın əsas müddəalarını düşüncə dəlilləri ilə müdafiə etmişdilər. Mötəzililik ağlı dinə qarşı qoyurdu, o özünün elmlərə və yunan fəlsəfəsinə tərəfdar olması (meyl etməsi) ilə tanınmışdı. Bu təlim dini ehkamların müzakirəsini mümkün sayır, bəzi Quran müddəalarının əksinə çıxış edirdi; Allahın atributlarının (sifətlərinin) çoxluğunu rədd edir, “Allah vardır (mövcuddur)” etirafı ilə kifayətlənirdi. Bu təlim mahiyyətcə dini azadfikirlilik idi, özü də Azərbaycanda geniş yayılmışdı.

İslamın hakim mövqe tutduğu bu dövrlərdə Azərbaycan ərazisində xristianlıq və musəvilik kimi dünya dinləri də paralel olaraq mövcud idi və bu dinlərin daşıyıcıları öz inanclarını sərbəst həyata keçirə bilirdilər.

İslamın əhli kitab dinlərinə loyal münasibəti bu dinlərə sitayiş edən xalqların islam arenasında sərbəst həyat sürmələrinə geniş imkanlar yaradırdı. Orta çağlarda islam dünyası, o cümlədən Azərbaycanda yaşayan müxtəlif xristian və yəhudi icmaları islam dünyası içində öz dünyalarını yaratmışdılar. Kilsələr və sinaqoqlar həmişə özlərinin müxtariyyətliklərini qoruyub saxlayırdılar. Onlar müxtəlif bağlaşmalarla özlərinə güvənclər qazanırdılar. İslam qanunu başqa dinlər arasında tarazlığa da göz qoyurdu, yəhudilərin xristianlığa və xristianların iudaizmə keçməsini yasaqlayırdı. Onlara yalnız islama keçməyə icazə verilirdi.

İslam dünyasında başqa dindən olanlara peşə yasaqları yox idi. Ona görə də xristianlar və yəhudilər çox qazanclı peşələrlə məşğul olurdular. Xilafətin paytaxtı olan Bağdadda (IX əsr) xristian icmasının başında saray həkimi xristian dururdu. Yəhudi icmasının başında isə saray bankiri yəhudi dururdu. Adam Mets təəccüblənərək yazırdı: “Müsəlman imperiyasında adamı ən çox mat qoyan başqa dindən olan məmurların çoxluğudur. Müsəlmanlar bu məmurlara tabe olurdular. Paradoks: bir tərəfdən yəhudiləri və xristianları məcbur edirdilər ki, onları bildirən nişanları gəzdirsinlər. Onlara icazə verilmirdi ki, müsəlman evindən hündür ev tikdirsinlər (hərçənd bu yasaqlara çox az əməl olunurdu). O biri tərəfdən isə həmin dindən olan məmurlar müsəlmanlara əmr və cəza verirdilər.

XII-XIII yüzilliklər xristianlığın Azərbaycanda yenidən çiçəkləndiyi bir dövrdür. Belə ki, bu dövrdə Qarabağda xristian Albanlar qısa müddətə olsa da, Həsən Calalyanın rəhbərliyində Xaçın çarlığı kimi siyasi təsisat yarada bilmişdilər. Gəncədə Mxitar Qoş (1130-1213), onun yetirməsi Vanakan, Gəncəli Kirakos (1200-1271), Vardan (öl. 1271) və s. kimi xristian Alban intellektualları yaşayıb yaratmışdılar. Mxitar Qoş Albaniya katolikosu III Stepannosun (1155-1195) təkidli xahişi ilə yazılmış məşhur “Sudebnik” (“Qanunnamə”) əsərinin müəllifidir. “Qanunnamə”yə heç bir sistem gözlənilmədən Şərqi Roma imperiyasının qanunları ilə yanaşı, Alban kilsəsinin qanunları, “Musa qanunları”, kilsə (Aquen, bardis) qanunları daxil edilmişdir. Bundan başqa Mxitar Qoş “Alban salnaməsi” əsərinin də müəllifidir.

1240-cı ildən başlayaraq Qanzasar məbədinin nüfuzu artmağa başladı. Məbədə Həsən Cəlal nəslinin nümayəndələri başçılıq edirdi. Bu vaxtdan Qanzasar alban kilsəsinin mərkəzi alban katolikoslarının iqamətgahı oldu, alban katolikosluğu Qanzasar katolikosu adlanmağa başladı. Qanzasar katolikos-larının iqamətgahı həm də Artsax knyazlığının dini və siyasi

mərkəzi idi". Həmdulla Qəzvini "Hüzhət əl-Qülub" əsərində Ucan şəhərindən danışarkən şəhər əhalisi arasında xristianların da olduğunu qeyd edir. Şərqi Suriya kilsəsi saborlarının sənədlərində Partavda V əsrdən, Urmiyada IV əsrdən, Paytakaranda VI əsrdən, Muğanda VIII əsrdən, Marağa, Təbriz, Uşnuda XIII əsrdən yepiskopluqların mövcudluğu təsdiq edilir. Xristianlığın əsas cərəyanlarından biri olan nəsraniliyin Azərbaycanda yayılması ilə bağlı da faktlar vardır. Akademik V.Bartolld "Xəzəryanı ərazilərin islam tarixində yeri" adlı əsərində ərəblərin gəlişi dövründə nəsranilərə işarə edərək yazır: "Ərəblər Sasanilərin sərhəd ərazilərini tutanda bu bölgələrin dini kimi xristianlıqdan danışırlar, zərdüştlüyün ardıcılları isə heç xatırlanmır. Sasanilərin qərb ərazilərində nəsranilik xristianlığın xüsusi təlimi şəklində təşəkkül tapdı. Onlar Bizansda təqib olunurdular. Burada isə təqiblər olmadığı üçün nəsranilik hakim vəziyyətdə idi". Monqol və Səlcuq-türk istilaları dövründə xristianlıq təzə nəfəs tapıb yeni bir dalğa ilə Şərqə yayılmağa başlamışdı. Bu səbəbdən də XI-XIII əsrlərdə Azərbaycanda nəsrani məzhəbli xristianlıq daha fəal yayılmış, bir sıra türk tayfaları xristianlığı qəbul etmiş, kilsə və monastırlar tikilmişdir. İçəri şəhərdəki - Qız qalasının yanındakı məscidin yaxınlığındakı xristian kilsəsinin nəsranilərə məxsus olduğu, eyni zamanda, Abşeronun bir sıra qədim qəbiristanlarında nəsrani müqəddəslərinin sərdabələri olduğu məlumdur. Orta əsrlərdə Azərbaycanda iudaist dininin daşıyıcıları olan yəhudi icmaları da mövcud idi. Azərbaycanın Şimal-şərqinə iudaist yəhudilərin köçüb gəldiyi hələ lap qədim dövrlərdən məlumdur. Onların Azərbaycanda məskunlaşması ilə bağlı araşdırıcılar arasında fərqli fikirlər mövcuddur. Tarixçi alim Tarix Dostəliyev "Şimali-şərqi Azərbaycan IX-XV əsrlərdə" adlı əsərində yəhudilərin Azərbaycanda mənşəyi ilə bağlı, bəzi tədqiqatçılar tərəfindən irəli sürülən Sasanilərin köçürtdükləri İran mənşəli əhalinin sonradan iudaizmi qəbul etmələri və bunun əsasında

Azərbaycanda yəhudi icmasının yaranması haqqındakı versiyanı rədd edərək qeyd edir ki, yəhudilər dünyanın bir çox məməkətlərinə səpələndikdən sonra da müxtəlif xalqlar arasında yaşayaraq onların dillərini qəbul etsələr də, dini mənsubiyyətlərini qoruyub saxlaya bildikləri kimi Azərbaycanda da öz icmalılığını və dini mənsubiyyətini qoruyub saxlamışlar. Orta əsrlərdə Azərbaycanın şimal-şərqində yəhudi icmalarının yaşaması haqqında orta əsr yazılı mənbələri də xəbər verir. XIII əsrin ortalarında Monqolustana qədər səfər etmiş, səyahəti zamanı keçdiyi ərazilər və onların xalqları haqqında qeydlər aparmış fransalı rahib Vilhelm de Rubruk Dərbənddən cənubda iki günlük məsafədə yerləşən Şabran (Samaron) şəhərində çoxlu yəhudilərin yaşadığını söyləyir.

## *4. N. Tusinin görüşlərində tolerantlıq ideyaları*

XIII əsrdə Azərbaycanın dünyaya bəxş etdiyi böyük şəxsiyyətlərdən biri də Məhəmməd ibn Həsən Nəsirəddin Tusidir (1201-1273). İlk təhsilini atasından alan Tusi, təhsilini Həmədan və Tus şəhərlərində İbni Sina və Bəhmənyar kimi şəxsiyyətlərin tələbələrinin yanında davam etdirmişdir. O, Kuhistan ismaililərinin rəhbəri Nəsirəddin Möhtəşəmin sifarişi ilə əxlaqa dair kitab yazmağa başlayır. 1235-ci ildə Nəsirəddin Tusi məşhur "Əxlaqi-Nasiri" əsərini tamamlayaraq hökmdara təqdim edir, lakin əsər onun xoşuna gəlmədiyi üçün Tusini həbs etdirərək Ələmut qalasına saldırır. 12 ildən artıq bir müddətdə bu qalada həbsxana həyatı keçirən Tusi burada da elmi yaradıcılıq fəaliyyətindən qalmır və bir sıra elmi əsərlər yazır. 1253-cü ildə Hülaki xan Azərbaycana hücumu zamanı Tusini Ələmut qalasından azad edir və onu özünün şəxsi məsləhətçisi təyin edir. Ensiklopedik biliyə malik Nəsirəddin Tusi elmin astronomiya, riyaziyyat, fizika, tibb,

fəlsəfə, etika, məntiq və digər sahələrinə dair bir çox kəşf və əsərlərin müəllifidir.

Nəsirəddin Tusi tərəfindən Marağada yaradılmış rəsədxana və Dar əl-ilm valhukman (Hikmət evi) təkcə elmi araşdırmalar aparan mərkəz deyildi, o həmçinin bir təhsil mərkəzi idi. Mənbələr göstərir ki, burada müxtəlif millətlərin nümayəndələri çalışır və eyni zamanda burada bir çox ölkədən gəlmiş tələbələr də təhsil alırdılar, hətta burada Çindən gəlmiş bir neçə tələbədə oxuyurdu.

Burada dünyanın bir çox məmləkətlərindən gələn alimlər (Dəməşqdən Müvəidəddin Ordini, Mosuldan Fəxrəddin Marağayi, Tiflisdən Fəxrəddin İxlati, Qəzvindən Nəcməddin Dəbirani, Buxaradan Cəmaləddin əz-Zeydi Buxari, Çindən Fao Mun-çi, Monqolustandan İsa Monqol, Hindistandan Kəmaləddin Əflatun əl-Xindi, Xristianlığı qəbul etmiş Yəhudi Yuhanna Qriqori Əbül Fərəc Hebraus və digərləri) birgə çalışmış, bəziləri isə (Çinli Fao Mun-çi və başqaları) öyrəndikləri bilikləri öz ölkələrində tətbiq etmişlər.

Akademik Z.Bünyadov Nəsirəddin Tusi tərəfindən Marağada yaradılmış rəsədxana və Dar əl-ilm valhukmanı nəinki təkcə Şərq ölkələrinin, eləcə də, o dövrdə dünya sivilizasiyasının ilk elmlər akademiyası adlandırırdı.

“Əxlaqi-nasiri” əsərində dövrünün əxlaqi dəyərlər sistemi ilə bağlı bir sıra maraqlı fikirlər irəli sürən Tusi o zaman yunan, ərəb və fars dillərində son dərəcə böyük şöhrət tapmış Əflatun, Ərəstun, İbn Sina, Qəzali, Biruni kimi alimlərin fəlsəfə və əxlaqa aid kitablarından, “Kəlilə və Dimnə”, “Ərdəşir Babəkan”, “Ənuşirəvanın vəsiyyətləri” kimi xalq müdrikliyi ilə dolu olan dastan və folklor ədəbiyyatından, “Siyasətnamə”, “Mərzbannamə” kimi tərbiyə, siyasət və dövlət məsələlərinə həsr edilmiş kitablardan da yeri gəldikcə “Əxlaqi-Nasiri”yə daxil etmişdir. Beləliklə, Tusi “Əxlaqi-Nasiri” əsərində də demək olar ki, özündən əvvəl Yaxın və Orta Şərqdə hökm sürən əxlaqi-fəlsəfi fikirlərə yekun vurmuş,

bunların yığcam icmalını verməklə öz orijinal fikirlərini də buraya əlavə etmişdir.

Tusi "Əxlaqi-Nasiri"nin nəzəri hikmətini təhlil etdiyi birinci məqalənin dördüncü fəslində varlıqların dərəcə sistemini verir və bu sistemdə "insanın" orta yerdə yaradıldığı fikrini irəli sürür. Bu "orta", "miyanə" vəziyyətdən yüksəlib ülvi dərəcəyə çatmaq, ya yuvarlanıb ən aşağı alçaqlığa enmək insanın öz əlindədir; bu, əmək, səy, fəaliyyət, ağıl və iradədən asılıdır. O öz nəfsini ağıl ilə idarə edə bilsə, yüksəkliyə qalxar, nəfsi öz başına buraxsa, nəfsi onu aşağıya — heyvani mərtəbəyə sövq edər, şəhvani hissləri cuşa gətirər, günbəgün, anbaan alçaldar, düşkünlük və naqisliyi artırar, yuxarıdan aşağıya yuvarladılan daş kimi, az bir müddət ərzində onu rəzalət çirkabının ən dərin yerinə salar və bu, onun ən dəhşətli sonu olar.Tusi buradan məntiqi nəticə çıxararaq, nəfsin tərbiyə edilməsi üçün peyğəmbərlərə, filosoflara, rəhbərlərə, rəislərə, tərbiyəçilərə və müəllimlərə ehtiyac olduğunu elmi cəhətdən əsaslandırmağa çalışır. Bu tərbiyə prosesində əsas cəhəti seçməyi bacarmaq ən vacib şərtlərdən biri hesab edilir. Belə bir əsas cəhət isə hər varlığın özündə mövcuddur və onu başqa varlıqlardan ayıran da məhz bu xüsusiyyətdir, onun kamala çatması üçün də birinci növbədə bu cəhətin inkişaf etdirilməsi ən vacib məsələdir.

Sonra Tusi nəzəriyyə ilə təcrübənin, elmlə əməlin əlaqəsindən danışır. Tusiyə görə, bunların vəhdəti olmadan inkişaf və kamillik qeyri-mümkündür.

Bütün əsər boyu əmək, fəaliyyət, hərəkət, işgüzarlıq təbliğ edən Tusi "səadətin" yalnız şüurlu zəhmət nəticəsində mümkün olacağını elmi dəlillərlə əsaslandıraraq təsadüfi nəsib olan xoşbəxtlikləri "səadət" hesab etmir.

Birinci məqalənin on fəsildən ibarət olan ikinci hissəsi "məqsədlərə" həsr edilmişdir ki, onun da əsas qayəsi "əxlaqı saflaşdırmaq"dan ibarətdir.

Başqa fəzilətlərə nisbətən "ədalət" haqqında Tusi daha geniş danışaraq, onun fəlsəfi, ictimai-siyasi mahiyyətini açmağa çalışır. Hər şeydən əvvəl, Tusi "ədaləti" yerdə qalan bütün fəzilətlərdən daha şərəfli hesab edir. "Ədalət" anlayışı müəyyənləşdirildikdən sonra onun təsnifatı başlayır və məntiqi nəticələr çıxarılır. Tusi xalq arasında ədaləti bərpa etməkdə ən azı üç amilin olmasını zəruri hesab edir. Bunlardan birincisi - "ilahi namus" (insanın vicdan səsi), ikincisi - "insani hakim" (adil münsif), üçüncüsü-"dinar", yəni puldur. Vicdan olmadan bərabərliyin mümkün olmadığını dedikdən sonra, "dinar", yəni, pul və "insani hakim", yəni, ədalətli münsifin zəruriliyini belə əsaslandırır: "...Mədəni adamlar təbiətcə yaradıcıdırlar, məişətcə isə bir-birinə kömək etmədən dolana bilməzlər. Kömək ondan ibarət olar ki, biri o birinə xidmət edər, birindən alıb o birinə satarlar, elə edərlər ki, müvazinət, tarazlıq və bərabərlik pozulmasın. Məsələn, xarrat öz əməyinin məhsulunu rəngsaza verər, rəngsaz da öz növbəsində əməyinin məhsulunu ona təklif edər. Bu zaman xarratın hazırladığı şey rəngsazınkından daha yaxşı, daha çox və ya əksinə ola bilər, buna görə zəruri olaraq bir tarazlaşdırıcı, bərabərləşdirici vasitəyə ehtiyac meydana çıxar, o da "dinar" (pul) olar". Tusi pulun belə "ədalət" vasitəsi olduğunu əsaslandırdıqdan sonra onun tək, özbaşına, mübadilədə həlledici rol oynaya bilməyində mütləq bir etibarlı "dilli" münsifə ehtiyacı olduğunu irəli sürür ki, o da hakim (münsif) insandır. Müəllif daha sonra "ixtisaslaşmış" və "adi əmək" arasında fərq qoyaraq ədalət haqqında öz fikrini belə yekunlaşdırır: "Çox zaman az əmək çox böyük zəhmətlərə bərabər olur, məsələn, mühəndisin bir baxışı bir çox əmələlərin zəhmətlərindən, sərkərdənin gördüyü tədbir saysız-hesabsız döyüşçülərin vuruşlarından yüksək qiymətləndirilir və bu, ədalətli hesab edilir.

Tusiyə görə, ədalətin birinci şərti odur ki, xalqın müxtəlif təbəqələri arasında uyğunluq yaradılsın. İnsanın sağlamlığı

dörd ünsür arasındakı tənasüblükdə olduğu kimi, cəmiyyət arasındakı uyğunluq da dörd sinfin qarşılıqlı müvafiqliyində olar.

Tusi ictimaiyyətı yaxşı, ədalətli dolandırmaq, onların hayına qalaraq güzəranın gözəl keçməsini təmin etmək elminə "ictimaiyyat hikməti" adı verir və üçüncü məqalənin məhz bu elmə həsr edildiyini yazır. Tusi "ictimaiyyət" elminə son dərəcə böyük qiymət verdikdən, onu hamının öyrənməli olduğunu qeyd etdikdən sonra insanlar arasında olan ictimai formaların təhlilinə keçir və ilk ictimai forma kimi "ailəni" göstərir, sonra "məhəllə", daha sonra "şəhər", ondan sonra "böyük xalqlar", nəhayət, "bütün dünya icması" gəlir. Beləliklə, Tusi dünyada beş ictimai formanın olduğunu qəbul edir, bunlardan "kiçiklərin" "böyüklər" tərkibinə daxil olaraq onların üzvi bir hissəsini təşkil etdiyini deyir, sonra ümumiləşdirmə apararaq yazır: "Hər bir adam bir evin (ailənin) tərkib hissəsi olduğu kimi, hər ev bir məhəllənin tərkib hissəsi, hər məhəllə bir şəhərin tərkib hissəsi, hər şəhər bir xalqın (ölkənin) tərkib hissəsi, hər xalq bütün dünya əhalisinin tərkib hissəsi olar". Beləliklə, Tusi cüzlə küll, bir fərdlə dünya əhalisi arasında sıx üzvi bir rabitənin olduğunu əyani olaraq göstərir, ayrı-ayrı adamların taleyinə biganə qalmağın doğru olmadığına işarə edir. O, yazır: "Dünya əhalisinin ictimai quruluşu belə bir sistem (qarşılıqlı ictimai əmək və kömək sistemi) təşkil etdiyindən, kim sistemdən kənara çıxıb tək yaşamaq, inzivayə çəkilmək xəyalına düşsə, bu baxımdan fəzilətlərdən əli çıxar, öz növünün köməklərindən imtina etdiyi üçün tənhalıq dəhşəti içərisində, əzab, əziyyət və məhrumiyyətlər çəngində məhv olar. Bəziləri belə həyatı fəzilət sayır. Məsələn, bir qismi "ibadət", "zöhd" bəhanəsi ilə mağaralara çəkilib yaşayır, buna "tərkidünyalıq", "abidlik", "zahidlik" adı verirlər; bir dəstəsi gözlərini xalqın mərhəmət əlinə dikib sədəqə gözləyir, əlini ağdan-qaraya vurmayır və buna "təvəkkül" adı qoyurlar; bir zümrəsi səyahət məqsədilə dünyanı şəhərbəşəhər dolanır, bir

yerdə yurd salıb əməklə məşğul olmur, ünsiyyət saxlamır, sonra da deyirlər ki, dünyadan ibrət dərsi alırlar, bunu fəzilət sanırlar; belə adamlar və bunlara oxşayanlar başqalarının köməkli əmək sayəsində istehsal etdikləri nemətlərdən, əvəzində heç bir şey vermədən, istifadə edir, onların yeməklərini yeyir, paltarlarını geyir, pullarını isə ödəmirlər, bəşəriyyətin inkişafı üçün lazım olan işlərdən boyun qaçırdıqlarından, rəzilətlərə aludə olub tərki-dünyalığı seçdiklərindən təbiətlərində qüvvə şəklində gizli saxlanan istedadlarını faydalı əməyə sərf etmirlər. Kütbeyin adamlar hələ belələrinin fəzilət sahibi olduqlarını da düşünürlər. Bu ehtimal, şübhəsiz, xam xəyaldır.

## 5. *Orta əsrlərdə Azərbaycanda tolerantlıq ənənələrinin inkişafında Azərbaycan poetik məktəbinin rolu*

Orta əsrlər Azərbaycan poetik məktəbinin nümayəndələrinin əsərlərində ümumbəşəri dəyərlərin təbliği məsələsi başlıca yerlərdən birini tutur.

Söz sərrafı olan və bədii yaradıcılığın ən gözəl nümunələrini yaradan Nizami Gəncəvinin əsərləri bu cəhətdən xüsusilə fərqlənir. Onun yaradıcılığına əsasən deyə bilərik ki, şairin yaradıcılığında multikultural və tolerantlıq elementlərinə rast gəlmək mümkündür.

O, makedoniyalı fateh və antik dövr yunan filosofları – Fales, Əflatun, Sokrat, Aristotel və s. haqqında dərin bilgilərə malik olmuşdu. Əsərlərindən də göründüyü kimi, o qədim yunan, hind, filosoflarına böyük rəğbət bəsləmiş, Əl-Fərabi, İbn Rüşdi, İbn Sina və s. kimi islam mədəniyyətinin yetişdirdiyi nəhəng intellektualların da yaradıcılığına bələd olmuş və onların mirasına tez-tez müraciət etmişdir.

Y.E.Bertels şairin qonşu gürcü və erməni dillərinə də bələd olduğunu və bəzi qədim mənbələri bu dillər vasitəsilə öyrəndiyini ehtimal edir.

Qeyd edək ki, Nizami Gəncəvi üçün şəxsiyyətin ən yüksək meyarı insanlıq idi. İrqi, milli və dini ayrı-seçkiliyi qətiyyətlə rədd edən bu şairin qəhrəmanları içərisində türk, fars, ərəb, çin, hind, zənci, yunan, gürcü və s. xalqların nümayəndələrinə rast gəlirik. Hümanist şair müxtəlif dinlərə mənsub bu qəhrəmanların heç birinin milliyyətinə, dini görüşlərinə qarşı çıxmır. Onun qəhrəmanları ədalət, xalq xoşbəxtliyi, yüksək məqsədlər uğrunda mübarizə aparırlar. İnsan şəxsiyyətinə, insan əməyinə ehtiram şairin yaradıcılığının aparıcı mövzularındandır.

Nizami ideal cəmiyyətdə din və etiqad haqqında təsvir etdiyi təlimin mahiyyətini oradakı insanların düşüncələri ilə verir.

*Bizdə bərabərdir hamının varı,*
*Bərabər bölərik bütün malları.*
*Bizdə artıq deyil heç kəsdən heç kəs,*
*Bizdə ağlayana heç kimsə gülməz...*
*Birini qəzəbli, acıqlı görsək,*
*Ona məsləhətlə eylərik kömək.*
*Qızıla, gümüşə aldanmaz heç kəs,*
*Onlar bizim yerdə bir şeyə dəyməz.*

Hümanist şair müxtəlif dinlərə mənsub bu qəhrəmanların heç birinin milliyyətinə, dini görüşlərinə qarşı çıxmır, göstərilən fərqli fikir və mədəniyyətlərə hörmətlə yanaşır. Nizami vahid din ideyasını irəli sürməklə xalqlar, millətlər, milli etnik qruplar, tayfalar arasında mövcud olan münaqişələrə son qoymaq istəyir. Nizami xalqların adını çəkərək də onların mənsubiyyətinə hörmətlə yanaşır. O, qara dərili zəncinin açıq qəlbə və möhkəm xüsusiyyətə malik olduğunu qeyd edərək irqi mənsubiyyəti əsasında insana qiymət verməkdən çəkindirir:

*Zəncinin zahiri qaradır, ancaq,*
*Sən ağzından çıxan saf sözlərə bax.*
*Zənci dəmir kimi qara, parlaqdır,*
*Üzü qaradırsa, ürəyi ağdır!*

Zərdüştilik, Musəvilik xə Xristian dinləri və onlara dair işarətlər, atributlar xoş niyyətlə xatırlanır:

*Ey müsəlman, öyünmə, atəşpərəst deyilsən,*
*Bir günəşin eşqindən zərrəcə məst deyilsən.*
*Kaş ki, hindli möbidtək dərk edəsən dünyanı.*
*Bu dünyaya uymadan tərk edəsən dünyanı.*
*Lalənin atəşgahı - laləzardır burada.*
*Hindli atəşpərəstdir, yanıb çatıb murada.*
*Hörmüz ki, söz deməyə başladı,*
*İlahi biliyin qapısını açdı.*
*Hər dediyinə bir dəlil gətirdi,*
*Elə bir dəlil ki, nur kimi gözlərdə və ürəklərdə yer tapdı.*

*İsadilli, birgünlük süsən necə nəşəli,*
*Musanın əli kimi olub sübhün məşəli.*
*Sular şölə saçırdı Musanın əlləritək.*

Nizami Gəncəvi yaratdığı əsərlərdə insanlığa səadət və xoşbəxtlik, dinclik və əmin-amanlıq gətirən bir quruluş arzulayır və ideal hökmdarın belə bir quruluş yarada biləcəyini düşünürdü. O, ilk dəfə olaraq utopik cəmiyyət təsvir edilmişdir. Şairin xəyali ölkəsində insanlar firavan həyat sürür, halal zəhmətləri ilə yaşayır, hər kəsin də hüquqları bərabərdir. Bu ölkədə sürülər çobansız, evlər qıfılsız, bağlar gözətçisizdir. Nizaminin təqdimində İsgəndər ədalətli hakim, mütəfəkkir alim, humanist, mötəqid şəxsiyyət və rəşadətli qəhrəmandır. Nizaminin İsgəndəri yalnız öz vətəninin ədalətli

hökmdarı deyil, ümumbəşəriyyətin səadəti haqqında düşünən, bütün insanlar üçün gözəl həyat arzulayan və bu arzular uğrunda mübarizə aparan bir dövlət başçısıdır.

Şairə görə:

*Bəşəriyyəti əsl səadətlə yeganə hakimi həqiqət olan,düz ilqar, düz inam əsasında qurulmuş cəmiyyət təmin edə bilər.*

İnsanlığın şərəfini biliyi sevməkdə, fərdin səadətini cəmiyyət üçün çalışmaqda görən, hissənin mənafeyini tamın salamatlığında axtaran şair dövləti ictimai ədalət qurmağa borclu bir varlıq kimi qəbul edir.

"Sirlər xəzinəsi" poemasından aşağıdakı beytlərə diqqət yetirək:

*Zülmkarlıq dağıdar, bərbad eylər ölkəni,*
*Ədalət səadətlə abad eylər ölkəni.*
*Bu dünyanın nəbzini kim tutsa İsa kimi*
*İnsafı, mürvətiylə olar dünya hakimi.*
*Dünyaya fateh olmaz zülmkarlıq, rəzalət,*
*Yer üzünün fatehi ədalətdir, ədalət!*
*Ədalətin - müjdəsi, bu dünyanı şad eylər,*
*Ədalətin işidir, - ölkəni abad eylər.*
*Məmləkətin dayağı ədalətdir hər zaman,*
*Ədalətlə nəsibin səadətdir hər zaman.*

“Adam bu dünyaya yemək üçün gəlməyib, o, fərasətli və ağıllı işlər üçün gəlib” deyən şair digər varlıqlardan fərqli olaraq bəşər övladının başlıca missiyasının aləmin sirrini öyrənmək, araşdırmaq və axtarmaq olduğunu vurğulayır:

*Təbiətlərin yoğrulduğu mayadan*
*Bizim üçün başqa varaq yazıblar ki,*
*Diqqətlə baxaq, sirri axtaraq,*
*İşin tel ucunu (mənşəyini) tapaq.*

*Yeri də, göyü də gərək,*
*Birər-birər bunu da, onu da araşdıraq.*
*(Bilək ki) bu iş, bu hikmət nə üçündür.*

Y.E.Bertels "İsgəndərnamə" əsərinin müqəddiməsində yazır: "İsgəndərin həyatını təsvir edərkən qarşısına yalnız İran aristokratiyasının maraqlarına xidmət etmək vəzifəsini qoyan Firdovsinin əksinə olaraq, Nizami Azərbaycanın bütün xalqları tərəfindən qəbul ediləcək bir kitab yaratmaq istəyir"

Y.E.Bertels yazır: "İsgəndər bütün xalqlarla ədalətli rəftar edir. O, heç bir xalqı başqasından üstün tutmur, onun üçün hamı birdir, o, İran əyanları ilə də, Azərbaycan padşahı (Nüşabə) ilə də, Çin xaqanı ilə də eyni asanlıqla dostlaşır. Bu xarakter İsgəndərə şair tərəfindən, əlbəttə, özünün arzu etdiyi bir xasiyyət kimi verilmişdir".

Hər böyük və həqiqi sənətkar kimi Nizami də millilik və vətənsevərlik xüsusiyyətini daşımaqla bərabər, yaratdığı ədəbi obrazlarla təlqin etdiyi fikir meydanında milli çərçivədən kənara çıxmış, bütün bəşəriyyətə şamil olan duyğularla həyəcanlanmış, millətlər və ölkələrin fövqündə olduğu kimi, dövrlər və əsrləri yarıb keçən yüksək və dünyaya şamil bir qayğıya cavab verə biləcək "söz"ü tapmağa çalışmışdır.

Tanınmış şərqşünas, akademik S.Braginski yazırdı: "Bir halda ki, milli mədəniyyətlər biri-birindən fərqlənsə də, biz bəşəriyyətin inkişafının tarixi qanunauyğunluqları kimi, ədəbiyyata ümumbəşəri dünya ədəbi prosesi kimi baxırıq, cəsarətlə deyə bilərik ki, Nizami poeziyası Şərqdə başlanan, Qərbə yayılıb XVII əsrdə İngiltərəyə və başqa ölkələrə çatan dünya renessansının inkişafında çox mühüm mərhələdi".

## *6. Azərbaycanın sufi mütəfəkkirlərinin görüşlərində tolerantlıq ideyaları*

Orta yüzilliklərdə islam aləmində, o cümlədən, Azərbaycanda geniş yayılmış dini cərəyanlardan biri ideya-nəzəri baxımdan zəngin, eləcə də, ritual və ayinlərlin çoxluğu və rəngarəngliyi ilə diqqəti çəkən sufizm mühüm əhəmiyyət kəsb edirdi.

Sufililər başqa dindən olanlara, digər dini inanclara hörmət bəsləyir, hətta başqa dindən olanları öz aralarına almaqdan belə çəkinmirdilər. Onlar deyirdilər ki, "nə qədər insan varsa, haqqa da o qədər yol var". Böyük sufi bilim adamı İbn Ərəbi deyirdi: “Mənim könlüm istənilən formanı götürməyə başlayıb: O həm cüyürlər üçün otlaq, həm xristianlar üçün monastır, bütpərəstlər üçünsə məbəddir. O təvat edənlər üçün Kəbədir, Tövratın, Quranın səhifələridir”. Bütün dinləri bir arada görən Mövlana isə deyirdi: “...kafirsən, müsəlmansan, bütpərəstsən, hətta din düşmənisənsə, bizim ümid qapımız sənin üzünə açıqdır, gəl”, “...ayrılıq gediş tərzindədir, yolun həqiqətində deyil”. Hətta İstanbul civarından bir nəfər keşiş onun müridi olmuşdu. Şəms Təbrizi isə bildirirdi: “Mən kafirəm, sən müsəlmansan. Müsəlman kafirin içində amma. Aləmdə kafir hanı? Göstər, səcdə edim ona”.

Orta əsrlər Azərbaycanın ensiklopedik biliklərə malik şəxsiyyətlərindən biri də Mahmud Şəbüstəri idi. Sədəddin Mahmud ibn Əbdül Kərim ibn Yəhya Şəbüstəri Təbrizi 1287-ci ildə Təbriz yaxınlığında yerləşən Şəbüstərdə doğulmuşdur. O, ilahiyyat, fəlsəfə, astronomiya, tibb, filologiya və s. elmlərlə yanaşı, sufizmin də ən görkəmli nəzəriyyəçilərindən biri olmuşdur. O, təhsilini davam etdirmək üçün ilahiyyat və elm mərkəzləri kimi tanınan Misirdə, Hicazda, Suriyada, İraqda və digər ölkələrdə olmuşdur. Şəbüstəri yaradıcılığının

çiçəkləndiyi bir dövrdə - 1320-ci ildə 33 yaşında vəfat etmişdir. Buna baxmayaraq, o, özündən sonra çox zəngin bir irs qoyub getmişdir: "Səadətnamə", "Kənzül-xəqaiq" ("Həqiqətlər xəzinəsi"), "Həqqül-yəqin fi Mərifəti rəbbül aləmin" ("Aləmin yaradıcısını dərk etmək üçün şəksiz həqiqətlər"), "Mirat ul-mühəqqiqin" (Həqiqət axtaranların güzgüsü) və "Gülşəni-raz" (Sirlər bağçası). Onun sufizmin bir sıra nəzəri məsələlərinin şərhində mühüm rol oynayan "Gülşəni-raz" əsəri çox populyarlıq qazanmış və XIV yüzillikdən etibarən bir çox dillərə tərcümə olunmuşdur (1426-cı ildə əsər Şirazi tərəfindən Azərbaycan dilinə tərcümə olunmuşdur). Bu əsərin populyarlığını və əhəmiyyətini təsdiq edən faktlardan biri də odur ki, bu əsərə zaman-zaman müraciətlər olunmuş və şərhlər yazılmışdır. Məlumatlara görə, təkcə Şəbüstərinin bu əsərinə 49 şərh yazılmışdır.

Şəbüstəri Xorasanlı alim şeyx Mir Hüseyni Səadətinin suallarını cavablandırdığı və sufiliyə dair bir sıra baxışların və anlayışların izahını verdiyi "Gülşəni-raz" əsəri şərh edəcəyimiz mövzu baxımından əhəmiyyətlidir.

Büt, zünnar (xristianların bellərinə bağladıqları qurşaq) və tərsalıq (xristianlıq) qal əhlinin nəzərində küfr hesab edilir. "Gülşəni-raz" müəllifinə görə bu əsl həqiqəti dərk etməyən zahir əhli, qal əhli üçün belədr. Məna əhlinə, irfani təsəvvürə görə isə büt eşq və vəhdət məzhəri, həqiqi sevgili, zünnar haqq yolunda xidmətə bağlanmaq, salikin təriqət yolunda etdiyi xidmət və itaət, tərsalıqsa, kamil mürşid, hər cür dünyəvi həvəslərdən, pis sifətlərdən qurtulan və ali mənəvi-ruhani məqama yüksəlmiş irşad sifətlərinin təcəllisi, ruhi yüksəliş anlamındadır. M.Şəbüstəriyə görə küfr də, din də varlığa bağlı olduğundan tövhidlə bütpərəslik arasında heç bir fərq yoxdur. Çünki maddi gerçəklikdəki bütün əşyalar vahid bir varlığa – Allaha bağlıdır. Belə ki, varlıqdakı bütün əşyaları, o cümlədən də bütü Allah yaratmışdır. Ona görə də, büt pis ola və küfr hesab edilə

bilməz. O səbəbə görə ki, “yaxşıdan sadir olan hər şey yaxşıdır”. Əgər bütü də, başqa məxluqatı da Allah-təala, yəni yaxşı yaradıbsa, onlara pis demək olmaz.

M.Şəbüstəri təsəvvüf nöqteyi-nəzərindən onu da izah edir ki, müsəlman əgər bilsəydi ki, büt nədir, ona sitayişin haqqa sitayiş olduğunu anlayardı. Bütpərəst isə bütün nə olduğunu dərk etsəydi, dinindən dönüb günah işlətməzdi. Şair filosof israr edir ki, dinlər, etiqadlar, inanclar, ibadət və itaətlər arasında heç bir fərq yoxdur. İnsanları dini, irqi, cinsi və s. əlamətlərinə görə fərqləndirmək, müsəlmanı xristiandan, birini başqasından üstün tutmaq olmaz. Çünki son məqsəd bütün dinlər və etiqadlar üçün yeganə məbud olan Allahdır. İnsanları fərqləndirən yalnız onların mütləq olan haqqi və onun həqiqətlərini hansı dərəcədə dərk etmələri, cahillikləri və kamillikləri, bu yolda tutduqları məqamdır.

**Ş.Təbrizi.** Ş.Təbrizi insanın qarşısına çox çətin vəzifə qoyur: “Allah-əkbər deyirsən, yəni, Allah ən böyükdür. Onda sən də çalış ki, böyük olasan!” yəni, kamilləşəsən. O göstərirdi ki, Peyğəmbərin yolu ilə getmək zahirən ona təqlid etmək deyil, məsələn, o qovun yeməyibsə, sən də yemə. (Məhəmməd peyğəmbər qovun yemədiyi üçün məşhur sufi şeyxi Bayəzid Bəstami də qovun yemirmiş), Peyğəmbərin yolu ilə getmək odur ki, o, Meraca gedibsə, sən də onun ardınca get!”

XIV-XV əsrlərdə yaşamış Şeyx Sədrədinin (Səfəvi təriqətinin qurucusu Şeyx Səfi Ərdəbilinin nəvəsi) müridi olmuş sufi şeyxi və şairi Seyyid Əli bin Harun bin Əbülqasim Hüseyni Təbrizi (Qasimi-Ənvar) “Məscid ilə meyxanə, ya Kəbə və bütxanə” rədifli qəzəlində yazırdı:

*Məscid ilə meyxanə, ya Kəbə və bütxanə*
*Məqsud məhəbbətdir, baqi (daimi, əbədi) bütün əfsanə.*

**Hürufilik və Nəsimi.** Hürufiliyi fərqləndirən cəhətlərdən biri də onların hürufiliyi monoteist dünya dinləri ilə bərabər tutmaları və fərq qoymadan eyni mahiyyətdə görmələri ilə bağlı idi. Onlar musəvilik, xristianlıq, islam və hürufilərin dini kitabları sayılan Tövratı, İncili, Quranı və Cavidannaməni eyni dərəcədə Allahın kəlamı hesab edir, bu dinlərin peyğəmbərləri - Musa, İsa, Məhəmmədi, eləcə də Fəzlüllahı Allahdan gəlmə peyğəmbərlər olaraq qəbul edirdilər.

Bu barədə Nəimi “Cavidannamə”də yazırdı: ”Ənbiyalar demişdi ki, bir vaxt məsih gələcək və küfrü aradan qaldıracaqdır. Xalq hamısı Allahı tanıyan olacaq. Belə ki, aləmdə zahir və batil, yuxu və xəyal, xeyir və şərin mahiyyəti də ilahi kəlmələrdə ifadə olunmuşdur. Məsih zühür edərək küfr və məzhəbi aradan qaldırdıqda dillərin də fərqi yox olacaq, adamlar qəribə bir dildə danışacaq. Bu mülahizə Fitrosun kitabında da vardır. Məsih demişdir ki, mən həm bütün şeylərdə varam, həm də onlarda yoxam. Uzunluq, en, dərinlik, rəng – cismani keyfiyyətlərdir. Bunlar da məndən uzaqdır. Yəni, mən Allahın sözüyəm, Allahda da bu keyfiyyətlər yoxdur. Əgər biri soruşsa ki, nə üçün təkcə Məsih ilahi gəlmədir? ...”

Nəsiminin şeirlərində də peyğəmbərlərin Allahlığı və Fəzlin onlara bənzəməsi haqqında bir sıra nümunələr vardır. Fəzlüllaha görə, dünyanın üç təməl dönəmi vardır: peyğəmbərlik (Nübüvvət), imamlıq (İmamət) və tanrılıq (Uluhiyət). Peyğəmbərlik dönəmi Adəm ilə başlamış Məhəmməd ilə sona çatmışdır. İmamlıq dönəmi Əli ilə başlamış və on birinci imam Həsən Əsgəri ilə bitmişdir. Tanrılıq dönəmi isə Fəzlüllahla başlamışdır. Bütün peyğəmbərlər “Mehdi” olan Fəzlüllahın xəbərçisi və müjdəçisidirlər. Fəzlüllahdan sonra gələcək olan “Kamil insan” (İnsan-i kamil) Fəzlüllahı qəbul etmək məcburiyyətindədir. Fəzlüllah musəvilərin gözlədiyi “Məsih”, xristianların və müsəlmanların göydən yerə enəcəyinə inandıqları “İsa”dır. Hürufiliyin mərkəzi ideyalarından birini təşkil

edən Fəzlüllahın allahlıq ideyası İsa Məsih haqqında ehkama bənzəyir. Onlar belə hesab edirdilər ki, İsa Məsih Allahın yanına qayıda bilibsə, deməli, Fəzlüllah da, başqa imanlı hürufilər də Allahın yanına qayıda bilərlər. Hürufilər Allaha məhəbbət, Allahı həm də öz varlığında görə bilmək qabiliyyəti nəticəsində Allaha qovuşmağa bununla əbədiyyətə nail olmağa inanırdılar.

Nəsiminin şeirlərində də peyğəmbərlərin Allahlığı və Fəzlin onlara bənzəməsi haqqında çoxlu nümunələr vardır.

"Söz" rədifli qəzəlində Nəsimi deyir:

*Kafi nundan vücuda gəldi cahan,*
*Əgər anlar isən, əyandır "söz".*
*İsiyi-pak, Adəmü-Əhməd,*
*Mehdiyi-sahibüz-zəmandır "söz".*
*"Cavidannamə"yi gətirgil ələ,*
*Ta biləsən ki, nəsnəcandır "söz".*
*Sözə bu izzü cah yetməzmi,*
*Kaydalar Fəzlü-qeybdandır "söz".*

Şair burada cahanın kafi-nundan yarandığına işarə edərək, İsa Məsih ilə "adəmü-Əhməd" adlandırdığı Məhəmməd peyğəmbərin ilahiliyini vurğulayır. "Fəzlü-qeybdan" deməklə Fəzlin ilahiliyinə və ölməzliyinə işarə edir.

Bir cəhəti qeyd edək ki, istər Fəzlin, istərsə də Nəsimi və digər hürufilərin yaradıcılığında hürufilərin İsa peyğəmbərə xüsusi rəğbəti hiss olunur. Çox böyük ehtimalla bu istək xristianlığın Allah-insan, Allah oğul konsepsiyası ilə bağlı idi. Çünki, bu konsepsiya hürufilərin Allahın insanda təcəllası konsepsiyasına yaxın idi və Fəzlüllahın da İsa peyğəmbər kimi ilahiləşdirilməsinə əsaslanırdı.

Tanrı hər şeyi qapsayır və Tanrıya gedən yol birdir. Bu yol nə şiəlik yolu, nə sünnilik yolu, nə yəhudilik yolu, nə xristianlıq yoludur. Bu yol - insanlıq, mənəvi təkamül, kamil

insan yoludur və Nəsimi də "yol", "ərkan" deyərkən məhz bu insanlıq marşrutunu nəzərdə tutur və bu yoldan çıxanlara "əgrinəzər" deyirdi.

## *7. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan maarifçilərinin dünyagörüşündə tolerantlıq və multikultiralizm ideyaları*

Azərbaycan maarifçiliyi bir-birindən fərqli iki mədəniyyətin toqquşması nəticəsində yaranan ictimai-mədəni dirçəlişdir. Bu maarifçilik bir çox cəhətlərə görə bir-birindən fərqlənən mədəniyyətlərin, ənənələrin, mentallığın qızğın mübarizəsi mühitində inkişaf etmişdir. O, Şərqlə Qərbin dialoq və görüş formalarından biridir. Azərbaycan tarixi boyu bir neçə sivilizasiyaların toqquşması nəticəsində bir çox dirçəliş mərhələləri yaşamışdır. Maarifçilik həmişə və hər yerdə milli intibahın, milli özünüdərkin, istisnasız bütün sahələrdə və çağdaş mənada etnik mentalitetin, ədəbi dilin və realist milli ədəbiyyatın ən qəti təşəkkülü dövrünün ideoloji hadisəsi kimi yaranır, bütünlükdə xalqın tarixi, taleyi ilə bağlı məsələlər qaldırır və onları xalq, millət miqyasında da həll edir.

Xalqın iqtisadi-mədəni həyatda mövcud problemlərini duyan, onların tərəqqisinə təkan verən görkəmli Azərbaycan maarifçilərindən biri də M.F.Axundzadə olmuşdur. O, maarifçi-realist metodun ədəbiyyat tariximizdə böyük nümayəndəsidir. Fikir azadlığını tərəqqinin əsası hesab edən Mirzə Fətəli yazır: "Canlılar aləmində insan daima tərəqqi tələb edən bir növdür və fikir azadlığı olmadan tərəqqi mümkün ola bilməz. Tərəqqinin nəticəsini zəmanəmizdə sivilizasyon adlandırırlar. Sivilizasiyon elə bir ümumi sözdür ki, onun məzmununda bütün sənətlər, fəndlər, qüdrəti-dövlət, millətin asayişi və mədəniyyətin bu kimi şərtləri cəm olmuşdur. Əgər cəmiyyət öz

fərdlərinə fikir azadlığı verməzsə, onları ata-babanın və övliyaların qərar verdikləri şeylərlə kifayət etməyə və bunlardan kənara çıxmamağa və ağıllarını mədəniyyət işlərində işlətməyə məcbur edərsə, bu sürətdə fərdlər yer əkən, məhsul toplayan və hər bir işi düşünmədən və fikir etmədən görən avtomat olarlar; və ya onlar dəyirman atlarına bənzərlər ki, hər gün müəyyən dairədə dolanarlar və öz vaxtında da arpa-saman yeyib su içər və yatarlar, sonra yenə oyanıb haman dünənki dolanışı dünyanın axırına qədər təkrar edərlər. Və bu biçarə atların hərgiz xətri olmaz ki, dünyada çəmənlər, otlaqlar, çayırlıqlar, çiçəkliklər, meşələr, dağlar və dərələr vardır; əgər bağlı olmasaydılar, dünyada gəzərdilər və o könül açan yerləri görərdilər və dünya nemətlərindən tamamilə faydalanmış olardılar. O, bərabərliyi insan tərəqqisinin özülü sayırdı, hesab edirdi ki, o, konstitusiyanın əsasında durmalıdır. Mənəvi, milli və ictimai bərabərlik tələblərini Axundzadə dialektik vəhdətdə və qarşılıqlı əlaqədə ələ alır, azadlıq və hüquq, hakimiyyət və maarif problemini həm fərd, şəxsiyyət, həm də cəmiyyət və xalq miqyasında irəli sürürdü.

Böyük mütəfəkkir qeyd edirdi ki, "...Bəşər övladına səadət və qurtuluş o zaman nəsib olacaqdır ki, istər Asiyada və istərsə də, Avropada insanın şüuru tamamilə əbədi həbsdən xilas olsun və bütün işlərdə də, təfəkkürdə də, hadisələr deyil, insanın ağlı yeganə dəlil, sənəd və hakimi - mütləq olsun”.

Şərqin dinçi, heç bir düşüncə və din pluralizminə haqq tanımayan qaranlıq kültüründə Axundov ilk dəfə olaraq sekularizm sözünü tələffüz etmiş, dinin siyasətdən ayrı olması zərurətini ifadə etmişdir. O, öz nəzərlərini konstitusiya quruluşunun təsdiqləndiyi Avropa ölkələrinə istiqamətləndirirdi. Beləliklə, Axundov Şərqin müsəlman mütəfəkkirləri arasında ilk olaraq konstitusionalizm ideyalarını dəstəkləyən mütəfəkkir idi. Mən elə bir dinə üstünlük verə bilərdim ki, onun vasitəsilə insan bu dünyada azad və xoşbəxt yaşaya biləydi.- deyirdi

Heydər Hüseynovun fikrincə, M.F.Axundov öz xalqını savadlı görməyi çox istəyirdi. Buna görə də ilk növbədə Azərbaycan xalqı tərəfindən yeni əlifbanın (latın əlifbası) qəbul edilməsini zəruri sayırdı. O, bildirirdi ki, ərəb əlifbası elmin və mədəniyyətin inkişafına, geniş xalq kütlələri arasında maarifin yayılmasına böyük maneə yaradır. M.F.Axundov əlifba islahatını elmi cəhətdən əsaslandırmış və praktiki olaraq yeni əlifbanın qəbul edilməsi Şərqdəki mədəni inqilab uğrunda mübarizə aparırdı. Bu iş uğrunda yorulmadan, cəsarətlə mübarizə aparan Axundov yazırdı: “Mənim əlifbam yüz ildən sonra şərq ədəbiyyatında öz layiqli yerini tutacaq... Bu əlifba ilə yeni əsərlər yazılacaq, həmçinin onun hərfləri ilə köhnə kitablardakılar oxuculara çatdırılacaq... O zaman mənim məqsədimə nail olunacaq və mən qabaqcadan arxayın ola bilərəm, baxmayaraq ki, o xoşbəxt günü görməyəcəyəm”.

Dünyagörüşü Şərq fəlsəfəsi ilə yanaşı XVII – XVIII əsrlər Avropa, daha çox Fransa materialistlərinin baxışları əsasında formalaşan Mirzə Fətəli “Həkimi-ingilis Yuma cavab”, “Yek kəlmə haqqında” əsərlərində qəti olaraq Qərb idealizminin, təsəvvüfün, Şərq arestotelçiliyinin, babilər məzhəbinin mistik nəzəriyyələrinə qarşı çıxırdı. Məktublarının birində qayəsini izah edən alim və maarifçi yazırdı: “Mənim məqsədim islam xalqlarını sarsıdan cəhaləti aradan qaldırmaq, elmləri, sənətləri inkişaf etdirmək, xalqımızın azadlığı, rifahı və sərvətinin artması üçün islamiyyətdən əvvəl babalarımızın malik olduğu şan və şöhrətinin bərpa edilməsi üçün ədalətə rəvac verməkdir”.

M.Fətəlinin A.S.Puşkini yaxından tanıyıb duyması dərin məhəbbətlə sevməsi ən çox Belinskinin əsərləri ilə tanışlıqdan irəli gəlirdi. M.Fətəli Rusiyada dünyəvi elmlərin banisi Lomonosovun, şair Derjavinin, Karamzinin əsərlərini oxuyub, onların ədəbi fəaliyyəti ilə yaxından tanış olurdu. Belə bir vaxtda A.S.Puşkinin öldürülməsi (1837-ci il yanvarın sonu) kimi bədbəxt və gözlənilməz bir hadisə üz verdi. Bu hadisə

bütün Rusiyanı sarsıtdı. Ölkənin hər yerində bu xəbər milli matəm kimi qeyd edilirdi. M.Fətəli 1837-ci ildə xəyanətin qurbanı olan bu böyük şairin faciəsinə çox təsirlənmişdi. Bu münasibətlə o, özünün ən yaxşı şeiri olan "A.S.Puşkinin ölümünə Şərq poeması"nı yazmışdır.

**Əhməd Ağaoğlu.** Əhməd Ağaoğlunun yaradıcılığında xüsusi yer tutan "Üç mədəniyyət" traktatı 1920-ci ildə Maltada sürgündə ikən yazılmış, lakin ilk dəfə 1927-ci ildə İstanbulda çap olunmuşdur. Mədəniyyətdə dil ortaqlığı amilini şərq və qərbin timsalında müqayisə edən ədib yazır ki, "... bu gün ən azı üç Avropa dilini - fransızcanı, inciliscəni, almancanı bilməyən ciddi bir avropalı alim və ədibinə həmən-həmən rastlanmaz. Bunlar zatən ortaq olan və Avropa mədəniyyəti amillərindən bulunan əski yunan və latıncanı da ta çocuqluqlarından öyrənirlər. Bir zamanlar bu iki dil, İslam aləmində ərəbcə və farsca kimi, Qərb aləmində ortaq elm və ədəbiyyat dili idi. Bütün alimlər latınca yazarlardı".

Şərq mədəniyyətinin tənəzzülünü və zaman-zaman öz yerini Qərb mədəniyyətinə tərk etməsinin səbəbini şərqdə fəzilətin hökmdara, qərbdə isə qanunlara itaətdə dərk olunması ilə xarakterizə edən müəllif "həyat tərzi" kimi mənalandırdığı mədəniyyət amilinin müxtəlif tərəflərinin (ailə, dövlət, hökumət, din, təlim-tərbiyə, əxlaq və s.) bu kontekstdə təfsirini verir.

"Üç mədəniyyət" əsərində millətin əxlaqının formalaşmasında dindən sonra ən çox ədəbi və fəlsəfi əsərlərin rol oynadığını göstərən Ağaoğlunun fikrincə, "bizim ta dünənə qədər təqlid etdiyimiz ədəbiyyat və fəlsəfə əsərlərinin nümunələri ərəb və fars mənbələrindən alınmış olanlarıdır. Bunların arasında bu gün əsrin ruhuna müvafiq, onu təmin edəcək tək bir əsər göstərilə bilərmi? ".

Bu səbəblər sırasında, Ağaoğlunun yazılarında da gördüyümüz kimi, islam cəmiyyətlərinin durğunluğu, idarəçilərin və üləmanın insani qüsur və ya yetərsizliyindən qaynaqlanan

problemlər, cəhalət və təəssüb, qadının ictimai həyatda passiv iştirakı, zehni və elmi düşüncəyə qapalılıq, qədərçilik, despotizm və s. göstərilməkdədir.

İslam aləminin tənəzzülünü dinin təməllərinə bağlamaması, ona bir sıra yönlərdən haqq qazandırmaqdadır. Bu mövzudakı təhlillərində o, islam dininin mövcud vəziyyətini xristianlığın vaxtilə yaşadığı analoji proseslə müqayisəli şəkildə araşdırır və tənəzzülün dinin mahiyyətindən qaynaqlanmadığına dair analitik mühakimələr yürüdür.

Müəllifə görə, "millətçilik özü-özlüyündə hörmətə layiq, hətta möhtəşəm bir hadisədir, çünki o, xalqların həyatında bir zərurətdir. Mən hətta düşünürəm ki, bəşəriyyətin təkamülü tarixində millətçilik dindən sonra insan ruhunun ikinci böyük mərhələsidir. O, tarixdə ən böyük qəhrəmanlıqların nədəni olmuş, yenə də olacaq. Onsuz bir sıra xalqlar yenə də yadların zülmü altında inləməli olacaqdı və məhz onun sayəsində hələ bir çoxları uyğun çıxış yolu tapacaq... Həqiqi, dürüst, sonunadək özünə sadiq qalan millətçi, özününkünü müdafiə edərkən, başqasınınkı üzərində hər hansı zülmü də rədd etməlidir". Amma hakim millətçilik bu zaman Rusiyada azlıqlara qarşı nifrət püskürür, onları assimilə etməyə çalışırdı. Məsələn, "Novoye vremya" jurnalının yazarı Menşikov erməniləri, bolqarları, serbləri və başqa azlıqları dilindən imtinaya məcbur etmədiyi, onlara zorla İslamı qəbul etdirmədiyi, başqa sözlə, assimilə etmədiyi üçün Osmanlını "axmaq" adlandırır. Əhməd bəy Ağayev rusiyasayağı bu tip millətçiliyi, müasir terminlə ifadə etmiş olsaq, şovinizmi rədd edir.

Avropa ölkələrindən öyrənməyin vacib olduğunu deyir, Avropa tarixində millətçiliyin oynadığı müsbət quruculuq rolundan bəhs edir və göstərir: "... cümlə millətlərin ən parlaq mərhələləri haman "millətçilik" deyilən dövrələridir! Əlan ümum dünyanı heyrətdə qoyan, ümum dünyaya hökmfərma olan, o moşəşe (parlaq), o müqtədir, öz ülum, sənayesi ilə övci-əlayə (yüksəklərə) çatmış Fransanı, İngiltərəni, Alma-

niyanı, İtaliyanı bu əzəmətə, bu həşəmətə çıxaran haman millətçilik, haman nasyonalizm dövrəsi oldu!”. Əhməd bəy başqa məsə-lələrlə yanaşı, hər millətçiliyin müsbət olmadığı fikrində də israr edir. Rusiyada Pruşkeviçin millətçiliyi ilə Turgenevin millətçiliyi arasında böyük fərq olduğunu izah edir. Elə buradaca o, öz millətinin eyiblərini, başqa millətlərin müsbət keyfiyyətlərini gizlətməyi xəyanət sayır: “Həqiqi millətçi millətini tənqid etməkdən, millətinin eyyubatını (eyiblərini), qüsuratını görkəzməkdən, millətinin azarlarını, dərdlərini arıyıb da açıq-açığa deməkdən nəinki çəkinmiyorlar, bəlkə bir an böylə qafil olmuyorlar. Və həmçinin həqiqi millətçilər qeyri millətlərin arasında olan gözəl sifətləri, gözəl adətləri, gözəl binaları öz milləti üçün imtisal edüb (örnək bilib), millətini bu gunə şeyləri əxz etməyə təhrik və təşviq etməkdən çəkinmiyorlar”.

“İslama görə və islamiyyətdə qadın” əsərində Ə.Ağaoğlu yazırdı: “Quranın tekisti (mətni) İslamın peyğəmbəri, onu ilk dəfə Xristosun təlimi ilə tanış etmiş sabinləri necə də nəcib minnətdarlıq hissləri ilə xatırlayır. İsanın iztirabları haqqında, Onun mövludu, Məryəm, “İlahi ruh”un anası haqqında bəhs olunan yerlər elə dərin həyəcan, şəfqət və ehtiram ifadə edir, o qədər ülvi və əzəmətlidir ki, buna Quranın üslubunda nadir hallarda rast gəlmək olar.

Müsəlmanlar arasında Məryəm bəzi xristian sektalarda olduğundan daha hörmətlidir. O, Allahın seçdiyi günahsız, saf bir qızdır; Məhəmməd ona qarşı dərin ehtiram hissləri bəsləyir; öz qızı Fatimə haqqında o deyir: “İlahi ruhun anası olan Məryəmdən sonra Fatimə ikinci qadındır”. O, İsanın təlimini özünəməxsus tərzdə dərk etmişdi və Məhəmmədin yaratdığı din, onun təbirincə, İsanın dininin təhrif olunmasına qarşı etirazın təzahürü idi; Quranda tez-tez təkrar olunur: “Mən İsanın təliminin həqiqətlərini bərpa etmək üçün gəlmişəm”.

# MÖVZU 3

## Multikulturalizm siyasəti və multikultural modellər

**Plan:**

1. Qərb ölkələrində multikulturalizmin meydana gəlməsinin tarixi səbəbləri. Qərb ölkələrində multikulturalizm siyasətinin nəzəri - ideoloji əsasları (Artur Şlezinqer-kiçik, Maykl Lind, Natan Qleyzer, Riçard Bernstayn)
2. Qərb ölkələrində etnik – mədəni müxtəlifliyin yaranmasında immiqrasiya prosesinin rolu. Avropa ölkələrində (Böyük Britaniya, Almaniya, Fransa) multikulturalizm
3. Kanada, Avstraliya, Cənubi Afrika Respublikasında multikulturalizm. ABŞ-da multikulturalizm siyasətinin xüsusiyyətləri. "Əridən qazan" ("Melting pot") konsepsiyası
4. Qərb ölkələrində multikulturalizm siyasətinin iflasa uğramasının səbəbləri. Rusiyada multikulturalizmin meydana gəlməsinin tarixi şərtləri və səbəbləri. Müasir dövrdə Rusiyanın etnik-mədəni problemləri. Rusiyada immiqrasiya prosesləri. Rusiyada Azərbaycan əmək miqrantları.

### *1. Qərb ölkələrində multikulturalizmin meydana gəlməsinin tarixi səbəbləri. Qərb ölkələrində multikulturalizm siyasətinin nəzəri-ideoloji əsasları (Artur Şlezinqer-kiçik, Maykl Lind, Natan Qleyzer, Riçard Bernstayn)*

Qərb ölkələrində multikulturalizmin meydana gəlməsi əsasən orta əsrə təsadüf edir. Ümumi mənada qərb ölkələri həm öz aralarında, həm də islam, çin və digər sivilizasiyalar ilə bu dövrdə ciddi şəkildə münasibət qururdular. Bu da öz növbəsində multikultural əlaqələrin yaranması demək idi.

Qərb ölkələrində multikulturalizmin əsasları XVI əsrdən başlayaraq Con Lok, Stuart Mill, Tomas Hobbs, Monteskyö, Viko və Herder kimi mütəfəkkirlərə istinad edən və müasir dövrdə Con Roulz, Con Raz, Vill Kimlika kimi multikulturalizm mütəxəssisləri tərəfindən təmsil olunan "Liberal-Konvensional" multikulturalist anlayış və vətandaşlıq modelidir. Digəri isə hazırda Çarlz Taylor, Maykl Valzer və Alasdair Makintayr kimi nəzəriyyəçilər tərəfindən dilə gətirilən "Kommuniteryanist" baxış təzidir.

Con Lok ve Stuart Mill kimi klassik liberallar dövründə dövlət artıq, tarixi reallıq idi. Bu baxımdan liberallıq intellektual və siyasi əhəmiyyət qazandıqca dövlətin xüsusiyyətləri də müəyyən olunurdu. Qanunun üstünlüyü, vətandaşların bərabərhüquqluluğu, fərdlərin hüquq və öhdəliklərin daşıyıcısı olması nəticəsində dövlət, vətəndaş ilə dövlət arasında birbaşa münasibətlər qurulmasını təmin etdi.

Klassik liberalizm Yunan rasionallığından və xristian universalizmindən təsirlənmişdir. Klassik liberallar yunan rasionalistləri kimi tənqidi rasionalizm, seçim və fərdi azadlıq kimi dəyərlərə istinad edən həyat görüşünü müdafiə edirdilər. Ancaq yunanlı rasionalistlərin əksinə, onlar ağlı daha təvazökar və praktiki terminlər ilə ifadə edərək universallığı vurğulayırdılar. Məhz Lokka görə tanrı insanları var edib həm hüquqlar, həm də vəzifələr vermişdir. Lokk təbii hüquq nəzəriyyəçisi idi. Mill isə praqmatikdir.

XVIII əsrdən etibarən Viko, Monteskyö, Herder və Monten kimi müəlliflər multi mədəniyyətin labüd olduğunu və vacib olduğunu vurğuladılar. Məhz Vikoya görə hər bir mədəniyyət özünəməxsus xüsusiyyətlərə malik olaraq müxtəlifliyi təşkil edir. Monteskyö "Qanunların ruhu" adlı əsərində mədəni müxtəlifliyi psixoloji deyil, sosioloji və siyasi baxımdan tədqiq etmişdir. Monteskyönun "Fars Məktubları" əsəri də multikulturalizmin klassik mənbələrindən hesab olunur. Herder isə klassik multikulturalizmdə

dili önə çıxarır və belə ifadə edirdi: “Hər millət düşündüyü kimi danışır, danışdığı kimi düşünür”. Ona görə məhz insan bir cəmiyyət daxilində formalaşır və dəyərlər əldə edir.

Modern dövlət konsepsiyasında tək tip insan və tək tip mədəniyyət anlayışı qəbul edilməzdir. Bu movzuda məşhur mütəfəkkir Volter hələ XVIII əsrdə belə deyirdi: “Fikirləriniz ilə razı deyiləm. Ancaq onları ifadə etmə haqqınızı axıra qədər müdafiə edəcəm“. Bu anlayış birbaşa bütün sahələrdə multikulturalizmin əsasını təşkil edir.

Belə ki, tarixdən də məlum olduğu kimi, İkinci Dünya müharibəsindən əvvəl Qərbdə etno-mədəni və dini müxtəliflik bir sıra anti-demokratik hakimiyyətlər tərəfindən təzyiq altında idi. Bu, eyni zamanda, bəzi irqçi hakimiyyətlər tərəfindən də normal qəbul edilirdi. Ancaq İkinci Dünya müharibəsinin başa çatması nəticəsində qlobal arenada insan hüquqları, irqlərin və xalqların bərabərhüquqlu olması və s. məsələlər istiqmətində siyasət və hüquqi anlayışlarda reformaların həyata keçirilməsinə gətirib çıxardı. Qısacası, multikulturalizm Avropada köhnə etnik və iyerarxiya modellərinin yerinə yeni demokratik vətəndaşlıq münasibətlərini bərpa etmə vasitəsi olaraq ortaya çıxdı və bu istiqamətdə uğurlar əldə edilməkdədir.

Qərb ölkələrində multikulturalizm siyasəti bir çox aspektdən aktuallıq kəsb edir. Belə ki, liberallar ilə kommunitaryan və ya kollektivistlər bu istiqamətdə fərqli nəzəri-ideoloji əsaslara malikdirlər. Klassik liberalizmdən fərqli olaraq, müasir liberallar həm müştərək insan təbiətini, həm də insanların mədəniyyət ilə iç-içə olduğunu qəbul edilrər. Con Rouls təməl əxlaqi müxtəliflik və fərqli yaxşı məfhumlarının meydana gətirdiyi problemlər ilə, Kimlika müxtəliflik və fərqli həyat tərzlərinin meydana gətirdikləri ilə, Raz da ikisi ilə bilikdə maraqlanır. Rolusun “Bir Ədalət Nəzəriyyəsi” adlı kitabı etik plüralizm mövzusunda sistemli bir kitabdır. Raz “Azadlığın əxlaqı” əsərində xoşbəxtliyi axtarmağın həyatın

məqsədi, qayəsi olduğu və bunun həyat boyunca uğur və faydalı məqsədləri də əhatə etdiyi şəklində Aristotelçi görüşü əsas alır. Vil Kimlika "Multikultural vətandaşlıq" adlı əsərində insanların xoşbəxt həyat əldə etmələri üçün iki prinsipə sadiq qalmalarını vurğulayır. Birincisi, insanların həyatlarını içdən, yəni nəyin yaşamağa dəyər qazandırdığına dair dəyərlərə görə yaşamalıdırlar. İkincisi, xəta etdikləri və hər an malik olduqları dəyərləri analiz etmədə azad olmalıdırlar.

Çarlz Taylor Russoya istinad edərək digər insanlar ilə olan münasibətlərimizin dialoqa əsaslandığını vurğulayaraq demokratik çərçivdə də hər hansı bir cəmiyyətdə fərdi kimliklərin ictimai dialoqlar nəticəsində yarandığını iddia edir. Bu nəzəriyyə "Tanınma" adlanır. Kommunitarian mənada iki prinsip vardır burada. Fərdlər olaraq insan hüquqlarının qorunması, ikincisi isə fərdlərin mədəni ictimai sferalara aid olması. Bu mənada Volf, Mişel Valzer liberal demokratiya mövzusunda Taylorun görüşünü təhlil edirlər. Digər tərəfdən Alasdair Macintyre "Əxlaqın ardınca"(after virtue) əsərində etik qayda və qanunların fərddən daha çox ictimai, toplu şüurda meydana gəldiyini vurğulayır. Kommunitarian görüşə malik olaraq Makintayra görə qrup və cəmiyyətdən müstəqil fərd öz başına inkişaf edə bilməz.

İlk olaraq fərdiyyətçiliyi əsas alan multikulturalizm konsepsiyası fərdlərin qrup xüsusiyyətinə baxmadan hər bir fərdin bərabər olduğu və qanun qarşısında bərbaər hüquqlara malik olduğu düşüncəsinə istinad edir. Məhz liberalizmin əsasını təşkil edən bu fərdiyyət anlayışı azadlıq, ifadə etmə və istədiyi kimi inanma hüquqlarını təməl hüquqlar olaraq qəbul edir. Con Rolz bunu özünün məşhur ədalət nəzəriyyəsi ilə əsaslandırır: "Ədalət anlayışı bir neçə şəxsin öz həyatını əksəriyyətin xoşbəxtliyi naminə fəda edilməsinə icazə verə bilməz. Beləliklə, ədalətli bir cəmiyyətdə bərabərhüquqlu azadlıqlar əsas alınır və bunlar ictimai maraqların və siyasi tələblərin mövzusu halına gətirilə bilməz". Burada, Rolzun məq-

sədi liberal demokratik cəmiyyətlər üçün sosial əməkdaşlıq modelinin yaradılmasıdır. Nəticədə, Rolzun nəzəriyyəsi, eyni zamanda, ictimai mahiyyət daşıyır və cəmiyyət fərdlərinin inteqrativ münasibətlərinə istinad edir.

Kollektiv hüquqularda isə fərdiyyətçiliyə yer verilməklə birlikdə bu fərdlərə daha çox kollektiv və ya qrup kimliyinin və məqsədinin daşıyıcıları olaraq baxılır. Qısaca olaraq fərd və qrup mübahisəsində fərdiyyətçilər fərdin qrup və ya kollektivdən daha əvvəl gəldiyini iddia edirlər. Qrup və ya kollektiv hüquqların ilkinliyinə inananlar isə hər bir fərdin bir qrup və ya kollektiv içində dünyaya gəldiyini və mənliyini orada formalaşdırdığı üçün qrupu, fərdin var olma şərti olarq irəli sürürlər. Bu, eyni zamanda, liberallar və kommuniter-yanlar termini ilə də ifadə olunur. Məhz kommunitaryan baxış tərzinin müdafiəçisi Vill Kimilkaya görə, fərdlər cəmiyyət tərəfindən qəbul olunan sərhədləri aşdığında ictimai həyatda xaoslar yarana bilir. Digər tərəfdən isə insanlardan sadəcə fərdi azadlıqları ilə kifayətlənmələrini istəmək ehtiyaclara tam cavab verməz. Məhz liberal demokratik baxış tərzi müxtəlif-liyə universal insan hüquqları və azadlıqları çərçivəzində baxır.

Bu mövzuda Yurqen Habermas etno-mədəni siyasəti pioritet qəbul edən siyasi baxışlar ilə, fərdi hüquqların univer-sallığına dair siyasi baxış tərzinin mənimsənilməsinin ayrıseç-kiliyə səbəb ola biləcəyini qəbul edir. Ancaq burada Habermas, konstitusional vətandaşlığı və demokratiyanı müx-təlifləri də əhatə edəcək şəkildə əsaslandırır: “Konstitusio-nal prinsiplərin içində yer aldığı siyasi hakimiyyət daxilində bütün vətandaşlar eynidir. Məhz multikultural cəmiyyətdə siyasi strategiya, müxtəlif həyat anlayışlarının plüralizmini və inteqrasiyasını şüurlu şəkildə təşviq edən konstitusional vətandaşlığa istinad etməlidir”.

Multikulturalizm, siyasi və iqtisadi bərabərsizlik məsə-lələrini yox sayacaq şəkildə mətbəxdəki, qiyafətlərdəki, və

musiqidəki müxtəliflikləri göstərmək və istehlakçısı olmaq ilə əlaqədar olduğu zaman paradoksal mahiyyət alır.

**Artur Şlezinqer (**1917-2007), fərdi liberalizmin Amerikadakı liderlərindən biridir. Ona görə Sovet İttifaqının da təsiriylə 1933-cü ildən etibarən Amerika fərdi liberalizmin mahiyyətini dərindən anlayaraq bu istiqamətdə inkişaf etməyə başlamışdır. Demokratiya, daxili əxlaqi gücün dağıdılması və fanatiklik deyildir. Bu mənada plüralizm doqmatiqliyi darmadağın edər. Multikulturalizm sahəsində ən bilinən əsəri isə 1991-ci ildə nəşr olunan “Disuniting of America” adlı əsərdir.

**Maykl Lind** 1962-cı ildə Amerikada anadan olmuşdur. Yazıçı və hüquqşünasdır. “Harper`s Magazine. New-Yorker” jurnallarında redaktorluq etmişdir. Amerika siyasətinə, tarixinə dair kitablar yazmışdır. Multikulturalizm kontekstində Amerikanın xarici siyaasətini analiz edir. Lində görə 1960-cı illərə qədər Amerika orta şərq siyasətini, Sovet İttifaqının ABŞ-ın Avropadakı müttəfiqlərinə göz dağı verməsinə mane olmaq üçün inkişaf etdirirdi. Məhz Amerika, israil lobbiisi ile orta şərqdəki neft siyasətini birgə həyata keçirirdi. Sovet İttifaqının çökməsi ilə ABŞ körfəz ölkələrinə, Orta Asiyaya yerləşdi. İsrail lobbisi amerikan siyasətini orta şərqdə müəyyən edir.

**Natan Qlazer** 1923-cu ildə Amerikada anadan olmuşdur. Amerikan sosioloqudur. Kalifgorniya universitetində dərs verir. “Beyond the Melting Pot” adlı məşhur kitabı mövcuddur. Natan Qlazer və Daniel Moynihan tərəfindən etnik qrup məfhumu ciddi təhlil olunmuşdur. Onlara görə, irq termininə müqabil etnik məfhum daha genişdir. Ümumi olaraq, etnik məfhumu məlum olan, öz kimliyinin şüurunda olan ancaq beynəlxalq münasibətlər səviyyəsində hakim siyasi bir bütünlük olaraq tanınmayan tarixi məzmun və müştərəkliyə istinad edən qrup olaraq tərif olunur.

**Riçard Bernşteyn** 1932-ci ildə anadan olmuşdur. Amerikalı filosofdur. Sosial fəlsəfə, hermenevtika və s. mövzularla

məşğuldur. Habermas, Gadamer, Rorty, Çarlz Taylor ilə qarşılıqlı yazıları və polemikaları vardır. “Fusion of horizons” məfhumu ilə multikulturalizmə, mən və başqası fenomenlərinə, xüsusilə Levinasa istinad edərək fikirlərini ifadə edir. *Radical Evil: A Philosophical Interrogation* (Blackwell Publishers, 2002) Bernştein bu kitabda şərin və insani məsuliyyətin mənası haqqında nə öyrənə biləcəyimizi kəşf etməyə çalışır. “Radikal şər” məfhumunu ortaya atan Kant ilə bərabər, Hegel və Şelling kimi filosofları analiz edir. Freyd ve Nitşenin əxlaq psixologiyası üzərindəki düşüncələrini tədqiq edir. Bu kontekstdə yəhudi soyqırımını Levinas, Hans Jonas, Hannah Arendtə istinad edərək dəyərləndirir.

## 2. Qərb ölkələrində etnik – mədəni müxtəlifliyin yaranmasında immiqrasiya prosesinin rolu. Avropa ölkələrində (Böyük Britaniya, Almaniya, Fransa) multikulturalizm

Ümumiyyətlə, avropada multikulturalizmin iki əsas qaynağı vardır. Birincisi milli azlıqlar. İkincisi isə immiqrantlardır.

Bu kontekstdə immiqrantlar üçün multikulturalizm siyasi gücə, istisadi fürsətlərə və vətandaşlığa keçmə kimi imkanları özündə ehtiva edir. İctimai şüur immiqrantların cəmiyyətə daha inteqrasiya olmaları üçün əhəmiyyətli məsələ üzərində durur və bəzi əsas prinsipləri önə çəkir. Öncəliklə, iş mövzusu inteqrasiyanın əsas parçasıdır. İkincisi, inteqrasiya azadlıq, demokratiya, insan hüquqlarına hörmət, bərabərhüquqlu və hüququn üstünlüyü prinsipləri kimi əsas liberal-demokrat dəyərlərə ehtiramı vacib hala gətirir. Üçüncüsü, yaşadığı cəmiyyətin dili, tarixi və qurumları barəsində əsaslı məlumatlar inteqrasiyanın labüd halıdır. Dördüncüsü, ayrıseçkiliyə qarşı qanunlar və siyasətlər daha yaxşı bir inteqrasiya üçün əsasdır.

İmmiqrantlar üçün multikultural vətəndaşlıq açıq şəkildə yerli xalqlar və milli azlıqlar üçün eyni növ haqq iddialarını ehtiva etməz. İmmiqrantlar ümumi mənada torpaq haqları və ya rəsmi dil muxtariyyəti kimi statusları tələb etməzlər. Bu mənada bəzi avropa ölkələrində müvəqqəti immiqrant modeli mövcuddur. Qalıcı immiqrant modeli isə bundan fərqlidir.

Rəsmi statistikaya görə, Avropada 21 milyondan çox immiqrant mövcuddur. Almanyada 7 milyondan çox, Fransada 3 milyondan çox, İngiltərədə 2 milyondan çox, İsveçrədə 1 milyondan çox və İtaliyada 1 milyondan çoxdur. Bu beş avropa ölkəsində immiqrantlar daha çoxluq təşkil edir.

İsveçdə immiqrantlar inteqrasiya proqramında iştirak etməsələr aldıqları sosial haqqlar və faydalar azaldılmaqda və ya ləğv edilməkdədir. Ancaq bu proqramlarda iştirak etmə yaşama hüququ və ya vətandaşlığa keçmə ilə əlaqəli bir şəkildə həyata keçirilir.

Miqrasiya ilə bağlı proqramlarda federal və əyalət hökümətləri inteqrasiya prosesi və artırılmış dil tətbiq etmə kurslarını həm sadə, həm də yüksək səviyyədə təqdim edərək dil qabiliyyəti tələb edən işlərin tapılmasında da köməklik edirlər. Məsələn, 2010-2011-ci illərdə bu proqramla bağlı Kanada hökuməti 1 milyard Kanada dolları xərcləmişdir. Kanada da ingilis və ya fransız dilini bilmək şərtdir. 1914-cü il tarixli Vətəndaşılğa Qəbul Edilmə Qanununa (The naturalization act of 1914) istinad edir.

İmiqrantlar ilə bağlı hazırda inkişaf etmiş ölkələr dil səviyyəsini yüksək tutaraq vətəndaşlıq almaları üçün bəzi problemlərin ortaya çıxmasına səbəb olurlar. Almanya və Fransada vətandaş olmaq üçün immiqrantlar etnik kimlikləri və dini dəyər əlaqələrini müəyyən ölçüdə kəsməli və ya rədd etməlidirlər.

İmmiqrantlar bəzi ölkələrdə problem olaraq görünür. Kanada və Avstraliyada isə dövlət özü bunları seçib alır. Bəzi

məqamlarda isə immiqrantların iqtisadi çətinliklər və öz ölkəsində zülmə məruz qalmalarını bəhanə edərək, yalandan söyləyərək ölkəyə gəlməsi əxlaqi baxımdan onların qəbul edilməsinə etiraz edilir. Eyni zamanda, qanuni və etik baxımdan gəlmək istəyənlərin yerlərini də bu şəxslər alır.

Ümumiyyətlə, son on ildə Belçika, Finlandiya, Yunanıstan, Norveç, Portuqaliya, İspaniya və İsveç kimi ölkələrdə multikulturalizm siyasəti güclənmişdir. Avropa ölkələrində multikulturalizm birbaşa immiqrantlarla bağlıdır və daha çox bu istiqamətdə anlaşılır.

**İngiltərədə** bəzi siyasətçilər multikulturalizm termininin istifadə etməkdən son vaxtlarda çəkinirlər. Daha çox plüralizm, müxtəliflik, mədəniyyətlərarası dialoq və ya ictimai inteqrasiya kimi ifadələrdən istifadə edirlər. Derek Mcghee`nin ifadəsi ilə "İngiltərədə multikulturalizm prinsiplərindən uzaqlaşmaq yerinə" daha çox multikulturalizm termininindən uzaq durma tendensiyasının yarandığı görənir.

İngiltərədə 3 milyona yaxın müsəlman yaşayır. İngiltərədə anqlosakson mentalitetinə və hüquq sisteminə müvafiq şəkildə Almanya və Fransadan fərqli olaraq multikulturalizm burada assimlyasiya funksiyasını yerinə yetirmir. Çünki multikulturalizm siyasəti imperatorluq olan İngiltərə üçün əsas şərtlərdən biridir. Məhz hər hansı bir dinə və etnik qrupa mənsub insan burada asanlıqla dövlət məmuru ola bilir.

İngiltərədə vətəndaşların sivil cəmiyyət ilə inteqrasiyasına dair sosial demokrat ifadə tərzi sağ mühafizəkarların ifadə tərzlərindən daha əhatəedici olması ilə fərqlənməkdə və multikulturalizm ritorikasından daha uzaq duraraq multikulturalizm sonrası termininindən istifadə olunur. Məhz Marqret Tetçerin zamanında multikulturalizm, mühafizəkar olduğuna görə "ölü bir qanun" halına gəlmişdir.

İngiltərədə tətbiq olunan immiqrantlar ilə bağlı hüquqlar qanununa görə bərabərsizlik sadəcə şəxsin öz nəzarəti və ixtiyari xaricində müxtəlif vəziyyətlərin nəticəsi deyil, bu eyni

zamanda, sosial şərt və tarixi şərtlər baxımından fərdləri köçməyə vadar edən səbəblərin nəticəsidir .

**Almanyada** multikulturalizm 1989-cu ildə Berlin divarının yıxılması ilə daha da inkişaf mərhələsinə qədəm qoydu. İmmiqrantlar Almanyada əhalinin 19 faizini təşkil edir. Almaniyada alman olma anlayışı hələ də güclü olduğu üçün immiqrantların alman mədəniyyətinə adaptasiya olması üçün assimliyasiya siyasətini daha çox tətbiq edirlər. Almanya da alman olmayanlar "xaricilər" adlandırılır. Bu ifadə xususi mahiyyət daşıyır. Bu mənada irqçilik Almanyada hələ də mövcuddur. Almanyada ciddi mənada multikulturalizm müzakirələri və mübahisələri aparılır. Hələ 1999-cu ildə Almanyada vətandaş olmaq üçün ana və atadan birinin alman olma qanunu ləğv edildi. Parlament də 2010-cu ildə ikili vətəndaşlığı ləğv etdi.

**Fransada** milli kimlik məsələsi assimlyasiyaedici mahiyyət kəsb edir. Fransada Sarkozi dövründə müsəlman qadınlar üçün niqabın qadağan olunması, ümumiyyətlə, müsəlman qadınların örtünməsi istiqamətindəki problemlər multikulturalizm mövzusunda təyinedici rola malikdir. Bütün multikulturalizm mübahisələri Fransada qadının örtünməsi ətrafında davam edir. Fransa multikulturalizm məsələsində ciddi çətinliklər ilə qarşı-qarşıyadır. Fransada hazırda Fransız tipli bir multikulturalizm modelinə ehtiyac olunduğu vurğulanır. Məhz 2005-ci ildə iki afrikalı gəncin polisdən qaçarkən ölümləri və meydana gələn üsyanlar ciddi şəkildə multikulturalizmə Faransada zərbə vurmuşdur.

### *3. Kanada, Avstraliya, Cənubi Afrika Respublikasında multikulturalizm. ABŞ-da multikulturalizm siyasətinin xüsusiyyətləri. "Əridən qazan" ("Melting pot") konsepsiyası*

**Kanadada** immiqrantların vəziyyəti Avropa və Amerikaya nisbətlə daha yaxşı və idealdır. İmmiqrantların uşaq-

larının təhsili, miqrasiyanın faydalı olduğunu iddia etmələri, müsəlmanlar haqqında daha az qərəzli fikirlərə malik olmalarına istinad edir. Bu, eyni zamanda, Kanadaya köçən immiqrantların intellektual və yüksək əmək fəaliyyəti səviyyəsindən də asılıdır. Kanada tarixində XVIII əsrin axırlarından etibarən XX əsrin əvvəllərinədək anqlofonlar ilə frankofonlar arasında mübarizə getmişdir.

**Avstraliya** da Kanada kimi multikulturalizm siyasəti və vətəndaşlığa istinad edən inteqrasiyanın inkişaf etdiyi ölkələrdən ən mühümüdür. İngilis dilinin öyrənilməsi və liberal dəyərlərin qəbul edilməsi Avstraliyada multikulturalizmin əsaslarıdır. Məhz Avstraliyada multikulturalizm bütün insanlara bərabərhüquqlu davranılmasını aşlıayır. Fərqli mədəniyyətlər liberal dəyərləri qəbul etdikləri zaman bir yerdə mövcud ola bilərlər. 1980-ci ildə isə Avstraliyada multikulturalizm qanunu qəbul olunmuşdur.

Yerli xalqlar ilə bağlı Kanada və Avstraliyadakı aborgenlər, Amerikadakı Qızıldərililər üçün 1960-cı illərin axırlarından etibarən torpaq mülkiyyəti haqları, muxtariyyət, öz ənənəvi hüquqlarının tanınması istiqamətində multikultural vətəndaşlıq modelləri ortaya çıxmışdır. Kanada da kvibeklər üçün ciddi şəkildə imtiyazlar mövcuddur.

Kanadaya immiqrantlar müxtəlif ölkələrdən gəlir və etnik baxımdan bu fərqlilik 15 faizi keçmir. Kanadada immiqrantların işləməyib dövlət yardımıyla yaşamaları da etiraz ilə qarşılanmaqdadır və bu “səxavətli xəyanət” olaraq qiymətləndirir.

**ABŞ-da** tək mədəniyyətlilik düşüncəsi müxtəlif yerlərdən gələn immiqrantları, etnikləri, assimilyasiya edərək “melting pot” (əridən qazan) adlandırdıqları, yəni immiqrantların dəyərlərini tərk etmələrini, kimlikləri və həyat tərzlərindən vaz keçmələri ortaya çıxdı. Belə bir ayrıseçkilik, siyasi hərəkatın da baş verməsinə səbəb oldu. Martin Luther King və ya Malcolm kimi şəxslər tərəfindən idarə olunan “Civil

Rights Movement", və ya "Black Pride" hərəkatı tərtəfindən idarə olunurdu.

ABŞ-dakı "melting pot" adlandırılan model bəzilərinə görə assimlyasiyanın ABŞ-dakı adıdır. Bu nəzəri olaraq doğru deyil. Bunun yerinə mədəniyyətlərin adətən bir təkamül keçirərək yeni bir ortaq mədəniyyət yaratması əsasına dayanır.

ABŞ-da multikulturalizm, eyni zamanda, cəmiyyətdən uzaqlaşan, etnik məzmun və mahiyyəti olmayan sosial qrupları da əhatə edəcək şəkildə başa düşülür. 1970-ci ildən etibarən 3-cü dünya ölkələrindən ABŞ-a miqrasiya başladı və bu, multikulturalizmin burada başqa cür ortaya çıxmasına səbəb oldu.

Yerli xalq bugün Şimali Amerikada və Avstraliyada etnik azlıq halına gəlmişdir. Afrikadan gətirilən kölələrin də burada rolu böyükdur.

Dünyada mövcud olan 206 ölkə arasında sadəcə bir ölkədə 3 paytaxt, 11 rəsmi dil, və 5 fərqli dildə sözləri olan milli marş mövcuddur. Bu Cənubi Afrika Respublikasıdır. Burada Pretoria, Cape Town, Bloemfontein paytaxtları mövcuddur. Üç fərqli dövlətin birləşməsi ilə bu yaranmışdır.

## *4.Qərb ölkələrində multikulturalizm siyasətinin iflasa uğramasının səbəbləri. Rusiyada multikulturalizmin meydana gəlməsinin tarixi şərtləri və səbəbləri. Müasir dövrdə Rusiyanın etnik-mədəni problemləri. Rusiyada immiqrasiya prosesləri. Rusiyada Azərbaycan əmək miqrantları*

İngiltərə baş naziri David Kameron və Almanya federal kansleri Angela Merkelin multikulturalizmin iflasa uğraması ilə bağlı bəyanatları həm siyasət, həm də akademik mühitdə birmənalı qarşılanmadı. Belə ki, multikulturalizm qərbdə de-

mokratik dəyərlərin inkişafına öz töhfəsini verməkdə davam edir. Bu siyasətçilər daha çox indiki multikulturalizm anlayışından post-multikultural anlayışa keçidi dilə gətirmək üçün iflas ifadəsindən istifadə etdilər. Artıq yeni dünya multikulturalizm anlayışında da reformlar aparılmasını labüd hesab edir. Burada qeyd etmək lazımdır ki, nə yerli xalqlar, nə də milli azlıqlar üçün multikultural vətandaşlığa mənsub olmadan geriyə addım atılmamışdır. Əksinə, torpaq mülkiyyəti hüquqları, muxtariyyətlilik və yerli xalqların ənənəvi hüquqi sistemlərinin Qərb demokratiyasında yeri vardır. BMT-də 2007-ci ildə Yerli Xalqların Hüquqları bəyannaməsi qəbul edilmişdir. Bugün Kataloniyada regional muxtariyyətin İspaniyada demokratiyanın inkişafında, yerli xalqlara tanınan hüquqların Latın Amerikasında demokratik vətandaşlığın daha da dərinləşməsinə kömək etməsini heç kim inkar edə bilməz.

**Rusiyada** multikulturalizmin meydana gəlməsinin əsas tarixi şərtlərindən biri budur ki, Rusiya, xüsusən orta əsrlərdə bir sıra qonşu xalqlar ilə iqtisadi və siyasi münasibətlərdə olmuşdur. Digər tərəfdən Kiyev Rus dövlətində tatarların çoxluq təşkil etməsi, müəyyən dövrlərdə Rusiyanın Monqol və Altın Orda dövlətinin hakimiyyətində olması bu şərtlər və səbəblər arasındadır. Artıq XV əsrin axırlarında Moskvada III İvan şimalda Novqorod da daxil olmaqla bəzi yerləri özünə ilhaq edərək ilk milli hakimiyyəti qurmuşdur. Ondan sonra IV İvan Sibirə qədər irəliləyərək hakimiyyətini genişləndirmişdir. Daha sonra XVII və XVIII əsrlərdə Pyotrun hakimiyyətində Rusiya daha da geniş ərazilərə sahib olmuşdur. Multikultural kontekstdə rus milli kimliyinin formalaşmasında əsas səbəblərdən biri də provaslav-xristian məzhəbidir. Məhz Osmanlı tərəfindən Şərqi Bizansın süqut etdirlməsi ilə III İvan öz imperiyasını “üçüncü Roma” adlandırır və missioner-universal mənada bir kimlik yaratmaqla bunu edir. Pyotr dövründə isə Rusiya daha çox avropalaşmaq siyasətini əsas

alır. Pyotrdan əvvəlki “müqəddəs çar” anlayışı yerinə “dünyəvi çar” məfhumu almağa başlayır. Tarixdə panslavizm Rusiyada çox güclü olmuşdur və bu sahədə onlar imperiyalarını möhkəmlətmişlər.

Sovet dövründə ruslaşdırma siyasəti daha çox yerinə yetirilirdi. Məhz Lenin “Rusiya Xalqları Deklarasiyasını” meydana gətirməklə Sovet İttifaqında multi-etnik ictimai transformasiyanın yarandığını iddia edirdi. Hətta bu “homo-sovieticus” olaraq da bilinir. Artıq 1987-ci ildən başlayaraq, Sovet İttifaqında milliyyətçilik güclənməyə başlayır, Krım tatarları, ukraynalıların milliyyətçilik anlayışları, Dağlıq Qarabağ problemi, 1990-ci ildə artıq Latviya, Litva və Estoniya öz müstəqilliklərini elan edirlər. Putin dövründə ilkin 2000-2008-ci illərdə Rusiyada siyasət qədim rus simvolları ilə Sovet dövrünün sintezinə istinad edilərək həyata keçirilməyə başlanılmışdır. Qafqazdakı etnik problemlər hər zaman Rusiya üçün təhlükə sayılır və bu, hazırda da belə davam edir. Abxaziya və Osertiya bu kontekstdə qiymətləndirilməlidir. Rusiya Sovet İttifaqı dağıldıqdan sonra ənənəvi-dini modeli mənimsəmişdir. X əsrə aid ikibaşlı Bizans qartalı simvolu Çar Rusiyasında olduğu kimi hazırda da Rusiya Federasiyasında simvol olaraq istifadə olunur.

Rusiyanın bir çox regionlarında **əmək miqrantlarına** böyük ehtiyac vardır. Azərbaycandan Rusiyaya miqrasiya prosesinin indiki mərhələsi 1990-cı illərin sonunda başladı. Bu, əsasən iqtisadi səbəbdən irəli gəlirdi. Hazırda Rusiyada 1,5 milyondan 2,5 milyonadək azərbaycanlı miqrant yaşayır.

# MÖVZU 4

## Dini dəyərlər, tolerantlıq və multikutralizm

**Plan:**

1. Tolerantlığın inkişaf tarixi
2. Tolerantlıq Azərbaycanda dini təhlükəsizliyin əsası kimi

### *1. Tolerantlığın inkişaf tarixi*

Tolerantlıq məfhumu latın dilindəki "tolerare" sözündən olub, insanın qəbul etmədiyi, rədd etdiyi anlayışlara dözümlülük göstərməsi mənasına gəlir. Əvvəlcə sırf mənəvi anlayış olmuş tolerantlıq sonradan siyasi və hüquqi anlayışa çevrilmişdir. XVIII əsrdə maarifçilər də tolerantlığın nəzəri əsaslarını hazırlayarkən məhz bu fakta istinad etmişdilər. XVII əsrdə Avropanı "dini müharibələr" adlanan vətəndaş müharibələri ağuşuna almışdı. Bu dövrün Avropasında müharibəyə səbəb olan bütün siyasi çəkişmələrin kökündə din dayanırdı. Artıq Qərb xristianları digər xristian icmalarını (Bizans və Yaxın Şərq), həmçinin digər müsəlmanları da tanıyırdılar. Bu dövrdə tolerantlıq anlayışı təşəkkül tapmamışdı, çünki onu zəruri edən mədəni, intellektual və tarixi şərait yetişməmişdi. Burda bir vacib amilə diqqət yetirmək lazımdır ki, başqa toplumları tanımaq hələ tolerantlıq anlayışını ortaya çıxması üçün kifayət deyil. Əlbəttə ki, XVI-XVII əsrlərdə hələ digərlərini qəbul etməkdən söhbət gedə bilməzdi. O dövrdə tolerantlıq fərqli dini dünyagörüşünə malik olanlara qarşı dözüm nümayiş etdirməkdən gedirdi. Məhz belə bir neqativ məzmun sayəsində tolerantlıq anlayışının hüquqi tərəfinin ortaya çıxmasına səbəb oldu. Burada son məqsəd katoliklərin üstünlük təşkil etdiyi ərazilərdə protestantların mövcudluğunu təmin etmək idi. Avropada XVI-XVII əsrlərdə gedən dini

müharibələr zamanı tolerantlıq protestantların cəmiyyətə inteqrasiyasını təmin edən hüquqi prosedur idi. Hökumətlər tolerantlıq barədə qanunlar qəbul edərək məmurları və ənənəvi inanc sahiblərinin dini azlıqlara (lutçular, üqenotlar və papaçılar) qarşı mülayim olmasını tələb edirdi. 1598-ci ildə kral 4-cü Henrix məşhur Nant qərarını imzalayır. 1649-cu ildə Merilend hökuməti "Dinlərə dair akt" tərtib edir. 1689-cu ildə İngiltərə kralı "Tolerantlıq aktı" nı, ardınca isə Avstriya imperatoru 2-ci İosif eyni adlı sənədi imzalayırlar. Bəzi moralistlər hesab edirlər ki, tolerantlıq məfhumu mütləq pis və yaxşı anlayışı ilə əlaqədardır. Yəni, nəyinsə pis olduğu məlumdur, amma bu pisliklə mübarizə daha böyük pisliklərin ortaya çıxmasına səbəb olur. Tolerantlıq fərdi dəyər olmayıb, hansısa qaydanın qəbul edilməsi və ona hörmət vərdişinin inkişafı dinamikasıdır. Bu cür tolerantlıq anlayışı hakimiy-yətin həqiqətə münasibəti və bu konsepsiyanın inkişafı üçün ortaya qoyduğu vasitələrdən asılıdır. Sosial tolerantlıq dedikdə fərdin və ya sosial qurumun ayrı mənəvi dəyərlərə və normalara malik cəmiyyət üzvlərinə hörməti başa düşülür. Bu yolla ziddiyyətlər aradan qaldırılır. Fərdlərə qarşı tolerantlığa bu cür izahat vermək mümkündür: "Mən səninlə razı deyiləm, lakin fərqliliklərə hörmət əlaməti olaraq sənin hərəkətlərinə mane olmuram". Tarixi baxımdan ilk dəfə tolerantlıq anlayışını Con Lokk "Tolerantlıq haqqında məktub"unda "dəyişdirilməsi mümkün olmayan şeylərə qarşı mübarizəyə son qoymaq" şəklində ifadə etmişdir. 1689–cu ildə latın dilində nəşr olunmuş "Tolerantlıq haqqında məktub"da müəllifin adı göstərilməmişdir. Kitab qısa bir zamanda bir çox Avropa dilinə tərcümə olundu. Əslində bu məktubda müraciət edilən naməlum cənab elə müəllifin yaxın dostu Filip van Limborş idi ki, məktubları müəllifin icazəsi olmadan çap etdirmişdi. Müəllif bu əsərdə kilsə və dövlət arasındakı yeni münasibətləri müdafiə edir. Empirik fəlsəfənin banilərindən olan Con Lokk bəzi xristian təriqətləri üçün dini tolerantlıq

verilməsi fikrini müdafiə edir və bu sahədə “Leviafan” əsərinin müəllifi Tomas Hobbsla aralarında fikir ayrılığı yaranır. “Tolerantlıq haqqında məktub”un nəşr olunduğu dövrdə ingilislər katolikliyin ölkəni ağuşuna alacağından ehtiyat edirdilər. Cəmiyyətin nizamı üçün vahid din ideyasını irəli sürən Hobbsdan fərqli olaraq, Lokk hesab edirdi ki, çoxdinlilik cəmiyyətdəki təbəddülatların qarşısını almaq üçün ən yaxşı vasitədir. Onun fikrincə, dövlət müxtəlif dinlərə məxsus ayinlərin icrasına mane olduqda narazılıqlar baş qaldırır. Buna görə də ən yaxşı vasitə fərqli dini əqidələrə dözümlü yanaşmaqdır. Müəllif mülki hökumətlə dinin vəzifələrinin dəqiq bölünməsini və sərhədlərin müəyyən edilməsini təklif edirdi. O hesab edirdi ki, hökumət və kilsə tamamilə fərqli funksiyalar yerinə yetirir və bir-biri ilə qarışa bilməz. XVIII əsrdə fərqli dini inanclara qarşı tolerantlıq anlayışı hələ qəbul edilməmişdi. Biz bunu Volterin “Tolerantlıq haqqında məktub”unun qəhrəmanı Kalanın timsalında görürük. Törətmədiyi əmələ görə əsassız yerə təqsirləndirilərək edam edilən Kala hüquqi baxımdan dözümsüzlüyün simvoludur. “Tolerantlıq haqqında məktub” da Volter dinlərarası dözümlülüyə çağırır, dini fanatizmi pisləyir və hər hansı dinə üstünlük verilməsinə qarşı çıxır. Bu hadisələrin məğzi isə səhvən Volterə aid olduğu iddia edilən bu cümlədir: “Mən sizin ideyalarınızı bəyənməsəm də, sizin özünüzü ifadə edə bilməyiniz üçün çalışacam”. Volter xristianlıqdakı dözümsüzlüyə qarşı ziyalıların mübarizəsini təşviq edir: “Bütün dinlər arasında şübhəsiz ki, xristianlığın tolerantlığa daha çox ehtiyacı var, çünki indiyədək bəşər övladları arasında xristianlardan daha dözümsüzləri olmayıb”. Monteskyö də öz növbəsində tolerantlıq münasibətlərinin davamlı olmasının tərəfdarı idi. Əgər dövlət bir neçə dinin qayğısına qalırsa, onları bir-birinə qarşı dözümlü olmağa məcbur etməlidir. Qanun bu dinləri həm dövlət daxilində, həm də öz aralarında nifaq salmamağa məcbur etməlidir. Bu məsələdə

dövlət heç bir vətəndaşı da narahat etməməlidir. XVI-XVII əsrlərdə, hətta maarifçilik dövründə belə, dini plüralizm və qarşılıqlı anlaşma məsələsi yox idi. Bununla belə, maarifçilər tolerantlığı bir müsbət dəyər kimi ortaya atdılar. Tolerantlıq öz yüksəlişini Böyük Fransa İnqilabı sayəsində insan və vətəndaş hüquqlarının universallaşmasına, həmçinin XX əsrin ortalarında beynəlxalq hüququn təkmilləşməsinə borcludur. Maarifçi filosofların əməyi nəticəsində İslama münasibət mənfidən müsbətə doğru dəyişdi. İslam dini barədə müsbət fikirlər Volterin "Ənənələr haqqında esse", Con Tolandın "Ərəb həkimin məktubu", Markiz Arjensin "Yəhudi məktubları", Buklanvilyenin "Məhəmmədin həyatı" əsərlərində yer alıb. O dövrün bəzi deistləri hesab edirdilər ki, islam sadəcə olaraq bir dözümlülük dini olmayıb, eyni zamanda, "deizmə yaxın, sui-istifadə və təhriflərdən uzaq, Allahın birliyinə və mənəvi təmizliyə çağıran bir dindir ". Amerikalı filosof Con Roul "Ədalət nəzəriyyəsi" adlı kitabında tolerantlığı ədalətli cəmiyyətin başlıca şərti hesab edirdi. Müəllif eyni zamanda tolerant olmayanlara qarşı da "tolerant olmaq lazımdırmı?" - sualını ortaya qoyur. Filosof bu suala müsbət cavab verərək göstərir ki, əks davranış özü ədalətsizlik olardı. Alim eyni zamanda xatırladır ki, dözümlülüyə qoyulan məhdudiyyətlə mübarizə aparmaq hər bir tolerant cəmiyyətin hüquq və vəzifəsidir. Heç bir cəmiyyət fərdlərin bu cəmiyyəti korlayan hərəkətlərinə qarşı dözümlülük nümayiş etdirməməlidir. Tolerantlığın bütün dövrlərdə mövcud olduğunu iddia etmək doğru sayılmaz. Məsələn, antik dövrdə Diogenin bir sözünə görə, Platon Demokritin kitablarının meydanda yandırılmasını təklif etmişdi. Yunan mədəniyyətinin digər dinlərə və mədəniyyətə açıq olması nəticəsində filosoflar arasında intellektual mühit yaransa da, burada hökm sürən abu-hava qarşılıqlı mübadilələrə imkan vermirdi. XIX əsrdə alman fəlsəfəsində dini elmlərin inkişafı nəticəsində dünyəvi konsepsiya ortaya çıxdı ki, bu da dinlərə

qarşı təhlükə kimi qəbul edildi. Bu tendensiya modernist böhranla nəticələndi. Mişel de SerTo “Gündəlik həyata müdaxilə” əsərində yazır ki, “heç bir dində inanc tərzi barədə söhbət açılmır. Beləliklə, inanclı şəxs digər dinlərdən olanların inandığını qəbul etmir”

Müasir dinlər tolerantlığa necə yanaşır? BMT-nin İnsan hüquqları bəyannaməsinin təhriki ilə kilsə 1964-cü ildə tolerantlığı qəbul etdi. 16 noyabr 1995-ci ildə UNESCO-ya üzv dövlətlər tolerantlıq prinsipləri barədə bəyannaməni qəbul etdi. Burada göstərilir ki, tolerantlıq nə ifrat maraqlanma, nə də biganəlik deyil. Tolerantlıq mədəni fərqlərə, insanın özünüifadə tərzinə hörmət və qiymət verməkdir. Tolerantlıq insan fərdinin universal hüquqlarının və əsas azadlıqlarının tanınmasıdır. Xalqlar öz fərqlilikləri ilə xarakterizə olunurlar. Yalnız tolerantlıq sayəsində dünyanın müxtəlif guşələrində xalqlar sülh şəraitində yaşaya bilər. UNESCO-nun baş direktoru İrina Biokova 21 mart 2014-cü il tarixli çıxışında qeyd edib ki, “Hörmət və tolerantlıq azadlıq verən hərəkətlər olaraq başqasının dəyərlərinin bizim öz dəyərlərimiz, başqa mədəniyyətlərin zənginliyinin bizim öz zənginliyimiz olduğunu başa düşməyə imkan verir”. Müasir dövrdə müxtəlif sivilizasiyalar və mədəniyyətlər bir yerdə yaşamağa məcburdur. XX əsrin sonlarında müsəlmanların kütləvi miqrasiyası nəticəsində Avropa qitəsi təkdinli məkandan çoxdinli məkana çevrildi.

Tolerantlıq və qarşılıqlı hörmət əməkdaşlığın yeni modelinin təməl daşı olmalıdır. Son illərdə yeni dünya nizamının yaradılmasına dair bir çox uğursuz cəhd edilib. Bu uğursuzluğun başlıca səbəblərindən biri də dünyada yaşayan hər bir fərdin qlobal icma daxilində özünəməxsusluğunun saxlanması yollarının tapılmamasıdır.

Azərbaycan müxtəlif xalqların və dini icmaların əsrlər boyu bir yerdə sülh şəraitində yaşadığı bir məkandır. Əsrlər boyu islam, xristianlıq və iudaizm Azərbaycanda yanaşı

mövcud olub, müxtəlif mədəniyyətlər bir-biri ilə daim təmasda olmuş, bir-birinə qarışmışdır. Azərbaycandakı tolerantlığın tarixi çox qədimdir və eradan əvvəlki dövrlərə gedib çıxır. Azərbaycan ərazisinə ilk yəhudi tayfalar e.ə 586-cı ildə Babil hökmdarı II Navuxodonosorun Yerusəlimi tutmasından sonra gəlmişlər. Tarixi məxəzlərdə göstərilir ki, həmin dövrdə Babildə 40 mindən çox əsir və kölə vardı. Eramızın I əsrində isə ilk xristianlar ölkəmizə pənah gətirərək Alban Həvari Kilsəsinin əsasını qoydular. Burada xüsusi qeyd etmək lazımdır ki, romalıların təqibindən qaçan xristianlar məhz Azərbaycan ərazisinə sığınmışdılar. İslamın gəlişi ilə ölkəmizdə tolerantlıq daha da möhkəmləndi. Bunun da əsasını "dində məcburiyyət yoxdur" prinsipi təşkil edirdi. İslamda tolerantlıq bütün dinlərin nümayəndələrinə şamil edilir. Quranın müxtəlif surə və ayələrində tolerantlıqla bağlı fikirlər yer alıb. Bunlardan ən çox diqqət çəkən Bəqərə surəsinin 62-ci ayəsidir: "Şübhəsiz ki, möminlərin, yəhudi, nəsrani və sabiilərdən Allaha və Axirət gününə iman gətirənlərin və yaxşı iş görənlərin mükafatı öz Rəbbi yanındadır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər". Bu surə İslamın əsasını təşkil edən dini mədəniyyətin güzgüsüdür. Bir çox tarixçi iddia edir ki, VII-VIII əsrlərdə Qafqazda müsəlmanlar xristianlara və yəhudilərə hörmətlə yanaşır, dini ayinlərin icrasına mane olmurdular.

Azərbaycan xalqı tarix boyu müxtəlif imperiyaların dominantlığı altında olmuşdur. Bu dominantlıq da ölkəmizdə yaşayan müxtəlif xalqları bir-biri ilə yaxınlaşmağa və bir-birinin dünyagörüşünə hörmət edərək düşmənə qarşı birləşməyə sövq etmişdir. Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Himayəçilik Şurasının sədri Kamal Abdulla qeyd edib ki, müxtəlif dini icmaların nümayəndələri Azərbaycanda sülh şəraitində yaşayırlar. Bu gün ölkəmizdə 1802 məscid, 11 kilsə və 6 sinaqoq fəaliyyətdədir.

Əhalisinin 95%-nin müsəlman olduğu ölkədə 34 qeyri-müsəlman dini icma fəaliyyət göstərir. 27 may 2011-ci ildə isə bütün Rusiyanın patriarxı II Kirilin iştirakı ilə Rus pravoslav kilsəsinə yenidən status verildi. Katolik icması isə 1999-cu ildə qeydiyyata alınıb. Vatikanın iştirakı ilə tikilmiş katolik kilsəsi də şəhərin dini müxtəlifliyinə bir töhfədir. Tolerantlıq öz kimliyindən ayrılmadan başqalarını dinləyərək hörmət edə bilməkdir. Bu qonaqpərvər davranışın məğzi hər növ qorxu və qabaqcadan mühakiməni dəf edərək başqalarını da özü kimi qəbul etməkdir. Lakin bu o demək deyil ki, hər kəs hər kəsin dediyini şəksiz qəbul edəcək və heç bir suala yer qalmayacaq. İsveçrəli professor Q.Qomo qeyd edirdi ki, qonaqpərvərlik tolerantlıqdan daha üstündür və o, daha real öhdəliklər yaradır və sürprizlərlə doludur. Dialoq isə səbir və etibar tələb edən görüşdür. Buna görə də tolerant olmaq üçün görüşlərin sayını artırmaq lazım gəlir. Tolerantlıq digərlərinin yaşamaq və mövcud olmaq hüququnu tanımaqdır. Bu həm də planetimizdəki müxtəlif din, dil, mədəniyyət və etnik fərqliliklərin konflikt üçün bəhanəyə çevrilməməsidir. Bunlar tam əksinə dünyamızı zənginləşdirməyə xidmət etməlidir. Biz dini dünyagörüşünü, həyat tərzini səhv hesab etdiyimiz, qəbul etmədiyimiz həmvətənlərimizə qarşı dözümlü olmalıyıq. Məhz tolerantlıq sayəsində plüralist cəmiyyətlər daxili münaqişələrdən yan keçə bilir. Dini etiqad azadlığı kimi ənənə hüququ da bütün vətəndaşların ünsiyyət, ənənə və adətlərə sərbəst əməl etməsinə imkan verməlidir. Bu da fərdi identikliyin qorunması və inkişafı üçün vacibdir. Təbii ki, burada mütləq şəkildə yalnız eyni sosial qrupa daxil olan insanlar başa düşülməməlidir. Yəni milli, etnik, linqvistik azlıqların nümayəndələri belə hesab edirlər ki, onların dillərinin və həyat tərzlərinin inkişaf etdirilməsi üçün imkanlar yaradılması dini azlıqlara, dini doktrinalara və vicdan azadlığına şərait yaradılması qədər vacibdir. Buna görə də, dini icmaların hüquq bərabərliyi uğrunda mübarizəsi

siyasi nəzəriyyədə “çoxmədəniyyətli vətəndaşlığa” doğru yol kimi analiz edilir.

### *2. Tolerantlıq Azərbaycanda dini təhlükəsizliyin əsası kimi*

Müasir qloballaşma prosesi ağalıq və tabelik prinsiplərinə əsaslanan şəcərəli münasibətlər sistemindən demokratiya, plüralizm və tolerantlıq prinsipləri üzərində qurulan münasibətlər sisteminə keçir. Qloballaşma, eyni zamanda, mədəniyyətlərin dialoqunu çətinləşdirən əsaslar yaradır, belə ki, dünyanın müxtəlifliyinin artması, sosial qütbləşmənin genişlənməsi, dini fundamentalizmin və mübariz millətçiliyin güclənməsi, yeni şəraitdə sosial institutların hər hansı bir etnik mədəniyyəti qorumaq bacarığını itirməsi tendensiyası inkişaf edir. Bununla əlaqədar olaraq, konsensusa maraq artır, şəxsi maraqların təmin edilməsi üçün digərlərinin maraqlarının nəzərə alınması tələbatı güclənir. Müasir dünyada hər bir xalqın və onun mədəniyyətinin suverenliyinin qəbul edilməsi, inteqrasiyası onların sağ qalması şərti kimi çıxış edir. Buna görə də, xalqların və mədəniyyətlərin qarşılıqlı fəaliyyəti, qarşılıqlı anlam və razılaşma üzərində qurulan tolerantlıq prinsipi üzərində dialoq və əməkdaşlıq yolu ilə qurulmalıdır. “Tolerantlıq” kateqoriyası bir çox şərhlərə və izahlara malikdir. Elmi ədəbiyyatda tolerantlıq bərabərliyə hörmət və qəbul etmə, hakimlik və zorakılıqdan imtina, bəşər mədəniyyətinin, davranış normalarının rəngarəngliliyinin qəbul edilməsi, ümumi nəzər-nöqtəsinin əldə edilməsi ilə bağlıdır. Mədəni tolerantlıq mədəniyyətlərarası ünsiyyət prosesində yaranır, bu zaman digər xalqlara, onların ənənələrinə, dəyərlərinə və nailiyyətlərinə hörmət hissi formalaşır, dünyanın etnik və mədəni müxtəlifliyi dərk və qəbul edilir. Hər bir fikrin azad ifadə edilməsinə dözümlülük olan cəmiyyət tolerant cəmiyyət modeli kimi qəbul edilə bilər. Beləliklə, tolerantlıq qarşılıqlı azadlıqdır, insanlar həqiqət

hesab etdiklərinə inanırlar və deyirlər, hər bir kəs öz imanını və fikrini ifadə edərkən heç bir zorakılığa məruz qalmır” .

Müasir dövrdə dünya mədəniyyətlərinin yaxınlaşması bəşəriyyətin təhlükəsizliyinin sivil yolla təmin edilməsinin strateji əsaslarına çevrilir. UNESCO-nun məlumatlarına görə XX əsrin sonlarında artıq dünyada heç bir monoetnik dövlət qalmamışdır. Bununla əlaqədar olaraq, yeni nəsillərin digər xalqlar və onların mədəniyyətlərinə hörmət ruhunda tərbiyə edilməsi, onların digər mədəniyyətlərlə ünsiyyətə və dialoqa hazır olması zərurəti yaranıb. Digər xalqlara və mədəniyyətlərə hörmət, tolerantlıq hisslərinin yaradılması aşağıdakıları nəzərdə tutur: 1) empatiya – emisional sabitlik, xeyirxahlıq, sosial məsuliyyət, sosial relaksasiya; 2) təfəkkürdə fikir ayrılığı – partnyorun hiss edilməsi bacarığı, dərdə şərik olma, diqqətcillik, ekstravertlik, refleksiya bacarığı; 3) mobillik – stereotiplərin, mühakimələrin olmaması, çeviklik, tənqidi təfəkkürün olması; 4) sosial fəallıq – ünsiyyətcillik, davranışın müstəqilliyi, düzgün sosial özünütəyinetmə, sosial adaptasiya, yaradıcılıq, sosial optimizm, təşəbbüskarlıq. Tolerantlıq müxtəlif formalarda təzahür edir: siyasi, iqtisadi, etnik, irqi, dini, mədəni tolerantlıq. Müasir dövrdə xalqların mənəvi yaxınlaşması tələbatı yaranır. Hələ XX əsrin 30-cu illərində A.Toynbi müsəlman və xristian dünyaları arasında yaranan münaqişəli vəziyyətin əsas səbəblərini izah etməyə çalışarkən vurğulayırdı ki, sivilizasiyaların toqquşması tarixin hərəkətverici qüvvəsi kimi çıxış edir. A.Toynbiyə görə, məhz mənəvi vəhdət gələcək ümumdünyəvi cəmiyyətin əsası ola bilər. A.Toynbi hesab edirdi ki, zorakı qloballaşma “irqlərin müharibəsinə” səbəb ola bilər. Maddi qloballaşma xalqların mənəvi yaxınlaşması əsasında baş verməlidir. A.Toynbiyə görə, “dörd ali din – xristianlıq, islam, induizm və buddizmin mahayanist forması ümumdünyəvi missiya daşıyır”.

Dünya dinləri hansısa yüksək normativ kodlar vasitəsilə onlara aid olan etno-mədəni lokusları birləşdirir, belə ki, keç-

mişdə bu dinlərin formalaşmasında dinlərarası dialoq əsaslı rol oynamışdır, bunu müasir müqayisəli dinşünaslıq da sübut edir. Müasir mədəni antropologiyaya görə, hər bir sivilizasiya heterogen başlanğıclardan ibarətdir və heterogen etnik başlanğıclar özündə çoxsaylı təhlükələr daşıyır. Bir çox sivilizasiyalar polikonfessional (çoxdinli) hesab edilir. Hər bir sivilizasiya etnomədəni dünyaların dayanıqlı plüralizmi ilə xarakterizə edilir ki, bu onun dinamizminin mənbəyi hesab edilir. Bu gün bir çox dövlətlər, eyni zamanda, bir sivilizasiyanın tərkibinə daxil olurlar, özləri isə çoxsaylı sivilizasiyalardan ibarət olurlar. Qeyd etmək olar ki, sivilizasiyalı özünüidentiklik problemi yüksək dərəcədə mürəkkəb, qapalı və buna görə də mədəniyyət sahəsində fövqəladə zərif sintezlər problemidir və bu gün multikulturalizm siyasətinin əsas mahiyyətini təşkil edir.

Müasir multikultural cəmiyyətlər əvvəllər "multimilli", "multietnik", "multiirqçi", "multidini" adlandırılırdı. Bu anlayış 1960-cı illərdə Kanadada bikultural anqlo-fransız cəmiyyətin idarəçilik xüsusiyyəti kimi yaranmışdı. Multikulturalizm siyasi ideologiya kimi ilk dəfə Kanadada 1971-ci ildə qəbul edilmişdi. Multikulturalizm XX əsrin 80-cı illərinin sonu – 90-cı illərinin əvvəllərində vaxtı ilə miqrasiya mənbəyi olmuş İtaliya, Yunanıstan, İspaniya, İrlandiya kimi Avropa ölkələrində qeyri-avropalıların yeni miqrasiya dalğası ilə əlaqədar qeydə alınmağa başladı. Multikulturalizm Avropanın və Yeni Dünyanın assimilyasiya potensialının tükənməsi və əvvəlki bircinsli mədəniyyətə malik olan cəmiyyətlərin xarici mədəni elementlərini əritmədən özünə daxil etməsi ilə bağlı idi. Digər tərəfdən multikulturalizm Avropada tədricən milli sərhədləri aradan qaldıran, lakin Avropa millətlərinin mədəni muxtariyyətini ləğv etməyən inteqrasiya prosesləri ilə bağlı olmuşdur. Multikulturalizm mədəni plüralizmin qəbul edilməsi və ona dəstək konsepsiyasıdır. Müasir cəmiyyətlərdə mədəni birlik yaradılmasının və mədəniyyətlərin universallaş-

masının əksinə olaraq, multikulturalizm mədəni müxtəlifliyi təbliğ edir, hətta onu müdafiə etməyə çalışır. İlk dövrlərdə multikulturalizm sosial mədəni fenomen kimi nəzərdən keçirilirdi. Bu zaman müasir cəmiyyətdə fərqli mədəniyyətlərin, etnosların, dinlərin, irqlərin yanaşı mövcud olması məsələsi qoyulurdu. “Multikulturalizm” anlayışının və nəzəriyyəsinin müəllifləri Q.Markuze və İ.Berlin hesab edilir. Alman cəmiyyətində “multikulturalizm” və “multikultural cəmiyyət” anlayışlarının elmi tədqiqatlarda istifadə edilməsi X.Qasslerin adı ilə bağlıdır. Koqnitiv nəzəriyyənin və siyasi doktrinanın elmi anlayışlar bazası olan multikulturalizm cəmiyyətin çoxmədəniyyətliliyinə refleks kimi formalaşıb və mədəni rəngarəngliyə tolerant münasibətlərin dəstəklənməsi ideologiyasına çevrilib. Fəlsəfi-mədəni aspektdə multikulturalizm nəzəri kateqoriya kimi qəbul edilir və mədəni fərqliliklərə hörmət, prinsipcə onlar arasında iyerarxiya qurulmasına etiraz kimi çıxış edilir. Xronoloji olaraq multikulturalizm nəzəri-mədəni tədqiqatların ən yeni istiqamətlərindən biri postmoderndən sonrakı vəziyyətə refleks kimi formalaşıb. N.K.Həsənov multikulturalizmi çoxmədəniyyətli reallıq və nəzəri konsepsiya olaraq nəzərdən keçirir və ilkin birliklərin mədəni yekcinsliyinin transformasiyası kimi müəyyənləşdirir. N.S.Kirobayeva görə, “Multikulturalizm müxtəlifcinsli mədəni qrupların eyni həyat məkanında münaqişəsiz mövcudluğu haqqında nəzəriyyə, təcrübə və siyasətdir”. Mütəxəssislər multikulturalizmin bir sıra formalarını fərqləndirirlər: kommersiya və komplektləşdirilmiş multikulturalizm (E.Şoxat və R.Stem), ksenofobiyanın butik multikulturalizmi forması (Q.Xaqqan), neoliberal, yaxud korporativ multikulturalizm, tənqidi multikulturalizm, qiyamçı multikulturalizm, konservativ multikulturalizm, polisentrik multikulturalizm və s.

Multukulturalizmin əsas prinsipləri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- Etnomədəni müxtəlifliklərə pozitiv münasibət. Mədəni müxtəliflik cəmiyyəti zənginləşdirir və onu daha çox həyata davamlı edir;

- Mədəni müxtəliflik hüququ. Bütün birlik üzvləri öz mədəniyyətlərinin qorunub saxlanması hüququna malikdirlər;

- Mədəni bərabərlik və qarşılıqlı dözümlülük;

- Şəcərəli struktura malik olan ikili (çoxtərəfli) identiklik. Hər bir fərd öz seçimi əsasında eyni zamanda bir neçə mədəni birliyin üzvü ola bilər. Özünü dövlətlə identikləşdirmə ilkin, qrupla identikləşdirmə ikinci dərəcəli identifikasiya adlanır;

- Çoxluqda təklik. Qrupun mədəni müstəqilliyi çoxluğun əsas dəyərlərinə müxalif olmayan səviyyədə qəbul edilir;

- Fərdin özünü bu və ya digər etnomədəni qrupla identikləşdirməsi onda sabit özünüdərk formalaşdırır, onun psixoloji müdafiəsinə kömək edir, onun etnomədəni qruplarla münasibətlərinin açıq və tolerant olmasına zəmin yaradır;

- Bərabər şanslar hüququ. Mədəni müxtəliflik qeyri-ayrıseçkilik və sosial sahədə bərabərlik prinsipi ilə tamamlanır;

- Siyasi idarəçilik. Multikulturalizm özünü inkişaf etdirən fenomen deyil, onun formalaşması və inkişafı üçün siyasi iradə və dəstək zəruridir.

Bu gün Azərbaycan Respublikası multikulturalizmi dövlət siyasəti elan edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xüsusi olaraq qeyd edib ki, “Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir”. Bu siyasətin əsas məqsədi ölkədə yaşayan xalqların etnik-mədəni dəyərlərinin qorunmasına, inkişafına və cəmiyyət daxilində bu xalqların inteqrasiyasına nail olmaqdır. Azərbaycanın ərazisində yaşayan bütün xalqların, o cümlədən milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması və inkişafı məsələsinə Azərbaycan Respublikası özünün dövlət siyasətinin həm məqsədi, həm də vasitəsi kimi yanaşır.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan - 2020: gələcəyə baxış" inkişafı konsepsiyasında da göstərilir ki, "Mədəniyyətlərin qovşağında yerləşən Azərbaycanın zəngin və tolerant tarixi irsinin, müxtəlif etnoslara və dinlərə aid çoxsaylı tarix və mədəniyyət abidələrinin tədqiqi, qorunması və təbliği üçün görülən işlər sistemli şəkildə davam etdiriləcə... Ölkədə xüsusi sosial qrupların mədəniyyət obyektləri və xidmətlərindən istifadə etmə imkanlarının genişləndirilməsini nəzərdə tutan fəaliyyət inkişaf etdiriləcəkdir". Qeyd edildiyi kimi xalqların etnik-mədəni dəyərlərinin qorunması Azərbaycan Respublikasının ümumi inkişafının mühüm hədəflərindən olan demokratik inkişafın, insanların hüquq və azadlıqlarının müdafiə olunmasının tərkib hissəsidir. Bu məsələ Azərbaycan Respublikasının dövlət siyasətinin vasitəsi kimi ölkənin suverenliyinə, ərazi bütövlüyünə, demokratik inkişaf yoluna, milli təhlükəsizliyinə, xüsusilə də multikultural təhlükəsizliyinə, vətəndaşlarda vətənpərvərlik şüurunun inkişafına, əhalinin rifah və etnik-mədəni dəyərlərini təhdid edən etnik millətçilik, etnik separatçılıq, dini separatçılıq və digər dezinteqrasiya proseslərinin qarşısının alınmasında istifadə olunur. Prezident İlham Əliyev xüsusi olaraq qeyd edib ki, "Bu gün Azərbaycan artıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir".

Hazırda ölkədə keçirilən çoxsaylı beynəlxalq tədbirlərdə dünyada milli və dini tolerantlığın gücləndirilməsi, multikultural dəyərlərin təbliği, dini zəmində ekstremizmə və ayrıseçkiliyə qarşı birgə mübarizə yollarının araşdırılması, fərqli dinlərin və mədəniyyətlərin daşıyıcısı olan insanlar arasında dialoq və qarşılıqlı anlaşmanın bərqərar edilməsi və s. aktual problemlər geniş müzakirə olunur. Multikultural dəyərlərin təbliğinə, mədəniyyətlərin və sivilizasiyaların dialoqunun yaradılmasına və möhkəmləndirilməsinə yönələn fəaliyyətlər sırasında 2008-ci ildə Avropa Şurasına üzv ölkələrin mədəniy-

yət nazirlərinin Bakıda keçirilən toplantısına İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin də dəvət olunmasını göstərmək olar. 2009-cu ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısına Avropa Şurasından mədəniyyət nazirləri qatılmışdı. "Bakı prosesi" adlanan bu təşəbbüs sonradan Azərbaycanda dünya dini liderlərinin Zirvə görüşünün, mədəniyyətlərarası dialoq və Bakı Beynəlxalq Humanitar forumlarının keçirilməsinə təkan verdi. Bu tədbirlər isə multikulturalizm ənənələrinin təbliğində Azərbaycanın əvəzsiz rolunu göstərir . Bu sırada 2014-cü il mart ayının 7-də Bakıda Beynəlxalq Media Mərkəzində "Dini etiqad azadlığı, missionerlik fəaliyyəti və media" mövzusunda keçirilən konfrans da xüsusi qeyd edilə bilər. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 15 may 2014-cü il tarixli Fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Dövlətimizin başçısı 2015-ci il mayın 18-də Bakıda keçirilən III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışındakı nitqində bu barədə demişdir: "Bizim ölkədə multikulturalizm ənənələri hər zaman güclü olub və Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması bu dəyərlərin təşviqi istiqamətində hökumətimizin atdığı daha bir addım idi. Multikulturalizmin alternativi yoxdur... Hesab edirəm ki, multikulturalizmi gələcəyi olmayan məfhum kimi təqdim etmək təhlükəlidir, əksinə səylərimizi dayandırsaq, dünyada vəziyyət daha da pisləşəcək". 2014-cü il oktyabrın 2-də "XXI əsr: ümidlər və çağırışlar" devizi ilə keçirilən IV Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimindəki nitqində prezident xüsusi olaraq qeyd etmişdi ki: "Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə bütün xalqları birləşdirir". İlham Əliyev "Rossiya-24" informasiya telekanalına müsahibəsində bu fikri belə açıqlamışdı: "Təəssüf ki, biz müasir dünyada çox vaxt başqa mənzərə - qarşıdurma, təcridolunma, ayrıseçkilik görürük. Bəzi ölkələrdə, ümumiyyətlə, yüksək səviyyədə

bəyan edirlər ki, multikulturalizm siyasəti fiaskoya uğrayıb. Bu, çox təhlükəli meyldir. Düşünürəm ki, Azərbaycanın nümunəsi bunun tam əksini göstərir. Onu göstərir ki, öz mədəniyyətinə, tarixinə bağlı olmaqla bərabər, eyni zamanda başqa xalqların və dinlərin nümayəndələrinin mədəniyyətinə də hörmətlə yanaşmaq olar. Təsadüfi deyil ki, Bakı bu sahədə beynəlxalq əməkdaşlığın özünəməxsus mərkəzinə çevrilib. Bu yaxınlarda bizdə Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb, müxtəlif tədbirlər, beynəlxalq forumlar keçirilir. Əlbəttə, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkə kimi belə bir nümunə göstərir ki, sosial sifariş və dövlətin düzgün siyasəti olanda bütün bu məsələləri bacarıqla həll etmək mümkündür". 2016-cı il yanvarın 10-da Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasdakı nitqində Azərbaycan Prezidenti İlham Əliyev multikulturalizm siyasətinin tətbiqi imkanları ilə bağlı bildirmişdir: "Azərbaycan multikulturalizmlə bağlı çox böyük işlər görüb. Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır. Baxmayaraq bəzi siyasətçilər deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Bəlkə haradasa iflasa uğrayıb. Amma Azərbaycanda yaşayır və bu meyllər, bu ideyalar güclənir, ictimaiyyətdən də daha çox dəstək alır. Biz bu yolla gedəcəyik. Beləliklə, bu il Azərbaycanda "Multikulturalizm ili" elan olunur".

Beləliklə, multikulturalizm bu gün Azərbaycanda gedən demokratik proseslərin ayrılmaz tərkib hissəsi kimi çıxış edir. Bu çərçivədə keçirilən tədbirlər isə ölkəmizdə multikultural təhlükəsizliyin intellektual göstəricilərinin artıq formalaşdığını təsdiqləyir. 2016-cı ildə BMT-nin Sivilizasiyalar Alyansının Bakıda keçiriləcək VII Qlobal Forumu dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətin real ifadəsidir. Digər tərəfdən bu, Azərbaycanda multikultural təhlükəsizliyin təmin olunmasına sistemli yanaşmanın mövcudluğundan xəbər verir.

# MÖVZU 5

## Etnik-milli müxtəliflik və multikulturalizm

**Plan:**

1. Azərbaycanın polietnik təkamülünə baxış və onun tolerantlıq ənənələri
2. Müasir Azərbaycanda etnik-mədəni müxtəliflik: problemlər və perspektivlər

### *1. Azərbaycanın polietnik təkamülünə baxış və onun tolerantlıq ənənələri*

XX əsrin əvvəllərində görkəmli etnoqraf, Vəliyev (Baharlı) göstərmişdi ki, Azərbaycan etnoqrafik muzeydir. Hazırda Azərbaycan Respublikası məkanında 80-dən çox azsaylı xalq yaşayır. Bu azsaylı xalqlar qafqazdili, irandilli, türkdilli qruplara aid olub, ölkə əhalisinin etno-konfessional tərkibinə daxildirlər. Onların sırasında udiləri, ingiloyları, xınalıqları, qırğızları, buduqları, tatları, talışları, rusları, ləzgiləri, yəhudiləri və digərlərini göstərmək olar. Bu azsaylı xalqların bir hissəsi Azərbaycanın köklü əhalisi olub, başqa bir hissəsi isə tarixin müxtəlif mərhələlərində baş verən sosial-siyasi proseslərin nəticəsi olaraq ölkə torpaqlarında məskunlaşmışlar. Azsaylı xalqlardan, alban soylarından olan udilərə diqqət yetirərək göstərmək lazımdır ki, müasir udilərin birbaşa əcdadları sayılan utilər haqqında e.ə. V əsrdə yaşamış qədim yunan müəllifi Herodot özünün "Tarix" əsərində məlumat vermişdir. E.ə. I əsrdə yaşamış Strabon da "Coğrafiya" əsərində Qafqaz Albaniyasında yaşamış 26 yerli alban soyunun arasında udilərin adını göstərmişdir. Udilər əsasən Qafqaz Albaniyasının Uti və Arsax vilayətlərində yaşamışlar. Alban soylarından olan ingiloylar da diqqəti çəkir

ki, onlar Qafqaz Albaniyasının Kambisena vilayətində yaşamış, erkən orta əsrlərdə xristianlıq Qafqaz Albaniyasında yayılarkən, udilər kimi xristianlığı qəbul etmişlər.

İslamaqədərki dövrdə Azərbaycanda konfessional durum özünün rəngarəngliyi ilə seçilmiş, ölkənin cənub torpaqlarında əhali əsasən zərdüştlüyə və xristianlığın nestorian məzhəbinə sitayiş etsələr də, Qafqaz Albaniyasında əhalinin cüzi hissəsi politeist dinlərə itaət etsə də, lakin böyük hissəsi xristianlığın diofizit və monofizit məzhəblərini qəbul etmişdi.

Ərəb xilafəti dövründə, islamın yayılması Azərbaycanın bütün bölgələrində eyni zaman ölçüsündə baş vermişdi. Zərdüştlüyün və bütpərəstliyin geniş yayıldığı ərazidə, Azərbaycanın cənub torpaqlarında, daha sonra Mildə, Muğanda, Kaspi sahillərində, Kür və Araz çayları boyunu əhatə edən ərazilərdə islam dini sürətlə yayılmışdı. Lakin Arsax, Uti, Kambisena vilayətlərində yaşayan əhali xristian kitab əhli olduğu üçün ərəblər onların dini etiqadına dözümlə yanaşmışdılar. Paralel olaraq Qafqaz Albaniyasını Bizansdan uzaqlaşdırmaq məqsədi ilə VIII əsrin əvvəllərindən etibarən (704-cü il) Alban kilsəsini iyerarxik baxımdan monofizit erməni kilsəsinə tabe etdirmişdilər. Belə ki, Ərəb xilafəti xristianlara qarşı münasibətdə sasanilərin yürütdüyü siyasəti davam etdirir və nəticədə, 704-cü il hadisələrindən sonra Alban kilsəsinin erməni-kilsəsindən asılı vəziyyətə düşməsi, əhalini öz dilindən, tarixi yaddaşından uzaqlaşmasına səbəb olur və Qafqaz Albaniyasının Arsax, Uti bölgəsinin əhalisi konfessional-mədəni assimilyasiyaya – qriqoryanlaşmaya məruz qalır. Kambisena əyalətinin əhalisi ingiloylar isə İberiya ilə həmsərhəd olduğu üçün gürcü-pravoslav kilsəsinə üz tutur və gürcüləşirlər.

Tarixin faciəvi dönüşü ölkə əhalisinin ayrı-ayrı bölgələrinin etno-konfessional inkişafını müxtəlif səmtlərə istiqamətləndirmiş və eyni soya, kökə, tarixə malik əhali konfessional

amil əsasında bir-birinə yadlaşmış və "din ayrı qardaş" aforizmi söz lüğətimizə daxil olmuşdur.

Azərbaycan xalqının tarixən yaşadığı konfessional təkamülü ona poli-konfessional mədəniyyət çalarları gətirmişdir. Ölkə ərazisində zərdüştlük, xristian, islam abidələri qorunub saxlanılır. Azərbaycan Respublikasının şimal – qərb, cənub-qərb bölgələrində qorunub saxlanılan alban xristian abidələri xalqımızın tarixi yaddaşı üçün bir sübutdur ki, Azərbaycan torpaqları yalnız Azərbaycan tarixinə məxsusdur. Əcdadlarımızın yaşadığı tarixi yol multikultural ənənələrin yaranması üçün zəmin olub, Azərbaycan xalqında tarixən konfessiyalara olan tolerantlıq mədəniyyətini formalaşdırmışdır.

Ölkə əhalisinin etnik alloxton qrupuna aid etnoslardan olan ermənilər II Tiqranın apardığı işğalçı siyasətindən başlayaraq fasilələrlə ölkənin bir sıra bölgələrində cüzi sayda məskunlaşsalar da, Rusiya imperiyasının apardığı köçürmə siyasəti nəticəsində XIX əsrin birinci otuzilliyində ermənilər İran və Osmanlı dövlətlərindən kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürülmüşlər.

***Rusiya imperiyasının müstəmləkə siyasəti: köçürmə, ruslaşdırma, xristianlaşdırma.*** XIX-XX əsrin əvvəllərində Rusiya imperiyasının Şimali Azərbaycanda apardığı müstəmləkə siyasətinin tərkib hissəsi olan köçürmə siyasəti nəticəsində ölkə əhalisinin etnik nomenklaturasında demoqrafik dəyişikliklər baş verdi. Belə ki, XIX əsrin birinci otuzilliyində Türkmənçay və Ədirnə müqavilələri bağlandıqdan sonra Rusiya imperiyası işğal etdiyi Azərbaycanın şimal torpaqlarında özünün siyasi hakimiyyətini bərqərar etmək, işğal etdiyi müsəlman ölkəsində konfessional dayaq yaratmaq məqsədi ilə əhalinin 90%-dən çox müsəlman olduğu ölkənin etnik nomenklaturasında xristian elementinin çəki yükünün artırılmasını əsas götürüb, qeyri-köklü xristian etnosları ölkəyə köçürməyə başladı. Bu siyasətin mahiyyəti, vətən torpaqlarını imperiya coğrafi çərçivəsində əridib, burada

yadelli, yaddilli, yaddinli etnosları yerləşdirib, bölgədə özünə sosial dayaq yaratmaq idi. Köçürmə siyasətini apararkən, Rusiya hakim dairələri ermənilərə böyük ümidlər bəsləmiş və hakimiyyətin bu mövqeyini P.D.Sisianov belə izah etmişdi ki, ermənilər xristian olduqları üçün öz şəxsi mənafeləri naminə rus hökumətinə sədaqətlidirlər və Rusiya dövlətinin yeni ərazilərdə hökmranlığının bərqərar olmasını görmək istəyirlər. Nəticədə, 1828-1830-cü illər ərzində İran və Osmanlı dövlətlərindən 120 minə yaxın erməni Şimali Azərbaycan torpaqlarına köçürülür və onlar, əsasən, İrəvan, Naxçıvan, Ordubad, Qarabağ torpaqlarında yerləşdirilirlər. Azərbaycan tarixinin sonrakı mərhələlərində də ermənilərin ölkəyə köçmələri davam etmiş və XX əsrin əvvəlləri üçün onların çəki yükü ölkə əhalisinin etnik nomenklaturasında 32.65%-ə çatmışdı, halbuki, XIX əsrin birinci otuzilliyində ermənil-qriqoryanların çəki yükü Şimali Azərbaycan əhalisinini 9%ni təşkil edirdi ki, onların əksəriyyəti qriqoryanlaşmış albanlardan ibarət idi.

***Azərbaycan tarixinin alman səhifələri.*** Köçürmə siyasəti aparan Rusiya, ölkə əhalisinin tərkibinə yeni etnoslar da gətirdi: almanları və rusları.

XIX əsrin birinci rübündə Azərbaycanın şimal torpaqlarını işğal edən Rusiya imperiyasının apardığı müstəmləkə siyasətinin əsas istiqamətlərindən biri işğal olunmuş əraziyə xristian etnosları köçürmək və xristian elementinin çəki yükünü ölkə əhalisinin etno-konfessional nomenklatura-sında artırmaq idi. Yadelli xristian etnoslardan ilk olaraq almanlar Azərbaycanın şimal torpaqlarına köçürülmüş və onların koloniyaları salınmışdı. Alman-kolonistlər, ölkənin sosial-iqtisadi sahəsinə qərb elementlərini daxil edə bilmiş, kənd təsərrüfatında üzümçülük, şərabçılıq, tütünçülük kimi sahələr, süni mineral suların hazırlanması onların adı ilə bağlı olmuşdur.

Şimali Azərbaycanda məskunlaşan almanlar Rusiya imperiyasının apardığı müstəmləkə siyasətinin tələblərinə ca-

vab verməsələr də, ölkənin sosial-iqtisadi, mədəni və elm sahələrinə qoşulmuş, Azərbaycan tarixində özünəməxsus iz qoymuş, ölkədə multikultural mühitin inkişafına təsir göstərmişlər. 1899-cu ildə alman memarı İ.Eyxlerin layihəsi ilə alman qotika üslubunda tilikmiş Kirxa kapitalist Bakısına qərb memarlığı mədəniyyətini gətirərək, Şərq-Qərb dünyalarını yaxınlaşdırmışdır. Bu dövrdə Azərbaycanın multikultural ənənələrə yaxınlaşması özünü başqa sahələrdə də göstərmişdir. Bakı nefti ilə milyonlara sahib olan Nobel qardaşları Nobel mükafatını təsis edərək, bəşəriyyətə Qərb-Şərq sivilizasiyalarının vəhdətini nümayiş etdirmişdir.

İmperiya çərçivəsinə daxil etdiyi bütün xalqlara velikorus mövqeyindən yanaşan Romanovlar Rusiyası XX əsrin əvvəllərində sosial-siyasi kollaps dövrünə qədəm qoyduqda konfessional cəhətə varmayaraq özünün qeyri-rus təbəələrinə birtərəfli münasibət göstərmiş və bu baxımdan almanlar istisna təşkil etməmişdilər. XX əsrin əvvəllərində ölkə əhalisinin tərkibinə qatılan almanların sayı 15.990 nəfərə, çəki yükü isə ölkə əhalisinin etnik nomenklaturasında 0,41 %-ə çatmışdı.

***Xristianlaşdırma siyasəti.*** Azərbaycan torpaqlarını özünün müstəmləkə sisteminə qatan Rusiya siyasi hakimiyyətini bölgədə bərqərar etmək məqsədi ilə işğal etdiyi ərazidə mövcud islam sistemini pozmaq və əsas vasitə kimi götürdüyü xristian elementini artırmaq üçün müstəmləkə siyasətinin tərkib hissəsi olan xristianlaşdırma siyasətini məqsədyönlü olaraq aparmışdır. Belə ki, müsəlman ölkəsində Rusiya hakimiyyətini möhkəmlətmək məqsədini əsas tutan mütləqiyyət yaddilli, yaddinli, yadtəbiətli əhalinin assimilyasiyaya uğramasında mütləq vasitə kimi dini, xristianlığın yayılmasını götürmüşdü. Belə ki, Rusiya imperiyasının hakim dairələrinin fikrincə, ölkənin köklü əhalisi yadelli işğalla barışmayacaq və bu barışmazlığın dayaq nöqtəsi də İslam dini idi. Çünki minillik bir tarixi dövr boyunca İslam dininə etiqad edən xalq,

xristian bir dövlətin hakimiyyətini asanlıqla qəbul etməyəcəkdi.

Rusiya imperiyasının Şimali Azərbaycanı tərkib hissəsinə çevirmək məqsədi ilə xristianlaşdırma siyasətini aparan mütləqiyyət bölgədə xristian missioner cəmiyyətlərinin fəaliyyəti üçün şərait yaradır. İşğalın ilk illərində fəaliyyət göstərən missioner cəmiyyətləri təkcə pravoslav deyil, habelə qeyri-pravoslav yönümlü idilər. Sonuncuların fəaliyyət məkanına Bazel missionerləri cəlb olunmuşdular. Lakin tezliklə Rusiya hakim dairələrinin ayrı-ayrı nümayəndələri belə qənaətə gəlirlər ki, qeyri-pravoslav missioner cəmiyyətləri, o cümlədən Bazel yevangel cəmiyyəti Rusiya imperiyasının dövlətçilik siyasətinin tələblərinə cavab verə bilmədiyi üçün onların fəaliyyətinə xitam verilməlidir. Beləliklə, XlX əsrin 30-cu illərində Rusiya hakim dairəlilərində qeyri-pravoslav missioner cəmiyyətlərə, o cümlədən Bazel missioner cəmiyyətinə münasibət qeyri-loyal duruma gəlmiş və nəticədə, 1835-ci ilin payızında Bazel missioner cəmiyyətinin fəaliyyətinə qadağa qoyulmuşdu. Verilən qərarla razılaşmayan Bazel missionerləri baron Q.V.Rozenə yazdıqları hesabatlarında bölgədə xristianlaşdırma siyasətinə toxunaraq bildirmişdilər ki, onların cəmiyyətinin əsas məqsədi müsəlmanları xristianlaşdırmaqdır. Bunun üçün də əsas vasitə olaraq Bibliyanın bölgədə təbliği və yayılması məqsədəuyğun hesab edilmişdir. Çünki onların fikrincə, dinin və dini baxışların dəyişilməsi üçün "nəinki onilliklər, hətta əsrlər gərəkdir". Bu fikri əsas tutan Bazel missionerləri Rusiya rəsmi dairələrinin xristianlaşdırma siyasətində kəmiyyət meyarına istinad etmələrini qəbul etmir və bildirirlər ki, qısa bir zaman çərçivəsində göstərdikləri fəaliyyət onlara belə bir gerçəkliyi aydınlaşdırmışdır ki, Azərbaycan torpaqlarının köklü əhalisi olan azərbaycanlıları xristianlaşdırmaq o qədər də asan deyil. Çünki əsrlərlə Azərbaycan xalqının mentalitetini, özünüdərkini müəyyənləşdirən İslamı və ,,islam mədəniyyətini şüurlardan silmək müm-

kün deyil”. Lakin mütləqiyyət müstəmləkə iddialarından əl çəkmək istəməyərək Bazel missionerlərinin bu müraciətini qəbul etməyərək 1837-ci ilin yayında onların fəaliyyətini dayandırmışdı.

Beləliklə, XlX əsrin ikinci otuzilliyində başlayaraq Rusiya imperiyasının Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda apardığı xristianlaşdırma siyasətində yeni istiqamət özünü göstərir. Belə ki, bölgənin işğalının ilk illərində Rusiya zəbt etdiyi torpaqlarda mütləqiyyət, xristian amilini sadəcə olaraq artırmaq məqsədini əsas götürdüyü uçun xristian dininin ayrı-ayrı konfessiyalarını xristianlaşdırma siyasətinə qoşurdusa da, Türkmənçay müqaviləsi bağlandıqdan sonra Rusiya imperiyası bölgədə siyasi hakimiyyətini bərqərar etmək məqsədi ilə qeyri-pravoslav konfessiyaların, o cümlədən Bazel missionerlərinin fəaliyyətini məqsədəuyğun hesab etməyərək, onları xristianlaşdırma siyasətindən uzaqlaşdırır və bu siyasətin ana xətti ortodoksal kilsə ilə bağlanılır.

Ölkədə məqsədyönlü şəkildə xristianlığı yaymaq konturları ilə çıxış edən Rusiya Qafqazda pravoslavlığı yayan “Osetin komissiyası”nın fəaliyyəti ilə kifayətlənməyib, 1829-cu ildə “Qafqazda pravoslavlığı yayan cəmiyyət”i təsis edir. Bu qurum 1860-cı ildə fəaliyyətə başlayır. Xristianlığı ölkədə yayarkən, mütləqiyyət nəzər-diqqəti şimal-qərb torpaqlarına yönəldir və Alban kilsə tarixi-abidələrinin  mövcud olduğu ərazilərdə xristianlaşdırma siyasətinin uğurlu nəticələrlə sonuclanması qənaətinə gəlir. “Qafqazda pravoslavlığı yayan cəmiyyət”in fəaliyyəti nəticəsində Zaqatala dairəsində kilsələr tikilməyə başlayır və XIX əsrin ilk illərində  20 minə qədər alban-ingiloy zor-xoş xaç suyuna salınır. Əhali mütləqiyyətin apardığı xristianlaşdırma siyasəti ilə barışmır və 1863-cü ildə Zaqatalada üsyan başlayır və bu üsyanın əsas səbəblərindən biri  məhz xristianlaşdırma siyasəti olur. Bölgədə sosial-siyasi durumu sabitləşdirmək məqsədi ilə Qafqaz Canişinliyi “xristianlığı qəbul etmişlərə yenidən İslam dininə qayıtmağa icazə

verir”. Nəticədə, bir neçə il ərzində Zaqatala dairəsində 7 məhəllə kilsəsi, o cümlədən Balakən kilsəsi bağlanılir. Beləliklə, Rusiya imperiyasının Azərbaycan torpaqlarında apardığı xristianlaşdırma siyasəti mütləqiyyətin gözlədiyi nəticəni vermir və bunun əsas səbəbi Azərbaycan xalqının İslam dininə olan bağlılığı olur. Bununla belə, mütləqiyyət sonrakı illərdə də xristianlaşdırma siyasətini davam etdirilir və bu konturda “Qafqazda pravoslavlığı yayan cəmiyyət” öz xidmətini göstərir, ölkə quberni-yalarında pravoslav kilsələri salınır. Xristian kilsələrinin sürətlə salınması, xüsusən, Bakı şəhərində özünü daha qabarıq şəkildə göstərir. Burada xristian abidələrinin salınması rus xristian əhalinin etiqadı üçün şəraitin yaranması məqsədini də güdürdü. Belə ki, neft kapitalının sıçrayışlı inkişafı şəhərdə demoqrafik “partlayış”a səbəbə olur. 1913-cü il məlumatına görə, 214.672 nəfərlik Bakı əhalisi içərisində birinci yeri 76.228 nəfərlə ruslar tuturdu. Həmin ilin göstəricilərinə görə şəhərdə 17 pravoslav xristian kilsəsi fəaliyyət göstərirdi. Beləliklə, Rusiya imperiyasının işğalı nəticəsində köhnə Bakının Şərq mədəniyyəti ilə Avropa mədəniyyətinin çulğalaması prosesi mərhələsi başlanmışdı.

***Ruslaşdırma siyasəti.*** Xristianlaşdırma siyasəti ilə paralel olaraq mütləqiyyət Şimali Azərbaycana Rusiya imperiyasının mərkəzi quberniyalarından rus əhalisini də köçürürdü ki, məqsəd ölkənin köklü əhalisini, azərbaycanlıları, assimilyasiyaya uğratmaq, bu müsəlman torpaqlarını imperiya çərçivəsində “əritmək” idi. Ruslaşdırma siyasətini XIX əsrin birinci otuzilliyindən aparan mütləqiyyət, Rusiya dövlətçiliyi üçün təhlükə amili kimi qəbul edən rus təriqətçilərini Şimali Azərbaycana köçürsə də, lakin XIX əsrin üçüncü otuzilliyindən etibarən pravoslavlığın yayılmasında rus təriqətçilərinin deyil, rus pravoslav əhalisinin önəmli rol oynadığını əsas götürüb, pravoslav rusların bölgəyə köçürülməsinə üstünlük verir. Nəticədə, 1912-ci il üçün Bakı quberniyasında 60,

Yelizavetpol quberniyasında isə 29 rus pravoslav məskənləri salınır. Mütlə-qiyyətin devrilməsi ərəfəsində Şimali Azərbaycanda rusların sayı 249.835 nəfərə çatırdı.

***Demoqrafik dəyişikliklər.*** Beləliklə, XIX əsrin birinci otuzilliyində Azərbaycan torpaqlarını işğal edən Rusiya imperiyası ölkədə siyasi hakimiyyətini bərqərar etmək üçün köçürmə siyasəti apararaq əhalinin etno-konfessional tərkibində ermənilərin sayını mexaniki hərəkətlə artırsa da, əhalinin tərkibinə yeni xristian elementləri – almanları və rusları gətirsə də, Azərbaycan xalqının çəki yükü 54,9%, əhalinin etno-konfessional tərkibində dominant olaraq qalmış, Azərbaycan xalqı özünün tarixi torpaqlarında yaşamaqda davam etmiş, özünün mentalitetini, maddi-mənəvi mədəniyyətini, etnik özünüdərkini, konfessional tolerantlığını qoruyub saxlayaraq, Şərq-Qərb mədəniyyətlərinin sintezi prosesində özünəməxsus rol oynamış, multikulturalizm ənənələrini inkişaf etdirmişdir.

***Azərbaycan xeyriyyəçiləri.*** Ruslaşdırma və xristianlaşdırma siyasətini aparan Rusiya imperiyasının məqsədi Azərbaycan xalqını assimilyasiyaya uğratmaq idi. İnqilabaqədərki Rusiya apologetləri (xristianlığın müdafiəçiləri) ruslaşdırmanı Rusiyanın tərkib hissəsi olduğunu göstərərək bildirirdilər ki, bu siyasətin əsas məqsədi qeyri-rusların “ruslar kimi düşünməsi və fikirləşməsidir”. Müstəmləkə siyasətinin bütün ağırlığının girdabı içində qalan Azərbaycan öz tarixi özünüdərkini əsas tutur və XlX əsrin sonlarında kapitalizmin inkişaf mərhələsinə qədəm qoyan ölkə milli özünüdərk oyanışını yaşayır. Milli özünüdərk intibahının ilhamverici qüvvəsi Azərbaycan maarifpərvərləri və milli burjuaziyanın nümayəndələri olur. Bu xeyriyyəçilərin əsas məqsədi Rusiya imperiyasının müstəmləkə siyasətinin mahiyyətini göstərmək və xalqı oyatmaq idi. Bu məqsədlə xeyriyyəçilər mədəniyyətin, ədəbiyyatın, elmin, mətbuatın, maarifin inkişafına ciddi fikir verirdilər. Cəmiyyətin bu aspektlərini inkişaf etdi-

rən Azərbaycan xeyriyyəçiləri ölkəni multikultural istiqamətə yönəldirdilər.

***Həsən bəy Zərdabi.*** Görkəmli maarifçi-demokrat, pedaqoq və ilk Azərbaycan xeyriyyəçilərindən olan Həsən bəy Zərdabi xalqın milli şüurunun oyanmasında dünyəvi məktəblərin açılmasının zəruriliyini göstərir və bu ideyanın təbliği üçün vasitə olaraq milli mətbuatın əsasını qoyur. Onun 1875-ci ildə təsis etdiyi "Əkinçi" qəzeti demokratik və maarifpərvər ideyaların təbliğat alətinə çevrilir. Bu qəzetin mənəvi varisləri "Ziya", "Ziyayi-Qafqaziyyə" və "Kəşkül" qəzetləri olur.

***Hacı Zeynalabdin Tağıyev.*** Azərbaycan milli burjuaziyanın görkəmli nümayəndəsi, 1873-cü ildə Bakı nefti ilə milyonlara sahib olan Hacı Zeynalabdin Tağıyev öz xeyriyyəçiliyi ilə də seçilmişdir. Onun adı həm də qızlar məktəbi ilə də bağlıdır. Xalqının gələcək inkişafını maarifdə, tərəqqidə görən uzaqgörən xeyriyyəçi qızların təhsilinə xüsusi diqqət yetirmişdir. O, Bakıda ilk qızlar məktəbini açır və bu məktəbin xərcini ödəmək üçün banka 150.000 manat pul qoyur. Bina 1898-ci ildən tikilməyə başlayır və 1900-cü ildə hazır olur. Bu məktəb 184.000 manat başa çatır. Binanın memarı polyak Qoslavski idi. Məktəb Nikolayevski (indiki İstiqlal, hazırda AMEA-nın Əlyazmalar fondunun binası) küçəsində yerləşirdi.

Qaraguruhçu ruhanilərin ciddi müqaviməti ilə üzləşən Tağıyev Quran ayələri əsasında göstərir ki, islam dini müsəlmələrin də biliklərə yiyələnmələrinin vacibliyini göstərir. Hacının səyləri öz nəticəsini verir. Qızlar məktəbində ilk dərslər 1901-ci ilin sentyabrın 7-də başlanır. 58 şagirddən 35-i kasıb ailədən olduğu üçün böyük xeyriyyəçi onları öz hesabına oxutdurmuşdu.

Azərbaycan xeyriyyəçiləri qəzalarda da fəaliyyət göstərir, Rusiya imperiyasının Azərbaycan torpaqlarında apardığı xristianlaşdırma siyasətinə qarşı mübarizəni, islam dəyərlərinin xalqın mənəviyyatında dominant rol oynaması üçün

yeni məscidlər salmaqda görürdülər. Bunların sırasında 1870-ci ildə Şamaxı şəhərində memar Kazımbəy Hacıbabayevin layihəsi əsasında salınmış Təzə məscidi göstərmək olar ki, bu məscidin salınmasına xeyriyyəçi tacir Hacı Məmməd Rza vəsait ayırmış, 100 000 rubl pul qoymuşdu. Bu illərdə əyalət xeyriyyəçiləri başqa qəzalarda da məscidlər tikdirirdilər. 1854-cü ildə Quba qəzasında Səkinə xanım məscid tikdirir. 1877-1878-ci illərdə İsrafil bəy Yadigarzadə Gəncədə məşhur orta əsr "İmamzadə" kompleksini bərpa etdirir. 1899-cu ildə İsrafil ağa Qazax qəzasında məscid saldırır. 1886-cı ildə Gəncədə Cənubi Azərbaycan şahzadəsi Bəhmən Mirzənin qızı Səbiyyə xanım məscid tikdirir. Lakin xristianlaşdırma siyasətini aparan mütləqiyyət, yerlərdə islam maddi-tarixi abidələrinin salınmasından narahat olaraq, A.S.Puşkinin 100 illiyi bəhanəsi ilə məscidin kitabxanaya çevrilməsi qərarını verir. Gəncəlilər bu qərara etiraz etsələr də Səbiyyə xanım xalqın maariflənməsində kitabxananın əhəmiyyətli rol oynadığını əsas tutaraq multikultural mövqedən çıxış edir və bu qərarla razılaşır.

***XX əsrin əvvəllərində Bakı memarlığı – multikulturalizmin nümunəsidir.*** Bakı XX əsrin əvvəllərində multkultural mədəniyyətə yaxınlaşmaqda davam edirdi. Rusiyanın müstəmləkə siyasətinin ağırlığını daşısa da, kapitalizmin inkişaf mərhələsinə qədəm qoymuş Şimali Azərbaycan Qərb mədəniyyətinin dəyərləri ilə tanış olur, Şərq sivilizasiyanın daşıyıcısı olan ölkə öz mənəviyyatını zənginləşdirir, multikultural dünyaya yaxınlaşır. Məhz bu dövrdə Rusiya və Avropa mədəni-ictimai cərəyanların təsiri nəticəsində yeni dövr rəssamlıq sənəti, realist rəsmlər yaranır. Azərbaycanın karikatura, şarj məktəbinin banisi isə Əzim Əzimzadə olur. Bu dövrdə kapitalist Bakısında gedən tikililər Qərb memarlığı üslubunda salınır. Bu memarlığın formalaşmasında alman memarlarının da yeri olmuş, N.A.Fonder Nonne, F.A.Lemkul, İ.V.Edel, A.Eyxler Bakının yeni memar üslublu şəhərə çevril-

məsində xüsusi xidmət göstərmiş, qiymətli əsərlər yaratmışlar.

Bu illərdə Bakıda teatr binaları, kino salonları, əyləncə evləri də artırdı. Azərbaycanda ilk milli teatr binasının tikilməsi Hacı Zeynalabdin Tağıyevin adı ilə bağlıdır. Teatr binası 1883-cü ildə Hacının pulu ilə memar Koqnovitskinin layihəsi əsasında tikilmişdir. Milli teatr ölkədə multikulturalizmin inkişafında özünəməxsus rol oynayır. Belə ki, kapitalist Bakısı Qərb mədəniyyətinin komponentlərindən olan teatrı qəbul etsə də, öz milli mentalitetindən imtina etməmişdi. Belə ki, tamaşaya baxa bilmələri üçün qadınlar xüsusi salınmış lojalarda yerləşdirilir, xalqın milli davranış qaydaları qorunurdu. Beləliklə, cəmiyyət Qərb mədəniyyətini qəbul edərək Şərqli davranışından imtina etmirdi. Bu teatrda 1908-ci ildə "Leyli və Məcnun" operası oynanılmışdı. Azərbaycan mədəni həyatında xüsusi yer tutan bu hadisə ölkəni multukultural dünyaya aparırdı. İlk dəfə olaraq Şərqdə, Azərbaycanda, Qərb mədəniyyətinin komponenti opera qəbul edilir və böyük Ü.Hacıbəyov tərəfindən Şərq motivləri əsasında yazılır.

1909-cu ildə Bakının incisi olan Bulvarın salınmasına, istedadlı mühəndis, vətənpərvər Məhəmməd Həsən Hacınskinin rəhbərliyi ilə başlanılır və multikultural əsər olan Bakı bulvarının layihəsində alman memarlarından, A.Eyxler öz aktivliyi ilə seçilir.

Yuxarıda göstərilənlər belə bir reallığı açıqlayır ki, əgər qəzalarda tarixi tolerantlıq ənənələrini və xalqın tarixi yaddaşını qoruyan Azərbaycan xeyriyyəçiləri islam ənənələrini inkişaf etdirməyə daha çox meylli idilərsə, kapitalist Bakısının Azərbaycan xeyriyyəçiləri, islam dəyərlərini qorumuş və paralel olaraq, Qərb mədəniyyətini köhnə Bakıya aşılayaraq, Qərb-Şərq mədəniyyətinin sintezini apararaq, bəşər tarixinə təkraredilməz bir multikultural mədəniyyət gətirmiş və 1907-ci ildə H.Z.Tağıyevin tikdirdiyi “Jon Mironosets” kilsəsi buna bariz nümunədir. Ümumən

Azərbaycan xeyriyyəçilərinin fəaliyyəti Azərbaycan sosial-mədəni həyatında özünəməxsus bir tolerantlıq ansamblı yaratmış, multikulturalzmin inkişafına xidmətlər göstərmişlər.

***XX əsrin əvvəllərində Azərbaycan milli-azadlıq hərəkatı. Rusiya müsəlmanlarının I qurultayı.*** Azərbaycan torpaqlarında müstəmləkə siyasətini aparan Rusiya imperiyası köçürmə, ruslaşdırma siyasəti ilə paralel olaraq islam dininin cəmiyyətdə tutduğu rolunu da mümkün qədər məhdudlaşdırmağa çalışırdı. Cəmiyyətin əxlaqına və məişətinə ciddi təsir göstərə bilən, müstəqil sosial-siyasi qüvvə olan müsəlman ruhanilərinə imperiya ehtiyatla yanaşmağa çalışırdı. Belə ki, ölkədə İslamın nüfuz dairəsini mümkün qədər məhdudlaşdırmaq, müsəlman ruhanilərinə məqsədyönlü şəkildə təzyiqlər göstərmək, müsəlman ruhanilərinin dini-siyasi fəallığını neytrallaşdırmaq istəyən mütləqiyyət, ruhanilərlə əməkdaşlıq əlaqəsinə girərək onların nüfuzundan imperiya mənafeyi naminə faydalanmaq istəyirdi. Müsəlman ruhaniliyin nüfuzu ilə barışmaq məcburiyyətində qalan mütləqiyyət 1823-cü ildə Zaqafqaziya Müsəlmanlar Ruhani İdarəsini təşkil edir. Bu qurum qısa bir zaman çərçivəsində köklü müsəlman əhalisinin maraqlarını təmin edən istiqamətdə fəaliyyət göstərir. Bu qurumun əhaliyə təsir gücünü hiss edən Rusiya "parçala, hökm sür!" kredosunu əsas tutaraq, İslamda məzhəb məsələsini qabartmaq xəttini götürür və 1832-ci ildə Tiflisdə Qafqazın Muftisi vəzifəsini təsis edir.

Romanovlar Rusiyası islam dininə qadağa qoymasa da, müsəlmanların ümumi təbəəlik və dini – mədəni hüquqlarına təzyiq və məhdudiyyət qoyduğundan, xristian missionerlərin təbliğatına şərait yaratdığından xalq belə bir vəziyyətlə barışa bilmir. Birinci Rusiya inqilabı illərində Rusiyanın müsəlman xalqları kimi Azərbaycanın mütərəqqi qüvvələri imperiyanın müsəlman əhalisinin rus xalqı ilə eyni olaraq hüquq bərabərliyinin tanınması tələbi ilə çıxış edir. Müsəlmanlar üçün mədəni təhsilin inkişafının labüdlüyünü göstərirlər. Bu tələbləri

təkmilləşmiş şəkildə, Azərbaycan milli hərəkatının görkəmli nümayəndəsi Ə.M.Topçubaşovun sədrliyi ilə 1905-ci il avqustun 15-də Nijni-Novqorodda keçirilən Rusiya müsəlmanlarının I qurultayı irəli sürmüşdü. Həmin dövrdə Azərbaycan və Rusiya müsəlmanlarının tərəqqipərvər nümayəndələri multikultural ideyanın, "avropalaşma, türkləşmə, islamlaşma" ətrafında birləşməyə çalışırdılar.

***Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan xalqının etnik tolerantlıq ənənələrinin inkişaf etdirilməsi.*** 1918-ci il mayın 28-də Azərbaycanın "İstiqlaliyyəti haqqında Aktı"nı qəbul edən AXC dövlətin ərazisində yaşayan bütün insanlara hüquq bərabərliyi verdi. Yarandığı zamandan etibarən ölkənin ərazi bütövlüyü uğrunda mübarizə aparan AXC Azərbaycan xalqının tolerantlıq ənənələrindən imtina etməyərək dövlətin qanunverici orqanı parlamenti formalaşdırarkən ölkənin sosial-siyasi həyatında xidməti olan azsaylı xalqlara, eyni zamanda Rusiya imperiyası dövründə əhalinin etno-konfessional tərkibində müəyyən çəki yükü əldə edə bilmiş rus və ermənilərə də yer ayrılmışdı. Belə ki, etnik proporsiyaya görə, parlamentdə nəzərdə tutulan 120 deputat yerdən 80-i müsəlmanlara, 21-i ermənilərə, 10-u Bakı Rus Milli Şurasına, 1-i Alman Milli Təşkilatına, 1-i Yəhudi Milli Şurasına, 1-i Gürcü Milli Şurasına, 1-i Polyak Milli Komitəsinə verilmişdi. Azsaylı xalqların nümayəndələri parlamentə seçilərkən onun işində də aktiv fəaliyyət göstərmişlər. Belə ki, alman icmasını təmsil edən L.Kun parlamentin aqrar komissiyasının tərkibinə daxil edilmiş, qanunların hazırlanmasında iştirak etmişdi. Qeyri-müsəlman etnosların tarixinə və mədəniyyətinə hörmətlə yanaşan AXC multikultural mühitin formalaşmasının demokratiyanın inkişafına müsbət təsir edəcəyini nəzərə alaraq ölkədə alman koloniyaların salınmasının 100 illik yubileyinin təntənəli şəkildə keçirilməsi üçün şərait yaratmış və bu yubiley 1919-cu ilin iyunun 9-da təntənəli şəkildə Yelenendorf koloni-

yasında keçirilmişdi. L.Kun bu bayram tədbirində çıxış edərək bildirmişdi ki, Azərbaycan torpaqlarında məskunlaşan kolonistlər Azərbaycan xalqının onlara bəslədiyi hörmət və ehtiramı unutmur və Azərbaycanı özlərinin ikinci vətəni kimi qəbul edirlər.

Azərbaycan xalqının almanlara olan xoş münasibətini belə bir fakt təsdiqləyir. Birinci Dünya müharibəsi illərində mütləqiyyət alman-kolonistlərə qarşı məhdudlaşdırma qanunlarını elan etdikdə Ə.Rəfibəylinin başçılığı ilə bir qrup Gəncə ağsaqqalı Yelizavetpol quberniyasının qubernatoru Kovalyevskidən Azərbaycanda məskunlaşan kolonistlərə bu qanunların tətbiq edilməməsini xahiş etmişdilər. Bu, öz kökündən, dilindən, dinindən olmayan xalqlar, Azərbaycan xalqının multikultural baxışdan yanaşdığını, bəşəri dəyərlərə əsaslandığını sübut edir. Və bu ənənələr özünü ailə-nikah münasibətlərində də göstərirdi. AXC hökumətinin üzvü olmuş Əbdül Əli bəy Əmircanovun qızı Məryəm xanım Almaniyada mühacirətdə olarkən məşhur kolonist Y.Qurrun oğlu Emil Qurrla ailə qurmuşdu. Azərbaycan-alman xalqlarının multikultural münasibətləri hərbi-siyasi sahədə də diqqət çəkmişdir. Azərbaycan xalqına varlığı ilə bağlı olan vermaxt zabiti Emil Qurr, Azərbaycan legion tarixi üçün xidmətlər göstərmiş, 1920-ci il Gəncə üsyanın rəhbərlərindən olmuş C.Kazımbəylini gestapodan qurtararaq onun həyatını xilas etmişdi.

***Sovet İttifaqının konfessional siyasəti.*** Aprel çevrilişindən sonra hakimiyyəti ələ keçirən bolşeviklər Şərqdə ilk dünyəvi demokratik dövlət olan, 23 ay ölkəni idarə edən AXC-nin demokratik nailiyyətlərində son qoydu. Özündə multikultural əsası, həm Qərb, həm də Şərq modellərinin komponentlərini birləşdirən bu qurum dinindən, dilindən, irqindən, cinsindən asılı olmayaraq dövlətin bütün vətəndaşlarına bərabər hüquqla yaşamaq azadlığını vermiş, ölkəni demokratik prinsiplər əsasında idarə etmişdi.

Xalqın mübarizə ruhunu qırmaq üçün bolşevik diktaturası onun milli ruhuna zərbə vurmağa qərar verir. 1920-ci il mayın 15-də Hərbi İnqilab Komitəsinin qərarı ilə Dini Etiqad Nazirliyi, Zaqafqaziya Müsəlmanları İdarəsi və şeyxülislamlıq təsisatı ləğv edilir. Xalqın dini baxışlarını səngitmək məqsədi ilə 1923-cü ildə "Materialistlərin klubu" təşkil edilir. 1924-cü ilin 24 yanvar tarixli qərarı ilə "Dinə qarşı xüsusi komissiya" yaradılır. Bu qərarın sonrakı inkişafı özünü "Allahsızlar cəmiyyəti"ndə tapır. 1929-cu ildə bu cəmiyyətin adı transformasiyaya uğrayaraq "Mübariz allahsızlar cəmiyyəti" adlandırılmışdı. Bolşeviklər xalqı öz tarixi köklərindən ayırmaq məqsədi ilə təkcə dinə qarşı yönəlmiş cəmiyyətləri yaratmaqla kifayətlənmirdi. XX əsrin 20-ci illərinin sonlarında dinə qarşı açıq mübarizəyə keçmiş hakim strukturlar yalnız 1929-cu ildə Azərbaycan SSR rayonlarında 120 məscid bağlamış, ümumən isə 1930-cu il üçün Azərbaycan SSR-də 400 məscid bağlanmışdı. Dinə qarşı ardıcıl mübarizə aparan Sovet hakimiyyəti vandalizm aktlarından imtina etməmiş və 1936-cı ildə Bibi-Heybət məscidi partladılmışdı. 1920-1944-cü illər, Qafqaz Müsəlmanları İdarəsi faktiki olaraq dondurulmuş bir vəziyyətdə qalmışdı.

Dinə qarşı mübarizə aparan bolşeviklər Azərbaycan SSR-də xristian kilsələrini də bağlayır, dağıdırdı. Belə ki, Bakıda "Qızıl kilsə" kimi tanınan Aleksanr Nevski" məbədi 1936-cı ildə partladılmışdı. Çox qiymətli tarixi abidə olan bu kilsəyə Rusiya imperiyası yalnız onun baş günbəzinin qızılı təbəqə ilə örtülməsi üçün 18.800 rubl vəsait ayırmışdı. 1891-1893-cü illərdə smeta dəyəri 195.000 rubl olan bu məbəd inqilabaqədərki Bakının multikultural sistemində özünəməxsus yer tutmuşdu.

Böyük Vətən müharibəsi başladıqdan sonra SSRİ-də islam dininə münasibət dəyişməyə başlayır. Bu vəziyyətin yaranmasına təsir edən amillərdən biri, Şimali Qafqazı ələ ke-

çirən alman ordusunun generallarından islam dinini qəbul etmələri, məsciddə namaz qılmaları olmuşdu. Əhalini ümumi düşmənə qarşı mübarizəyə yönəltmək üçün avtoritar-totalitar rejim, dinə qarşı apardığı radikal mövqedən uzaqlaşır və 1944-cü il aprelin 14-də SSRİ Ali Soveti Rəyasət Heyəti Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin bərpa edilməsi haqqında qərar qəbul edir.

Sovet hakimiyyətinin apardığı konfessional siyasətlə Rusiya imperiyasının apardığı xristianlaşdırma siyasətinə paralellər versək, aydın olar ki, Rusiya ölkədə "parçala, hökm sür" siyasətini əsas götürsə də, məzhəb, şiə-sünni ayrı-seçkiliyini salsa da, bir sıra məscidləri xristian məbədlərinə çevirsə də, islam dini ruhanilərini ali zümrəyə daxil etməsə də, bölgədə müsəlman dini qurumlarının fəaliyyətini dayandırmır, yeni məscidlərin tikilməsinə dözümlə yanaşır, din xadimlərini fiziki cəhətdən məhv etmirdi. Halbuki, antidin təbliğatını əlində rəhbər tutan Sovetlər həm xristian, həm də islam dininə qarşı XX əsrin 40-cı illərinin əvvəllərinə qədər terror aparmışdı.

***Sovet İttifaqının millətlərarası münasibətlər siyasətinin xüsusiyyətləri.*** Bu məsələdən danışarkən bolşevizmin "Bütün ölkələrin proletarları birləşin!" şüarına diqqət yetirmək lazımdır. Milli məsələni bolşevik - proletar ideologiyası əsasında, sinfi prinsiplər əsasında həll etməyə çalışan Sovetlər süni tarixi kateqoriya Sovet xalqı yaratmağı əsas götürərək xalqlara formal müstəqillik verərək, SSRİ kimi dövləti təşkil edərkən, onun xəritəsini "qayçılama" prinsipi əsasında qurur, yaradılmış inzibati-ərazi qurumlarında birləşən xalqların tarixi torpaqları nəzərə alınmır, "milli məsələ"nin həlli kağız üzərində qalır. Azərbaycan SSR-də də milli məsələ avtoritar rejimin tələbləri əsasında getmiş, süni "beynəlmiləlçilik" prinsipləri əsasında aparılmış, Azərbaycan xalqının tarixi yaddaşını unutdurmaq üçün iki dəfə onun əlifbası dəyişdirilmiş, ərəb-fars dillərini bilən mütəxəssislər

“panislamist” damğası ilə damğalanmış, “torpaq”, “vətən” deyənlər “pantürkist” adlandırılmış, Azərbaycan mühacirləri xalqa “düşmən” obrazında aşılanmış, “cənub” mövzusu qapalı sahəyə çevrilmişdi. Bu siyasi-mənəvi təzyiqləri Azərbaycan xalqı ilə birgə, Azərbaycana ikinci ”vətənləri” kimi baxan almanlar da yaşamış, Böyük Vətən müharibəsi başladıqdan sonra 001487 saylı qərarla 1941-ci ilin oktyabrında Orta Asiya və Sibirə sürgün edilmişlər. Milli məsələdə göstərilən amirlik və zor prinsipləri SSRİ-nin dağılması ərəfəsində milli zəmində bir-sıra konfliktlərin başlanmasına gətirib çıxarmışdı.

***Qondarma “Dağlıq Qarabağ” probleminin növbəti mərhələsi və onun tarixi kökləri.*** Problemlə bağlı qeyd etmək lazımdır ki, Qarabağ bir anlayış kimi heç bir zaman axarında “dağlıq” və “düzənlik” məfhumlarına bölünməmişdir. Bu problemi araşdıran prof. V.Piriyev öz tədqiqatlarında F.Rəşiddədinin “Mükatibat” əsərinə istinad edərək göstərmişdir ki, Qarabağ Aranın daxilində dağlıq və dağətəyi sahələrini birləşdirən vahid ərazidən ibarət olmuşdur. Tarixin sonrakı mərhələsində Aran torpağı Qarabağ adlanmağa başlayır ki, bu da ilk dəfə Hülakülər dövlətinin görkəmli nümayəndəsi Rəşidəddinin əsərində göstərilir. Bu məfhum türk mənşəli olub və açılması aşağıdakı kimi başa düşülməlidir: “qara” sözü – qitə, ölkə, böyük vilayət, “bağ” isə məhsul, bolluq deməkdir. Deməli, Qarabağ – böyük, geniş və abad əyalət kimi qəbul edilməlidir. Bu problemi öyrənən professor V.Piriyev göstərmişdir ki, tarixi Qarabağ ərazisi Araz çayından başlayaraq şimali-qərb istiqamətində uzanmış və Beyləqandan tutmuş Zəyəmçaya kimi olan əraziləri əhatə etmişdir. Bu coğrafi ərazi çərçivəsini nəzərə alsaq aydın olar ki, Qarabağ Qafqaz Albaniyasının bir sıra vilayətlərini - Arsax, Sünik, Uti və qismən də Paytakaran vilayətlərini əhatə etmiş və ölkənin siyasi, sosial-iqtisadi və mədəni həyatında mühüm rol oynamışdır. XX əsr boyu ermənilər bütün dünya

ictimaiyyətini inandırmağa çalışmışdır ki, onların fəaliyyəti Qarabağda mövcud olmuş "erməni Arsax" dövlətinin bərpasına xidmət edir. Lakin Qarabağ torpaqlarına iddialı olan və tarixi reallıqla hesablaşmayan erməni millətçiləri "Arsax" məfhumunu özəlləşdirmək istəsələr belə, tarixi gerçəklik buna imkan vermir. Birincisi ona görə ki, Arsax Qafqaz Albaniyasının iri vilayətlərindən biri olmuş və deməli, Azərbaycanın tarixi torpağıdır. İkincisi, erməni tərəfi "Arsax" məfhumunun erməni leksikonuna aid olduğunu iddia etsə də, lakin leksik təhlilini verməkdə acizdir. Çünki Arsax - erməni sözü olmayıb, udi - alban sözüdür. Udi dilində Arsax – "yaylaq", "yay düşərgəsi", "əyləşən yer, məskən" mənalarını bildirir. "Ars" sözü – "əyləş" anlayışından törəmədir – "arxsun" – "əyləş" felinin əmr formasıdır, buradan da "oturaq", "oturaq həyat tərzi keçirən adamlar" ifadəsi yaranır; "ax" isə udi toponimiyası üçün xarakterik olan Muxax, Ardax, Xartax, Cimcimax toponimlərində təsbit edilmiş cəm halını bildirən şəkilçidir. Bu problemə toxunarkən görkəmli Sovet alimi İ.P.Petruşevski göstərir ki, nə Arsax, nə də əhalisi erməniləşdirilmiş albanlar heç bir zaman erməni mədəniyyəti mərkəzinə mənsub olmamışdır.

Türkmənçay və Ədirnə müqavilələri bağlandıqdan sonra Rusiya imperiyasının köçürmə siyasəti nəticəsində kütləvi şəkildə Azərbaycan torpaqlarının ayrı-ayrı bölgələrinə, o cümlədən Qarabağa köçürülən ermənilərin tarixin sonrakı mərhələlərində Qarabağa mexaniki hərəkəti davam etsə də, XIX əsrin ikinci yarısında və Romanovlar sülaləsinin devrilməsi ərəfəsində Qarabağ torpaqlarını özündə birləşdirən Şuşa, Zəngəzur, Qaryagin və Cavanşir qəzalarında ermənilərin çəki yükü azərbaycanlılarla müqayisədə aşağı idi. Belə ki, 1897-ci il Ümumrusiya siyahıya alınmasına görə bu qəzalarda ümumilikdə 172.872 erməni yaşayırdı. O zaman Qarabağ əhalisi 415.721 nəfər idi və ermənilər Qarabağ əhalisinin 41,3% təşkil etdiyi halda, azərbaycanlıların sayı 235.304 nəfər

olub, Qarabağ əhalisinin 56,6% təşkil edirdi. Bu statistik göstəricilər bir daha sübut edir ki, XIX əsr boyu Azərbaycan torpaqlarına kütləvi və mütəmadi köçmələrinə baxmayaraq ermənilər Qarabağda dominant etnos ola bilməmiş, Azərbaycan torpağına gəlmə əhali olmuşlar.

Birinci Dünya müharibəsi illərində Dördlər İttifaqının aparıcı qüvvəsi olan – Kayzer Almaniyasının apardığı dağıdıcı antirusiya siyasəti Romanovlar sülaləsinin devrilməsi ilə nəticələnir və 1917-ci ilin payızında Rusiyada baş alıb gedən siyasi, iqtisadi və sosial böhran hakimiyyətin bolşeviklər tərəfindən zəbt edilməsi ilə nəticələnir. Yaranmış vəziyyət imperiyanın ucqarlarında, habelə Mərkəzi Qafqazda milli-azadlıq hərəkatının yüksəlişinə səbəb oldu və 1918-ci ilin may ayının son günlərində bölgədə üç müstəqil dövlət yarandı. Gürcüstan Demokratik Respublikası və Azərbaycan Xalq Cümhuriyyətindən fərqli olaraq, yaradılan Ermənistan Respublikası (Ararat Respublikası) ermənilər üçün yad bir ərazidə - tarixi Azərbaycan torpağı olan İrəvan quberniyası ərazisində bir qurum kimi meydana çıxdı. Lakin tarixi Çuxur-Səəd torpaqlarına yiyələnən erməni millətçiləri, "Daşnakstyun" partiyası və erməni-qriqoryan kilsəsinin birgə siyasi xəttini əsas götürərək Qarabağ torpaqlarına gözlərini dikdilər. Həmin dövrdə Naxçıvan ərazisinin köklü əhalisi olan azərbaycanlılar Ararat Respublikasına tabe olmaqdan imtina etdikləri üçün erməni tərəfi çıxış yolunu Qarabağda məskunlaşmış ermənilərə bağ-ladı. "Daşnaksutyün" partiyasının göstərişi ilə hərəkət edən Şuşa şəhərinin erməni icması "Millətlərin öz müqəddəratının təyin etməsi hüququ" prinsipini əsas tutaraq 1918-ci ilin yayında "Dağlıq Qarabağın öz müqəddəratını təyin etmək" şüarını irəli sürərək erməni separatçılığının mahiyyətini, Azərbaycan torpaqlarına qərəzli iddialarını nümayiş etdirdi. Beləliklə, tarixə təhrif olunmuş bir məfhum daxil oldu - Dağlıq Qarabağ. Bu məfhum sonradan

Azərbaycan tarixini saxtalaşdıran Sovet tarixşünaslığında kök salmış oldu.

Rusiyada cərəyan edən sonrakı sosial-siyasi proseslər erməni millətçilərinin Azərbaycanın ərazi bütövlüyünə qarşı apardığı məqsədyönlü siyasətini dayandırmadı. Tarixi reallıqla hesablaşmayan erməni separatçıları bolşeviklərin dəstəyinə arxalanaraq 1920-ci il dekabrın 1-də Qarabağın ürəyi olan Zəngəzuru ələ keçirir və bununla da Naxçıvanın quru yol əlaqələri Azərbaycanın qalan əraziləri ilə kəsilir. Qarabağı “özəlləşdirmək” planlarında israrlı olan ermənilik Zəngəzurla kifayətlənməyərək Qarabağın dağlıq hissəsinə olan iddialarından əl çəkmir və bolşeviklərin dəstəyi ilə 1923-cü il iyulun 7-də Dağlıq Qarabağın Muxtar Vilayət (DQMV), (1937-ci ildən etibarən Dağlıq Qarabağ Muxtar Vilayəti) elan edilməsinə nail olur. Beləliklə, gələcəkdə Qarabağın bu hissəsinin də Azərbaycandan qoparılması planının birinci mərhələsi həyata keçirilir və 1988-1994-cü illər hadisələri üçün “münbit” şərait yaranmış olur. Ümumiyyətlə, Sovet hakimiyyəti illərində rəsmi İrəvan DQMV-nin “Ermənistan DQMV”-yə transformasiya olunması ilə bağlı 16 dəfə, “DQMV-nin Ermənistan SSR tərkibinə daxil olması hüququ” ilə isə 45 dəfə Moskvaya müraciət etmişdi.

Ermənilərin məqsədyönlü fəaliyyəti nəticəsində 1988-ci ilin fevralında qondarma “Dağlıq Qarabağ” probleminin növbəti fazası başlanır. Heç bir sosial-siyasi əsasa malik olmayan erməni separatçıları DQMV-nin Ermənistan SSR tərkibinə daxil olması tələbi ilə çıxış edirlər. Paralel olaraq, XX əsrin əvvəllərindən etibarən tarixi Azərbaycan torpaqlarına iddialarından əl çəkməyən ermənilik Ermənistan SSR-də etnik “təmizləmə” aparır və 1988-ci ilin noyabrın sonlarında azərbaycanlıları tarixi torpaqlarından çıxardır və özlərini dünyaya “məzlum” ,”mədəni” xalq kimi qələmə verən erməni millətçiləri multikultural prinsipləri pozaraq azərbaycanlıların tarixi torpaqlarda yaşamaq hüququnu pozurlar.

## *2. Müasir Azərbaycanda etnik-mədəni müxtəliflik: problemlər və perspektivlər*

1991-ci il oktyabrın 18-də öz müstəqilliyini bərpa edən Azərbaycan Respublikası erməni separatçılığının hərbi təzyiqi ilə qarşılaşır. Erməni lobbisinin dəstəyi ilə silahlanmış erməni yaraqlılarının Azərbaycan torpaqlarına basqınlarının və hücumlarının qarşısını almaq üçün müstəqil respublikamız ölkənin ərazi bütövlüyünü qorumağı dövlətin əsas vəzifəsi olaraq qarşıya məqsəd qoyur.

SSRİ dağıldıqdan sonra isə öz məkrli niyyətlərini həyata keçirmək məqsədi ilə 1991-ci ilin sonlarından etibarən erməni millətçiləri Qarabağ müharibəsinə başlayırlar. Müharibə nəticəsində erməni hərbi qüvvələri 870 yaşayış məntəqəsini, o cümlədən, 10 rayon mərkəzini dağıtmış, bir sıra mühüm obyektləri ələ keçirtməklə yanaşı, Azərbaycan xalqının tarixi irsinə zərbə endirmiş, mədəni-dini abidələri və maddi sərvətlərini məhv etmişdir. İşğal zonasında qalan Alban xristian məbədləri, məscidlər erməni vandalizminə məruz qalmış, Azərbaycanın mədəni sərvətinin nümayəndələrinin Vaqifin, xan qızı Natəvanın, Ü.Hacıbəyovun, Bülbülün abidələri dağıdılmış, mədəniyyət ocaqları yerlə yeksan edilmişdir. Bəşər sivilizasiyasının nadir nümunələrindən olan Azıx mağarasının taleyi müəmmalı qalmışdır. Bu faktlar erməniliyin multikultural mədəniyyətdən uzaq olan vandalizm təbiətinə şahidlik edir.

Azərbaycanın çağdaş tarixinə Xocalı faciəsini yaşadan ermənilər, həmin dövrdə beynəlxalq təşkilatların səbatsız addımlarına arxalanırdı. Belə ki, Azərbaycan Respublikası Xocalı faciəsindən sonra beynəlxalq təşkilatlara rəsmi müraciətlər göndərsə də, bu qurumlar XX əsrin əvvəllərində bolşevik “süngüsünün” köməyi ilə tarixi Azərbaycan torpaqlarında yaranmış, Ermənistan adlı dövləti təcavüzkar

kimi qiymətləndirməyə tələsmir, Yuqoslaviya variantının mümkünlüyü haqda fikirlər söyləyir, problemin həllini ilk növbədə regional təşkilat olan ATƏT-lə bağlayır, ölkənin ərazi bütövlüyü məsələsi sual altında qalırdı. Digər tərəfdən erməni lobbisi Qərb dövlətlərinə təsir edə bilir, Qarabağ müharibəsinin gedişatında ermənipərəst senator C.Kerrinin təklifi ilə ABŞ Konqresi Azərbaycan Respublikasına qarşı yönəlmiş 907 saylı düzəlişi təsdiqləyir və bu sənəd 1992-ci ilin dekabrında Prezident ata C.Buş tərəfindən imzalanır.

***Müasir dövrdə Azərbaycan Respublikasının millətlər-arası münasibətlər siyasətinin məqsəd və vəzifələri, prinsip-ləri və əsas istiqamətləri, hüquqi bazası.*** Polietnik əhaliyə malik olan Azərbaycan Respublikası azsaylı xalqların hüquq və azadlıqlarının qorunmasını dövlət siyasətinin əsas istiqa-mətlərindən biri olduğunu götürərək 1992-ci il 16 sentyabr fərmanı ilə "Azərbaycan Respublikasında yaşayan milli azlıqlar, azsaylı xalqlar və etnik qrupların qorunması, dil və mədəniyyətinin inkişafına dövlət yardımı haqqında" azsaylı xalqların mədəni inkişafına geniş imkanlar vermiş, onların hüquqlarının qorunmasını hüquqi dövlətin əsas vəzifəsi kimi götürmüşdür.

Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra separatçı qüvvələrə qarşı əməli tədbirlər görmüş, millətlərarası münasibətlər siyasətini demokratik prinsiplər əsasında inkişaf etdirmək istiqamətini əsas götürərək azsaylı xalqların hüquq və azadlıqlarını qorumağı dövlətçilik quruculuğunun ümdə vəzifəsi kimi qarşıya məqsəd qoymuşdu.

Müasir dövrdə Azərbaycan Respublikasının millətlər-arası münasibətlər siyasətinin hüquqi bazası dövlətin ali qanu-nuna konstitusiyaya əsaslanır. Demokratiya prinsiplərini əsas götürən ali qanun Azərbaycan Respublikasının bütün vətən-daşlarına qanun və məhkəmə qarşısında bərabərlik hüququ verir. Konstitusiyanın İkinci bölməsinin III fəslinin 25-ci

maddəsinin 3-cü bəndində deyilir: “...İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır”.

Azərbaycan Respublikasının konstitusiyası ölkə əhalisinin tərkib hissəsi olan azsaylı xalqların milli mənsubiyyət hüququnun qorunmasını əsas götürərək İkinci bölmənin III fəslinin 44-cü maddəsində göstərir: ”Hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz”. Etnosun əsas atributlarından olan dil hüququnu da Azərbaycan Respublikasının konstitusiyası qoruyur və dövlətin ali qanununun İkinci bölməsinin lll fəslinin 45-ci maddəsində deyilir: “Hər kəsin ana dilindən istifadə etmək hüququ vardır. Hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır. Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz”.

Bu prinsipial bazanı əsas tutan dövlətimiz 1995-ci il fevralın 1-də Avropa Şurasının "Milli azlıqların müdafiəsi haqqında Çərçivə konvensiyası"nı imzalamış və bu Konvensiya 16 iyun 2000-ci ildə ratifikasiya edilmişdi. Azsaylı xalqların hüquqlarını qoruyan Konvensiyanın ll hissəsinin 4 maddəsində göstərilir ki, Avropa Şurasının üzvü olan bütün dövlətlər " milli azlığa mənsub olan hər bir şəxsin qanun qarşısında bərabər müdafiə olunmaq hüququna zəmanət verirlər. Bununla əlaqədar olaraq milli azlığa mənsubluğa əsaslanan hər cür ayrıseçkilik qadağan olunur".

YUNESKO-nun 2005-ci il oktyabrın 20-də qəbul etdiyi "Mədəni özünümüdafiə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya" nı Azərbaycan Respublikası 26 noyabr 2009-cu ildə təsdiq etmişdir. Multikultural ənənələri inkişaf etdirən Azərbaycan Respublikası ölkənin azsaylı xalqlarının mədəniyyətini, dilini, adət-ənənələrini qoruyur və məqsədyönlü iş aparır. Azsaylı xalqların etnik mənşə və

konfessional fərqlərinə baxmayaraq Azərbaycan Respublikası onların hər birinə eyni dərəcədə qayğı göstərir, dilindən, dinindən, etnik mənşəyindən, sayından asılı olmayaraq tolerantlıq ənənələrini əsas tutaraq, azsaylı xalqlara hörmətlə yanaşır.

Azsaylı xalqların hüquqlarının qorunması üzrə ardıcıl siyasət aparan müstəqil dövlətimiz onların etno-konfessional inkişafına hərtərəfli köməklik göstərir. Milli azlıqlar öz milli mərkəzlərini, assosiasiyalarını və digər qurumlarını yaratmaq hüquqlarından tam istifadə edirlər. Hazırda, respublikamızda onlarla milli mədəniyyət mərkəzləri fəaliyyət göstərir ki, onların sırasında "Birlik" cəmiyyəti rus icması, Ukrayna cəmiyyəti, Alman-Azərbaycan cəmiyyəti, Azərbaycan-İsrail cəmiyyəti, Azərbaycan-slavyan mədəniyyət mərkəzi, tat mədəniyyət mərkəzi, "Ronai" kürd mədəniyyət mərkəzi, "Samur" ləzgi milli mərkəzi, Ahıska türklərinin "Vətən" cəmiyyəti, talış mədəniyyət mərkəzi, avar cəmiyyəti, dağ yəhudilərinin icması, Avropa yəhudiləri (Aşkenazi) icması, "Kapelhaus" alman mədəniyyət icması, "Polonia" polyak mədəniyyət mərkəzi və başqaları fəaliyyət göstərirlər. İslam dinini, pravoslavlığı və iudaizmi özündə birləşdirən "Üç qardaş" təşkilatının Azərbaycan Respublikasında fəaliyyət göstərməsi multikultural mədəniyyətin daşıyıcısı olan dövlətimizin tolerantlıq ənənələrinə hörmətlə yanaşmasının bariz nümunəsidir.

# MÖVZU 6

## Multikulturalizm və dil siyasəti

Multikulturalizm – dünya xalqlarının, etnik azlıqların, ümumiyyətlə bütün bəşəriyyətin qarşılıqlı hörmət əsasında ünsiyyət formasıdır. Dünya elm adamları isə belə ünsiyyəti, elmi nailiyyətləri bölüşmək, inkişaf etdirmək üçün beynəlxalq forumlar, konfranslar, simpoziumlar və s. tədbirlər həyata keçirirlər.

2016-cı ilin multikulturalizm ili elan olunması tarixən multikulturalizm dəyərlərinin olduğu bir məkanda – Azərbaycanda gözlənilməz bir yenilik deyildi. Ölkəmizdə multikulturalizm milli və ümumbəşəri dəyərləri, mədəni bərabərliyi, ədalət və mərhəməti, tolerantlığı, mədəni müxtəlifliyi və plüralizmi, birgəyaşayışı özündə əks etdirir. Ulu öndərimiz Heydər Əliyev çıxışlarının birində demişdir: "Azərbaycanın varı, dövləti təkcə onun pambığı, yeraltı, yerüstü sərvətləri deyil, onun ərazisində yaşayan xalqlarıdır. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da – bütünlükdə hamısı azərbaycanlıdır". Elə burdan da birmənalı şəkildə qeyd etmək olar ki, Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev çıxışlarının birində məhz bu barədə belə demişdir: "Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir. Bu gün Azərbaycan artıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir. ...bəzi ölkələrdə multikulturalizm iflasa uğrayıb, özünü doğrultmayıb. Azərbaycanda isə multikluturalizm yaşayır, möhkəmlənir, dərin köklərə malikdir və gələcəkdə bəşəriyyətin inkişafının yeganə

yoludur. Nisbətən yeni anlayış olmasına baxmayaraq multikulturalizm əsrlər boyu xalqımıza xas olan bir dəyərdir”.

Multikulturalizm ensiklopedik mənada eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşüdür. Multikulturalizmin elmi tərəflərindən danışmaq daha məqsədə uyğundur. Bu, hər bir ölkədə irqi və dini fərqlər qoymadan bütün vətəndaşların hüquqi bərabərliyidir. Müasir dövrdə qloballaşan dünyada da multikulturalizm siyasəti nəticəsində insanların dinindən, irqindən, dilindən asılı olmayaraq birgə, mehriban, qarşılıqlı şəraitdə yaşamaları ünsiyyət vasitəsi olan dildən də yan keçmir. Belə ki, insanların birgə yaşaması və xalqların mədəni əlaqələri nəticəsində bir dilin digər dilin leksikasına nüfuz etməsi yeni sözlərin yaranmasına, formalaşmasına böyük təsir edir. Bu baxımdan məsələyə dil faktorunun təsiri böyükdür. Dil – millətlər və xalqlar arasında dialoqun əsas vasitəsidir. Bəlkə də, dil nə maddi sərvət, nə pul, nə də daşqaşdır. Ancaq dil elə bir xəzinədir ki, bəşəriyyətin bütün nailiyyətləri, tarixi, elmi dəyərləri burada toplanır. Dil sülhü və müharibəni elan edir, elmi və mədəniyyəti yayır. O, elə bir qədim və müasir bu ölkəmizdə yaşayan milli azlıqların həm öz dillərini, həm də bizim dilimizi öyrənməyə sövq edir. Dil, eyni zamanda, bütün bəşəri dəyərlərin inkişafına xidmət edir. Hələ qədim yazılı abidələrdə müxtəlif qəbilə, tayfa və etnosların multikultural dəyərlərə söykənərək dinc yanaşı yaşamaları təsvir edildiyi kimi dillərini bir-birindən təsirlənərək zənginləşdirdiyini görürük.

Dillərin belə qarşılıqlı münasibətlərini “sosial dözümlülük” adlandıran Y.Deşeriyev yazır: “Sosial ehtiyac dillərin birgə və qarşılıqlı münasibətlərini həm zəruri etmiş, həm də onları aradan çıxmadan, assimilyasiyadan qorumuşdur”.

”Deməli, dillər də multikultural şəraitdə yaşama ehtiyacı duyur. Burada da dillərin qarşılıqlı öyrənilməsi zərurəti yaranır. Multikulturalizmdə əsas istiqaməti dil və təhsil stra-

tegiyalarıdır. A.Axundov qeyd edir ki, xalqın mədəni səviyyəsi nə qədər yüksək olarsa, onun dilinin səviyyəsi də yüksəlmiş olar. Yəni, hər zaman olduğu kimi, müasir zamanda da dil və mədəniyyət qarşılıqlı vəhdət təşkil edir.

Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycan əhalisinin də etnik tərkibi yekcins deyildir. Burada da əsas xalqla yanaşı çoxlu miqdarda etnik qruplar milli azlıqlar və etnoqrafik qruplar vardır. Professor H.Həvilov hər bir etnik birliyin 5 əlaməti olduğunu qeyd edir: dil, etnik ərazi, məişət və mədəniyyət ümumiliyi, mənşə birliyi, etnik öz-özünü anlama.

Hazırda ölkəmizdə 80-dən çox azsaylı xalq yaşayır. Bu azsaylı xalqlara qafqazdilli, irandilli, türkdilli, slavyandilli qruplar aiddir. Onların sırasında udiləri (Şəki, Oğuz, Qəbələ), saxurları (Şəki rayonu, Şin və Qaynarca kəndləri) ingiloyları (Zaqatala, Qax), xınalıqları, qırızları, butuqdalı (Quba rayonu, Xinalıq, Buduq, Qrız kəndləri), tatları (Şabran, Quba, Şamaxı, Xızı, İsmayıllı), talışları (Lerik, Masallı, Astara, Yardımlı), rusları, ləzgiləri (Quba, Qusar, Xaçmaz), yəhudiləri (Quba rayonu, Qırmızı qəsəbə), kürdləri (Şirvan, Ara, Beyləqan, Kəlbəcər, Laçın) və s. digərlərini göstərmək olar. Bu azsaylı xalqların bir hissəsi Azərbaycanın köklü əhalisi olub, başqa bir hissə isə tarixin müxtəlif mərhələlərində baş verən sosial-siyasi proseslərin nəticəsi olaraq torpaqlarımızda məskunlaşmışlar.

Ölkəmizdə Altay ailəsinin türk qoluna məxsus azərbaycanlılar, tatarlar, ahıska türkləri, həmçinin hind-avropa (tatlar, talışlar, dağ yəhudiləri, kürdlər), qafqaz (udilər, ləzgilər, avarlar, saxurlar, buduqlar, ingiloylar, qrızlar, xınalıqlar), slavyan (ruslar, malakanlar, ukraynalılar) və s. dil qruplarının təmsilçiləri vardır. Hazırkı dövrdə multikulturoloji dəyərlərə mühüm əhəmiyyət verilməsini şərtləndirən əsas amillər sırasında bu xalqlar və millətlər arasında təşəkkül tapan qarşılıqlı ünsiyyətin zaman-zaman formalaşan ənənələri dayanır.

Azərbaycanda yaşayan müxtəlif xalqların nümayəndələrini bu gün Azərbaycanın hər bir sahəsində - siyasətdə, təhsildə, idmanda, mənəvi həyatda, bir sözlə, bütün sahələrdə görmək mümkündür. Milli azlıqların sıx yaşadıqları bəzi rayonların orta məktəblərinin ibtidai siniflərində (avar, kürd, ləzgi, talış, saxur, tat, udi, xınalıq və s.) dərslərinin tədrisi təşkil edilmişdir. 2003-cü ildə Bakıda ivrit yəhudi tarixini və mədəniyyətini tədris edən özəl yəhudi orta məktəbi açılmışdır. Hazırda bu məktəbdə 250 şagird təhsil alır. 2014-cü ildə yaradılmış Bakı Fransız liseyi Azərbaycanda müvəqqəti və daimi yaşayan fransızdilli əcnəbililərin təhsil almasına xidmət göstərir. Bütün ali və orta məktəblərimizdə rusdilli bölmələr fəaliyyət göstərir. Dövlət vəsaiti hesabına rus, avar, talış, kürd, ləzgi, saxur, tat, udi, xınalıq, ivrit dillərində əlifbalar, tədris proqramları və digər dərsliklər, məktəbli lüğətləri mütəmadi olaraq çap edilir. Eyni zamanda təlim yalnız rus dilində olan 19 və təlim yalnız gürcü dilində olan 6 orta ümumtəhsil, 345 beynəlmiləl orta məktəb fəaliyyət göstərir. Hər bir dövlətin təhsillə bağlı qurumları insan haqlarını öz milli tədris planına salmalıdır. Bu çox mühüm hadisədir. İnsan haqlarına hörmət məktəbin özündə demokratik ruhun inkişafıdır. Təhsil alan şagirdlər öz millətlərinə, eyni zamanda digər millətlərə hörməti bir növ kombinasiya etməlidir. Məktəb insanın xarakterini formalaşdırır. Demokratik təhsil sistemi məktəbdə qarşılıqlı hörmət və ehtiram tələb edir.

Azərbaycanda radio və televiziya məkanı da milli və dini azlıqlar üçün açıqdır. Azərbaycan Dövlət Radiosunda kürd, ləzgi, talış, gürcü dillərində Dövlət büdcəsindən maliyyələşdirilən radio verilişləri təşkil edilir. İnternet – televiziyalarda onların dilləri və mədəniyyətləri haqqında maraqlı məlumatlar əldə etmək olar. Milli azlıqların sıx yaşadığı 5 bölgədə isə yerli telekanallar fəaliyyət göstərir.

Mətbuat və kitab nəşri ilə bağlı onu da qeyd etmək olar ki, ləzgi, talış, rus, xınalıq, yəhudi, gürcü dillərində qəzet və

ya jurnallar çap edilir. Rus dilində teatr, orta və ali məktəblər və s. fəaliyyət göstərir, kitablar, broşüralar çap edilir. Bu gün Azərbaycanda yaşayan etnik icmaların dilində 15-dən, rus dilində isə 30-dan çox qəzet və jurnallar nəşr edilir.

Bir sözlə, multikulturalizm cəmiyyətində baş verən inkişafla əlaqədar olaraq, bu və ya digər xalqların dilləri məhz bir-birinə keçən yeni sözlər hesabına sürətlənir və inkişaf edir.

Müstəqil respublikamızda, Azərbaycan Milli Elmlər Akademiyasında milli azlıqların dilini, dinini, mədəniyyətini, tarixini, etnoqrafiyasını öyrənən və tədqiq edən bölmə yaradılmışdır, institutlararası elmi tədqiqat virtual mərkəzinin təsis edilməsi ilə bağlı qərar qəbul edilmişdir. Təhsil nazirinin müvafiq göstərişi ilə 2015-ci ildən etibarən, bakalavr səviyyəsində "Multikulturalizmə giriş", magistr səviyyəsində isə "Azərbaycan multikulturalizmi" fənlərinin tədris olunması tövsiyə olunmuşdur.

Bu gün 7 xarici ölkə universitetində (Müqəddəs Kliment Oxridski adına Sofiya Universiteti, İvan Cavaxişnili adına Tbilisi Dövlət Universiteti, Ural Federal Universitetinin Yekaterinburq, Praqa Karlov Universiteti (Çex Respublikası), Roma Sapienza Universiteti (İtaliya) və Belarus Dövlət Universiteti) "Azərbaycan multikulturalizmi" fənni tədris olunur.

Beləliklə, hər bir xalqın nümayəndələri ilə əlaqələri genişləndirməli, qloballaşan dünyada geri qalmamalı, elm və texnologiya cəhətdən inkişaf etməli, öz milli-mənəvi dəyərlərini qorumaqla inteqrasiya etməlidir. Belə bir vəziyyətdə əcnəbi dillərin leksikasında keçən sözlərin dilin qayda-qanunlarına uyğunlaşdırmaqla daxil olması olduqca təbii bir dilçilik hadisəsidir. Nəticə etibarilə yeni sözlərin meydana gəlməsi Azərbaycan dilinin lüğət tərkibini də inkişaf etdirərək zənginləşdirir. Yuxarıda qeyd etdiyimiz məsələlər bir daha sübut edir ki, multikultural münasibət təkcə sosial həyatda deyil, dilin daxilində də mövcuddur.

# MÖVZU 7

## Multikulturalizm və xarici siyasət

**Plan:**

1. Multikulturalizm daxili siyasətin mühüm bir elementi kimi
2. Multikulturalizm dövlətin uğurlu xarici siyasət fəaliyyətinin bir amili kimi
3. Azərbaycan Respublikasının multikulturalizm siyasəti və beynəlxalq təşkilatlar

### *1. Multikulturalizm daxili siyasətin mühüm bir elementi kimi*

Əvvəlki mövzularda qeyd olunduğu kimi, multikulturalizm termini *geniş* və *dar* mənada istifadə olunur. Sözün *geniş mənasında* multikulturalizm məhfumu çoxmədəniyyətlilik məfhumunun sinonimi kimi istifadə edilir. Çoxmədəniyyətlilik dedikdə isə ilk növbədə etnik, irqi, dini və mədəni müxtəlifliklər, bu müxtəlifliklərin əsasını təşkil edən dəyərlər nəzərdə tutulur. Müasir dövrdə dünya dövlətlərinin əksəriyyətində etnik, irqi, dini və mədəni müxtəlifliklər mövcuddur. Bu müxtəlifliklər tarixi prosesin inkişafının nəticəsi kimi obyektiv xarakter daşıyır. Onlar xalqların etnik-mədəni dəyərlərini, mədəniyyətlərini xarakterizə etməklə onların dünyagörüşü və fəaliyyətlərinin əsasını təşkil edir və həyatında müsbət rol oynayır. Biz müxtəlif etnik, irqi, dini və mədəni qrupların nümayəndələrinin birgə yaşadıqları cəmiyyəti *multikultural* adlandırırıq. Buna görə də *sözün geniş mənasında* müasir dövrdə əksər dövlətlər multikulturaldır.

Sözün *dar mənasında* isə multikulturalizm məhfumu cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklərə münasibətdə dövlətin apardığı konkret *siyasəti* əks

edir. Bu siyasət dövlətin daxili siyasətinin tərkib hissəsi kimi çıxış edir. Multikulturalizm siyasəti dövlətin daxili siyasətinin tərkib hissəsi kimi cəmiyyətdəki multikultural durumun, daha konkret, cəmiyyətdəki etnik-mədəni müxtəliflərin qorunmasını və inkişaf etdirilməsi zərurəti ilə bağlıdır. Onun xarakteri ilk növbədə dövlət tərəfindən müəyyən olunur. Multikulturalizm cəmiyyətin inkişafının bütün sahələrinə, o cümlədən dövlətin xarici siyasətinə təsir göstərir.

## *2.Multikulturalizm dövlətin uğurlu xarici siyasət fəaliyyətinin bir amili kimi*

Xarici siyasətin nəzəri problemləri ilə məşğul olan politoloqlardan biri Corc Modelskiyə görə, xarici siyasətin məqsədi dövlətlərin fəaliyyətini öz dövlətinin xeyrinə tənzimləməkdir. Onun fikrincə, xarici siyasət elə bir fəaliyyətlər sistemidir ki, onun vasitəsilə bu və ya digər dövlət başqa dövlətin və ya dövlətlərin fəaliyyətlərinə təsir etməyə, öz fəaliyyətini isə beynəlxalq nizama uyğunlaşdırmağa çalışır. Xarici siyasətin əsas vəzifəsi başqa dövlətlərin fəaliyyətinə təsir etməklə orada zəruri dəyişikliklərin edilməsinin yollarını müəyyən etməkdir. Burada söhbət sadəcə dəyişikliklərin edilməsindən deyil, başqa dövlətlərin fəaliyyətinin tənzimlənməsindən gedir. Tənzimlənmə isə başqa dövlətlərin fəaliyyətinin öz maraqlarına uyğun dəyişdirilməsi deməkdir. Əgər mövcud durum dövlətin milli maraqlarına xidmət edirsə, onda bu dövlətin xarici siyasəti status-kvonun saxlanılmasına yönəlmişdir. Məsələn, hazırda inkişaf etmiş ölkələr Dağlıq Qarabağı müstəqil bir dövlət kimi tanımırlar. Onlar Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi qəbul edirlər. İnkişaf etmiş ölkələrin bu məsələyə münasibəti bizim milli maraqlarımıza uyğundur. Buna görə də, Azərbaycan Respub-

likasının xarici siyasəti bu məsələ ilə əlaqədar status-kvonun saxlanılmasında maraqlıdır.

Daxili siyasətin mühüm elementi olan multikulturalizm dövlətin xarici siyasəti ilə müəyyən əlaqədədir. Onun xarici siyasət ilə münasibəti politologiya elminin əsas nəzəri müddəalarından biri olan *daxili və xarici siyasətin qarşılıqlı münasibətində açıqlanır.*

Beynəlxalq münasibətlər nəzəriyyəsindəki bəzi məktəblər xarici siyasətin təhlilinə, onun daxili siyasətlə münasibətinə xüsusi fikir verir. Lakin xarici siyasətin determinantlarını müəyyən etdikdə bu nəzəri məktəblər arasında müəyyən fikir ayrılığı özünü büruzə verir. Belə ki, onlar xarici siyasətin determinantları sırasında bir-birindən fərqli, müxtəlif amilləri göstərirlər. Məsələn, liberalizmə, marksizmə əsasən, ölkənin xarici siyasətinin xarakteri onun daxili siyasəti ilə müəyyən edilir. Neorealizm isə xarici siyasətin xarakterini beynəlxalq sistemlə əlaqələndirir.

Daxili və xarici siyasət arasında bir neçə aşağıda göstərilən məqamı nəzərə almaq vacibdir. Daxili siyasətlə müqayisədə xarici siyasətdə qadağan olunan fəaliyyət metodlarının sayı daha azdır. Məsələn, zorakılıq, aldatma daxili siyasətdə qadağan olunmuşdur, lakin xarici siyasətdə hətta müharibəyə yol verilir. Dövlətin daxili hüquq qanunları daxili siyasətin əsası kimi beynəlxalq hüquqdan daha geniş və daha aydındır. Bundan başqa onların tətbiqində gücə daha çox müraciət olunur. Buna görə də daxili siyasətdə nizam xarici siyasətdən daha möhkəmdir.

Xarici siyasətdə təhlükə suveren dövlətə qarşı olduğu halda, daxili siyasətdə belə təhlükə hakimiyyətdə olan konkret qrupa qarşı olur.

Daxili və xarici siyasət arasındakı münasibətdə daxili siyasət *müəyyənedici rol* oynayır. Ölkədaxili sabitlik dövlətin xarici siyasətinin sülhyönümlü, beynəlxalq hüququn prinsiplərinə uyğun olması üçün zəmin yaradır. Və əksinə ölkədaxili

vəziyyətin qeyri-sabit, böhranlı olması dövlətin xarici siyasətinin beynəlxalq hüquq normalarına məhəl qoymamasına səbəb olur.

Daxili siyasətin xarici siyasətə münasibətdə müəyyənedici rolunu qeyd etməklə bərabər xarici siyasətin daxili siyasətə *əks təsirini* də göstərmək vacibdir. Ölkənin xarici siyasət sahəsində əldə etdiyi uğurlar onun daxili siyasətinə müsbət təsir göstərir, daxili vəziyyətini sabitləşdirir, hakimiyyətdə olanların mövqelərini möhkəmlədir, müxalifətin nüfuzunu zəiflədir. Ölkənin xarici siyasət sahəsində üzləşdiyi məğlubiyyətlər isə əksinə onun daxili vəziyyətinə mənfi təsir göstərir. Bu, ilk növbədə özünü xalqın hakim dairələrə qarşı artan etirazlarına səbəb olur. Ölkədaxili müxalif qüvvələr iqtidarın xarici siyasətindəki uğursuzluqları ona qarşı istifadə edir, etiraz nümayişləri təşkil olunur, hakimiyyətin istefası, seçkilərin keçirilməsi tələb olunur və s.

Beləliklə, daxili və xarici siyasət arasındakı münasibət qarşılıqlı xarakter daşıyır. Bu münasibətdə daxili siyasət müəyyənedici rol oynasa da, xarici siyasət ona əks təsir göstərir.

Multikulturalizm Azərbaycan Respublikasının daxili siyasətinin mühüm istiqaməti kimi ölkənin xarici siyasət fəaliyyətinə müsbət təsir göstərir. Bu özünü ilk növbədə ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasında göstərir. Azərbaycan Respublikasının multikulturalizm siyasəti sahəsində əldə etdiyi uğurlar dünya ölkələri tərəfindən etiraf olunur. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi, Azərbaycan dünyada multikulturalizm mərkəzi kimi tanınır... Dünyada Azərbaycanın nadir rolu yüksək qiymətləndirilir. Azərbaycan sivilizasiyalararası bir körpüdür. Həm coğrafi, həm siyasi, həm bütün başqa cəhətlərdən Azərbaycan nadir bir ölkədir. Bizim təcrübəmiz öyrənilir."

Azərbaycanın multikulturalizm və tolerantlıq sahəsindəki təcrübəsinə artan maraq onun bəzi xarici siyasətçilərin dedikləri kimi "Azərbaycan Respublikası dünyaya neftlə, təbii

qazla bərabər tolerantlığı da ixrac edən ölkə imicinin qazanmasına səbəb olmuşdur. Bir sözlə, multikulturalizm – Azərbaycan Respublikasının uğurlu xarici siyasətinin mühüm amili kimi çıxış edir”.

## 3.Azərbaycan Respublikasın multikulturalizm siyasəti və beynəlxalq təşkilatlar

Azərbaycan Respublikası özünün multikulturalizm siyasətinin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verir. Azərbaycan beynəlxalq təşkilatların multikulturalizm, tolerantlıq sahəsində qəbul etdiyi hüquqi sənədlərə öz münasibətini bildirir, bu sənədlər dövlətin milli maraqlarına uyğun gəldikdə onları imzalayır, ratifikasiya edir.

Azərbaycan hökuməti insan haqları, o cümlədən milli azlıqların müdafiəsi sahəsində nüfuzlu beynəlxalq təşkilatlarla (BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və s.) işgüzar əməkdaşlıq əlaqələri qurur. Respublika insan haqları və milli azlıqların müdafiəsi ilə bağlı bir çox beynəlxalq konvensiyalara qoşulmuşdur.

Azərbaycan Respublikası özünün siyasi müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq təşkilatlar tərəfindən milli, dini azlıqların hüquqlarının, mədəni dəyərlərinin qorunması və inkişaf etdirilməsi istiqamətində qəbul olunan bir sıra hüquqi-normativ sənədləri imzalamış, beynəlxalq konvensiyalara qoşulmuşdur.

1. Avropa Şurasının “Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası” (Azərbaycan hökuməti tərəfindən 1995-ci il fevralın 1-də imzalanmış və 2000-ci il 16 iyun tarixli Qanunla ratifikasiya edilmişdir). Azərbaycan bu sənədi imzalayarkən qeyd etdi ki, bu ölkənin ərazi bütövlü-

yünə və suverenliyinə, daxili və xarici təhlükəsizliyinə xələl gətirməməlidir.

2. 2001-ci il dekabrın 21-də Azərbaycan Respublikası Avropa Şurasının Regional və ya Milli azlıqların dillərinə dair Avropa Şurasının Avropa Xartiyası (1992-ci il) imzaladı. Lakin ratifikasiya etmədi.
3. Azərbaycan Respublikasının UNESKO-nun "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqinə dair" 2001-ci il 21 may Konvensiyasına qoşulmasına dair 26 noyabr 2009-cu il tarixli Qanunu
4. "Deportasiya olunmuş şəxslərin, milli azlıqların və xalqların hüquqlarının bərpası ilə bağlı məsələlərə dair Sazişin təsdiq edilməsi barədə", Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1996-cı il tarixli Qanunu,
5. "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyaya qoşulmaq barədə", - Azərbaycan Respublikası Prezidentinin *31 may 1996-cı il* tarixli Qanunu,

Müasir dünyada getdikcə dərinləşən sivilizasiyalararası toqquşmalar və ziddiyyətlər hər bir xalqın milli, mənəvi və dini dəyərlərinin qorunması zərurətini dövrün aktual məsələlərindən birinə çevirib.

İlk baxışda təbii və mütərəqqi görünən bu meyillər bəzi hallarda sivil bəşər cəmiyyətinin minilliklər boyu əxz etdiyi dinc yanaşı yaşamaq kimi ali dəyərə kölgə salır, onun etnik, irqi, dini və siyasi dözümsüzlük kimi səciyyələnən ksenofobiya ilə əvəzlənməsinə rəvac verir. Milli özünəməxsusluğu qorumaq instinkti və yaxud bəhanəsi altında son nəticədə başqa mədəniyyətlərə, dinlərə, hətta millətlərə münasibətdə dözümsüzlük halları artır.

Müxtəlif istiqamətlərdə dövlətlərin yaxınlaşmasını şərtləndirən qloballaşma prosesi və onunla əlaqədar meyarlar insan hüquqlarına birbaşa olaraq təsir göstərir. İnsan hüquqlarının qloballaşması daha ümumi qanunauyğunluğu ayrı-ayrı

şəxslərin, qrupların və ictimaiyyətin qarşılıqlı fəaliyyətinin insanların hüquq və əsas azadlıqları əsasında həyata keçirildiyi vahid hüquqi məkanın yaradılmasına gətirib çıxaran ümumdünya qloballaşmasını əks etdirir. Dünya proseslərinin qloballaşması insan hüquqlarına yeni yanaşmalar müəyyən edir, lakin onların ümumi başlanğıc prinsipləri dəyişdirilməməlidir.

Müasir dövrdə yaranmış vəziyyət etnik-milli dözümlülüyün, habelə tolerantlıq və multikulturalizm kimi dəyərlərin bəşəriyyət üçün önəmini daha da artırır. Xüsusən də multikulturalizm bu gün fərqliliyi zənginliyə, müzakirələri inkişafa, iğtişaşları sülhə, fərdiyyətçiliyi harmoniyaya aparan əsas amillərdən biri kimi çıxış edir. Multikulturalizm elmi ədəbiyyatlarda "çoxmədəniyyətlilik", yəni bir çox fərqli mədəniyyətləri özündə ehtiva edən cəmiyyət kimi təsnif edilir. O, ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların, dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir. Humanist və demokratik nəzəriyyə, yaxud ideologiya olaraq multikulturalizm tolerantlığın təcəssümüdür. Multikultural cəmiyyət olmadan humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil. Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir. Digər mədəniyyətlərin mahiyyətini, xüsusiyyətlərini, tarixini və nailiyyətlərini öyrənmədən onlara qarşı tolerant münasibət, onların nümayəndələrinə hörmət mümkün deyil, qarşılıqlı anlaşma, mədəniyyətlərin və sivilizasiyaların dialoqunu qurmaq qeyri-mümkündür. Multikulturalizmdən imtina etmək, əslində, anlaşılmazlığa, ksenofobiyaya, qarşıdurmaya, milli və dini münaqişələrə rəvac verən bir yoldur.

Azərbaycanın tarixi inkişafının xüsusiyyətləri, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi burada müxtəlif dinlərin mövcudluğuna şərait yaratmışdır. Ayrı-ayrı dövrlərdə bütpərəstlik, zərdüştlük, yəhudilik, xristianlıq, İslam və bir çox başqa dini inanclar ölkədə bu və ya digər dərəcədə yayıla bilmiş, bir-birinə qarşılıqlı təsir göstərmişdir. Bundan əlavə, tolerantlıq, dini, milli-irqi dözümlülük milli mentalitetimizin ayrılmaz cəhətlərindəndir. Məhz bunun nəticəsidir ki, yüzilliklər boyunca və hazırda da Azərbaycanda xalqlar vahid və mehriban bir ailə kimi yaşamış, etnik və dini icmalar arasında dözümlülük əlaqələri formalaşmış, milli, irqi, dini ayrı-seçkiliyə yol verilməmiş, müxtəlif dinlərə mənsub insanlar sülh və əmin-amanlıq şəraitində fəaliyyət göstərmişlər. Azərbaycan Prezidenti İlham Əliyev IV Bakı Beynəlxalq Humanitar Forumundakı dərin məzmunlu nitqində demişdir: "Biz sivilizasiyalararası dialoqdan söhbət açırıq. Amma eyni zamanda, bəzi bəyanatlar bizi məyus edir ki, multikulturalizm iflasa uğradı, multikulturalizmin gələcəyi yoxdur. Bu, çox təhlükəli bəyanatlardır. Qeyd etməliyəm ki, multikulturalizmin müasir dünyada alternativi yoxdur. Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu, ayrıseçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir".

1948-ci il 10 dekabr tarixli İnsan hüquqları haqqında Ümumi Bəyannamədə xüsusi qeyd olunur ki, "insan ailəsinin bütün üzvlərinə məxsus ləyaqətin etirafı və onların bərabər, ayrılmaz hüquqları azadlıq, ədalət və ümumi dünyanın əsasını təşkil edir". Bu zaman digər beynəlxalq sənədlər kimi, 1981-ci il tarixli "Dözümsüzlüyün, din və ya əqidəyə əsaslanan ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" BMT Bəyannaməsi və UNESCO çərçivəsində 1995-ci ildə qəbul olunmuş "Dözümlülüyün prinsipləri haqqında Bəyannamə" də xüsusi yer tutur.

Ümumiyyətlə, son illər sivilizasiyalararası dialoq mövzusu ilə bağlı beynəlxalq məkanda aparılan fəal diskussiyalar, müxtəlif ölkələrdə keçirilən beynəlxalq konfranslar, simpoziumlar XXI əsrdə sivilizasiyalararası dialoq ideyasının nə qədər mühüm aktuallıq kəsb etməsindən xəbər verir. Şübhəsiz, bunun əks halı sivilizasiyalar arasında savaşdır ki, bu da dünyamızın sonu demək olardı. Ona görə də bu məsələ BMT, UNESCO və digər beynəlxalq təşkilatlar, habelə bir çox dövlət başçıları tərəfindən dəfələrlə gündəmə gətirilmiş, qlobal problemlərin bütün dünya xalqlarının birgə səyləri ilə həll edilməsi zərurəti vurğulanmış, sülh və əmin-amanlıq, mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşməsi üçün belə bir dialoqun qaçılmaz olduğu göstərilmişdir. Bu gün bəşəriyyət qarşısında həlli vacib ən mühüm məsələ Şərq və Qərb, digər hallarda İslam və xristian sivilizasiyaları arasında dialoq mühiti yaratmaq, onlara aid mütərəqqi dəyərlərin qarşılıqlı mübadiləsini təmin etməkdən ibarətdir. Azərbaycan Respublikasının bu sahədəki təcrübəsi bütün dünyaya nümunədir.

Son 20 ildə ölkəmizdə ilk növbədə vicdan azadlığının təmini istiqamətində həyata keçirilən ardıcıl dövlət siyasəti, bununla bağlı yaradılmış hüquqi təminatlar Azərbaycanın həm də multikultural məkan kimi tanınmasını təmin etmişdir. Konstitusiyamız özünün demokratik mahiyyəti ilə cəmiyyət həyatının bütün sahələrində multikulturalizm düşüncəsini təsbit və təşviq edir. Çünki ictimai münasibətlər sisteminin sivil şəkildə tənzimlənməsi ilk növbədə insanların əks mədəniyyətlərə dözümlülük səviyyəsindən asılıdır. Bu da təsadüfi deyildir ki, son illər bir sıra iqtisadi, siyasi, humanitar və beynəlxalq tədbirlərin keçirilməsi məkanı kimi məhz Bakı şəhərinə üstünlük verilir. Azərbaycanın yüksək təşəbbüskarlığı ilə paytaxtımızda təşkil edilən çoxsaylı mötəbər beynəlxalq tədbirlər Bakını artıq regionun təkcə diplomatik deyil, həm də multikulturalizm mərkəzinə çevirmişdir. Respublikamız son illərdə Beynəlxalq Humanitar Foruma, İslam

Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransına, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna, Dünya Dini Liderlərinin Zirvə görüşünə, Krans Montana Forumuna, Davos Forumuna, III Qlobal Bakı Forumuna, habelə ilk Avropa Oyunlarına və digər beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etmişdir. Şübhəsiz, beynəlxalq forumlar, konfranslar vasitəsilə sivil dialoqların qurulması, ideyalar, nəzəri və praktiki bilik mübadiləsi, konstruktiv debat və müzakirələr üçün platformanın formalaşdırılması deməyə əsas verir ki, Bakı şəhəri həm də multikultural ideyalar ətrafında intellektual müzakirələr məkanına çevrilir.

2012-ci ildə "Evrovizion-2012" kimi qlobal musiqi yarışmasını yüksək təşkilatçılıqla keçirən Azərbaycan ötən ilin iyun ayında daha bir mötəbər idman tədbirinə - "Baku 2015" ilk Avropa Oyunlarına uğurla yekun vurmuşdur. Azərbaycan həmin günlərdə ümumən Avropanın favoritinə çevrilməyi bacarmışdır. Beynəlxalq ictimaiyyət qibtə və heyranlıq ovqatında Bakı şəhərinin sülh və sabitlik paytaxtı olduğunun, respublikamızın qısa zamanda ciddi uğurlara imza atdığının əyani şahidinə çevrilmişdir. Azərbaycan xalqının yüksək qonaqpərvərliyə, qədim mədəniyyətə, ecazkar musiqiyə, zəngin incəsənətə malik polietnik məkan olduğu, bu multikultural məkanda ən müxtəlif xalqların dinc yanaşı yaşadıqları bir daha təsdiqini tapmışdır. "Baku 2015" ilk Avropa Oyunları məşəlinin alovlandırılması mərasimində cənab Prezidentin "Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələrinin birgə yaşaması, bir ailə kimi yaşaması nadir təcrübədir. Beləliklə, Azərbaycan Avropa ilə Asiyanı, sivilizasiyaları birləşdirir, qarşılıqlı anlaşmanın bərqərar olması üçün səylərini göstərməkdədir" fikri də bunun əyani sübutudur.

Qeyd edilən bu siyasət ona görə uğurludur ki, onun əsası Azərbaycan xalqının xilaskarı ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Belə ki, 1998-ci ilin dekabrında Bakı

şəhərində keçirilmiş "İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumun açılış mərasimində söylədiyi nitqində də ulu öndər din azadlığının müdafiəsi kontekstində dözümlülüyün təmin edilməsinin vacibliyinə toxunmuşdur: "Dünyada bir çox böyük dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar İslam dini ilə fəxr edərək, eyni zamanda, heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq İslam dəyərlərinin xüsusiyyətidir. Azərbaycanda İslam dini ilə yanaşı xristian dini də, yəhudi dini də əsrlər boyu yaşayıb və indi də yaşayır. Hesab edirik ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar. Dini nöqteyi-nəzərdən əlavə, münaqişə, müharibə yolverilməzdir. Hər halda XX əsrin sonunda və XXI əsrdə dünyada belə hallara son qoyulmalıdır".

Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan Respublikasında dinlərarası əməkdaşlığın mövcudluğu respublika rəhbərliyinin siyasi uzaqgörənliyi ilə bağlıdır. Yalnız son beş ildə respublikamızda dinlərarası dialoqa, millətlərin tolerant mühitdə yaşamasına xidmət edən forumlarda dünyanın 100-dən artıq dövlətinin ictimai, siyasi xadimləri, Nobel mükafatı laureatları iştirak etmişlər. Bu da təsadüfi deyildir ki, ölkə rəhbərinin 15 may 2014-cü il tarixli sərəncamı ilə dünyada yaradılmış ilk multikultural qurum Beynəlxalq Bakı Multikultural Mərkəzidir. Azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud

multikultural modelləri tədqiq və təşviq etmək mərkəzin əsas məqsədi müəyyən edilmişdir.

Azərbaycanda din azadlığının təmini ilə bağlı məsələlər beynəlxalq məruzəçilər tərəfindən də yüksək qiymətləndirilmişdir. Ölkəmizdə din azadlığının hüquqi tənzimlənməsi sahəsində kifayət qədər qanunvericilik bazası mövcuddur: “Dini etiqad azadlığı haqqında” 20 avqust 1992-ci il tarixli qanun, “Dini ekstremizmə qarşı mübarizə haqqında” 4 dekabr 2015-ci il qanunu, ölkə Prezidentinin “Azərbaycanda dini mədəniyyətin, tolerantlığın, dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında” 5 avqust 2015-ci il tarixli sərəncamı və s. Azərbaycan insan hüquqları sahəsində 300-dən çox beynəlxalq müqavilənin iştirakçısı və mühüm nüfuzlu beynəlxalq təşkilatların (BMT, Avropa Şurası, MDB, UNESCO, İslam Konfransı Təşkilatı və s.) üzvüdür. Bu gün də dövlətimiz insan hüquqlarının müdafiəsinin beynəlxalq mexanizmləri ilə sıx əməkdaşlıq edir və onlara müvafiq dövri hesabatlar təqdim edir. Beynəlxalq mexanizmlər tərəfindən irəli sürülən tövsiyələr isə daim Azərbaycan Respublikası tərəfindən dövlətdaxili qanunvericiliyin daha da təkmilləşdirilməsində istifadə edilir.

Dövlət başçısının müvafiq sərəncamı ilə 2016-cı ilin Azərbaycanda “Multikulturalizm ili” elan olunması da bu ideoloji konseptin xalqımız və dövlətimiz üçün necə vacib əhəmiyyət kəsb etdiyini bir daha təsdiqləyir. Əlbəttə, multikulturalizm, bəlkə də, cəmiyyətdə yeni termin kimi qarşılana bilər, əslində isə onun fəlsəfi-ideoloji mahiyyətində Azərbaycan xalqının əsrlər boyu əxz etdiyi sivil dəyərlər dayanır. Başqa xalqlara, mədəniyyətlərə hörmət, əslində, xalqımızın ümummilli lideri Heydər Əliyevin milli ideologiya kimi vahid sistem halına gətirdiyi azərbaycançılığın ana xəttini təşkil edir. Bəli, ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan çoxdan bu proseslərin fəal iştirakçısıdır. Bu məsələyə münasibətini ulu öndər zamanında belə

ifadə etmişdir: “Avropa ölkələri ilə münasibətlərin inkişafında qədim İpək yolunun bərpasını nəzərdə tutan TRASEKA proqramının həyata keçirilməsinə başlanması mühüm yer tutur. Bu nəhəng nəqliyyat dəhlizinin mərkəzində yerləşən ölkə kimi Azərbaycan Şərqlə Qərbin qovuşmasında mühüm rol oynayır”. Siyasi və iqtisadi müstəvidə bu tendensiyanı dünyada ilk dəfə nəzərə alan və Böyük İpək yolunun bərpası ideyasını irəli sürən ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə hələ 8-9 sentyabr 1998-ci ildə 32 dövlət rəhbərinin iştirakı ilə Bakıda keçirilmiş beynəlxalq konfransda bir sıra planetar miqyaslı strateji layihələrə start verilmişdir.

Ulu öndər Heydər Əliyev ölkədə multikulturalizmi inkişaf etdirmək üçün mövcud dini ziyarətgahların təmiri və bərpasına, qorunmasına da xüsusi qayğı göstərmişdir. Ümummilli lider Heydər Əliyev ölkədə mütərəqqi islam dəyərlərinin inkişafına xüsusi diqqət yetirməklə yanaşı, başqa dinlərin inkişafına da tolerant mühitin yaradılmasını təmin etmiş, dinlər arasında qarşılıqlı hörmətə söykənən münasibətlərin formalaşmasına çalışmışdır. 1999-cu ildə katolik icması dövlət qeydiyyatına alınmış, əvvəllər dini ayinləri evlərdə icra edən icma üzvlərinə lazımi şərait yaradılmışdır. 2000-ci ildə ibadətlərin yerinə yetirilməsi məqsədilə xüsusi bina ayrılaraq kilsəyə çevrilmişdir. Sonrakı illərdə Azərbaycan hökuməti ilə Vatikan arasındakı razılığa əsasən, Bakıda Nobel prospektində Roma katolik kilsəsi inşa olunmuşdur. Kilsənin başçısı II İoann Pavel 2002-ci ilin may ayında Bakıda səfərdə olmuş, dövlət rəsmiləri, ictimaiyyətin nümayəndələri ilə görüşərək ölkədəki mövcud tolerantlığı belə qiymətləndirmişdir: “Azərbaycanda dinlər arasındakı tolerantlıq münasibətləri dünyanın bir çox ölkələri üçün yaxşı nümunə ola bilər”.

Azərbaycanda mədəni müxtəlifliyin inkişafına xidmət edən bu strateji kurs hazırda ölkə rəhbəri cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. Hələ andiçmə mərasimində “Mən hər bir azərbaycanlının Prezidenti olacağam” deyən cə-

nab İlham Əliyevin müxtəlif xalqların mədəniyyətlərinin qorunması və inkişaf etdirilməsi ilə bağlı siyasəti çağdaş dövrün reallıqları ilə şərtlənir. Dövlət başçısı hesab edir ki, müasir dünyada qloballaşma prosesinin nəticəsi kimi ortaya çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın dini dəyərlərinin qorunması məsələsini çağdaş zamanın aktual məsələlərindən birinə çevirmişdir.

Ölkəmizdə mədəni müxtəlifliyin, sivilizasiyalararası dialoq mühitinin qurulmasında Heydər Əliyev Fondunun xidmətləri də xüsusi qeyd olunmalıdır. Fond son 12 ildə mədəniyyət diplomatiyasına və mədəniyyətlərarası dialoqa töhfələr verən, Qafqazda və keçmiş Sovet məkanında analoqu olmayan uğurlu layihələri ilə bütün dünyada tanınmışdır. Parisdə Versal Sarayının parkında yerləşən abidələrin bərpası, Strasburqda Müqəddəs Məryəm Kafedral kilsəsinin yenidən qurulmasına olan yardım, Pakistanda zəlzələdən zərər çəkən qızlar məktəbinin yenidən inşası, Hollandiya, Rusiya, Gürcüstan, Ruminiya, Misir və digər ölkələrdə təhsil ocaqlarının müasirləşdirilməsinə kömək, Afrika ölkələrinin qeyri-maddi mədəni irsinin qorunmasına yardım, Qəbələ Beynəlxalq Musiqi Festivalının təşkili – Avroviziya musiqi yarışmasında Azərbaycanın iştirakına dəstək və s. buna parlaq nümunədir.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu hər bir layihəsi ilə müxtəlif xalqlar arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasına öz töhfəsini verir. Uğurla həyata keçirilən "Tolerantlığın ünvanı Azərbaycan" layihəsi çərçivəsində ölkədəki məscidlərdə, kilsələrdə, sineqoqlarda təmir-bərpa işləri aparılır. Mehriban xanım Əliyevanın bu fikri də diqqətə layiqdir: "Xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, tolerantlığın hökm sürdüyü Azərbaycan cəmiyyəti bizim tarixi nailiyyətimizdir və bu amil ictimai-siyasi həyatımızın aparıcı normasına çevrilmişdir. Ölkəmizdə yaşayan müx-

təlif xalqlara öz milli mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şərait təmin edilmişdir. Azərbaycanın bütün vətəndaşları dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, əsas insan hüquq və azadlıqlarına malikdirlər. Qürurverici faktdır ki, Azərbaycan dünya ölkələri üçün tolerantlıq örnəyi hesab olunur və bir çox dövlətlər bizim təcrübəmizdən yararlanmağa çalışırlar".

Xüsusi vurğulamaq lazımdır ki, ilk Avropa Oyunlarının Azərbaycanda keçirilməsinin mühüm səbəblərindən biri də ölkəmizdə insan hüquqları və demokratikləşmə, habelə milli-etnik, dini tolerantlığın təmini sahəsində əldə etdiyi böyük nailiyyətlərlə şərtlənir. Bir daha təsdiqləndi ki, Azərbaycan qətiyyən geridə qalmış müsəlman və ya Şərq ölkəsi deyil. Azərbaycanlılar müasir, qonaqpərvər, gülərüz olmaqla yanaşı, çox tolerantdırlar. Burada müxtəlif dini konfessiyaların, ayrı-ayrı xalqların nümayəndələri dostluq və mehribanlıq, qarşılıqlı anlaşma şəraitində uzun illərdir ki, yaşayır. Bir sözlə, Azərbaycanda müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin nümayəndələrinin sərbəst yaşamaları üçün bütün zəruri şərait yaradılmışdır ki, bu da insan hüquqlarının dövlətimizdə təminatının mühüm şərtidir. Azərbaycan Respublikası Konstitusiyasının 44-cü maddəsinə müvafiq olaraq, hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Bundan əlavə, burada heç kəsin milli mənsubiyyətini dəyişdirməyə məcbur edilməməsi barədə imperativ norma da təsbit edilmişdir. Konstitusiyanın 21-ci maddəsinin 2-ci hissəsində qeyd edilir ki, Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir. Azərbaycan Respublikası milli azlıqların hüquqlarının müdafiəsinin təminatı üçün mövcud müvafiq konvensiyalara (məsələn, Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası, Regional dillər və ya azlıqların dilləri haqqında 1992-ci il Avropa Xartiyası və s.) qoşulmuş və

mühüm dövlətdaxili tədbirlər həyata keçirmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq olaraq 28 dekabr 2006-cı il tarixli və 7 dekabr 2011-ci il tarixli sərəncamları ilə təsdiq edilmiş Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planında və Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, cəmiyyətdə hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ hüquqi bazanın və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi ilə əlaqədar mühüm müddəalar vardır.

Ümumilikdə müxtəlif xalqların, millətlərin, dinlərin xüsusiyyətlərinə tolerant münasibətin azərbaycanlıların mentalitetinə xas bir dəyər olduğunu nəzərə alsaq, fərqli baxışlara, adətlərə, vərdişlərə dözümlülük mövqeyini özündə ehtiva edən multikulturalizmin Azərbaycan üçün xüsusi əhəmiyyətini dərk etmək çətin deyildir.

# MÖVZU 8

## Multikulturalizmin beynəlxalq hüquqi əsasları

**Plan:**

1. Multikulturalizmin beynəlxalq hüquqi sənədlərdə əksi
2. Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyası
3. İrqi ayrıseçkilyin bütün formalarının ləğvi haqqında Beynəlxalq Konvensiya
4. ”UNESCO-nun Mədəni Özünümifadə Müxtəlifliyinin Qorunması və Təşviqinə dair Konvensiya”
5. ”Dözümlülük prinsipi haqqında Bəyannamə”

### *1.Multikulturalizmin beynəlxalq hüquqi sənədlərdə əksi*

Milli azlıqlar dövlətin əhalisindən sayca az olan etnik qruplardır. Milli azlıqların hüquqları, dilləri, dinləri, mədəni və etnik özünəməxsusluqları və onların müdafiəsi beynəlxalq aktlarda - Avropa Şurasının Nizamnaməsində (London, 5 may 1949-cu il), Avropa Sosial Xartiyasında (18 oktyabr 1965-ci il), “Bölgə dilləri və azlıqların dilləri haqqında Avropa Xartiyasında” (Strasburq, 5 oktyabr 1992-ci il), Milli Azlıqların Müdafiəsi Haqqında Çərçivə Konvensiyasında (Strasburq, 1 fevral 1995-ci il), ATƏT-in İnsan Meyarı Konfransına dair Kopenhagen Müşavirəsinin sənədində (ATƏT-in 35 iştirakçı dövləti tərəfindən 1990-cı il iyunun 29-da qəbul edilmişdir), Yeni Avropa üçün Paris Xartiyasında ATƏT-in İnsan Meyarı Konfransına dair Moskva müşavirəsinin sənədində (1991-ci il oktyabrın 3-də qəbul edilmişdir), ATƏT-in Helsinki Zirvə görüşü sənədində (1992-ci il 9-10 iyul) İctimai-Siyasi Həyatda Milli azlıqların səmərəli iştirakı haqqında Leynd Tövsiyəsində, Milli Azlıqların təhsil hüquqları üzrə Haaqa Tövsiyələrində, Milli Azlıqların Dil hüquqları Haqqında Oslo

Tövsiyələrində, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində, İnsan Hüquqlarının Ümumi Bəyannaməsində (1948-ci il 10 dekabr), İnsan Hüquqlarının və Əsas azadlıqlarının Müdafiəsi Haqqında Konvensiyada (Roma, 4 noyabr, 1950-ci il), BMT-nin "İrqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyasında (1969-cu il 4 yanvar), BMT-nin "Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktında (1976-cı il 23 mart), BMT-nin "Yetkinlik yaşına çatmayanlar barəsində ədalət məhkəməsinin icrasına aid minimal standart qaydalarında ("Pekin qaydaları" 10 dekabr 1985-ci il), "Uşaq Hüquqları haqqında Konvensiyada" (2 sentyabr 1990-cı il), BMT-nin "Bütün müasir zəhmətkeşlərin və onların ailə üzvlərinin hüquqlarının sorunması" haqqında Beynəlxalq Konvensiyada (18 dekabr 1990-cı il), BMT-nin "Milli, yaxud etnik, din, dil azlıqlarına mənsub olan şəxslərin hüquqları haqqında Konvensiyada (18 dekabr 1992-ci il), Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statusunda, "Azlıqlara mənsub şəxslərin hüquqlarını təmin etmək haqqında Konvensiya"da (Minsk, 21 oktyabr 1994-cü il) öz əksini tapmışdır.

Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi, dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Ötən illər ərzində Azərbaycan Respublikası insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirmiş, insan hüquqlarının müdafiəsi sahəsində 50-dən çox beynəlxalq sənədə tərəfdar çıxmış və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nəaliyyətər əldə etmişdir.

## 2. *Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyası*

Avropa dövlətləri uzunmüddətli daxili və xarici sabitliyə nail olmaq, milli azlıqlara məxsus şəxslərin öz identikliyini, mədəniyyət və dillərini qorumalarını, onların cəmiyyətdə bərabər hüquqlar daşımalarını təmin etmək üçün əlavə tədbirlər görməli idilər. Bu məqsədlə 1 fevral 1995-ci ildə Avropa Şurasına üzv dövlətlər tərəfindən "Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyası"nı imzaladılar. Konvensiya 1 fevral 1998-ci ildə 12 üzv dövlətin ratifikasiya (təsdiq) etməsindən sonra qüvvəyə mindi və bu günə kimi 43 dövlət tərəfindən imzalanmış və onlardan 39 ölkə bu çərçivə konvensiyasını ratifikasiya etmişdir. Konvensiya Azərbaycan Respublikası tərəfindən 17 mart 2000-ci ildə 836 İQ nömrəli qanuna əsasən ratifikasiya edilmişdir.

Bu Çərçivə Konvensiyası milli azlıqların hüquqlarının müdafiəsinə yönələn ilk beynəlxalq müqavilədir və milli azlıqların mövcudluğunu, onların mədəniyyət və identikliyini ən yüksək səviyyədə qorunması üçün yalnızca bilinən təməl hüquqlar (fikir azadlığı, vicdan azadlığı, dini etiqad azadlığı, sərbəst toplaşma azadlığı və.s), eləcə də, diskriminasiyanın qadağan olunmasını nəzərdə tutmur. Bu cür təməl hüquqlar İnsan Hüquqları haqqında Beynəlxalq Konvenisya ilə də tənzim olunur. Konvensiyada, eyni zamanda, yalnızca milli azlıqlara şamil olunan qarant hüquqlar da müəyyən edilmişdir (Öz dilində danışmaq hüququ, eyni etnik-mədəni, dil və din identikliyinə aid şəxslərlə sərbəst ünsiyyət qurma hüququ və.s). Buna görə də, Konvenisyanın 1-ci maddəsində açıq şəkildə qeyd olunur ki, milli azlıqlar və bu azlıqlara məxsus şəxslərin hüquq və azadlıqlarının müdafiəsi, insan hüquqlarının beynəlxalq müdafiəsinin ayrılmaz tərkib hissəsidir və buna görədə, beynəlxalq əməkdaşlığın bir hissəsi hesab olunur.

Milli Azlıqların Müdafiəsi haqqında Konvensiyanın qəbul olunmasında qarşıya qoyulan məqsəd, milli azlıqların tam və həqiqi bərabərliyini təmin etmək, həmçinin hüququn aliliyi, ərazi bütövlüyü və milli suverenlik prinsiplərinə hörmət çərçivəsində öz milli fərdiliyini ifadə etmək, qorumaq və inkişaf etdirməyə imkan verən şəraitin yaradılmasıdır. Mədəni rəngarənglik hər hansı bir cəmiyyətin parçalanmasının deyil, onun zənginləşməsinin mənbə və faktorudur.

Konvensiyada nəzərdə tutulan ən mühüm müddəalardan biri ondan ibarətdir ki, onu qəbul edən dövlətlər öz üzərlərinə hər hansısa bir şəxsin iradəsi əleyhinə assimilyasiya siyasətinin həyata keçirilməməsi öhdəliyini götürürlər. 3-cü maddədə açıq şəkildə qeyd olunur ki, hər bir milli azlığa məxsus şəxs ona bu cür baxılmasını və ya baxılmamasını müəyyən etmək hüququna malikdir və bu seçim və ya bu seçimlə bağlı hüquqların həyata keçirilməsi həmin şəxsi alçaltmamalıdır.

Bu qədər həssas bir sahədə mürəkkəb hüquqi və siyasi maneələr olduğundan Çərçivə Konvensiyası milli azlıq konsepsiyasının dəqiq anlayışını müəyyən etməmişdir, lakin aşağıdakı kriteriyaları irəli sürmüşdür: bu anlayış yalnız din, dil, ənənələr və mədəni irslə müəyyənləşdirilən azlıqlara şamil edilir.

Çərçivə Konvensiyasını ratifikasiya etmiş hər bir dövlət, eləcə də Azərbaycan Respublikası, bir il müddətində onun müddəalarını və prinsiplərini yerinə yetirmək məqsədi ilə həyata keçirdiyi qanunvericilik tədbirlərini və ya digər tədbirlər barədə Avropa Şurasının baş katibinə dolğun məlumat verməlidirlər. Qanunvericilik tədbirləri dedikdə nə nəzərdə tutulur? Burada söhbət Konvensiyanın əsas prinsiplərinin daxili qanun-vercilikdə öz əksini tapmasından gedir. Çərçivə Konven-siya-sında söhbət mühüm olaraq bərabərlik prinsipindən, ən əsası isə qanun qarşısında bərabərlikdə gedir. Burada qeyd olunmalı ən mühüm fakt ondan ibarətdir ki, Azərbaycan Res-

publikası hələ 1992-ci ildə, yəni Çərçivə Konvensiyası imzalanmamışdan 3 il qabaq prezidentin "Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətlərin inkişafı üçün dövlət yardımı haqqında" fərmanı ilə onların təməl hüquqlarının qorunmasını təminat altına almışdı. 1995-ci il Konvensiyasında nəzərdə tutulan bir çox müddəa, (ayrıseçkiliyə yol verilməməsi, sərbəst dini mərasimlərini icra etmək, mədəni, dil və dini özünəməxsusluğu qoruyub saxlamaq, öz dilində informasiya almaq hüququ və.s) 1992-ci il prezident fərmanında öz əksini öncədən tapmışdı. Digər mühüm müddəalar isə (öz dilində ifadə vermək azadlığı, öz dilində təhsil almaq hüququ və s.) ayrı-ayrı daxili qanunvericilik aktlarında (Cinayət Prossesual Məcəlləsi, Təhsil haqqında qanun və.s) öz əksini tapmışdır.

Milli azlıqların hüquqlarının müdafiəsi haqqında çərçivə konvensiyası özündə aşağıdakı prinsipləri təsbit edir:

- ✓ Ayrı-seçkiliyi qadağan olunması;
- ✓ Milli azlıqlarla əhalinin çoxluğu arasında bərabərliyin təmin olunmasına yardım etmək;
- ✓ Milli azlıqların mədəniyyətinin, dininin, dilinin və adət ənənələrinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün əlverişli şəraitin yaradılması
- ✓ Söz, fikir, vicdan və din azadlığı
- ✓ Təhsil almaq hüququ
- ✓ Sərhədyanı əlaqələr və əməkdaşlıq
- ✓ İqtisadi, mədəni və sosial həyatda iştirak və s.

Bu Konvensiya ilə dövlətlər öz üzərlərinə milli azlıqlarla bağlı böyük öhdəliklər götürmələrinə baxmayaraq, onun hər hansı müddəası və ya prinsipi ayrılıqda istənilən bir şəxsin beynəlxalq hüquq prinsiplərinə, xüsusilə də dövlətin suveren bərabərlik, ərazi bütövlüyü və siyasi müstəqillik prinsiplərinə zidd olan hər hansı bir hərəkətə yol vermək hüququnun olmasının güman edilməsi kimi şərh oluna bilməz.

Hazırki Çərçivə Konvensiyasının müddəaları ilə razılığa gəlmiş dövlətlər tərəfindən əməl olunması məsələsinə nəzarəti Avropa Şurasının Nazirlər Kabineti həyata keçirir. Yekun olaraq bu Konvensiya ilə bağlı onu qeyd etmək lazımdır ki, istənilən tərəf istədiyi vaxt Avropa Şurasının baş katibinə xəbərdarlıq məktubu yazmaqla, hazırki Çərçivə Konvensiyasını etibarsız elan edə bilər. Belə etibarsızlıq elanı baş katibin belə xəbərdarlıq məktubu almasından altı ay sonra, gələn ayın biri qüvvəyə minir.

### *3. İrqi ayrıseçkiliyin bütün formalarının ləğvi haqqında Beynəlxalq Konvensiya*

İrqi ayrıseçkiliyin bütün formalarının ləğv olunması haqqında konvensiya BMT-nin insan hüquqları ilə bağlı olan ən mühüm konvensiyalarından biridir və milli, irqi, cinsi eləcə də, etnik ayrıseçkiliyə qarşı yönəlmişdir. Bu konvensiya 21 dekabr 1965-ci ildə qəbul olunmuş və 4 yanvar 1969-cu ildə isə qüvvəyə minmişdir. 2015-ci ildə artıq 177 dövlət tərəfində ratifikasiya (təsdiq) olunmuşdur. Bu konvensiya Azərbaycan Respublikası Prezidentinin 31 may 1996-cı il 95 İC nömrəli qanunu ilə təsdiq olunmuş və qüvvəyə minmişdir.

İrqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında konvensiya bütün dünyada irqi ayrı-seçkiliyin bütün formalarının tezliklə ləğv edilməsi və şəxsiyətin, insan ləyaqətinin tezliklə dərk edilməsi məqsədi güdür. Konvensiyanın 1-ci maddəsində açıq şəkildə qeyd olunur ki, "bu konvensiyada irqi ayrıseçkilik ifadəsinin məqsədi, yaxud nəticəsi siyasi, iqtisadi, sosial, mədəni və ictimai həyatın digər sahəsində insan hüquq və azadlıqlarının bərabər əsasda tanınmasını, ifadə olunmasını, yaxud həyata keçirilməsini ləğv etmək və ya pisləşdirmək olan, irqi, dərinin rəngi, nəsil və yaxud etnik mənşə əlamətlərinə əsaslanan hər hansı fərqləndirməni, istisnanı, məhdudiyyəti, yaxud tutmanı

bildirir. Eyni zamanda, qeyd olunur ki, bu konvensiya onun iştirakçısı olan dövlətlərin, öz vətəndaşları ilə onların vətəndaşları olmayanlar arasında qoyduğu fərqlərə, istisna və məhdudiyyətlərə yaxud üstün tutmalara şamil edilmir.

Bu konvensiyada öz əksini tapmiş ideya və prinsiplər Azərbaycan Respublikasının həyata keçirdiyi siyasətin əsas xətlərindəndir. Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində "Milli Fəaliyyət Proqramı" təsdiq edilmişdir. İrqi ayrıseçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiyada öz əksini tapmış hüquqların milli qanunvericilikdə daha səmərəli qorunması ilə bağlı "Milli Fəaliyyət Proqramı"nın 1.1 və 1.2-ci bəndləri xüsusi qeyd edilməlidir. Sözü gedən proqramın 1.1-ci bəndində Azərbaycan Respublikası qanunları layihələrinin hazırlanması zamanı Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş insan hüquq və azadlıqlarının əsas meyar kimi rəhbər tutulması təsbit edilmişdir. "Milli Fəaliyyət Proqramının" 1.2 –ci bəndində isə Azərbaycan Respublikasının tərəfdar çıxdığı insan hüquqları və azadlıqlarına dair beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin həyata keçirilməsi və Azərbaycan Respublikasının normativ-hüquqi aktlarının beynəlxalq hüquqi sənədlərə uyğunluğunun təmin edilməsi öz əksini tapmışdır.

İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında Beynəlxalq Konvensiyaya əsaslanan "bərabərlik hüququ" Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsində, Cinayət Məcəlləsində, Cinayət Prossesual Məcəllədə, Mülki Prossesual Məcəllədə, Ailə, Əmək Məcəllələrində və digər qanunvericilik aktlarında təsbit edilmişdir. Qeyd etmək lazımdır ki, şəxsin milliyətindən, irqindən, dinindən, dilindən, cinsiyyətindən, mənşəyindən,

əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olaraq hüquq və qanuni mənafelərinə zərər vurmağa görə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 109-cu (Təqib), 111-ci (irqi ayrıseçkilik, aparteid), 154-cü (bərabərlik hüququnu pozma), 283-cü (milli, irqi və ya dini düşmənçiliyin salınması) maddələri ilə məsuliyyət nəzərdə tutulur. Yeri gəlmişkən, Cinayət Məcəlləsinin 283-cü maddəsi dövlət əleyhinə olan cinayət kimi qiymətləndirilir.Azərbaycan Respublikasının 25 avqust 2000-ci il tarixli 387 nömrəli fərmanının 7-ci bəndinin 2-ci hissəsinə əsasən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 283-cü maddəsi üzrə ibtidai istintaqın aparılması səlahiyyəti Milli Təhlükəsizlik Nazirliyinə həvalə olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, 2009-cu il avqust və 2013-cü il avqust tarixləri ərzində 283-cü maddə üzrə MTN İstintaq Baş İdarəsinin icraatında cəmi bir cinayət işi olmuşdur. (Süleymanov Abgül Nemət oğlunun təqsirləndirilməsinə dair)

Bu konvensiya əsasında irqi ayrıseçkiliyin ləğvi üzrə komitə yaradılmışdır. O, iştirakçı dövlət tərəfindən seçilən 18 ekspertdən ibarət tərkibdə fəaliyyət göstərir. Bir məqam diqqəti çəkir ki, bu komitənin səlahiyyətləri insan hüquqları komitəsinin səlahiyyətləri ilə üst-üstə düşür. Mühüm fərq ondan ibarətdir ki, 1963-cü il konvensiyasında nəzərdə tutulmuş dövlətlərarası şikayət proseduru məcburi xarakter daşıyır. Bu o deməkdir ki, komitənin müvafiq səlahiyyətini tanımaq barədə heç bir ilkin bəyanat vermədən istənilən iştirakçı dövlət, öz ərazisində irqi ayrıseçkiliyə yol verən başqa bir iştirakçı dövlətə qarşı komitəyə ərizə ilə müraciət edə bilər.

## *4. ”UNESCO-nun Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqinə dair Konvensiya”*

Mədəni müxtəliflik cəmiyyətin (insanlığın) ən mühüm əlamətlərindən biridir və cəmiyyətin qalıcı inkişafı üçün mühüm faktordur. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və digər beynəlxalq sənədlərdə elan edilmiş insan hüquqlarının və əsas azadlıqlarının tam həyata keçirilməsi üçün mədəni müxtəlifliyin qorunmasının əhəmiyyəti danılmazdır. Bununla bağlı mədəni özünüifadə müxtəlifliyinin yoxolma və ya ciddi ziyan çəkmək təhlükəsinə qarşı bu konvensiya çox mühüm əhəmiyyət kəsb edir.

Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqinə dair Konvensiya 20 oktyabr 2005-ci ildə UNESCO-nun 33-cü sessiyasında qəbul olunmuş və 18 mart 2007-ci ildə qüvvəyə minmişdir. Azərbaycan Respublikası bu konvensiyaya 26 noyabr 2009-cu ildən qoşulmuşdur.

Nədir mədəni müxtəliflik? Ayrı-ayrı qrupların və cəmiyyətlərin mədəniyyətlərinin öz ifadəsini tapdığı müxtəlif formalardır. Bu özünüifadə formaları qruplar və cəmiyyətlər arasında və onların daxilində ötürülür.

Mədəni özünüifadə isə ayrı-ayrı fərdlərin, qrupların və ya cəmiyyətlərin yaradıcılığının nəticəsi olan və mədəni məzmun daşıyan özünüifadə nəzərdə tutulur.

Konvensiyanın qəbul olunmasında əsas məqsəd aşağıdakılardan ibarətdir:

- Mədəni özünüifadə müxtəlifliyini qorumaq və təşviq etmək
- Müxtəlif mədəniyyətlərin çiçəklənməsi və qarşılıqlı səmərəli tərzdə bir-birinə sərbəst təsiri üçün şərait yaratmaq
- Mədəniyyətlərarası hörmət və sülh mədəniyyəti naminə bütün dünyada geniş və tarazlı mədəni münasibətləri

təmin etmək üçün mədəniyyətlərarası dialoqu təşviq etmək

- Mədəni özünüifadə müxtəlifliyini qorumaq və təşviq etmək sahəsində, xüsusi ilə inkişaf etməkdə olan ölkələrin imkanlarını genişləndirmək məqsədilə tərəfdaşlıq ruhunda beynəlxalq əməkdaşlıq və həmrəyliyi gücləndirmək və s.

Konvensiyanın 2-ci maddəsində ondan irəli gələn mühüm prinsiplər öz əksini tapmışdır. Bu prinsiplər rəhbər başlanğıclardır və aşağıdakılardır:

- ✓ İnsan hüquqları və əsas azadlıqlarına hörmət prinsipi
- ✓ Suverenlik prinsipi
- ✓ Bərabər ləyaqət və bütün mədəniyyətlərə hörmət prinsipi
- ✓ Beynəlxalq həmrəylik və əməkdaşlıq prinsipi
- ✓ İnkişafın iqtisadi və mədəni aspektlərinin bir-birini tamamlaması prinsipi
- ✓ Davamlı inkişaf prinsipi
- ✓ Bərabər imkan prinsipi
- ✓ Açıqlıq və tarazlıq prinsipi

Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi Konvensiyasının mühüm orqanları, Tərəflərin Konfransı və Hökumətlərarası Komitədir. Tərəflərin Konfransı bu konvensiyanın plenar və ali orqanı hesab olunur. Bu orqanın sessiyası iki ildə bir dəfə və ya üzv dövlətlərin ən azı üçdə birinin Hökumətlərarası Komitəyə müraciəti əsasında fövqəladə sessiyası keçirilir. Hökumətlərarası Komitə isə 18 dövlətin nümayəndələrindən ibarət tərkibdə fəaliyyət göstərir. Onun üzvləri 4 ildən bir olmaqla, Tərəflərin Konfransı tərəfindən seçilir. Hökumətlərarası Komitə, Tərəflərin Konfransı orqanın rəhbərliyi altında fəaliyyət göstərir və onun qarşısında hesabat verir. UNESCO-nun Katibliyi isə Konvensiyanın oraqanlarına onların fəaliyyətləri zamanı sadəcə köməklik göstərir. Katiblik Tərəflərin Konfransının və Hökumətlərarası Komitənin

sənədlərini, habelə onların iclaslarının gündəliyini hazırlayır, qərarlarının həyata keçirilməsinə kömək göstərir və buna dair məruzə edir.

### *5. "Dözümlülük prinsipi haqqında Bəyannamə"*

Bu bəyannamə UNESCO-nun 25 oktyabr - 16 noyabr 1995-ci ildə Paris şəhərində baş tutmuş 28-ci sessiyasında imzalanmışdır. Bəyannaməni qəbul edən dövlətlər, cəmiyyətimizdə sülhun genişlənməsi, xalqların iqtisadi və sosial rifahının təmin olunması üçün tolerantlıq prinsiplərinin vacibliyini elan edirlər. Bəyannamənin 1-ci maddəsində tolerantlığa bu cür anlayış verilmişdir: Tolerantlıq dünyada mövcud olan mədəniyyətlərin, onların öz zənginlikləri və müxtəlifliyi ilə qəbul olunması, tanınması və hörmət olunmasıdır.

Tolerantlıq müxtəlifliyin harmoniyasıdır və yalnız mənəvi öhdəlik deyil, həmçinin siyasi və hüquqi məcburiyətdir. Tolerantlıq sülhun təməli olmaqla, hər bir hüquqi və demokratik dövlətin, insan hüquqlarının və pluralizmin əsas açarıdır.

Dövlət müstəvisində tolerantlıq, qanunvericilik, adminstrativ və məhkəmə fəaliyyətində ədalətlilik prinsipinin qorunmasını, həmçinin hər bir şəxsə bərabər sosial-iqtisadi şansların yaradılmasını tələb edir. Əks halda cəmiyyətdə düşmənçilik və fanatizm ruhu genişlənə bilər.

Bəyannamənin ikinci maddəsinin məzmunundan aydın olur ki, qeyri-tolerantlıq dedikdə, kiminsə güc və ya diskriminasiya ilə sosial və siyasi həyatdan təcrid olunması başa düşülür. Harmonik birgə yaşayışı təmin etmək üçün hər bir fərd, qrup və ya cəmiyyət insanlığın multikultural ruhunu qəbul etməli və buna hörmət etməlidir. Bəyannamədə həmçinin qeyri-tolerantlığa qarşı mübarizənin ən effektiv forması kimi təhsil və tərbiyyə göstərilir. Dözümlülüyün genişlənməsi üçün ilk növbədə hər bir kəsə özünün hüquq və azadlıqları öyrədilməli,

eləcə də başqasının hüquq və azadlıqlarına hörmətlə yanaşmaq aşılanmalıdır.

Bəyannaməni qəbul edən dövlətlər, qeyri-tolerantıq təhlükəsini ictimaiyyətə daha aydın çatdırılması üçün, hər il 16 noyabr tarixini "Dünya Tolerantılq Günü" kimi qeyd olunmasını elan edirlər.

# MÖVZU 9

## Multikulturalizm və insan hüquqları

**Plan:**

1. İnsan hüquq və azadlıqlarının təşəkkülü, inkişafı və siyasi mahiyyəti.
2. Demokratik cəmiyyətlərdə insan hüquq və azadlıqlarının təmin, müdafiə edilməsi vasitələri və mexanizmləri.
3. Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquqları və multikultural dəyərlərin hüquqi əsasları.

### *1. İnsan hüquq və azadlıqlarının təşəkkülü, inkişafı və siyasi mahiyyəti*

Hər bir insanın hakimiyyətin mənbəyi, siyasətin əsas və ilkin statusuna, hər bir vətəndaşın siyasətin və bütövlükdə ictimai həyatın real və potensial iştirakçısına çevrilməsinə təminat verən nəzəri institusional mexanizm insan hüquqlarıdır. İstənilən modern cəmiyyətin demokratikliyi və vətəndaşların konstitusiya hüquqlarının qorunması ilk növbədə insan hüquqlarının müdafiəsi səviyyəsi ilə ölçülür. Demokratiya və insan hüquqlarının birbaşa və əks əlaqəsi olduqca sadədir: insan hüquqlarına əməl və hörmət edilmədən demokratiyanın mövcudluğu və təsir mexanizmi təmin edilə bilməz və əksinə, əsl demokratiyanın bərqərar olunması insan hüquqlarının təmin edilməsi üçün fundamental zəmindir.

İnsan hüquqlarının dövlətin konstitusiyasına daxil edilməsi konsensusun və siyasi stabilliyin təmin olunması prosesinin başlanğıc nöqtəsidir. Onların konstitusiya səviyyəsində təsbit edilməsi ayrı-ayrı hakimiyyət strukturları və bütövlükdə dövlət hakimiyyəti tərəfindən hakimiyyətdən və inzibati resurslardan sui-istifadə imkanlarını məhdudlaş-

dırır. İnsan hüquqlarının nəzəri cəhətdən konstitusion əsasda təsbit edilməsi sosial-siyasi münasibətlər sisteminin hüquqi substratlar əsasında tənzimlənməsini təmin etməklə yanaşı, idarəetmənin institusional səviyyəsinin səmərəliliyini də şərtləndirmiş olur.

Müasir demokratik cəmiyyətlərdə milli hüquq müdafiə mexanizmlərinin səmərəliliyi ilk növbədə dövlətin bu sahədəki fəaliyyətindən və onun müvafiq istiqamətdə həyata keçirdiyi siyasətdən asılıdır. Hakimiyyət strukturlarının konstitusion əsasda təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarına institusional münasibəti, onların təmin və mühafizə edilməsi istiqamətində gördüyü sistematik tədbirlər bəhs edilən hüquq və azadlıqların təcrübi müstəvidə tətbiqinin səmərəlilik səviyyəsini müəyyən edir. Məhz buna görə də, bir çox nəzəri mənbələrdə bildirilir ki, milli dövlət insan və vətəndaş hüquq və azadlıqlarının başlıca təminatçısı və mühafizəçisidir.

İnsan hüquqları müxtəlif iqtisadi və siyasi sistemlərin, ideologiya və mədəniyyətlərin mövcud olduğu müasir dünyamızda insanları və cəmiyyətləri birləşdirən, onların qarşılıqlı inteqrasiyasını təmin edən təməl substratdır. (başlanğıc) "İnsan hüquqları haqqında Ümumi Bəyannamə"də qeyd edildiyi kimi, insanın ləyaqəti ümumi sülhün, ədalətin və azadlığın əsasıdır.

İnsan hüquqları ideyası məhdud inkişafetmə təsəvvürlərindən müasir dövrədək təkamül yolu keçərək, nəticədə, sosial və hüquqi statusundan asılı olmayaraq, bütün insanlara aid olan vahid prinsip və normalar konsepsiyasına çevrilmişdir. Bu konsepsiyalarda bir çox xalqların doktrinalarından, fəlsəfi, siyasi, hüquqi təlimlərindən irəli gələn, müxtəlif əsrlərdə və dövrlərdə formalaşan fikirlə öz ifadəsini tapmışdır.

Bütövlükdə insan hüquqlarının formalaşması və inkişafı uzun müddət bu və ya digər ölkəyə məxsus olan doktrinalar və ənənələrin mübarizəsi ilə müşayiət olunmuşdur. Müasir

dövrdə insan və vətəndaş hüquq və azadlıqları konsepsiyalarının əsas ideyaları kimi dövlət və şəxsiyyətin ümumi maraqlar əsasında tənzimlənmiş qarşılıqlı münasibəti, şəxsiyyətin sosial müdafiəsi, hüquq və vəzifələrin vəhdəti və s. göstərmək olar. Müasir mərhələdə əsas istiqamət kimi bütün siyasətin və təcrübənin insana yönəlməsi ideyası əsas tutulmalı, nəzəriyyə və təcrübədə fərdi və kollektiv hüquqların izah və təfsir edilməsində insan tələbatı və maraqları, sosial-siyasi, mənəvi inkişafda şəxsiyyət başlanğıcının formalaşdırılması aparıcı prinsiplər olmalıdır.

İnsan hüquqları dövlət və onun vətəndaşları arasında fərdə qanunlar çərçivəsində sərbəst hərəkət etmək (hüquqların bu forması azadlıq adlandırılır), yaxud müəyyən rifah və nemətlər əldə etmək imkanı verən qarşılıqlı münasibətlərin fundamental norma və prinsipləridir. Eyni zamanda, insan hüquqları fərdin azadlığının digər şəxslərin azadlığı, cəmiyyət və dövlətin funksionallığının təmin edilməsi ilə uzlaşdırılması əsasında insanların qarşılıqlı münasibətlərinin əlaqələndirilməsinin, ziddiyyətlər, konfrantasiyalar (qarşıdurma) və münaqişələrin qarşısının alınmasının normativ formasıdır.

Bu və ya digər formada ifadə olunan insan hüquqları problemi tarixin bütün mərhələlərində mövcud olmuş və fərdin hakimiyyətlə qarşılıqlı münasibətləri məsələsinin izahı və müzakirə predmeti kimi çıxış etmişdir. Elmi ədəbiyyatda ümumi şəkildə fərdlə hakimiyyətin qarşılıqlı münasibətlərinin əsasən üç modeli göstərilir. Birincisi, bu münasibətlərin totalitar modeli cəmiyyət və dövlətin eyniləşdirilməsindən, bütöv hissə üzərində üstünlüyü və fərdin dövlətə tam tabe olmasından çıxış edir. Bu model insan hüquqları probleminin qoyuluşunu istisna edir, çünki fərdə burada bütövün üzvü və ayrılmaz hissəsi kimi baxılır.

İkinci model kimi fərdiyyətçi yanaşma dövlətlə münasibətdə fərdin üstünlüyünə əsaslanır. Daha da dəqiqləşdirsək, bu model "azad şəxsiyyətin, hakimiyyətin, o cümlədən dövlətin

özünün son mənbəyidir" tezisindən çıxış edən liberalizmdə təmsil olunur. Qeyd olunur ki, dövlət isə azad fərdlərin razılığı, müqaviləsinin nəticəsidir. O, xalqa hesabat verməli və yalnız ciddi surətdə məhdudlaşdırılan funksiyaları vətəndaşların təhlükəsizliyi və azadlığının təmin edilməsi, ictimai qayda-qanunun təmin və mühafizə olunmasını yerinə yetirməlidir. Qeyri-siyasi sahələrdə isə fərd və hakimiyyətin qarşılıqlı münasibətləri və bu sferalarda şəxsiyyət azadlığı və ləyaqətinin təsdiq edilməsi liberalizm ideoloji cərəyanında nəzərdən keçirilmir. Bunun nəticəsində, insan hüquqları problemi əsasən hakimiyyətin qəsdlərindən mühafizə edən hüquqlar formasında təsbit edilir.

Müasir siyasi elmdə üçüncü model-fərd və hakimiyyət münasibətlərinə partisipator (iştiraklı) yanaşma üstünlük təşkil edir. Bu yanaşma şəxsiyyətə fərdlərlə ittifaqda dövlət yaradıb və müəyyən məsələlərdə ona tabe olmaq məcburiyyətində cəmiyyətdən ayrı və müstəqil olan fərd kimi baxmır, şəxsiyyət, cəmiyyət və dövlət arasında münasibətlərin ziddiyyətliliyi və ayrılmazlığından çıxış edir. Bu halda insan hüquqları probleminin təsbit edilməsinə sırf fərdin dövlət müdaxiləsindən qorunması kimi deyil, dövlətdən şəxsiyyətin azad yaşaması və inkişafı üçün ən məqbul şəraitin istifadə olunması kimi baxılır.

Bundan başqa, insan və vətəndaş hüquq və azadlıqlarına əsaslanan demokratiya konsepsiyası çərçivəsində daha bir neçə model hazırlanmışdır. Onlardan insan hüquqları, azadlıq və demokratiyanın inkişafı səviyyəsinin analizi üçün geniş istifadə olunan "liberal demokratiya" və "inteqrativ demokratiya" modelləri daha çəx diqqəti cəlb edir. Məsələn, "inteqrativ demokratiya" modelinin tərkib hissəsi olan hüquqlar konsepsiyasına görə, insan hüquqları siyasi təsisatların dəyərləndirilməsinə xidmət edir, sosial-siyasi inanclar sisteminin vacib elementləri, insanların birliyi, ümumi ləyaqət və humanizmin ifadəsi kimi çıxış edir.

Demokratik cəmiyyətlərdə insan hüquqlarının təmin və mühafizə olunması ali dəyər və məqsəd hesab edilir. Məhz buna görə insan və vətəndaş hüquq və azadlıqlarının konstitusiyada və qanunlarda təsbit edilməsi dövlət idarəçiliyinin təməl strateji prinsipi kimi çıxış edir. Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqlar şəxsiyyətin fərdi fəallıq potensialının ölçüsü qismində çıxış edir. Məhz bu cür cəmiyyətlərdə vətəndaşların konstitusion əsasda təsbit edilmiş hüquq və azadlıqlarının müdafiəsi məqsədilə yaradılmış mexanizmlər səmərəli surətdə işləyir.

Bir çox tədqiqatçılar qeyd edirlər ki, insan hüquqları ictimai inkişafın ən dəyərli orientasiyalarından biri olmaqla, dövlətin xarakterinə və fəaliyyət mexanizminə əhəmiyyətli təsir etmişdir, çünki onlar dövlət hakimiyyətini məhdudlaşdıraraq onunla fərd arasında demokratik səciyyəli qarşılıqlı münasibətlərin qurulmasına səbəb olmuşdur.

F.M.Rudinski bildirir ki, insan hüquqları onun azadlığının ölçüsü, şəxsiyyətin beynəlxalq və dövlətdaxili hüquq normalarında əks olunmuş ayrılmaz xüsusiyyətləridir: "Onlar insanın inkişafı, onun mənafelərinin müdafiəsi üçün daha vacıb imkanları təmin edir, bununla yanaşı, insan hüquqları bütün bəşəriyyətə təhdid yaradan təhlükələrin qarşısının alınması vasitəsidir".

İnsan və vətəndaş hüquqları təkcə fərdin fəaliyyət göstərdiyi ictimai münasibətlərin xarakteri ilə deyil, həm də biososial varlıq kimi insanın təbiəti ilə müəyyən olunur. Məhz insanın bioloji və ictimai tələbatı şəxsiyyətin hüquq və azadlıqlarının əsasında durur. Həm beynəlxalq, həm də dövlətdaxili ictimai münasibətlərin inkişafı bu tələbatın təzahürünə, onların hüquqi nöqteyi-nəzərdən təsbit olunmuş hüquq və azadlıqlarda ifadə edilməsinə, hüquq və azadlıqlar sisteminin təkmilləşməsinə şərait yaradır. Cəmiyyətin hər bir üzvünə təbii hüquq və azadlıqlar xasdır ki, onları da təmin etmədən onun sosial və ya siyasi subyekt kimi fəaliyyətini

normal surətdə təmin etmək olmaz. Bu hüquqlardan yaşamaq hüququnu insan doğulduğu gündən əldə edir, digər təbii hüquq və azadlıqları isə o, sosial subyekt kimi qazanmış olur.

İngilis alimi Con Lokk (1632-1704) "Dövlət idarəetməsi haqqında iki traktat" (1690) əsərində yazır ki, azadlığın etibarlı təminatçısı hakimiyyət bölgüsüdür və azadlıq rejiminə dövlətdə hakimiyyət səlahiyyətlərinin bərabər bölüşdürülməsi yolu ilə nail olmaq olar.

Fransız filosof Şarl Monteskye (1689-1755) "Qanunların ruhu haqqında" əsərində bununla bağlı yazır: "Elə ola bilər ki, azad dövlət quruluşunda da vətəndaş azad olmasın, yaxud vətəndaşın azadlığı olsa da, quruluşu azad adlandırmaq olmaz. ... Qanunlar olan dövlətdə ... azadlıq qanunlarla icazə verilmiş hər şeyi etmək hüququdur. Əgər vətəndaş bu qanunlarla qadağan edilənləri edə bilsə idi, onda onun azadlığı olmazdı, çünki onları digər vətəndaşlar da edərdi".

Liberalizmin nümayəndələrinin insan hüquqları sahəsindəki nəzəri fikirləri və baxışlarının tarixi əhəmiyyəti təkcə insan hüquqlarının əsas humanist məqsədlər kimi nəzəri cəhətdən əsaslandırılmasından deyil, həm də onların reallaşdırılması yollarının axtarılmasından ibarətdir.

Fransız filosof Jan Jak Russo (1712-1778) "İnsanlar arasında bərabərsizliyin mənşəyi və əsasları haqqında düşüncələr" adlı əsərində yazırdı: "O siyasi quruluş qanunidir ki, orada adamlar öz hüquq və azadlıqlarını qoruya bilirlər".

Klassik Alman fəlsəfəsinin görkəmli nümayəndələrindən olan Fridrix Hegel isə "Hüquq fəlsəfəsi" adlı əsərində dövləti fərd və cəmiyyət üzərinə qaldırır, şəxsiyyətin hüquq və azadlıqlarının dəyərini inkar edir, dövləti hüquq ideyası kimi, hüquqi subyekt kimi təsvir edir və hesab edir ki, dövlət vətəndaş cəmiyyətinin ziddiyyyətlərini aradan qaldırır, onun birliyini təmin edir və qayda-qanunların mühafizəçisi qismində çıxış edir.

İnsan və vətəndaş hüquq və azadlıqlarının təsbit edildiyi əksər bəyannamə və konsepsiyalarda bəyan edilir ki, bütün insanlar azad və bərabərhüquqlu doğulur, hər bir siyasi ittifaqın məqsədi insanın təbii və ayrılmaz hüquqlarının təmin olunmasından ibarətdir.

Bütün bunlara müvafiq surətdə alman filosofu Artur Şopenhauer (1788-1860) "İradə azadlığı və əxlaqın əsasları" adlı əsərində qeyd edir ki, azadlıq yalnız hər hansı bir maneənin olmaması kimi başa düşülməlidir. O bildirir ki, bu maneələrin xüsusiyyətlərinə müvafiq olaraq azadlığın 3 növü fərqləndirilir: fiziki, intellektual və mənəvi azadlıq. Onun fikrincə, fiziki azadlıq dedikdə müxtəlif maddi maneələrin olmaması nəzərdə tutulur: "Fiziki mənada azadlıq anlayışının mahiyyəti bundan ibarətdir ki, insanların hərəkətləri onların iradələrinə müvafiq surətdə baş verir və bu hərəkətlərə heç bir fiziki, maddi maneələr mənfi təsir etmir".

A.Şopenhauer bildirir ki, intellekt və ya dərketmə qabiliyyəti motivlər mühitidir ki, onun da vasitəsilə motivlər insanın iradəsinə təsir edir: "Bu mühit normal vəziyyətdə olduqda öz funksiyalarını düzgün yerinə yetirir və ona görə də, motivləri iradəyə seçim üçün olduğu kimi təqdim edir. Bu zaman insan intellektual cəhətdən azad subyekti qismində çıxış edir. İntellektual azadlıq insanın hərəkətlərinin, onun iradəsinin reallıqdan irəli gələn motivlərə reaksiyasının təmiz nəticəsidir".

İngilis filosofu və dövlət xadimi Con Stüart Mill isə "Azadlıq haqqında" adlı əsərində məsələyə maraqlı yanaşma nümayiş etdirir: "Heç kəsin fərdi nə isə etməyə, yaxud etməməyə məcbur etmək hüququ yoxdur. Fərdi hansısa hərəkəti edib-etməməklə inandırmaq, ona məsləhət vermək olar, lakin məcbur etmək və ya onu buna görə qəsd etmək olmaz. Bu cür müdaxiləyə yalnız o halda yol vermək olar ki, fərdin hərəkətləri artıq digər şəxslərə zərər yetirir".

C.S.Mill yazır ki, hansı idarəetmə forması olursa-olsun, cəmiyyət o vaxt azad ola bilər ki, burada fərd söz və fikir istədiyi kimi yaşamaq, assosiasiyalar azadlığına malik olsun: "Yalnız o cəmiyyət azaddır ki, burada fərdi azadlığın bütün növləri onun üzvlərinin hamısı üçün eynidir".

Bunlarla yanaşı, insan və vətəndaş hüquq və azadlıqları məsələsində vətəndaş-dövlət münasibətlərinə yanaşma nöqteyi-nəzərindən bir sıra siyasi-hüquqi və ideoloji səciyyəli cərəyanlar fərqlənir. Bunlar sırasında pozitivistlərin, liberalların baxışları və yanaşmaları daha çox diqqəti çəkir.

Pozitivistlər insan hüquqlarının hər hansı qeyri-dövlət mənşəyini inkar edirlər. Bu cərəyanın tərəfdarlarının qənaətincə, hüququ (insan hüququ) qanundan (dövlətin qanunu) fərqləndirmək olmaz və fərdlərin hüquqları dövlətin hüquqlarından üstün deyil: "Dövlət insana hüquqlar verir, onların həcmi və məzmununu isə özü reqlamentləşdirir".

Liberallar isə pozitivistlərdən fərqli olaraq bildirirlər ki, insan üçün müqəddəs olan hüquqlar dövlətdən asılı olmadan mövcuddur və hakimiyyət institutu kimi dövlət fərdin hüquqlarına qarşı olan təhlükənin başlıca daşıyıcısıdır. Onlar fərdin sosial-iqtisadi imkanlarına xüsusi əhəmiyyət vermədən onun siyasi və vətəndaş hüquqlarını ön plana çəkirlər. Beləliklə, liberallar hədsiz dərəcədə fərdi cəmiyyətdən və dövlətdən təcrid edirlər.

İnsan hüquqlarının inkişafında nəzərdən keçirilən hər iki yanaşmada öz əksini tapmış müxtəlif məsələ və prinsiplər müasir təcrübədə də mövcuddur. Məsələn, ABŞ, Fransa, İtaliya və İspaniya kimi ölkələrin Konstitusiyalarının əsasını təbii hüquqlara əsaslanan konsepsiya təşkil edirsə, Avstriya və Almaniyanın Konstitusiyalarının əsasında pozitivist konsepsiya durur. Beləliklə, təcrübə belə bir nəticəyə gəlməyə imkan verir ki, əhalisi milli-psixoloji nöqteyi-nəzərdən daha intizamlı olan dövlətlərdə pozitivist yanaşma üstünlük təşkil edir.

Beləliklə, əgər təbii hüquq nəzəriyyəsinə görə insan və vətəndaş hüquq və azadlıqları ayrılmaz, şüurdan, ilahi iradədən və ya insanın dəyişməz təbiətindən irəli gəlirsə, pozitivist istiqamət onlara dövlət tərəfindən müəyyən olunmuş kateqoriyalar kimi yanaşır.

Müasir insan hüquqları və azadlıqları konsepsiyaları çərçivəsində də onların ayrılmaz və universal xarakteri təsdiq edilir. Ancaq bu konsepsiyalarda fərd və dövlətin münasibətlərinin ziddiyyətliliyi qəbul olunsa da, hüquq və azadlıqların məzmununda qismən dəyişikliklərin edilməsinə yol verilir. Ümumiyyətlə, əksər konsepsiyalarda hüquqların təminatı və istifadə olunmasında vətəndaşla dövlətin qarşılıqlı məsuliyyəti məsələsi mərkəzi istinad nöqtəsi kimi qəbul olunur.

Beləliklə sadalanları ümumiləşdirərək qeyd edə bilərik ki, müasir dövrdə insan hüquqları və azadlıqları konsepsiyasının əsas prinsipləri kimi aşağıdakıları müəyyən etmək olar:

- Dövlət və vətəndaşın qarşılıqlı məsuliyyəti;
- Şəxsiyyətin sosial müdafiəsi (sosial-iqtisadi hüquqların təsbit edilməsi və təminatı, əmək, istirahət, mənzil, pensiya təminatı hüquqları və s.);
- Hüquq və vəzifələrin vəhdəti;
- İnsan və vətəndaş hüquq və azadlıqlarının bütün növlərinin bir-birini tamamlaması, qarşılıqlı əlaqədə və paritet dəyərdə olması;
- Şəxsiyyətin ayrılmaz rifahları və dəyərlərinin, onun hüquq və azadlıqlarının hərtərəfli hüquqi müdafiəsi.

## *2. Demokratik c əmiyyətlərdə insan hüquq və azadlıqlarının təmin, müdafiə edilməsi vasitələri və mexanizmləri*

İnsanın cəmiyyətdə vəziyyətinin beynəlxalq-hüquqi tənzimlənməsinin nəticələrinin pozitiv olması həmin cəmiyyətin daxili mühiti və bütövlükdə siyasi sistemindən, dövlətin suveren iradəsindən, sosial-siyasi, hüquqi, iqtisadi və mədəni xü-

susiyyətlərindən və durumundan asılıdır. Dövlətin sosial təcrübəsində insan hüquqları və azadlıqlarına dair müvafiq beynəlxalq sazişlərdəki bu və ya digər hüquqi normaların reallaşdırılması üçün təkcə onların məzmununu ölkənin qanunvericiliyinə transformasiya etmək deyil, həm də ilk növbədə onlardakı şəraitin yaradılmasına yönələn müvafiq sosial-iqtisadi siyasətin həyata keçirilməsi zəruridir. Bu baxımdan, yalnız demokratik cəmiyyətdə insan və vətəndaş hüquq və azadlıqlarının reallaşdırılması üçün əlverişli şərait yaranır və onlara tam təminat verilir. ABŞ politoloqu Şapiro yazır ki, demokratiya azadlığı qoruyan nemət və rifahdır. Məhz buna görə də bu məqsəd və prinsip əsasında siyasi strategiyanı reallaşdırmaq lazımdır.

İnsan hüquqları probleminə ictimai mənafelər və dəyərlərin üstünlüyünü nəzərə almaqla daha ədalətli və humanist yanaşmanın işlənilməsi və inkişaf etdirilməsi nöqteyi-nəzərindən, bir tərəfdən, dəyişən maraqların, digər tərəfdən isə mənəvi dəyərlər və imperativlərin sabitliyinin dəyişməz əhəmiyyəti vardır. Bu faktorların birləşdirilməsi bəşəriyyətin hüquqi və sosial inkişafının əsas tələbatı, insan hüquqları nəzəriyyəsi və təcrübəsinin, milli dövlətlərin daxili və xarici siyasətinin prinsipial məsələsidir.

İnsan hüquqları ideyasına əsaslanan demokratiya konsepsiyası geniş şəkildə politoloq Larri Daymond tərəfindən işlənmişdir. Onun fikrincə, insan hüquqlarının nəzərə alınmaması demokratiya konsepsiyasını zəiflədir, insan hüquqlarına əsaslanan liberal demokratiya modeli demokratik fikir və təcrübəni zənginləşdirir. Bu model fərdi və qrup azadlığı ilə yanaşı, siyasi plüralizmin təmin olunmasını da nəzərdə tutur. L.Daymond insan hüquqlarının demokratik modelinin əsas əlamətlərinə aşağıdakıları aid edir:

- real hakimiyyət konstitusion əsasda faktiki surətdə seçilmiş şəxslərə və onların təyin etdiyi şəxslərə mənsubdur;

- icra hakimiyyətinin səlahiyyətləri konstitusiya və ona müvafiq qəbul edilmiş normativ aktlarla məhdudlaşdırılır. Müstəqil məhkəmə, parlament, insan hüquqları üzrə Müvəkkil-ombudsman təsisatı digər institutlar qarşısında məsuldur;

- seçkilərin nəticələri əvvəlcədən müəyyən olunmur, müxalifət mövcuddur və alternativ qüvvələrin fəaliyyətinə imkan və şərait vardır;

- vətəndaşların partiyalar və müntəzəm seçkilərdən başqa öz maraqlarını və dəyərlərini ifadə və təmsil etməsi üçün çoxlu kanallar və vasitələrin olması, o cümlədən onların yarada biləcəyi müxtəlif muxtar assosiasiyalar, hərəkat və qruplar;

- Assosiasiyalar azadlığına və plüralizmə əlavə olaraq vətəndaşların siyasi cəhətdən azad əlaqəsi vasitəsi olan kütləvi informasiya vasitələri də daxil olmaqla alternativ informasiya mənbələrinin mövcud olması;

- Fərdlər əsas azadlıqlara - etiqad, fikir, mətbuat, toplaşma və s. azadlıqlara mailk olmalıdır;

- vətəndaşlar siyasi cəhətdən qanun qarşısında bərabərdirlər və onların azadlıqlarını qərarları digər hakimiyyət mərkəzləri tərəfindən hörmətlə qarşılanan və dəstəklənən məhkəmə sistemi müdafiə edir;

- legitim idarəetmə vətəndaşları ədalətsiz həbslərdən, sürgündən, terrordan, işgəncələrdən və digər bu kimi mənfi müdaxilələrdən qoruyur.

Ceyms Marş və İohan Olsen “inteqrativ demokratiya”da insan və vətənadaş hüquq və azadlıqlarına münasibəti açıqlayaraq qeyd edirlər ki, birincisi, insan hüquqları pozulmazdır, yəni, onlara mütləq surətdə təminat verilməlidir; ikincisi, insan hüquqları ayrılmazdır, yəni onlar bir dəfə müəyyən olunduqdan sonra ləğv oluna bilməzlər; üçüncüsü, hüquqlar qanunların yenidən baxılması yolu ilə deyil, daha çox onların interpretasiyası vasitəsilə dəyişdirilir.

Modern cəmiyyətlərdə insan hüquqlarının təsnifatı müxtəlifdir. Onların daha ümumi təsnifatına görə bütün hüquqlar neqativ və pozitiv hüquqlara bölünür. Hüquqların təsnifat əsasında bölgüsü onlarda azadlığın neqativ və pozitiv aspektlərinin fərqləndirilməsinə əsaslanır. Neqativ hüquqlar fərdin azadlığını mühafizə edir və cəmiyyətin, dövlətin, digər şəxslərin ona qarşı münasibətdə bu və ya digər neqativ hərəkətlərə yol vermək vəzifələri kimi qeyd olunur. Bu hüquqlar fərdi dövlətin onun azadlığını pozan, digər şəxslərin müdaxiləsindən və məhdudiyyətlərindən qoruyur. Onların həyata keçirilməsi isə dövlətin ehtiyatlarından, ölkənin sosial-iqtisadi inkişaf səviyyəsindən asılı deyil.

Neqativ hüquqların legitim təsdiqinə və bütövlükdə insan hüquqlarına neqativ (və liberal) münasibətə misal olaraq ABŞ Konstitusiyasının "Hüquqlar haqqında Bill"ini - ABŞ Konstitusiyasına dəyişiklikləri göstərmək olar.

Bu sənədin birinci maddəsində yazılır: "Konqres hər hansı bir dinin bərqərar olunması və ya sərbəst etiqadı qadağan edən, söz və mətbuat azadlığını, həmçinin vətəndaşların dinc toplaşma və sui-istifadə hallarını aradan qaldırmaq tələbləri ilə öz şikayətlərini hökumətə bildirmək üçün müraciət etmək hüququnu məhdudlaşdıran qanun verə bilməz".

Neqativ hüquqlar fərdi dövlətin onun sərbəst hərəkət etməsinə mane olan məhdudiyyətləri və məcburiyyətlərindən qoruyan hüquqlar hesab olunur. Rusiya politoloqu A.İ.Solovyev bu hüquqlara praktiki olaraq bütün liberal səciyyəli insan hüquqlarını aid edir. O hesab edir ki, bu hüquqlar mütləqdir və konkret ölkənin inkişaf səviyyəsindən asılı deyil, yalnız insan şəxsiyyətinin suverenliyini və onun sərbəst seçiminə dövlət tə-rəfindən hörmətli münasibəti nəzərdə tutur.

Bu hüquqlar yalnız fərdin işləri və maraqlarına ədalətsiz müdaxilə, onun azad seçiminə qəsd istisna olmaqla dövlətdən maddi və digər ehtiyatların toplanması və bölüşdürülməsini,

ümumiyyətlə, hər hansı bir xüsusi quruculuq, yaradıcılıq hərəkətlərini tələb etmir.

Pozitiv hüquqlar dövlətin, cəmiyyətin insana müəyyən rifahın (əmək, təhsil, istirahət, sosial yardım və s. hüquqlar) təqdim olunması vəzifəsi kimi izah olunur. Belə olduqda bu hüquqların təminatı bilavasitə dövlətin sosial-iqtisadi inkişaf səviyyəsindən, siyasi sistemin demokratikliyindən, hakim dairələrin müvafiq dövlət siyasətinin real surətdə həyata keçirilməsində maraqlı olmasından və cəmiyyətin idarəetməsinin bu xarakterini təmin edə bilən dövlət qulluqçularının peşəkarlığından asılıdır.

Müxtəlif tədqiqatçılar tərəfindən fərdin hüquq və azadlıqlarının daha konkret təsnifatı verilir: onlar vətəndaş (şəxs), siyasi, iqtisadi, sosial və mədəni hüquqlar formasında təsnif edilir.

Vətəndaş (şəxs) hüquqları - əsasən neqativ hüquq səciyyəsi daşıyan təbii, əsas və ayrılmaz insan hüquqlarıdır. Onlar insanın dünyaya gəldiyi andan etibarən əldə etdiyi yaşamaq və təbii azadlıq kimi təməl hüquqlardan törəyir və şəxsiyyətin fərdi azadlığı və muxtariyyatını, onun dövlətin və başqa adamların təzyiqindən müdafiə edilməsinə yönəlir.

Fərdin birinci dərəcəli hüquqlarına azadlıq və şəxsi toxunulmazlıq (fiziki və psixi mənada) aid edilir. Bununla yanaşı, fərd ciddi qanun pozuntusuna yol verdikdə məhkəmənin hökmü ilə azadlıqdan məhrumetmə cəzasına məruz qalır. Şəxsiyyət azadlığı insanın onun haqqında dövlət müəssisələrindəki informasiyanı əldə etmək və ona düzəliş etmək hüququ ilə bağlıdır. Şəxsi hüquqlara şəxsiyyət ləyaqəti, vicdan azadlığı, mənzil toxunulmazlığı, gizli yazışma, şərəf və ləyaqətin müdafiəsi, ölkə ərazisində yerdəyişmə və yaşayış yerinin seçimi azadlığı, emiqrasiya etmək və s. hüquqlar aiddir.

Siyasi hüquqlar vətəndaşların dövlətin idarə olunmasında və ictimai həyatda fəal iştirak etmək imkanlarını müəy-

yən edir. Onlara seçib-seçilmək hüququ, ittifaq və assosiasiyaların, nümayiş və iclasların azadlığı, söz, fikir, özünüifadə və mətbuat azadlıqları və digərləri aiddir.

Vətəndaşların siyasi hüquq və azadlıqlarının sosial məzmununu dövlət hakimiyyəti tərəfindən tanınan və hüquqi normalarda təsbit olunan siyasi azadlıqlar təşkil edir. Siyasi azadlıq cəmiyyətdə mövcud olan şəxsiyyətin sosial azadlığının bir növü (forması) olmaqla ilk növbədə bütövlükdə cəmiyyətin, həmçinin təmsil etdiyi sosial birliyin azadlığı ilə müəyyən olunur.

Siyasi azadlıq xalq hakimiyyətinin həyata keçirilməsində, dövlətin və cəmiyyətin idarə olunmasında faktiki sosial imkanların (azadlıqların) məcmusundan ibarətdir. Şəxsiyyətin siyasi hüquq və azadlıqları vəhdət təşkil etməklə cəmiyyətin siyasi azadlığının səviyyəsini səciyyələndirir və onların reallaşması dərəcəsi cəmiyyətin iqtisadi rifah halından, siyasi rejimin xarakteristikasından, siyasi mədəniyyət və mədəni həyat tərzindən asılıdır. Bununla belə, fransız politoloqu R.Aron özünün "Azadlıq haqqında esse" əsərində A.Tokvilin "müasir cəmiyyətin şəraitlərinin bərabərliyi və demokratiya vasitəsilə qiymətləndirilməsi"nə dair yanaşması ilə razılaşaraq texniki sivilizasiyanın tələbatları və sözün əsl mənasında siyasi azadlığın bir-biri ilə nə dərəcədə uzlaşması probleminin olduğunu əsaslandırmağa çalışır.

Araşdırmaçıların fikrincə, siyasi azadlığın hər bir azadlıq kimi obyektiv mövcud olan sərhədləri var. Eyni zamanda, dövlət də şəxsiyyətin siyasi sahədə azadlıqlarını məhdudlaşdıra bilir. Lakin dövlətin vətəndaşlarının siyasi tələbatı və maraqlarının ödənilməsinə şərait yaratmaq sahəsində vacib vəzifələri vardır. Dövlət siyasəti və təcrübəsinin qanunauyğunluğundan hər hansı bir formada kənara çıxılması dövlətin və hüququn demokratik xarakterinin deformasiya olunmasıa gətirib çıxarır.

Tədqiqatçı N.Vitruk siyasi hüquq və azadlıqların onların əsasında duran faydanın növünə görə aşağıdakı təsnifatını verir:

1. Vətəndaşlıq vasitəsilə şəxsin dövlətə mənsubiyyəti ifadə olunan hüquqlar-vətəndaşlıq və onu dəyişmək hüququ, sığıncaq hüququ;
2. Vətəndaşların qanun qarşısında bərabərliyi prinsipindən irəli gələn hüquqlar;
3. Seçki vasitəsilə xalq hakimiyyətinin formalaşdırılması, cəmiyyət və dövlətin idarə edilməsi ifadə edilən hüquqlar: seçki hüquqları, referendumda iştirak etmək hüququ, dövlət aparatında seçkili vəzifə tutmaq hüququ, dövlət orqanlarına müraciət etmək, əmək kollektivlərinin yığıncaqlarında iştirak etmək hüquqları və s.;
4. İctimai həyatın hər hansı sahəsində fikir, əqidə azadlığı;
5. Birləşmək azadlığı;
6. Vətəndaşların hüquqları və qanunu maraqlarının müdafiəsinə yönələn hüquqlar.

Əksər dövlətlərin konsitusiyalarında vətəndaş hüquqları siyasi hüquqlarla bir qrupda birləşdirilir. Buna səbəb onların hər ikisinin, əsasən neqativ xarakter daşıması, həmçinin bəhs edilən hər iki növ hüquqların fərdi və ictimai təzahürlərdə şəxsiyyətin azadlığının təmin olunmasına yönəlməsidir. Totalitar idarəetmə sisteminin hökm sürdüyü dövlətlərdə siyasi hüquqların təmin olunması formal xarakter daşıyır. Beləliklə, konstitusion əsasda bəhs edilən hüquq və azadlıqlar təsbit edilsə də, təcrübi müstəvidə onların reallaşdırılması mümkün olmur. Avtoritar rejimlərdə siyasi hüquq və azadlıqlar konstitusion əsasda təsbit olunur, amma hakim qüvvələrin mütləq zorakı iradəsi vətəndaşları bu hüquq və azadlıqlardan istifadə etməkdən məhrum edir.

İqtisadi hüquqlar fərdlər tərəfindən təsərrüfat fəaliyyətinin əsas faktorlarından, yəni mülkiyyət və əməkdən azad istifadə, həmçinin bu sahədə təşəbbüskarlıq azadlığın təmin olun-

ması ilə bağlıdır. Bu hüquqlar arasında xüsusi yeri şəxsi mülkiyyət hüququ tutur. Bir çox konsepsiyalarda insan və vətəndaş hüquqlarından bəhs edərkən ilk növbədə şəxsi mülkiyyət hüququ ön plana çəkilir. Bu hüququn qanuni yolla tanınması və həyata keçirilməsi müasir bazar iqtisadiyyatının hüquqi əsaslarını təşkil edir. Şəxsi mülkiyyət hüququ tarixən sahibkarlıq fəaliyyəti azadlığını və azad əmək hüququnu nəzərdə tutur.

Sosial, mədəni və pozitiv mənada başa düşülən bəzi iqtisadi hüquqlar dövlətin hər bir vətəndaşa yaşamaq üçün minimum vasitəni təmin etmək vəzifəsini müəyyən edir. Sosial hüquqlar insanın layiqli həyat səviyyəsinin və sosial müdafiəsinin təmin olunması ilə bağlıdır.

Mədəni hüquqlar insanın mənəvi inkişafını təmin etməyə yönəlir. Onlara təhsil, mədəni dəyərlərə yol tapmaq hüququ, bədii və texniki yaradıcılıq azadlığı və başqaları aiddir.

V.Y.Çirkin fərdin və vətəndaşın konstitusion hüquq və azadlıqlarının dörd qrupa bölündüyünü göstərir:

1. Bərabərlik prinsipini ifadə və ehtiva edən hüquq və azadlıqlar (məsələn, vətəndaşların qanun qarşısında bərabərliyi);

2. Fərdin azadlığına, toxunulmazlığına, ləyaqətinə təminat verən şəxsi hüquq və azadlıqlar;

3. Vətəndaşların cəmiyyətin siyasi həyatında iştirakı ilə əlaqədar olan siyasi hüquqlar və azadlıqlar. Bu hüquq və azadlıqlar vətəndaşlara cəmiyyətin və dövlətin idarə olunmasında iştirak etməyə imkan verir (məsələn, birləşmək azadlığı, bu isə həm də dövlət hakimiyyətinə təzyiq etmək üçün də istifadə olunur);

4. Sosial-iqtisadi və mədəni hüquqlar: bu hüquqlar fərdin cəmiyyətin sosial-iqtisadi və mədəni həyatında fəal iştirakı üçün hüquqi şərait yaradır (məsələn, əmək hüququ və əməyin azadlığı, mədəni nailiyyətlərdən istifadə etmək hüququ və s.).

Beləliklə, göründüyü kimi, insan hüquqları, onların söykəndiyi prinsiplər (azadlıq, suverenlik, qanunçuluq, bərabərlik, təhlükəsizlik, dözümlülük və s.), bu hüquqları bəyan edən sənədlər, müvafiq konseptual müddəa və yanaşmalar tarixi inkişafın fonunda daha da zənginləşmiş və yeni keyfiyyət çalarları əldə etmişdir. “Birinci nəsil hüquqlar” kimi səciyyələndirilən vətəndaş hüquqları və siyasi hüquqlar sonralar “ikinci nəsil hüquqlar”la - iqtisadi və sosial hüquqlarla tamamlanmış, daha sonra isə “üçüncü nəsil hüquqlar” adlandırılan hüquqlar haqqında ideyalar irəli sürülmüş və bu hüquqlara dinc, sağlam ətraf mühitdə təhlükəsiz yaşamaq və s. hüquqlar aid edilir.

Fərdin siyasi hüquqları və azadlıqları vəhdət təşkil etməklə cəmiyyətin siyasi azadlığının səviyyəsini səciyyələndirir. Onların reallıq dərəcəsi və məzmunu cəmiyyətin iqtisadi rifah halından, siyasi rejimdən, siyasi mədəniyyətindən, mənəvi həyatından və digər amillər şəraitdən asılıdır.

Hər bir azadlığın, həmçinin siyasi azadlığın obyektiv surətdə mövcud olan sərhədləri vardır. Siyasi sahədə şəxsiyyətin hüquqi azadlığı sosial (faktiki) və siyasi azadlıqdan geniş ola bilməz. Eyni zamanda, dövlət siyasi sferada hüquqi azadlığı məhdudlaşdıra bilər. Digər tərəfdən, vətəndaşlar qarşısında dövlət onların siyasi tələbatlar və mənafelərinin ödənilməsi, siyasi fəallığın inkişaf etdirilməsi üçün məsuliyyət daşıyır. Dövlət siyasətinin bu prinsiplərindən geri çəkilmək hüququn və dövlətin demokratik xarakterinin deformasiyaya uğramasına gətirib çıxarar.

Siyasi hüquq və azadlıqlar şəxsiyyətin siyasi vəzifələri ilə birlikdə vətəndaşın ümumi konstitusiya statusunun yarımsistemi olan siyasi-hüquqi statusunu təşkil edir. Onu da qeyd etmək lazımdır ki, fərdin siyasi azadlığı ilk növbədə bütövlükdə cəmiyyətin azadlığı, həmçinin şəxsiyyətin təmsil etdiyi sosial birliyin (qrupun, kollektivin, təşkilatın) siyasi azadlığı ilə müəyyən edilir.

Şəxsiyyətin siyasi və hüquqi statusunun müəyyən olunmasında vətəndaşlıq anlayışı da mühüm əhəmiyyət kəsb edir. Elmi ədəbiyyatda vətəndaşlıq şəxs və vətəndaş arasında hər iki tərəfdən müəyyən hüquq və vəzifələr törədən qarşılıqlı əlaqələr kimi təsbit edilir. Bu baxımdan, həmin dövlətin vətəndaşları həm geniş hüquqlardan istifadə edir, həm də onların üzərinə daha çox vəzifələr düşür.

Demokratik cəmiyyətlərdə azadlıq insan hüquqları vasitəsilə təsbit edilir və reallaşdırılır. İnsan hüquqları demokratiyanın mühüm elementi kimi tam, bütöv sistem yaradır və vəhdət təşkil edir. A.Tokvil “Amerikada demokratiya” əsərində qeyd edir ki, demokratiya siyasi hüquqlar anlayışını hər bir vətəndaşın şüuruna çatdırır və bu da onun əsas üstünlüklərindən biridir: “Əlbəttə, hamıya siyasi hüquqlardan istifadə etməyi öyrətmək asan deyil, amma bu məqsədə nail olmaq müsbət nəticələr verir”.

Beləliklə, insan hüquqları ideyası qədim köklərə malik olsa da, yalnız demokratiya, azadlıq, ədalət və formal bərabərlik prinsipləri əsasında əsl məna kəsb etmişdir. Müasir dünyada insan hüquqlarına dair mühüm universal beynəlxalq normaların artıq formalaşdığı bir vaxtda bu prinsiplərin reallaşmasına, hamının hüquq və azadlıqlarının təmin edilməsi üçün əlverişli şəraitin yaradılması yalnız demokratik cəmiyyətdə mümkündür. Belə ki, demokratik cəmiyyətdə insana qayğı yüksək və ali məqsəd sayılır və müvafiq olaraq insan hüquqları və azadlıqlarının konstitusiya və qanunlarda təsbit edilməsi dövlət idarəçiliyinin əsas məqsədi kimi çıxış edir. Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqlar şəxsiyyətin fərdi fəallıq potensialının ölçüsü kimi çıxış edir. Məhz bu cür cəmiyyətlərdə vətəndaşların konstitusion hüquq və azadlıqlarının müdafiəsi məqsədilə yaradılmış mexanizmlər səmərəli şəkildə işləyir.

Multikulturalizmi təbliğ edən ölkə onu dövlət ideologiyasının tərkib hissəsi kimi dövlət siyasəti səviyyəsinə qaldırır.

Bu baxımdan azərbaycançılıq ideologiyasını xüsusi qeyd etmək lazımdır. Bu ideologiya ölkədə yaşayan xalqların siyasi, iqtisadi, sosial və mədəni yüksəlişinə yönələn bir siyasi məfkurədir. İlk olaraq, azərbaycançılıq ideologiyası M.F.Axundov, H.Zərdabi, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Rəzulzadə. Ə.Topçubaşov və başqalarının fəaliyyətlərində öz əksini tapmışdır. Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra yenidən azərbaycançılıq ideologiyasına müraciət edilmişdir. Bu gün azərbaycançılıq milli ideologiyamızın ana xəttini təşkil edir.

Multikulturalizm Azərbaycanda əsrlərdən bəri formalaşan, eyni zamanda, bədii, psixoloji-mənəvi müstəvidə dəyərlər toplusu olmuşdur. Hazırda isə multikulturalizm ölkəmizdə alternativi olmayan həyat tərzidir. Əsrlər boyu Azərbaycanda insanlar multikultural və tolerant şəraitdə yaşayıb. Ümummilli lider Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi və hüquqi banisidir. Həm Azərbaycan Konstitusiyasında, həm də bir çox qanunlarda Azərbaycan multikulturalizmini əks etdirən bir çox müddəalar yer alıb. Multikulturalizm siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Dövlət başçımızın ardıcıl səyləri ilə Azərbaycan multikulturalizminin mahiyyəti, üstünlükləri bütün dünyaya tanıtdırılır. Bu yöndə ölkəmizdə keçirilən nüfuzlu beynəlxalq məclislər daha önəmli rol oynayır. Bakıda uğurla keçirilmiş V Beynəlxalq Humanitar Forum dünyanın diqqət mərkəzində oldu. Dünyanın tanınmış siyasət, elm, mədəniyyət xadimlərinin iştirak etdiyi bu nüfuzlu toplantıda digər önəmli bəşəri məsələlər sırasında Azərbaycan multikulturalizminin örnəkləri hamılıqla təqdir olundu. Multikulturalizmin vətəndaşların həyat tərzinə çevrilməsi onun inkişafının ən yüksək mərhələsidir. Forum iştirakçıları əmin oldular ki, ölkəmizdə dövlət siyasəti səviyyəsində himayə və inkişaf

etdirilən multikultural dəyərlər, həqiqətən, cəmiyyətdə bütün etnosların yaşam tərzi kimi təzahür edilir.

İnsan hüquq və azadlıqları ali səviyyəli kriteriya olmaqla, müasir dünyada insanlar arasında, onların dövlət və cəmiyyətlə münasibətlərində ifadə və realizə olunur. Bu dəyərlərin müdafiəsinin məqsədlərindən biri də bütün şəxslərə cəmiyyətdə mövcud olan imkanlara çatmaqları üçün bərabər və ədalətli imkanlar təmin etməkdir.

Elə bir bərabərlik prinsipi nəzərdə tutur ki, insan hüquqları ayrı-ayrı qruplara deyil, müstəsna surətdə müxtəlif fərdlərə aid olsun. Buna görə də "müsbət ayrıseçkilik" (xüsusi hüquqi status) hallarına, məsələn, Fransa Konstitusiya Şurasının qərarlarında ifadə olunduğu kimi, yalnız sosial vəziyyətdə, yaxud ictimai mənafenin məqsədlərində fərq əsas götürülməklə yol verilir.

Lakin aydındır ki, ayrıseçkilik kimi tanınan sosial (mədəni) vəziyyətdəki fərqin sərhədi (ölçüsü) olduqca nisbi və kontekstualdır: ayrı-ayrı tarixi dövrlərdə və müxtəlif sivilizasiyalarda fərqlərin "dözülməz" və beləliklə, ayrıseçkilik fərqlərinə aid edilməsinin müxtəlif meyarları mövcuddur. İstənilən halda belə fərqləndirmənin və əhalinin müəyyən qruplarına, kateqoriyalarına müəyyən hüquqi status verilməsinin universal meyarları mövcud deyildir. Bu, hər şeydən əvvəl, həmin dövrdə və həmin mədəniyyətdə hökmran olan, ictimai rəyi formalaşdıran dünyagörüşündən asılıdır.

## 3. *Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquqları və multikultural dəyərlərin hüquqi əsasları*

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi elan etmiş Azərbaycan Respublikasında müstəqillik dövründə bu sahədə hüquqların müdafiəsi ilə bağlı fundamental qanunvericilik bazası yaradılmışdır. Həyatın sınağından çıxmış qanunvericilik

bazasının əsasını ümummilli lider Heydər Əliyevin müəllifliyi və rəhbərliyi ilə yaradılmış, 12 noyabr 1995-ci ildə ümumxalq referendumu yolu ilə qəbul olunmuş Azərbaycan - Respublikasının Konstitusiyasıdır. Bu Konstitusiyanın qəbulu və fəaliyyətə başlaması ölkəmizin totalitar sistemdən demokratiyaya, planlı iqtisadiyyatdan bazar münasibətlərinə keçid şəraitində insanların bərabərhüquqlu vətəndaş kimi formalaşmasını və nəticədə, millətin inkişafını təmin edən çox mühüm, əvəzsiz hüquqi vasitə kimi təzahür edə bildi. Sonrakı dövrdə keçirilən referendumlarda Konstitusiyamız insan hüquq və azadlıqları prinsipləri baxımından daha da zənginləşdi. Bu gün müstəqilliyimizin inkişafı və möhkəmləndirilməsi üçün Azərbaycanda mədəniyyətin, dinin, milli azlıqların birgə yaşaması, tolerantlığın, dünyəvi dövlətçilik sisteminin inkişaf etdirilməsi zəruri və mühüm istiqamətlərdən sayıla bilər. Azərbaycan Respublikasında əxlaqi və mənəvi inkişaf modellərinin seçilməsi, dini tolerantlıq, millətin azərbaycançılıq ideyologiyası ətrafında birləşməsi, dünya xalqları ilə birgə sülh və bərabər mədəni əlaqələr müstəvisində yaşamaq sahəsində görülən işlər və dünya əhəmiyyətli fəaliyyət dövlətimizin simasında dəyərləndirilən aşkar faktdır.

Konstitusiyamızda mədəniyyət, bərabərlik, milli mənsubiyyət hüququ, təhlükəsiz yaşamaq hüququ, azadlıq hüququ, yaşamaq hüququ, şəxsi toxunulmazlıq hüququ, təhsil hüququ, fikir və söz azadlığı, vicdan azadlığı, ana dilindən istifadə hüququ, yaradıcılıq azadlığı, hüquqi yardım almaq kimi maddələr - normalar təsbit edilmişdir. Əsas insan və vətəndaş, hüquq və azadlıqlarını ifadə edən maddələrin konstitusiyamızda ön sırada – ikinci bölmə, üçüncü fəsildə verilməsi və son referendum aktında da bu sferanın aparıcı yer tutması təsadüfi deyil.

Azərbaycan Respublikasının qoşulduğu "İnsan hüquqları haqqında" Avropa Konvensiyası dövlətimizin hüquq siste-

minin qanunvericiliyinin tərkib hissəsidir. Bu konvensiyaya qoşulmağın ölkə üçün səciyyəvi olan önəmi ondan ibarətdir ki, multikulturalizmin əhatə etdiyi və tərkibinə qatıldığı əsas insan hüquq və azadlıqları 1995-ci ildən qüvvədə olan konstitusiya-mızda həm təsbit edilmiş, həm də, dövlətçilik baxımından təmin edilir və qorunur.

Konstitusiyanın qəbulu ümummilli lider Heydər Əliyevin Azərbaycanın müstəqilliyini, dünya dövlətləri sırasında yer almasını, dünyəvi, demokratik dövlət olmasını təsdiq edən, gələcəyə hesablanmış siyasi uzaqgörənliyinin bəhrəsi idi. Ulu öndərin siyasi kursunun davamçısı, Prezident İlham Əliyev 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etmişdir. Ölkəmizdə multikulturalizmə həsr edilmiş davamlı beynəlxalq tədbirlər sırasında Azərbaycan Milli Elmlər Akademiyasının və Qafqaz Müsəlmanları İdarəsinin 16-17 aprel 2015-cı ildə birgə keçirdiyi "İslam maarifçiliyi və müasir dünya" mövzusunda beynəlxalq konfrans böyük əks-səda doğurdu.

Dövlətimiz belə fəaliyyətlər üçün əlverişli şərait yaradır və konstitusiyamızın bu yöndə uğurlara hərtərəfli təminat verən qanunvericilik aktı olduğunu sübut edir. Azərbaycan Respublikası Konstitusiyası multikulturalizmin əsaslarını təsbit etməklə yanaşı, dünyadakı dəyişikliklərə, Azərbaycan dövlətçiliyinin inkişafı istiqamətində transformasiyalara da cavab verməyə və dünyəviliyi təmin etməyə qadirdir.

Azərbaycan bu dünyəvi transformasiyalarda yer almağını beynəlxalq hüquqi sənədlərə qoşulmaqla sübut edir. Azərbaycan Respublikası müstəqil dövlət olaraq, "İnsan hüquq-larının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyaya (4 noyabr 1950), "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt (16 dekabr 1966), "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt (16 dekabr 1966), "İşgəncələr əleyhinə" BMT Konvensiyasına (9 dekabr 1975), "İrqi ayrıseçkiliyin bütün formalarının ləğvinə dair" BMT

Konvensiyasına (4 yanvar 1969), "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvinə dair" BMT Konvensiyasına (18 dekabr 1979), "İnsan hüquqları haqqında" Ümumi Bəyannaməyə (10 dekabr 1948) qoşulmuşdur.

Hazırda multikultralizmin tərkib elementi olan sosial tolerantlıq (latın sözü olub tolerantia – dözümlülük, səbirlilik deməkdir) digər sosial qrupların, azlıqların adət və ənənələrinə, dini etiqadlarına hörmətlə yanaşmanı ehtiva edir. Sosial tolerantlıq digər mədəniyyətlərin qəbul edilməsini, onlara hörmətlə yanaşılmasını, etnik icmaların özlərinin inkişafını təmin etməsinə şərait yaradılmasını aktual edir. Tolerantlıq bütün xalqların sosial-iqtisadi və mədəni inkişafını həm vacib prinsip, həm də ki, zəruri şərt kimi qəbul edir.

Azərbaycan Respublikası Konstitusiyasının 44-cü maddəsi milli mənsubiyyət hüququnun inkişaf etdirilməsini, 45-ci maddəsi ana dilindən istifadə hüququnu, 47-ci maddə isə hər kəsin fikir və söz azadlığını təsbit edir. Həmin maddələr dövlətimizin sosial tolerantlıq prinsipinin düzgün tətbiqi baxımından hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq, hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüquqlarını, irqi, milli, dini sosial ədavət və düşmənçilik oyadan təşviqatın qadağan edilməsi kimi həyat tərzini cəmiyyət üçün norma, yaşayış tərzi müəyyən etməklə, dövlətin multikulturalizm dəyərlərinin qorunması və inkişaf etdirməsinin hüquqi əsaslarını müəyyən edir.

Qloballaşma iqtisadi, sosial-mədəni və digər sərhədlərin ləğvi prosesini, ölkələr arasında kommunikasiyaların yüksəlməsini, inteqrasiyalara, transformasiyaya yeni yanaşmanı tələb edir. Bu sahədə tolerantlıq bütün xalqların sosial-iqtisadi və mədəni inkişafının zəruri elementi kimi qəbul edilir. Tolerantlıq təkcə fərdlərin bir-birinə diqqəti, həmrəyliyi deyil, həmçinin ərazi həlqəsi, etnik və dini icma, ailələr, sosial qurumlar və institutlar səviyyəsində əlaqələri, inteqrasiyanı şərtləndirir.

Bununla bağlı milli azlıqların hüquqlarının konstitusiyada təsbit edilməsi və qorunmasının hüquqi əsaslarını da qeyd etmək olar. Dünyanın coğrafi mənzərəsində Afrika və Asiya regionlarında azlıqların ayrı-seçkiliyə məruz qalması kimi çoxsaylı problemlər dünya ictimaiyyətini rahatsız edən hadisələrdən sayılır. Hazırda, dünyada Suriyada davam edən müharibə nəticəsində insanların müxtəlif ölkələrə axını, kütləvi köçü baş verir.

Azərbaycan da belə kəskin miqrasiya axınının və problemlərinin mərkəzində olmuş ölkədir. 1988-ci ildən başlanmış və kütləvi şəkildə azərbaycanlıların öz doğma tarixi yerlərindən, Ermənistandan məcburi deportasiyası dünya ölkələrinin passiv müşahidəsi ilə baş vermişdir. Ermənistanın monoetnik dövlətə çevrilməsi, məhz azərbaycanlıların deportasiyası, qaçqın və məcburi köçkünlərin də baş verən miqrant axınlarından fərqli olaraq tərkibcə azərbaycanlıları əhatə edən miqrasiya prosesi dünyada gələcəkdə baş verə biləcək təhlükəli proseslərin əsasında dayandı.

Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinin üçüncü hissəsində təsbit edilir: "Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır".

Multikulturalizmin Azərbaycanda dövlət səviyyəsində inkişafı dünyada yeni Azərbaycan modelinin formalaşmasına gətirib çıxarmışdır. Həmin modelin inkişaf etdirilməsi tarixin dönüş məqamlarında dünyada gedən qloballaşma prosesində həyat fəaliyyətinin yeni şəraitə adaptasiya prosesinin davam etdirilməsi zərurəti ilə nəticələnir. Bu proseslər içərisində

tolerantlıq multikulturalizmin zəruri elementi kimi təkcə Azərbaycan sərhədləri çərçivəsində deyil, dünyaya da müxtəlif dinlərin və mədəniyyətlərin birgə yanaşı yaşamaq modelini təqdim edir.

Azərbaycan Respublikasında hazırkı tarixi şəraitdə müxtəlif dinlər yanaşı yaşamaqla millətlərin dünyəvi dövlət quruculuğuna töhfəsini artırır. Konstitusiyamızın 48-ci maddəsinin ikinci hissəsində "Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ" olması təsbit edilir.

Millətin formalaşması, özünüdərki modelləri milli-mədəni forma daşıyan hüquqi dövlət və vətəndaş cəmiyyətinin yaradılması ilə həyata keçirilməlidir. Dini etiqad azadlığı hər hansı dinə etiqadetmənin seçilməsi və etiqadetməni hər kəsin hüququ kimi müəyyən edir.

Azərbaycan Respublikası "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Konvensiyaya da qoşulmuşdur. Həmin konvensiyanın 18-ci maddəsində vicdan azadlığı, sərbəst dini etiqad, dini mərasimlərin yerinə yetirilməsi, dini ənənələrin icrası, eləcə də, heç kəsin dini etiqadını və əqidəsini ifadə etməyə məcbur edilməməsi müəyyən edilir. Azərbaycan Konstitusiyasında təsbit edilmiş "Vicdan azadlığı" maddəsi (48) həmin beynəlxalq konvensiyada müəyyən edilən dini etiqad və əqidələrin reallaşmasına təminat verir.

Konstitusiyamızda təsbit edilmiş vicdan azadlığı, fikir və söz azadlığı, mədəniyyət hüququ, yaradıcılıq azadlığı, normaları multikulturalizmin inkişafını və Azərbaycanın dünyəvi dövlətçilik sistemində öz mədəniyyət modelini ortaya qoymağa çox böyük imkanlar açır. Konstitusiyamız zamanın sınağından uğurla çıxaraq, Azərbaycanın dünyəvi dövlətçilik sistemində yeri və cəmiyyətdə rolu haqqında, eləcə də dünyada rolu haqqında, multikulturalizmin təbliği və tətbiqi

ilə bağlı yeni və daha geniş müzakirələrin aparılması üçün tam hüquqi mühit və şərait yaradır.

Multikulturalizm çoxmədəniyyətliliyi və müxtəlif mədəniyyət daşıyıcısı olan fərdlərin və icmaların milli-etnik qurumların birgə, dinc və sülh şəraitində yaşamasını təmin edən fəlsəfi cərəyan rolunda çıxış edir. Azərbaycan Respublikasının Konstitusiyası (maddə 40) hər bir vətəndaşın milli, sosial, siyasi, cinsi, dini baxışları, əmlak vəziyyəti, yaşayış yeri, təhsili və peşəsindən asılı olmayaraq mədəniyyət fəaliyyəti hüququnu müəyyən edir. Mədəni həyatda iştirak etmək hüququ hər kəsin mədəniyyət sərvətlərindən, muzeylərdən, incəsənət sərgilərindən istifadə etmək imkanını müəyyən edir.

Multikulturalizmin fərqli mədəniyyətlərin bərabər səviyyədə inkişafı üçün verdiyi bugünkü töhfələrin hüquqi əsası konstitusiyamızın "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" bölməsində, 40-cı maddədə birbaşa təsbit edilir. Bu bölmənin bir çox maddələri, o cümlədən bərabərlik hüququ (25), azadlıq hüququ (28), əqli mülkiyyət hüququ (30), mədəniyyət hüququ (40), təhsil hüququ (42), ana dilindən istifadə hüququ (45), şərəf və ləyaqətin müdafiəsi hüququ (46), fikir və söz azadlığı (47), vicdan azadlığı (48), yaradıcılıq azadlığı (51), əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqları (69), insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı (71) maddələri bütünlüklə multikulturalizmin hüquqi əsaslarını və bazasını təşkil edən təminatlı normalardır.

Azərbaycan Respublikasında dünyaya verilən töhfələrin, o cümlədən multikulturalizmin Azərbaycan modelinin formalaşması və digər ölkələrə transformasiyasının reallaşmasında böyük uzaqgörənliyə və ciddi hədəflərə hesablanmış və referendumla təkmilləşdirilən Azərbaycan Konstitusiyası təminat rolunda uğurla çıxış edir.

Azərbaycan mədəniyyətinin, əxlaqının inkişafı, qorunması ilə yanaşı, multikulturalizmin ayrı-ayrı sahələrində irəli-

ləyiş üçün də bütün hüquqi imkanlar və təminatlar Azərbaycan Konstitusiyasında nəzərdə tutulmuşdur.

Multikulturalizm sosial ədalət, imkanların bərabərliyi demokratiya kimi müzakirə olunan anlayışların sırasına daxildir. Multikulturalizm etnik-mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən dəyərlərin qorunması və inkişafını nəzərdə tutur. Multikulturalizmi təbliğ edən ölkə onu dövlət ideologiyasının tərkib hissəsi kimi dövlət siyasəti səviyyəsinə qaldırır. Bu baxımdan Azərbaycançılıq ideologiyasını xüsusi olaraq qeyd etmək lazımdır. Azərbaycançılıq ideologiyası Azərbaycanda yaşayan xalqların siyasi, iqtisadi, sosial və mədəni yüksəlişinə yönələn bir ideologiyadır. Qeyd etdiyimiz kimi, azərbaycançılıq ideologiyası M.F.Axundov, Əli bəy Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəzulzadə. Ə.Topçubaşov və başqalarının fəaliyyətlərində öz əksini tapmışdır. 90-cı illərin əvvəllərində Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra yenidən azərbaycançılıq ideologiyasına müraciət edilmişdir. Bu gün azərbaycançılıq ideologiyası milli ideologiyamızın ana xəttini təşkil edir.

Etnik, irqi dini və mədəni müxtəlifliklər dövlət tərəfindən düzgün tənzimlənmədikdə cəmiyyətin inkişafının müxtəlif sahələrində ciddi problemlərə və münaqişələrə səbəb olur. Azərbaycan Respublikası multikulturalizm siyasətinin həyata keçirilməsində BMT, ATƏT, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu təşkilatlarla əməkdaşlıq edir. Belə təşkilatlardan biri Avropa Şurasına üzv olan ölkələrin imzaladığı Avropa İnsan Hüquqlarının Konvensiyasıdır. Konvensiyanın fəaliyyətinin əsas istiqamətlərindən biri insan hüquq və azadlıqlarının qorunmasıdır. Konvensiya 4 noyabr 1950-ci ildə Romada qəbul edilib. Konvensiyaya daxil olan 47 üzv dövlət və həmin ölkələrdə yaşayan 800 milyondan artıq vətəndaşın hüquqları müdafiə olunur. Azərbaycan Konvensiyanı 15 aprel 2002-ci ildə ratifikasiya edib və Avropa Məhkəməsinin yurisdiksiyasını tanıyıb. 1, 4,

6, 7, 14 saylı protokolları Azərbaycan dövləti ratifikasiya edib. Konvensiyanın 14-cü maddəsi ayrı-seçkiliyin qadağan olunması ilə bağlıdır. Orada göstərilir, " bu konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, dərinin rəngi, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və digər hər hansı əlamətlərinə görə ayrıseçkilik olmadan təmin olunmalıdır". Konvensiyaya üzv olan dövlətlər beynəlxalq və milli qanunvericilikdə ayrı-seçkiliyin aradan qaldırılması ilə bağlı öz üzərinə öhdəlik götürsə də, son zamanlar bəzi ölkələrdə bu prinsiplər pozulur. İngiltərənin baş naziri D.Kameron və Almaniya federal kansleri A.Merkelin multikul-turalizmin iflasa uğraması ilə bəyanatları ictimaiyyət tərəfindən birmənalı qarşılanmadı.

Həmin ölkələrin bəzi siyasətçiləri bildirirlər ki, bizim ərazimizdə digər millətlər miqrasiya nəticəsində yaşamağa gəlib, məskunlaşmışlar. Ona görə də, onların dillərinin, milli mədəniyyətlərinin qorunması, inkşaf etdirilməsi bizim üçün maraqlı deyildir. Almaniyada əhalinin 19 faizini qeyri almanlar təşkil etsələr də, alman olmayanlar "xaricilər" adlandırılırlar. Miqrasiya yolu ilə ölkəyə gəlib sonradan vətəndaşlıq hüququ əldə edənlər də ölkənin çoxluğunu təşkil edən vətəndaşlarla eyni hüquqa malik olmalıdırlar. Konvesiyanın üzvü olan ölkələr üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirməyə borcludurlar. Avropa İnsan Hüquqları Konvensiyasının yerləşdiyi elə Fransanın özündə yaşayan milliyyətcə qeyri-fransızlar irqi və dini ayrıseçkiliyə məruz qalırlar. Hicabın qadağan olunması 14-cü maddənin kobud surətdə pozulması ilə müahidə olunmuşdur. Fransa cəmiyyəti belə hesab edir ki, qarşıdakı şəxsin hicab geyimində olması mənim təhlükəsizliyim üçün təminat vermir. Hicab geyimi vasitəsilə hansısa terror hadisəsi törədilə bilər. Fikrimizcə, bu ölkənin təhlükəsizlik qüvvələri ilə bağlı olan problemdir. Tez-tez mətbuatda, qəzet və jurnallarda islam

dini liderlərinin karikaturaları yer alır. Bu kimi hadisələr millətlətarası münasibətlərin pozulmasına, kütləvi iğtişaşlara və münaqişələrə səbəb olur. Eyni zamanda burada konvensiyanın fikir, vicdan və din azadlığı olan 9-cu maddəsi pozulur.

9-cu maddə də göstərilir: “Hər kəsin fikir, vicdan və din azadlığı hüququ vardır; bu hüquqa öz dinini və ya əqidəsini dəyişmək azadlığı öz dininə və ya əqidəsinə həm təkbaşına, həm də başqaları ilə birlikdə etiqad etmək və açıq yaxud şəxsi qaydada ibadəti, təlimləri dini və mərasim ayinlərini yerinə yetirmək azadlığı daxildir”. Dünyada azərbaycanlılar kimi soyqırıma məruz qalan yəhudilər Azərbaycanı İsraildən sonra ikinci ən təhlükəsiz yaşadıqları ölkə kimi qeyd edirlər. Respublikamızda yaşayan digər etnik xalqlar, millətlər üçün bərabər imkanlar özlərini təsdiq etmək mədəniyyətlərini inkişaf etdirmək üçün hər cür şərait yaradılmışdır.

Bu gün dünyada sülhün və ədalətin, sabitliyin təmin olunması üçün bərabər hüquqların təmin edilməsi, ayrı-seçkiliyin qadağan olunması mühüm prinsiplərdən biridir. Azərbaycanın dünya ölkələrinə təqdim etdiyi multikultural model xalqların dostluq və mehriban şəraitdə birgə yaşamasını təmin edən modeldir.

## MÖVZU 10.

## Multikultural təhlükəsizlik və onun təmin olunması

**Plan:**

1. Multikultural təhlükəsizlik siyasəti: mahiyyəti və prinsipləri
2. Azərbaycan Respublikasında multikulturalizm təhlükəsizliyi və onun təmin olunması

### *1. Multikultural təhlükəsizlik siyasəti: mahiyyəti və prinsipləri*

Multikulturalizmin yaşam tərzi kimi beynəlxalq əhəmiyyəti müasir dünyamızda son dərəcə həyati əhəmiyyət kəsb etməkdədir. Bu gün artıq daha çox ölkələr, xalqlar, müxtəlif beynəlxalq qurumlar, dini təsisatlar, insanlar dərk edirlər ki, kütləvi qırğın silahlarının durmadan artdığı, dövri olaraq baş verən iqtisadi, maliyyə böhranı şəraitində mövcud olmaq, inkişaf etmək, sosial rifahı təmin etmək üçün yeganə yol əməkdaşlıqdır, mədəniyyətlərarası dialoqdur. Bu amillərin də təməli multikulturalizmə nail olmaq, onu yaşam tərzinə çevirmək ilə qoyulur. Hər hansı bir dövlətin multi-etnik və çoxkonfessiyalı bir cəmiyyətə sahib olması onun uğurudurmu, yoxsa gələcək mövcudluğu üçün bir təhlükədirmi? Bir çox mədəniyyəti özündə birləşdirən cəmiyyəti idarə etmənin ideal forması nədir? Niyə mədəni identiklik son dövrlərdə bu qədər aktual olmağa başladı? Bütün bu suallar dövlət idarəçiliyi sahəsində son 40-50 ildə kəskin müzakirə olunan mövzulardır.

İkinci Dünya Müharibəsindən sonra dünyanın siyasi səhnəsi və dövlət idarəçiliyi tam şəkildə dəyişdi. Daha əvvəl mövcud olan ideologiya fərqləri aradan qalxdı. Artıq heç bir

xalqı hər hansı bir siyasi ideologiya (kommunist, faşist və s.) ilə identikləşdirmək mümkün deyildir. Hər bir xalqı digərindən yalnız onun mədəniyyətinə görə fərqləndirmək olardı. Miqrasiya prosesinin sürətlənməsi nəticəsində multi-etnik cəmiyyətlərin sayının xüsusi ilə Qərb dövlətlərində kəskin artması, bir dövlət çərçivəsində belə onlarca fərqli mədəniyyətə sahib olan xalqların mövcudluğuna gətirib çıxartdı. Bu qədər fərqli mədəniyyətin bir dövlət daxilində mövcudluğu dövlət idarəçiliyi sahəsində də öz növbəsində çətinliklər yaradırdı. 1971-ci ilə qədər bir çox dövlətlər gəlmə mədəniyyətlərə qarşı assimilyasiya və ya izolyasiya siyasətlərini həyata keçirməklə titular xalqın mədəniyyətini qorumağa çalışdılar. Ancaq bu, digər bütün azsaylı xalqlara qarşı siyasi haqsızlıq və qeyri-demokratik siyasət xətti idi. Əlbəttə ki, hər bir xalq öz mədəni identikliyini qorumaq uğrunda mübarizəyə başladı. Bunun nəticəsində isə mədəniyyətlərin toqquşması anlayışını formalaşdırdı.

İlk dəfə olaraq 1971-ci ildə Kanada öz daxilindəki etno-mədəni müxtəlifliyi qorumaq və uğurla idarə etmək məqsədi ilə rəsmi şəkildə alternativ bir siyasi xətt elan etdi. Kanada rəsmən "Multikulturalizm" siyasətini dövlət siyasəti elan edərək, bununla bağlı hüquqi bazanı formalaşdırmağa başladı. Daha son-ralar isə digər Qərb dövlətləri də bu uğurlu siyasət modelini öz ölkələrində tətbiq etməyə başladılar.

Multikulturalizm sözün hərfi mənasında "çoxmədəniyyətlilik" anlamına gəlir. Multikulturalizm siyasəti dedikdə isə bir dövlətin sərhədləri çərçivəsində müxtəlif mədəniyyətlərin qorunması, inkişafı və təbliğinə yönəlmiş humanist və demokratik dövlət siyasəti nəzərdə tutulur. Bir dövlətin müxtəlif fərqli mədəniyyətlərin daşıyıcısı olan etno-mədəni qrupları və dini konfessiyaları özündə birləşdirməsi həmin cəmiyyəti multikultural edirmi?

Çoxmədəniyyətli cəmiyyət dövlətin multikulturalizm siyasəti olmadan mövcud ola bilərmi? Multikulturalizm fəlsəfə-

sinin əsaslandığı 7 mühüm prinsip olmadan sadəcə etnik müxtəlifliyi multikulturalizm adlandırmaq mümkün deyil. Bu prinsiplər aşağıdakılardır:

1. Etno-mədəni müxtəlifliyin mövcudluğu prinsipi: Bu prinsip bir dövlətin daxilində müxtəlif mədəniyyətin daşıyıcıları olan milli azlıqların və eyni zamanda müxtəlif dini konfessiyaların mövcudluğu mənasını verir. Multikulturalizm siyasətini həyata keçirən dövlətlər bu cür müxtəlifliyi özünə qarşı təhlükə kimi görmür. Əksinə, cəmiyyətin zənginliyi kimi qəbul edərək həmin xalqların öz mədəniyyətlərini qorumaları üçün dəstək göstərir.

2. Mədəni identiklik hüququ: Bu prinsip hər bir kəsin və ya qrupun öz mədəni identikliyini və ya xarakterini qoruyub saxlamaq hüququ olduğunu qeyd edir. Ancaq unutmaq lazım deyil ki, bu, vəzifə yox, sadəcə hüquqdur. Heç bir kəs məcburi şəkildə bir qrupa daxil edilə bilməz və ya hər hansısa bir mədəni qrupa üzvlüyünə görə alçaldıla bilməz.

3. Mədəni bərabərlik və qarşılıqlı dözümlülük prinsipi: Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, bütün etno-mədəni qruplar bərabərdir və yalnız qarşılıqlı hörmət və dözümlülük şəraitində mövcud ola bilərlər. Etnik mənşə identikliyi vətəndaşlıq identikliyindən sonra gəlməlidir. Beləliklə, iyerarxik ikili identiklik mövcud olur. Buna ən gözəl nümunə Azərbaycan və ya Kanadanı misal göstərmək olar. Bütün milli azlıqlar ilk öncə azərbaycanlıdır, daha sonra ləzgi, avar, tatdır və s.

4. Etno-mədəni qruplar arası əlaqə prinsipi: Hər bir etno-mədəni və dini qrup və ya onun hər bir nümayəndəsi digər qruplarla və ya nümayəndələri ilə təhlükəsiz və sərbəst ünsiyyət qura bilməlidir. Eyni cəmiyyətdə mövcud olan hər bir kəs digər qruplara qarşı açıq fikirli olmalıdır.

5. Bərabər imkanlara sahib olmaq hüququ: Azərbaycan multikulturalizminin ən mühüm özəlliklərindən biri də onun sosial-liberal ikili təbiətə malik olmaqla ikili fundamental

hüququ özündə birləşdirməsidir. Liberal hüquq olan mədəni müxtəliflik hüququnun sosial hüquq olan bərabər imkanlara sahib olma hüququna əsaslanması Azərbaycan cəmiyyətindəki müxtəlifliyi qorumağa və icmalararası sosial ədalətsizliyi aradan qaldırmağa yönəlmişdir.

6.Siyasi idarə prinsipinin mövcudluğu: Multikulturalizm və ya multikultural cəmiyyət özü təkbaşına inkişaf edə bilməz. Bunun üçün siyasi idarəetmə və dövlət dəstəyinin mövcudluğu mütləqdir.

7. Müxtəliflikdə mövcud olan təklik prinsipi: Hər bir milli azlıq və ya etnik qrup öz mədəniyyətinin yalnız ümumi mədəniyyətə ziyan vurmayan hissəsini qoruya bilər. Bəzən bu prinsipə, mədəniyyətin selektiv qorunması deyilir.

Multikulturalizm siyasətini dövlət siyasəti elan edən hər bir dövlət yuxarıdakı prinsiplərin hər birinə qarant durmalıdır. Bu prinsiplərin mövcudluğu multikulturalizmin siyasi əsaslarının olduğunu göstərir.

## *2. Azərbaycan Respublikasında multikulturalizm təhlükəsizliyi və onun təmin olunması*

Tarixi inkişafdan keçərək formalaşmış çoxmədəniyyətli bir cəmiyyətin mövcudluğu və bu cəmiyyəti qoruyub saxlamaq üçün dövlətin siyasi iradəsinin mövcud olması əslində multikultiralizmin mövcud olmasına əsas verir. Ancaq bu siyasəti qoruyub saxlamaq üçün qanunvericilik bazası təkmilləşdirilməli və multikulturalizm siyasətinin hüquqi bazası formalaşdırılmalıdır. Buna misal olaraq, 1988-ci ildə Kanada "Multikulturalizm qanunu"nu qəbul etdi. Azərbaycan Respublikası ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra həyata keçirdiyi siyasət nəticəsində mədəni müxtəlifliyini qorumaq üçün milli azlıqlar və dini qruplarla bağlı çoxlu sayda normativ hüquqi aktlar qəbul olundu. Ümummilli lider Azərbaycanda demokratik, hüquqi dövlət

quruculuğunun əsasını qoydu və apardığı islahatlarla ölkədə tarixən mövcud olan etnik-mədəni, dini müxtəlifliyin tolerant əsaslarının möhkəmlənməsini təmin etdi. 1994-cü il sentyabrın 29-da BMT Baş Məclisinin sessiyasındakı çıxışında ümummilli lider Heydər Əliyev demişdir: "Respublikamızda artıq çoxpartiyalı sistem mövcuddur, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri möhkəm bərqərar olmuşdur. Dərisinin rəngindən, din və dil mənsubiyyətindən asılı olmayaraq, çoxmillətli Azərbaycanın bütün vətəndaşları bərabər hüquqlardan istifadə edirlər. Qarşımızda duran ən mühüm vəzifə konstitusiyanın əsas prinsiplərini dərindən mənimsəmək, respublika həyatına tətbiq etmək və onun verdiyi təminatları reallaşdırmaqdan ibarətdir".

Ulu öndərin rəhbərliyi ilə hazırlanan və 12 noyabr 1995-ci ildə referendum yolu ilə, demokratik tərzdə ümumxalq müzakirəsinə çıxarılmaqla qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında da multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq prinsipləri aydın şəkildə təsbit edilmişdir. Dövlət müstəqilliyi haqqında Konstitusiya aktında Azərbaycan Respublikası Ümumdünya İnsan Hüquqları Bəyannaməsini tanıdığını bəyan etdi. Azərbaycan BMT-nin qəbul etdiyi aktlara, habelə Uşaq Hüquqları Konvensiyasına qoşuldu. Heydər Əliyevin 22 fevral 1998-ci il tarixində imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı və 18 iyun 1998-ci il tarixli "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncamı insan hüquqları sahəsində ən mühüm sənədlərdəndir və bu, mütəxəssislər tərəfindən həmin sahədə ilk strateji sənəd kimi dəyərləndirilir.

Multikulturalizmin məhək daşı olan dövlət-din münasibətlərinə böyük önəm verən ulu öndər deyirdi: "Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir. Azərbaycanda müsəl-

manlarla yanaşı, başqa dinlərə mənsub olan vətəndaşlar da yaşayır. Azərbaycan müstəqil, demokratik dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə, dinindən, irqindən, siyasi mənsubiyyətlərindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir". Ulu öndərin müəyyənləşdirdiyi bu strateji istiqamətdə inkişaf edən Azərbaycan dünyaya örnək ola biləcək multikultural dəyərlər sistemini və modelini formalaşdırıb.

Nəyə görə Azərbaycan da daxil olmaqla bir sıra dövlətlər multikulturalizm siyasətini dövlət siyasəti elan edərək, onu qorumağa çalışır, digər qrup dövlətlər isə bu siyasəti təhlükəli hesab edir və özünü doğrultmadığını elan edirlər? Multikulturalizmin alternativi varmı?

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz çıxışlarında daima vurğulayır ki, multikulturalizm Azərbaycanda həyat tərzidir, dövlət siyasətidir və alternativi yoxdur. Güclü multikulturalizmin (dövlət siyasəti müstəvisində) mövcud olduğu hər bir dövlətə bu anlayış xarakterikdir. Hər hansısa qanunu, siyasi quruluşu və ya idarəetmə formasını bir aya, bir ilə və ya bir neçə ilə dəyişmək mümkündür. Ancaq hər hansı bir xalqın mədəniyyətini yüz illər keçsə də, dəyişmək mümkün deyil. Bugünkü dünyada xalqların sayı dövlətlərin sayından 10 dəfə çoxdur. Əgər hər bir xalqın öz mədəniyyətini qoruyub saxlamaq hüququ olmasaydı, hər bir coğrafiyada etnik münaqişələrin qarşısını almaq mümkün olmazdı. Bu nöqteyi-nəzərdən multikulturalizm siyasətinin alternativi ksenofobiya, antisemitizm, islamofobiya və ayrıseçkilikdir.

Bu gün Qərb dövlətlərinin əksəriyyəti multikulturalizm siyasətinə qarşı çıxır və bunun iflasa uğradığını vurğulayırlar. Avropa dövlətlərində yaranmış çoxmədəniyyətlilik miqrasiya prosesinin nəticəsi olaraq sonradan yaranmış bir müxtəliflikdir. Bu səbəbdən bir çox dövlətlər gəlmə mədəniyyətlərin yerli əsas mədəniyyəti dəyişdirdiyinə və ya məhv etdiyinə

inanırlar. Buna görə də Qərb dövlətlərinin multikulturalizm siyasətinə bir alternativ lazım gəldi. Bunun üçün vahid Avropa dəyərləri və mədəniyyəti anlayışına ciddi şəkildə dəstək verməyə başladılar. Yəni kollektivçilikdən fərdçiliyə keçid və eyni zamanda inteqrasiya siyasəti labüd idi. Artıq fərdi şəkildə İnsan Hüquqları hər şeyin üzərindədir və bütün mədəni anlayışlar sonra gəlir.

Əlbəttə, multikulturalizmi dövlət siyasəti elan edən dövlətlərdə də insan hüquqları ali dəyər hesab olunur və heç şübhəsiz, öz mədəni identikliyini qorumaq hüququ İnsan Hüquqlarının ayrılmaz tərkib hissəsi hesab olunur. Ancaq miqrasiya prosesinin qarşısını almaqda aciz qalan bir sıra Qərb dövlətlərində mədəni böhran və ya toqquşmalar baş verməyə başladı. Tarixən monoetnik cəmiyyətlərdən ibarət olan Avropa dövlətlərində artıq əsas xalqın mədəniyyətini qorumaq çətinliyi yarandı. Aşkar şəkildə bioloji irqi ayrıseçkililik etmək isə mümkün deyil. Bu liberal – demokratik Avropa dəyərlərinə ziddir. Ona görə də gəlmə xalqların mədəniyyətlərinin avropa dəyərlərinə və demokratiyaya zidd olduğunu deməkdən başqa çarə qalmırdı. Məcburi inteqrasiya qaçılmaz idi. Əlbəttə, bu da öz növbəsində ayrıseçkiliyin bir formasıdır.

Avropada baş verənlərin əksinə olaraq, bu gün Azərbaycan öz multikulturalizm modelini dünyaya təqdim etməkdədir. Azərbaycanın bu sahədəki təcrübəsi kifayət qədər zəngindir və qədim tarixə malikdir. Klassiklərimizin əsərlərində, şifahi xalq ədəbiyyatında və s. kifayət qədər multikulturalizm dəyərlərinə dair misallar tapmaq olar. Azərbaycanda katolik kilsəsi, pravoslav kilsəsi, yəhudi sinaqoqu, məscidlər azad, sərbəst, təhlükəsiz, qarşılıqlı hörmət əsasında tolerantlıq şəraitində fəaliyyət göstərir. Təbii ki, bu mühiti dövlətin apardığı siyasət və xalqın unikal daxili birgəyaşayış normalarını, həyat tərzinə çevirməsi yaradıb. Tarixən müxtəlif etno-mədəni qrupların və dini konfessiyaların birgə yaşadığı məkan olan ölkəmizdə

siyasi multikulturalizmin banisi ulu öndər Heydər Əliyevdir. Heydər Əliyev ikinci dəfə xalqın dəvəti ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanı nəinki vətəndaş müharibəsindən qurtardı, eyni zamanda ölkəmizdə mövcud olan bütün milli azlıqları vahid azərbaycançılıq ideologiyası ətrafında birləşdirdi.

Ulu öndərin həyata keçirdiyi bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın multikulturalizm dəyərlərinə sahib olması, onu təşviq etməsi aparıcı beynəlxalq təşkilatlar və dünya birliyi tərəfindən yüksək dəyərləndirilir. Müasir gərgin beynəlxalq şəraitdə Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, praktiki, elmi, təbliğati və təşviqati istiqamətdə fəaliyyət göstərməsi xüsusi əhəmiyyət kəsb edir. Hazırda ölkəmizin təcrübəsi tədqiqat obyektidir, bir çox ölkələrdə öyrənilir və tədris edilir. Bu istiqamətdə əməkdaşlığa maraq artır və ilbəil əlaqələr genişlənir. Azərbaycan xalqı birgəyaşayış təcrübəsi və həyat tərzi ilə sübut edir ki, multikulturalizm yaşayır və onun gələcəyi də vardır. Yalnız onu qəbul etmək, təbliğatçısı və təşviqatçısı olmaq lazımdır. Buna böyük önəm verən cənab İlham Əliyev bildirib ki, Azərbaycanın bu sahədəki təcrübəsi aparıcı beynəlxalq təşkilatlar və beynəlxalq birlik tərəfindən yüksək qiymətləndirilir: “Bu, multikulturalizmin yaşadığını, onun gələcəyinin olmasını sübut edir, sadəcə siyasətçilər, ictimaiyyətə təsir etmək iqtidarında olanlar, o cümlədən media nümayəndələri daha məsuliyyətli olmalıdırlar. Hesab edirəm ki, bu məsələdə medianın rolu daha müsbət olmalıdır. Təəssüf ki, bir çox hallarda biz xəbərlərdə qarşıdurma, qaçqın böhranı və bunlarla bağlı kadrlar görürük. Bu yanaşma yalnız təcridolunmaya gətirir. Biz buna imkan verə bilmərik. Çünki qeyd etdiyim kimi, biz bir-birimizə bağlıyıq və eyni planetdə yaşayırıq. Artıq şahid olduğumuz kimi, Avropa ilə Yaxın Şərq arasındakı məsafə o qədər də böyük deyil. Yəni məsafə

insanların sığınacaq tapmaq və öz ailələrini xilas etmək naminə oralara üz tutmağın qarşısını almır. Odur ki, multikulturalizmin müsbət nümunələri üzərində dayanmaqla bu dəyərlərin təşviqi hamımıza yardımçı olar. Çünki gələcəkdə heç bir ölkə və millət təcrid olunmuş vəziyyətdə yaşaya bilməz. Biz bir-birimizə bağlıyıq. Dünya ölkələrinin mütləq əksəriyyətinin əhalisi çoxmillətli və çoxdinlidir. Biz bununla fəxr etməliyik".

Multikulturalizmin gələcəyinin olmadığı barədə yanlış fikirlər məhz demokratiyadan bəhs edən ölkələrin siyasətçilərindən eşidilib və həmin ölkələrin KİV-dəki materiallarında ayrıseçkilik, dini-milli dözümsüzlüyə, islamafobiyaya yol açan, qaçqınlarla, miqrantlarla bağlı neqativ və s. qızışdırıcı fikirlər yer alır. Bu cür yanaşma xalqları, dövlətləri yalnız təcridolunma vəziyyətinə çatdırır. Bununla da sabitliyin, birgəyaşayışın, sosial-iqtisadi inkişafın qarşısına çox böyük təhlükə çıxmış olur. Biz bu gün dünyada baş verən toqquşmaların, müharibələrin, gərginliklərin əsasında da bu fərqliliklərin körükləndiyini, (qızışma) istifadə edildiyini aydın görürük.

Dünyada çox dəhşətli hadisələr baş verir. Yaxın Şərq, Ön Asiya, Avropa böhran içindədir. Bəzi ölkələrdə iqtisadi, siyasi, hərbi, həm də mənəvi böhran yaşanır. Bu ölkələrin rəhbərləri bəyan etdikləri dəyərlərə sadiq qala bilmirlər. Azərbaycanda isə sabitlik, inkişaf, rifah, təhlükəsizlik mövcuddur. Azərbaycanın bəyan etdiyi dəyərlər göz qabağındadır. Milli mənəvi dəyərlər, azərbaycançılıq, milli, dini dözümlülük, tolerantlıq sosial-iqtisadi inkişaf və dövlətin öz siyasi xəttinə güvənməsi davamlı inkişafın və uğurların əsas amilləridir.

Dövlət başçısı İlham Əliyevin bəyan etdiyi kimi, multikulturalizm ənənələri və tolerantlıq Azərbaycan xalqının həyat tərzi, mənəvi-əxlaqi dəyəri, Azərbaycan Respublikasının siyasətidir. Təsadüfi deyildir ki, 2016-cı il ölkəmizdə "Multikulturalizm ili" elan edilmişdir. Təhlilçilərin də

fikrincə, Azərbaycanda multikulturalizm siyasəti tarixi ənənələrə söykənən milli və dini münasibətlər modeli olmaqla yanaşı, ilk növbədə mədəni müxtəlifliyin, xalqların milli-mədəni irsinin qorunması və inkişafına, onların qarşılıqlı faydalı inteqrasiyasına yönəldilmişdir. Müxtəlif etnik mədəniyyətlər arasında ənənəvi birgəyaşayış, qarşılıqlı hörmət prinsiplərinə söykənən bu model sivilizasiyalararası və mədəniyətlərarası dialoq prosesində Azərbaycan Respublikasının çox uğurlu missiyası və töhfəsidir.

Bu gün multikulturalizmin Azərbaycan modeli dünya xalqları arasında münasibətlərin dərinləşməsinə istiqamətlən-miş mühüm və müsbət dəyər kimi geniş və hərtərəfli şəkildə təşviq edilir. "İnklüziv cəmiyyətlərdə birgəyaşama: çağırış və məqsəd devizi altında BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu dünya miqyasında terrorizm təhlükəsi, Avropada kəskinləşən miqrasiya böhranı və cəmiyyətlərdə dözümsüzlüyün artması mühitində keçirildi. Dünyanın 140-dan çox ölkəsinin nümayəndələri planetin müxtəlif regionlarında etnik və dini zəmində baş verən qarşıdurma və toqquşmalar kimi mürəkkəb problemlərin həllinə dair vahid fikrə gəlmək üçün geniş müzakirələr apardılar və konstruktiv dialoqun inkişafına xidmət edəcək təkliflər səsləndirdilər. Çıxışlarda qaldırılan təşəbbüslər, tövsiyələr mədəniyyətlər, sivilzasiyalar arasında əməkdaşlığa, əlaqələrin güclənməsinə, qarşılıqlı anlaşmaya öz böyük töhfəsini verdi.

Qeyd edək ki, Sivilizasiyalar Alyansı dünyada etimad və anlaşma yaradır. Onun layihələri gənc innovatorları dəstək-ləyir, jurnalistləri resurslarla təmin edir və dialoqu dəstəkləyən liderlərə hörmət edir. Gəlin, həmçinin zamanımızın çağırışları ilə üzləşdiyimiz bir vaxtda bu qiymətli Alyansı gücləndirək, – deyən BMT-nin baş katibi Pan Gi Mun Forum iştirakçılarına nümayiş etdirilən video-müraciətində dedi: "Bölünmə və təcrid ekstremistlərə sərf edir. Onların atdığı bombalar binaları hədəfə alır. Lakin

onların əslində məhv etmək istədiyi bizim qarşılıqlı anlaşmamızdır. Bu səbəbdən də mən bu Forumun “İnklüziv cəmiyyətlərdə birgəyaşayış” mövzusuna həsr olunmasını alqışlayıram. Bu, həmçinin davamlı inkişaf üzrə 2030-cu il gündəliyinin əsas məqsədidir. Bu gündəlik bütün insanlar, xüsusilə irqçilik, diskriminasiya, ksenofobiya və zorakılığın digər formaları üzündən uzun müddət təcrid olunmuş insanlar üçündür. Alyans heç kimin unudulmaması və hamıya ləyaqətli həyat təmin etmək üçün bu qlobal planı reallaşdırmağa kömək edir. Mən BMT-nin bu qurumunu tam dəstəkləyirəm”.

Bu, BMT baş katibi cənab Pan Gi Munun Bakı Forumuna davamlı dəstəyini ifadə edən bəyanatı idi. Bu bəyanat bir daha təsdiq etdi ki, dünya liderlərinin münaqişələrin əsas səbəbləri ilə məşğul olaraq diqqəti onların qarşısının alınmasına cəmləşdirməsi vacibdir və çox əhəmiyyətlidir. Alyans radikallaşma və qütbləşmənin qarşısını almaqla, daha böyük mədəniyyətlərarası anlaşmanı həvəsləndirməklə, eləcə də bu məqsədləri irəliyə doğru aparan layihə və proqramlarda iştirak etməklə daha təhlükəsiz dünyanın qurulmasına töhfə vermək üçün formalaşdırılmış zərif qüvvə mexanizmi rolunu oynayır.

Azərbaycanın əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olduğunu vurğulayan cənab İlham Əliyev bildirdi ki, Azərbaycan Şərq və Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüdür: “Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar. Dini dözümlülük və multikulturalizm burada hər zaman mövcud olmuşdur. “Multikulturalizm” sözü mövcud olmadığı bir zamanda belə, həmin ideyalar daim yaşayıb. Bunun nəticəsidir ki, bu gün Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Burada bütün dinlərin və etnik qrupların nümayəndələri sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Bu bizim ən böyük sərvətimizdir və biz tariximizlə

fəxr edirik. Biz müxtəlif mədəniyyətləri özündə əks etdirən tarixi abidələrimizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən biri Azərbaycanın qədim şəhəri olan Şamaxıda, 743-cü ildə inşa edilmişdir. Bununla yanaşı, ən qədim kilsələrdən biri — qədim Qafqaz Albaniyası dövrünə aid kilsə də, məhz Azərbaycanda, daha bir qədim şəhər olan Şəkinin yaxınlığında yerləşir. Hökumətimiz məscidlərin, pravoslav və katolik kilsələrinin, habelə sinaqoqların inşası və təmirinə maliyyə vəsaiti ayırır. Bu, bizim siyasətimiz və həyat tərzimizdir. Əsrlər boyu Azərbaycan ölkəmizdə mövcud olan siyasi və sosial vəziyyətə baxmayaraq, bu sərvəti qoruyub saxlamışdır".

Dözümsüzlüyə, ayrı-seçkiliyə, ksenofobiyaya, müxtəlifliyə qarşı olan qorxuya qalib gəldiyimiz gün bu mübarizədə uğur əldə edə bilərik. Zorakılıq tərəfdarları dini dəyərləri təhrif etməklə yaratdıqları utopiyalarla gənc nəsillərə təsir göstərir, onları fəlakətə aparırlar. Bunun əvəzində yeni nəsillərə inancları, ədaləti, bərabərliyi əsas götürərək həqiqi mesajları ən doğru şəkildə öyrətməliyik. Müxtəlif dinlərin nümayəndələri olaraq bunu bacardığımızda dünyanın hamımızın birlikdə yaşaya biləcəyi yer olduğu daha yaxşı anlaşılacaq. Öz çıxışında bu fikirlərə geniş yer verən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, bu istiqamətdə birlikdə fəaliyyət göstərməyə davam etməliyik: "Sivilizasiyalar Alyansına onun prinsip və dəyərlərinə həmişəkindən daha güclü şəkildə sahib çıxmalıyıq. XXI əsrdə bəşəriyyətin çatdığı yerin gündəmi terror təşkilatlarının müəyyən etdiyi bir sonluğa məhkum olmayacağına inanıram".

## MÖVZU 11

### Ümummilli lider Heydər Əliyev Azərbaycan multikulturalizm modelinin banisi kimi

Bildiyimiz kimi, 2016-cı il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycanda multikulturalizm ili elan olunmuşdur. Məlumdur ki, Azərbaycan Respublikası multikulturalizmi özünün dövlət siyasəti elan etmişdir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 15 may 2014-cü il fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Bu mərkəzin yaranmasının əsas amalı Azərbaycanda əsrlərlə yaşanan tolerantlığın, dini, etnik-mədəni müxtəlifliyin qorunmasıdır. Eyni zamanda, Azərbaycanı dünyada multikultural dövlət olaraq tanıtmaqdan ibarətdir. Multikulturalizm bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun olan bir siyasətdir. Multikulturalizm bir ölkədə birdən çox mədəniyyətin mövcud olması və ya xalqın mədəni irsinin formalaşmasında birdən çox mədəniyyətin rol oynamasıdır. Multikulturalizm müəyyən mənada bütün müasir cəmiyyətlərin çoxçalarlılığını ifadə etmək üçün tətbiq olunan anlayışdır. Bu geriyə dönüşü olmayan labüd prosesdir. Multikulturalizmin ən çox üz-üzə gəldiyi məqam: milli-mədəni identikliyin qorunub saxlanılması məsələsidir. Tarixi-siyasi irs, etnik köklər, ənənə, yaddaş, dil, din və s. – kollektiv yaddaşda milli-mədəni birliyin təcəssümü olan bu amillərdən insanın mədəni identikliyi formalaşır.

Multikulturalizm daha çox siyasi tənzimləmə mexanizmi kimi yaranmışdırsa, mədəniyyətlər arasında tarixən formalaşmış tolerantlıq modelləri əsasən mədəni-fəlsəfi dialoq və mənəvi ideoloji paradiqma kimi formalaşmışdır. O, artıq ənənəyə çevrilmiş, davamlı xüsusiyyətə malikdir. Müstəqillik

dövründə ölkəmizdə tolerantlıq və dialoq ənənələrinin keyfiyyət mərhələsinə yüksəlməsi, gerçək uğurlar göz önündədir .

Dilindən, dinindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdirlər və bu hüquqlar qorunmalıdır. Azərbaycanın ən başlıca sərvətlərindən biri, bəlkə də ən başlıcası qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən adamlardır .

Bugünkü Azərbaycan H.Əliyevin çoxillik gərgin və uzaqgörən fəaliyyətinin məhsuludur. Məhz H.Əliyev zəkası və müdrikliyi tarixi varisliyi qoruyub saxlaya bildi. Ölkəni yeni demokratik inkişafa doğru apardı və Azərbaycanı sivil ölkələr siyahısına yazdırdı.

Uzaqgörən dahi siyasətçi Heydər Əliyevin respublikaya qayıdışı Azərbaycan xalqını, dövlətini parçalanmaqdan, məhv olmaqdan qorudu və bununla da dövlətçiliyimizi xilas etdi. Heydər Əliyev irsində azərbaycançılıq ideyası əsas amildir. Ulu öndər hər zaman ölkəmizdə yaşayan müxtəlif xalqların vahid ailədə yaşamalarına dəyər vermiş və çıxışlarının birində, “Biz azərbaycanlıyıq, hamımızın vətəni Azərbaycandır. Bizi bir xalq, bir millət, bir insan olaraq bu torpaq ərsəyə gətirmişdir. Buna görə də, bizim hər birimizin canında azərbaycanlılıq ruhu yaşayır. Bizi bir-birimizə bağlayan və daha çox birləşməyə sövq edən də azərbaycanlılıq ruhu, azərbaycançılıq ideyası olmalıdır. Hər bir dövlətin milli ideologiyası olur. Müstəqil Azərbaycan Respublikasının da milli ideologiyası azərbaycançılıq ideologiyasıdır”- söyləyərək, - Azərbaycan bu ölkədə yaşayan hər bir kəs üçün Vətəndir–deyir, milli-mənəvi dəyərlərə sözün əsl mənasında dəyər verirdi.

Multikulturalizm etnik-mədəni müxtəlifliklərin və multikultural dəyərlərin qorunmasını və inkişafını nəzərdə tutur. Multikulturalizmi təbliğ edən ölkə onu dövlət ideologiyasının

tərkib hissəsi kimi dövlət siyasəti səviyyəsinə qaldırır. Azərbaycançılıq ideologiyası bu baxımdan xüsusi rola malikdir. Milli ideologiyamızın əsasını təşkil edən azərbaycançılıq ideologiyası Azərbaycanda yaşayan xalqların siyasi, iqtisadi, sosial və mədəni tərəqqisinə yönələn bir ideologiya hesab olunur.

Azərbaycanın həm keçmiş dövrdəki, həm də artıq iyirmi illik müstəqillik təcrübəsi onu göstərir ki, multikulturalizmin çox müsbət nəticələri var (İlham Əliyev). Milli dövlət ideologiyası olan azərbaycançılıq bu gün bizim qarşımızda dəqiq ifadə edilmiş ideya kimi durur. Bu ideyanın tarixə və onlarca xalqın qədimdən bəri bir ərazidə yaşaması, onların ümumi mentalitetə və tələbat strukturuna söykənən ümumi psixologiya ilə şərtlənən öz bölgüsü var... Azərbaycançılıq xalqımızın çox əzab-əziyyətlə nail olduğu tarixi sərvətdir. O, real müstəqilliyə nail olmaq, vahid bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir...O, Azərbaycan xalqının dövlətyaradıcı mənafelərinin ümumiliyi və demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizənin məqsədidir.

Heydər Əliyevin Azərbaycan xalqının rifahı naminə gördüyü işlərin miqyası və coğrafiyası çox genişdir. Milli maraqlara cavab verən uzaqgörən siyasəti ilə seçilən Heydər Əliyev xarici siyasətin formalaşmasında strateji mövqe tutmuş və münasibətlərin yüksək səviyyədə möhkəmlənməsinə nail olmuşdur.

Akademik Budaq Budaqovun Heydər Əliyev haqqında söylədiyi fikirlər burada tam yerinə düşər: “Heydər Əliyev siyasət dünyası okeanına asanlıqla baş vura bilən, onun sualtı qayaları arasında heç bir ciddi təhlükədən çəkinmədən məharətlə üzməyi bacaran və ən mürəkkəb sınaqlardan uğurla çıxan siyasi sərkərdədir”.

Heydər Əliyev yaşadığı dövrün tarix salnaməsini yaratdı. Ulu öndərin əsrarəngiz ömür yolu, gərgin ictimai-siyasi

fəaliyyəti müasir tariximizin şərəfli və mühüm mərhələsi hesab olunur. Xalqımızın memarı və qurucusu olan Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan dövləti durduqca Heydər Əliyev irsi yaşayacaqdır.

H.Əliyev "azərbaycançılığı" bir ideologiya olaraq irəli sürməklə ölkənin dağılması, ərazisinin etnik əlamətlərə görə parçalanması təhlükəsinin qarşısını almaq vəzifəsini həll etdi. Bu onun çox böyük vətəndaş hünəri idi və şübhəsiz, aktual milli vəzifələrin həlli üçün bütün dünya azərbaycanlılarının öz vətənləri - Azərbaycan ətrafında birləşməsinə töhfəsini verəcəkdir.

Xalqımızın böyük oğlu ölkədə yaşayan bütün vətəndaşları vahid bir ideologiya ətrafında birləşdirdi və ümumi həmrəyliyə nail ola bildi.

Heydər Əliyev hər şeydən öncə vətənpərvər idi. Onun üçün vətənpərvərlik anlamı milli-mənəvi tərbiyənin əsasını təşkil edirdi. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərə inteqrasiyasına nail olmaq deməkdir.

Vətənini, xalqını sonsuz məhəbbətlə sevən bu insan bütün ömrünü müstəqil Azərbaycanın inkişafına, xoş gələcəyinə həsr etmişdir. Elinə, obasına, xalqına bağlı bir insan olan H.Əliyev respublikamızın müstəqilliyi, xalqımızın firavan yaşaması naminə öz əməyini heç vaxt əsirgəməmişdir.

Heydər Əliyev fenomeni hələ çoxları üçün açılmamış xəzinədir. Bizə yalnız onun getdiyi həyat yolunun istiqaməti məlumdur. H.Əliyevin ən böyük xidməti Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlaması, əbədi və dönməz etməsi, ölkəmizin dünya birliyində layiqli yer tutmasını təmin etməsi olmuşdur. H.Əliyev mahir təşkilatçı olduğu qədər də, gözəl natiq idi. Yorulmadan dinləmək qabiliyyəti və nitq söyləmək ustalığına malik idi. Dinləyicisinin mənəvi enerjisini səfərbər etməyi bacaran H.Əliyev üçün bu çox adi və sadə bir iş idi.

Ulu öndər deyirdi: “Rəhbər işçinin mənəvi siması, mənəvi nümunəsi adamların tərbiyəsində mühüm amildir. Görünür təbiətin özü mənə hansısa bir qüvvə verib. Xarakterim isə qüvvə və bacarığımı səfərbərliyə almağa vadar edir. Mən həyatda yalnız üç şeyə arxalanmışam: yaradanıma, zəhmətimə və bir də xalqıma. Bəlkə də ən çox xalqıma”. Bununla öz xalqına, millətinə, onun milli-mənəvi varlığına, mədəniyyətinə səmimi münasibətini, inamını ifadə edirdi. H.Əliyev Azərbaycanın tarixi, mədəniyyəti, gələcəyi üçün yaxşı nə edilirsə, hamısını müsbət qarşılayır, qiymətləndirirdi. Ulu öndərin xarici ölkələrlə yaratdığı dostluq-qardaşlıq münasibətlərinin bu baxımdan xüsusi yeri vardır.

Ulu öndər H.Əliyevin banisi olduğu azərbaycançılıq ideologiyasının əsası olan multikulturalizm və tolerantlıq bu gün sözün əsl mənasında ölkəmizdə həyat tərzinə çevrilmişdir. Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov milli-etnik zənginliyin təcəssümü olan Qəbələdə keçirilən konfransda Ulu öndərin azərbaycançılıq ideologiyası və multikultural ənənələr prinsipini yüksək dəyərləndirərək demişdir: “H.Əliyevin müəllifi olduğu azərbaycançılıq ideyası xalqımızın minilliklər boyu formalaşdırdığı dəyərlər toplusu, mənəvi külliyyatıdır. Ulu öndər azərbaycanlılarla yanaşı digər millətlərin də maraqlarını uca tutur, hüquqlarını təmin edirdi. Bu isə elə əsl azərbaycançılıqdır”.

Azərbaycançılıq ideyasını əsas götürən Ulu öndər bütün milli xüsusiyyətlərlə yanaşı, bəşəri prinsiplərə əsaslanmışdır. “Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, kumık da, talış da, udin də, başqası da – bütövlükdə hamısı azərbaycanlıdır”- deyirdi Heydər Əliyev. Dəfələrlə milli azlıqların məskunlaşdığı bölgələrdə əhali ilə görüş keçirən H.Əliyev: ”Mən görüşlərimi milli azlıqların nümayəndələri ilə görüş adlandırmaq istəməzdim. Bu, Azərbaycan xalqının nümayəndələri ilə

görüşdü" - deyə vurğulayırdı. H.Əliyevin uzaqgörən siyasətinin nəticəsidir ki, multikultural dəyərlər, xüsusilə tolerantlıq prinsipi hüquqi sənəd olaraq Azəbaycan Respublikasının əsas qanunu olan konstitusiyada bir sıra maddələrdə öz əksini tapmışdı. H.Əliyevin yaratdığı azəbaycançılıq ideologiyası dinindən, dilindən, irqindən asılı olmayaraq ölkədə yaşayan bütün vətəndaşları birləşdirir. Heydər Əliyev hüquqi və siyasi anlamda mədəniyyətin yerini müəyyən etdi. Əsrlərlə formalaşan çoxmədəniyyətlilik ənənəsinə sadiq qalaraq mədəniyyəti ən yüksək səviyyəyə yüksəltdi. Ulu öndərin şah əsəri müstəqil Azərbaycan dövləti hesab olunursa, müstəqil Azərbaycan dövlətinin ideya əsasları tarixilik və müasirliyin nəzəri vəhdətinə əsaslanan azərbaycançılıq ideologiyası təşkil edir. Böyük şəxsiyyət Heydər Əliyevin düşünülmüş siyasəti nəticəsində azərbaycançılıq ideologiyası Azərbaycan dövlətinə qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik əlamətlər əsasında parçalamaq cəhdlərinin güclü ideoloji və siyasi sipərinə çevrildi.

Azərbaycançılıq yalnız Azərbaycan Respublikasında yaşayan azərbaycanlıları deyil, həm də bütün dünya azərbaycanlılarının milli-mənəvi maraqlarını ifadə edən məfkurə kimi xalq tərəfindən qəbul olunur. Ulu öndərin apardığı siyasətə inam nəticəsində milliyyətcə azəbaycanlı olmasa da, bir neçə nəsli Azərbaycanda yaşamış və Azərbaycanı özünü tarixi vətəni sayan insanlar da Azərbaycan Respublikası maraqlarına xidmət etməklə və ümumən Azərbaycan mədəniyyətinə qatılmaqla azərbaycançılıq məfkurəsinin daşıyıcısı olurlar.

Müdrik şəxsiyyət H.Əliyev bu yolda böyük əziyyətlər çəkmiş, vətənimizdə yaşayan bütün xalqları milli mənafelərə söykənərək vahid bir bayraq altında birləşdirməyi bacarmışdı. Bütün bunların təməlinin nəticəsidir ki, bu gün ölkə başçısı cənab İlham Əliyevin siyasi müdrikliyinin sayəsində Azərbaycanda multikulturalizm və tolerantlıq ənənələri uğurla

inkişafdadır. Artıq dünyada Azərbaycan multikulturalizmi bir model olaraq tanınır.

Ümumiyyətlə, əslində multikulturalizm ənənəsi Azərbaycan üçün bir yenilik deyil, tarix boyu xalqımızın şüurunda formalaşan bir xüsusiyyətdir. Sadəcə olaraq, bu gün ölkəmizdə multikulturalizm artıq mükəmməl bir model olaraq formalaşmışdır. Bu gün vətənimizdə çox sayda etnik qruplar sülh, əmin-amanlıq şəraitində yaşayır.

Çağdaş Azərbaycan bu gün demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda yeni-yeni uğurlar qazanır. Xalqımız özünün daha parlaq gələcəyinə doğru inamla irəliləyir. Bütün bunlar üçün hər bir vətən övladı, qədirbilən dahi xilaskara - Heydər Əliyevə borcludur. Səmərəli həyatının, ömrünün hər anı bir tarix olan, bir abidə olan Heydər Əliyev ömrü fəxarətlə xatırlanmağa layiqdir. Bu gün Azərbaycan Respublikasının prezidenti İ.Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi hər bir nailiyyət müdrik insan H.Əliyevin açdığı cığırın - azərbaycançılıq ideologiyasının nəticəsidir. Burada Ulu öndərin bir deyimini yada salmaq yerinə düşər. Haqlı olaraq, H.Əliyev çıxışlarının birində İlham Əliyev haqqında demişdir: "... O, yüksək intellektli, praktik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir... İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və istəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən, ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Qürur mənbəyimiz olan doğma vətənimiz - uğurlu inkişaf və böyük quruculuq yolunda olan müstəqil Azərbaycanımız durduqca H.Əliyevin zəngin irsi - onun azərbaycançılıq ideologiyası və multikulturalizm ənənələri daim yaşayacaqdır. Elə ulu öndər Heydər Əliyevin öz təbirincə desək: "Nə qədər Azərbaycan var, mən də varam, mən isə Azərbaycanda əbədi olacağam".

## MÖVZU 12.

## Multikulturalizm - Azərbaycan Respublikasının dövlət siyasəti kimi

**Plan:**

1. Azərbaycançılıq ideologiyası və multikulturalizmin qarşılıqlı nisbəti
2. Azərbaycanda dinlərin tarixi.

### *1 Azərbaycançılıq ideologiyası və multikulturalizmin qarşılıqlı nisbəti*

Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin əsasında Azərbaycançılıq ideyası durur. Azərbaycançılıq ideyası - Azərbaycan xalqının siyasi, iqtisadi, sosial və mədəni yüksəlməsinə yönələn bir ideyadır. Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsi tarixi Azərbaycançılıq ideyasının formalaşması prosesi ilə bağlıdır. Bu proses XIX əsrin ikinci yarısında baş vermişdir.

Ziya Göyalpa və Royd Cavana (hind əsilli qərb politoloqu) görə, şərq xalqlarının milli azadlıq hərəkatı ardıcıl olaraq üç mərhələdən keçir: mədəni, siyasi və iqtisadi. Şərq xalqlarının milli hərəkatı onların mədəni oyanışından başlayaraq, siyasi hərəkat formasını qəbul edir və daha sonra iqtisadi proqramların tərtib olunması mərhələsinə daxil olur. Bu müəlliflərin qeyd etdikləri xüsusiyyətə uyğun olaraq Azərbaycançılıq ideyası, Azərbaycan xalqının milli azadlıq mübarizəsi özünü ilkin olaraq mədəni hərəkat kimi göstərdi.

XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycan ədəbiyyatının, incəsənətinin və maarifçilik hərəkatının görkəmli xadimləri mədəni Azərbaycançılıq hərəkatına başçılıq edirdilər. Mədəni Azərbaycançılıq hərəkatının görkəmli nü-

mayəndələrinin fəaliyyəti nəticəsində Azərbaycan xalqının milli şüuru formalaşmağa başladı. Bu proses xalqın öz mədəni və etnik birliyini dərk etməsində mühüm əhəmiyyət kəsb edirdi.

Azərbaycançılıq ideyasının mədəni mərhələdən siyasi mərhələyə keçməsi Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu, Əli Mərdan Topçubaşov, Məmmədəmin Rəsulzadə kimi görkəmli şəxsiyyətlərin nəzəri və siyasi fəaliyyətləri ilə bağlıdır. Siyasi azərbaycançılığın nümayəndələri ilk dəfə olaraq Azərbaycan xalqının siyasi hüquqlarını müdafiə etməyə başladılar.

28 may 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaradılması siyasi azərbaycançılıq ideyasının inkişafında keyfiyyətcə yeni bir mərhələ idi. Bu mərhələ azərbaycançılıq ideyasının iqtisadi mərhələyə keçməyi üçün lazımi şərait yaratdı. Lakin 28 aprel 1920-ci ildə Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğal olunması səbəbindən bu keçid baş tutmadı. Azərbaycançılıq ideyasının inkişafının qarşısı müvəqqəti olaraq alındı. Azərbaycan xalqının tarixinin yeni mərhələsi – Sovet dövrü başladı.

Sovet dövrü ərzində Azərbaycan xalqının milli mədəniyyəti kommunist sivilizasiyası tərəfindən sıxışdırılırdı. Sovet İttifaqının milli siyasəti bunun həyata keçirilməsində vasitə rolunu oynayırdı. Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin qarşısında rus şovinizminin əsasını təşkil edən Sovet totalitar sistemi dururdu.

1980-ci ilin əvvəllərində Sovet totalitar sisteminin çökməsi prosesi başladı. Qorbaçovun başladığı yenidənqurma siyasəti Sovet totalitar sisteminin çökməsi prosesini sürətləndirərək müttəfiq respublikaların çoxunda, o cümlədən Azərbaycanda milli azadlıq hərəkatının qalxması üçün əlverişli şərait yaratdı. Ermənistan ölkəmizə qarşı torpaq iddialarını qaldıraraq Azərbaycanın əzəli hissəsi olan Dağlıq Qarabağı öz tərkibinə qatmaq tələbi ilə Kremlə müraciət etdi. Ermənilərin bu hərəkəti nəinki Azərbaycana qarşı yönəl-

mişdir, o, digər respublikalarda başlayan milli azadlıq hərəkatlarının inkişafında iki səbəbə görə ciddi maneə idi. Beləliklə, 1980-ci illərin sonlarında Azərbaycan xalqının milli azadlıq hərəkatının üzləşdiyi Ermənistanın ərazi iddiaları bu hərəkatın qarşısında duran böyük bir maneə idi.

Azərbaycan xalqının milli azadlıq hərəkatı o qədər də əlverişli vəziyyətdə deyildi. Belə ki, onun qarşısında iki çətin məsələ dururdu. Birincisi, Ermənistanın hərbi təcavüzündən Azərbaycanın ərazi bütövlüyü qorumaq; İkincisi, Sovet imperiyasına qarşı mübarizədə Azərbaycanın dövlət müstəqilliyini bərpa etmək. Bu iki mühüm məsələni həll etmək üçün elə bir siyasi partiya tələb olunurdu ki, o, yeni tarixi şəraitdə Azərbaycan xalqının milli azadlıq hərəkatına başçılıq etməyə, onu lazımi istiqamətə yönəltməyə qadir olsun. Bu tarixi zərurətə cavab olaraq 1988-ci ilin sonlarında Azərbaycan Xalq Cəbhəsi (AXC) meydana gəlir.

AXC-nın meydana gəlməsi siyasi azərbaycançılığın inkişafında mühüm bir hadisə idi. Fəaliyyətinin ilkin aylarında xalq tərəfindən dəstəklənən AXC bəzi obyektiv (xarici ölkələrin kəşfiyyat xidmətlərinin müdaxiləsi, Rusiyanın Ermənistana hərbi yardımı) və subyektiv səbəblərə görə (AXC liderlərinin Azərbaycan xalqının milli azadlıq hərəkatına rəhbərlik etmək iqtidarında olmamaları, onlar arasında fikir ayrılığı, parçalanma) tarixi missiyanı yerinə yetirə bilmədi. Azərbaycana düşmən olan qüvvələr AXC-nin bu səriştəsizliyindən məharətlə istifadə etdilər. Azərbaycan xalqının milli azadlıq hərəkatını yatırtmaq məqsədilə Kreml onu aqressiv bir hərəkat kimi qələmə verərək 20 yanvar 1990-cı ildə Sovet ordu hissələrini Bakıya yeridərək çoxlu sayda dinc əhali öldürdü. Ordunun dinc əhaliyə qarşı yönəldilməsi vəziyyətin artıq nəzarət olunmadığından xəbər verirdi. Lakin Sovet rəhbərliyinin bu hərəkəti Azərbaycan xalqının milli azadlıq hərəkatını dayandıra bilmədi. Əksinə ona yeni impuls verdi.

18 oktyabr 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. Bu hadisə Azərbaycan xalqının milli azadlıq mübarizəsi tarixinin üçüncü mərhələsinin başlanğıcı idi. Lakin dövlət müstəqilliyinin bərpa olunması Dağlıq Qarabağ problemini həll etmədi. İndiyədək Ermənistanın hərbi qoşunları Azərbaycanın 20% ərazisini öz işğalı altında saxlayır. Bu işğalın nəticəsində Azərbaycanda bir milyondan artıq məcburi köçkün vardır. Yuxarıda qeyd olunduğu kimi, müasir dövrdə Azərbaycan xalqının milli azadlıq hərəkatının bir kütləvi hərəkat kimi qalxmasında Dağlıq Qarabağ problemi müstəsna rol oynamışdır. Azərbaycan xalqının əksəriyyəti milli azadlıq hərəkatının əsas məqsədini Dağlıq Qarabağ probleminin həll olunmasında görürdü. Abdülrəhman Vəzirovun, Ayaz Mütəllibovun və Əbülfəz Elçibəyin xalqın təkidi ilə hakimiyyətdən getmələrinin əsas səbəblərindən biri məhz onların Azərbaycanın ərazi bütövlüyü qoruya bilmədikləri olmuşdur. Azərbaycan xalqı ölkənin ərazi bütövlüyün təmin edə biləcək və ümumiyyətlə müasir dövrdə Azərbaycanı yüksəldə biləcək yeganə şəxs kimi ümummilli lider Heydər Əliyevi hakimiyyətə dəvət etdi.

Ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı azərbaycançılıq ideyasının inkişafına, Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinə güclü təsir göstərdi. Belə ki, ümummilli lider Heydər Əliyev azərbaycançılıq ideyasını əsas tutaraq onun bütün sahələrdə inkişafını təmin etdi. İlk dəfə olaraq Heydər Əliyev azərbaycançılıq ideyasını iqtisadi sahədə yeritdi. Bundan başqa ümummilli lider Heydər Əliyev ilk dəfə olaraq multikulturalizmi azərbaycançılıq ideyasının tərkib hissəsi kimi təqdim etdi.

Ulu öndər Heydər Əliyev bununla ilk növbədə multikulturalizm siyasi modelinin assimilyasiya və izolyasiya kimi digər mümkün siyasi modellərdən üstün olduğunu bütün dünyaya göstərmişdi:

- “Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq”;

- “Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da — bütünlükdə hamısı azərbaycanlıdır. Azərbaycanlı sözü bizi həmişə birləşdirib”;

- Dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdirlər və bu hüquqlar qorunmalıdır.

- Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir.

- Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri...ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir.

- Respublikada bütün demokratik prinsiplər, insan hüquqlarının müdafiəsi, siyasi-plüralizm, söz azadlığı, sahibkarlıq azadlığı, vicdan azadlığı, dini etiqad azadlığı, milli mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların hüquqi bərabərliyi təmin edilsin - Heydər Əliyev.

Multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq (dözümlük) prinsipi Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilmişdir. Bununla bağlı “Bərabərlik hüququ” (maddə 25, bənd 3), “Milli mənsubiyyət hüququ” (maddə 44, bəndlər 1, 2), “Ana dilindən istifadə hüququ” (maddə 45, bəndlər 1, 2) və başqa maddələri göstərmək mümkündür.

Multikulturalizm siyasəti ölkənin demokratik inkişafının, insanların hüquq və azadlıqlarının müdafiə olunmasının tərkib hissəsidir. Bir neçə Qərb ölkəsinin dövlət başçılarının multikulturalizmin iflasa uğradığını qeyd etdiyi bir dövrdə Azərbaycan Respublikası multikulturalizmi özünün dövlət siyasəti olduğunu bəyan etmişdir. Azərbaycan Respublikası bu məsələyə ölkənin ümumi inkişafının mühüm məqsədlərin-

dən biri olan demokratik inkişafın, insanların hüquq və azadlıqlarının müdafiə olunmasının tərkib hissəsi kimi yanaşır.

Multikulturalizm – ölkədə etnik-mədəni dəyərlərin qorunmasına və inkişaf etdirilməsinə yönələn bir siyasətdir. Multikulturalizm dövlət siyasətinin əsas məqsədi ölkədə yaşayan bütün xalqların etnik-mədəni dəyərlərinin qorunmasına, inkişafına və cəmiyyət daxilində bu xalqların inteqrasiyasına nail olmaqdır. Azərbaycanın ərazisində yaşayan bütün xalqların, o cümlədən milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması və inkişafı məsələsinə Azərbaycan Respublikası özünün dövlət siyasətinin həm məqsədi, həm də vasitəsi kimi yanaşır. *Mədəniyyət, siyasi, iqtisadi, sosial sahə.*

*Elm və təhsil sahəsi.* Multikulturalizm dövlət siyasətinin mədəni, siyasi, iqtisadi və sosial sahələrdə uğurla həyata keçirilməsinin əsas şərtlərindən biri bu siyasətin elmi araşdırmalara əsaslanması və bu araşdırmaların nəticəsində əldə olunan elmi biliklərin əhaliyə çatdırılmasıdır. Qeyd olunanları nəzərə alaraq Azərbaycan Respublikası multikulturalizmin elmi cəhətdən təhlil olunmasına və onun ali və orta-ixtisas təhsil müəssisələrində tədris edilməsinə xüsusi fikir verir.

Azərbaycan Respublikası multikulturalizm siyasətinin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və bu kimi digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verir. Bu təşkilatların fəaliyyətlərinin mühüm bir istiqaməti insan hüquqlarının beynəlxalq müdafiəsi ilə bağlıdır. Milli və dini azlıqların hüquq və azadlıqlarının müdafiəsi isə, məlum olduğu kimi, insan hüquqlarının beynəlxalq müdafiəsinin ayrılmaz tərkib hissəsidir. Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əməkdaşlığı onun beynəlxalq aləmdə imicinin yüksəlməsinə səbəb olur.

Azərbaycan Respublikası BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və bu kimi digər beynəlxalq təşkilatların milli və dini azlıqların hüquq və azad-

lıqlarının, o cümlədən onların etnik-mədəni dəyərlərinin müdafiəsi sahəsində qəbul etdiyi qərarları dəstəkləyir. Azərbaycan Respublikası bu beynəlxalq təşkilatların milli və dini azlıqların hüquq və azadlıqlarının müdafiəsi sahəsində qəbul etdiyi konvensiyalara qoşulmuşdur. Məsələn, Avropa Şurasının "Milli azlıqların müdafiəsi haqqında" Çərçivə Konvensiya 1 fevral 1995-ci il tarixində Azərbaycan hökuməti tərəfindən imzalanmış və 16 iyun 2000-ci il tarixli Qanunla ratifikasiya edilmişdir. Azərbaycan Respublikası 26 noyabr 2009-cu il tarixli Qanunla UNESKO-nun "Mədəni özünüifadə müxtəlifliyin qorunması və təşviqinə dair" Konvensiyasına qoşulmuşdur. Bu Konvensiya ölkəmizdə 15 may 2010-cu ildə qüvvəyə minmişdir.

### *2. Azərbaycanda dinlərin tarixi*

Əlverişli iqlimə, münbit torpaqlara və gözəl təbiətə malik Azərbaycan bütün dövrlərdə cəlbedici və diqqət mərkəzində olub. Şübhəsiz ki, Azərbaycan ərazilərində müxtəlif tarixi dövrlərdə çoxsaylı etnik və dini qrupların məskunlaşmasında bu amil böyük rol oynayıb. Amma inkaredilməz faktdır ki, bu məsələdə coğrafi şərait yeganə amil deyil. Müxtəlif xalqlara və dinlərə mənsub insanların Azərbaycana pənah gətirməsinin əsas səbəbi bu ölkədə yaşayan insanların mədəniyyəti və onların xarakterik keyfiyyətinə çevrilmiş tolerantlıq xüsusiyyətidir. Bu, elə bir sərvətdir ki, min illər boyu heç bir qüvvə onu Azərbaycan xalqından ala bilməyib, əksinə, əsrlər keçdikcə daha da zənginləşib və möhkəmlənib.

Səmavi dinlərə qədər Azərbaycan ərazilərində bütpərəstlik hökm sürmüşdür. Amma bu dövrdə bəzi inanclara, xüsusilə, oda, suya, ağaca və səma cisimlərinə inam daha güclü olmuşdur. Min illərin keçməsinə baxmayaraq, bu inamın əlamətləri insanların yaddaşında qalmış və bu gün də onların hə-

yat tərzində özünü büruzə verir. Məsələn, ilk insandan üzü bəri oda bütün dövrlərdə qoruyucu, müqəddəs təmizləyici qüvvə kimi baxılmışdır. Odun hər cür çirkinliyi yox etdiyinə və insanlara təmizlik gətirdiyinə inam bəslənmişdir. Ümumiyyətlə, həyatın mövcudluğunu şərtləndirən əsas komponentlər kimi od, su, torpaq və hava İslamın yayılmasına qədər Azərbaycan ərazilərində yaşayan insanların etiqadında önəmli yer tutmuşdur. Atəşpərəstlik də bu təsəvvürlərlə bağlı inanclar zəminində meydana çıxmışdır. Azərbaycan ərazisində məskunlaşan əhalinin böyük bir qismi odu müqəddəsləşdirmiş, ona sitayiş etmişdir.

Novruz bayramı ilə günümüzədək gəlib çatan od ayin və mərasimləri Azərbaycanda atəşpərəstliyin güclü ənənələri olduğunu göstərir. Azərbaycan ərazisində Atropatenanın dini mərkəzi Qazakada, Bakı, Şamaxı, Salyan və Lənkəranda atəşgahlar olmuşdur. Suraxanıdakı atəşgah Hindistandan gələn atəşpərəstlərə xidmət üçün XVIII əsrdə tikilmişdir.

Qafqaz Albaniyasında atəşpərəstlik xristianlıq tərəfindən təqibə məruz qalsa da, mövcudluğunu qoruyub saxlaya bilmişdir. İslamın Azərbaycana gəlişi ilə atəşpərəstlik tədricən əhəmiyyətini itirmiş və aradan qalxmışdır.

**Bütpərəstlik.** Çoxallahlılıqla bağlı inancların məcmusu kimi bütpərəstlik ibtidai dinlərin zəminində yaranmışdır. Azərbaycan əhalisinin bütpərəstlik təsəvvürlərinin kökləri çox qədimlərə gedib çıxır və animizm (ruh mənasını daşıyan latın sözü “anima”dan əmələ gəlmişdir. Ruhların mövcudluğuna, heyvanların, bitkilərin, cansız cisimlərin, təbiət qüvvələrinin ağlı olduğuna, onların fövqəltəbii qüvvəyə malik olduğuna etiqad animizm adlanır), fetişizm (cansız cisimlərə, qayalara, ağaclara, gildən düzəlmiş bütlərə, insanabənzər təsvirlərə sitayiş fetişizm adlanır), totemizm (bir soya, tayfaya mənsub adamlarla bir heyvan və ya bitki növü, bəzən də hansısa təbiət hadisəsi arasında əlaqə, mənşə və qan qohumluğu olduğuna inanc), şamanlıqdan (sehrçinin, türkəçarəçinin vəcd halında

cuşa gələrək ruhlarla əlaqəyə girməsi, şər ruhları qovması) tutmuş tanrıçılığa qədər müxtəlif xalq inanclarını ehtiva edir. Filoloji və etnoqrafik araşdırmalar ölkə ərazisində bütpərəstliyin mənzərəsini yaratmağa imkan verir. Arxeoloji qazıntılar Xınıslı, Dağkolanı, Çırağlıda qədim tarixə malik iri daş bütlər, İsmayıllıda antropomorf fiqurlar, Mingəçevirdə gil heykəllər aşkar etmişdir. Dədə Qorqud dastanlarında tanrıçılıq inanclarına aid nümunələr tapmaq mümkündür.

Bütpərəstliklə bağlı ayinçilik çox vaxt sintez halında təmsil olunmuşdur, yəni, inanclar bir-birindən az fərqlənmiş, biri digərindən təsirlənmiş, bir-birini tamamlayaraq bölgə əhalisinin mənəvi dəyərlər sisteminin təşəkkülündə birgə iştirak etmişdir. Qədim Azərbaycan ərazisində ölmüş əcdadların ruhlarına, qayalara və ağaclara (qayın, palıd və s.), müxtəlif təbiət hadisələrinə və səma cisimlərinə pərəstiş güclü olmuşdur. Tanrı xan adı ilə tanınan palıd ağacına da pərəstiş edilir, at qurban kəsilirdi. Movses Kalankatvasi Alban hökmdarlarının xristianlığı yaymaq üçün bütpərəstliyə qarşı çağırışları, ağac bütləri kəsib atmaları barədə məlumat vermişdir.

**Zərdüştilik.** Zərdüştilik tarixən Azərbaycan ərazilərində yaranaraq digər ərazilərə yayılmışdır. Adətən, atəşpərəstliyi zərdüştilik dini ilə eyniləşdirirlər. Əslində zərdüştilik atəşpərəstliyin içindən çıxsa da, müstəqil din kimi meydana gəlmişdir. Halbuki, hər iki inam müstəqil din sahələri kimi meydana gəlib və onların yaranması bilavasitə Azərbaycan əraziləri və xalqı ilə bağlıdır.

Zərdüşti əqidələrində od mühüm yer tuturdu və buna görə zərdüştiləri çox vaxt atəşpərəst hesab edirlər. Zərdüştilər ölmüş adamların cəsədlərini murdar hesab etdikləri üçün torpağa tapşırmır, dağlarda hazırladıqları xüsusi yerlərdə saxlayırdılar ki, qurd-quş yesin. Yalnız bundan sonra təmizlənmiş sümüklər yığılaraq dəfn edilirdi.

Zərdüştiliyə qədər dünyada müxtəlif dinlər və inanclar olub, amma onların hamısı məhəlli xarakter daşıyıb və demək

olar ki, yarandığı bölgənin sərhədlərini aşa bilməyib. Üç böyük imperiyanın dövlət dini olmuş zərdüştilik nəinki məhəlli din anlayışının sərhədlərini aşmış, hətta ilk dəfə qədim dünyada mükəmməl din, dünyagörüşü, əxlaq və məişət, mənəviyyat prinsipləri toplusu yaratmışdır. Bu dinin özəlliyi ondadır ki, onun yaradıcısı sayılan Zərdüşt özünə qədər mövcud olan ilahların hamısını rədd edərək yeganə Allah - Hörmüzü kainatın və bütün canlı varlıqların yaradıcısı kimi irəli sürüb. Bu baxımdan, bütpərəstlikdən fərqlənən Zərdüştilik bütpərəst dinlərlə səmavi dinlər arasında ayrıca bir mərhələ təşkil edir.

Bu dinin əhatə dairəsi yalnız Azərbaycanın tarixi ərazi-ləri və Yaxın Şərqlə məhdudlaşmamış, Qərbə, xüsusilə qədim yunan və Hind mədəniyyətinə ciddi təsir göstərmişdir. Tarixi faktlar, eləcə də bizə gəlib çatmış yunan tarixçi və filosofları-nın əsərləri sübut edir ki, zərdüştiliyin müqəddəs kitabı olan Avesta, xüsusilə, bu kitabı yaradan maqlar, onların təlimində və atəşpərəstlik dinində islahat aparmış Zərdüşt yunan mədə-niyyətinin inkişafında böyük rol oynayıb. Bəlkə, elə buna gö-rədir ki, ingilis tədqiqatçısı Meri Boys Zərdüştiliyin bəşəriyyətə bütün digər etiqad növlərindən daha artıq dərəcədə təsir göstərdiyini iddia edir.

Əksər tədqiqatçılar təsdiqləyir ki, Zərdüştün dövrünə qədər analoqu olmayan ideyaları nəinki onun ardıcıllarına, hətta qədim dövrün bir çox aliminə - Platona, Aristotelə, Her-mippinə və başqalarına güclü təsir göstərib. Uzun tarixi dövr ərzində dövlət dini statusunu qoruyub saxlayan zərdüştilik VII əsrdən etibarən, yəni İslamın yayılması ilə əlaqədar zəifləməyə başlayıb. Təsir dairəsi bu qədər geniş olan, Hin-distanda və İranda indiyədək mənsubları yaşayan zərdüştilik Azərbaycanın tarixi ərazilərində yaranmış və Azərbaycan xalqının bəşəriyyətin mədəni dəyərlər sisteminə ərməğan etdiyi ilk böyük töhfədir.

Zərdüşti əqidələri e.ə. III əsrdən etibarən ehkam səciyyəsi daşımağa başlamışdır. Azərbaycan ərazisində Dərbəndə qədər zərdüştilik sasanilərin hərbi-siyasi uğurları ilə bağlı olaraq yayılmağa başlamışdır. Yeni dinin təbliği məqsədilə bu ərazilərə iranlı zərdüştilər köçürülürdü. Eyni zamanda Azərbaycanda zərdüştilik yerli xüsusiyyətlər də kəsb etmişdir. Azərbaycan ərazisində nüfuz dairəsini genişləndirmək üçün sasanilərlə bizanslılar arasında şiddətli mübarizə getmiş, nəticədə gah zərdüştilik, gah da xristianlıq güclənmişdir. Belə bir şəraitdə bölgəyə gələn islam sürətlə və nisbətən dinc yolla yayılmaq imkanı əldə etmişdir.

**Yəhudilik.** Azərbaycan xalqının bu zənginliyini təsdiqləyən və min illər ərzində ondan faydalanan xalqlardan biri də yəhudilərdir. Azərbaycanda məskunlaşmalarının tarixi 2600 il öncəyə gedib çıxan yəhudilərin bu böyük tarixi dövr ərzində azərbaycanlılar tərəfindən nə vaxtsa dini ayrı-seçkiliyə məruz qalmalarına dair heç bir fakt yoxdur.

Yəhudilər Azərbaycana gəlməmişdən əvvəl bu ərazilərdə müxtəlif dinlər və inanclar olub, lakin onların heç biri kənardan gəlməyib, burada formalaşıb. Bu baxımdan, Azərbaycana kənardan gəlmiş ilk din olan yəhudilik həm də bu ərazilərdə yayılan ilk səmavi dindir. Azərbaycanda ən qədim yəhudi icması sayılan dağ yəhudiləri bizim eradan əvvəl VI əsrdə Yerusəlimdə birinci xram adlanan məbədin sökülməsi nəticəsində vətənlərini tərk etmiş qədim yəhudi qəbilələrinin nəslindəndirlər.

Azərbaycanda üç yəhudi icması - dağ, əşkinazi və gürcü yəhudiləri icmaları mövcuddur. Bütövlükdə ölkədə yəhudilərin sayı təxminən 16.000-dir. Bunlardan 11.000-i dağ yəhudiləridir ki, təxminən 6.000-i Bakıda, 4.000-i Qubada, min nəfəri isə digər şəhərlərdə yaşayır. Dağ yəhudiləri hazırda ölkədəki bütün yəhudi diasporu arasında çoxluq təşkil edir. Əşkinazi yəhudilər 4,3 min nəfərdir. Onların əksəriyyəti Bakıda və Sumqayıtda yaşayır. Gürcü yəhudiləri təxminən

700 nəfərdir. Onların ölkəmizə gəlişi əsasən XIX əsrin sonuna, sənaye bumu dövrünə təsadüf edir.

Bir fikrə görə, ən qədim yəhudi icmalarından olan dağ yəhudiləri mənşəcə bir vaxtlar Assuriya və Babil şahları tərəfindən Fələstindən çıxarılmış və Midiyada məskunlaşdırılmış İsrail oğulları nəslindəndirlər. Onların əcdadları yəhudiliyə ilk iman gətirmiş insanlar olmuş, Fələstindən kənarda yaşamış və xristianlıq yəhudiliyin içindən çıxan bidətçi bir firqə kimi təşəkkül tapmağa başlayanda İsa Məsihi təqib edənlər arasında olmamışlar. Elə Midiyada ikən onlar tatlarla qaynayıb qarışmışlar. Bunun təsiri altında dağ yəhudiləri fars dilinin qədim arami və yəhudi sözləri ilə qatışıq bir ləhcəsi olan tat dilində danışırlar.

Başqa tədqiqatçıların fikrincə, dağ yəhudiləri Şərqi Qafqaza Sasani hökmdarı Xosrov I Ənuşirəvan (531-579) tərəfindən köçürülmüşlər. Hökmdar Qafqazda qalalar tikdirir, şəhərlər saldırır, bu şəhərlərdə Mesopatamiyadan köçürtdüyü farsları və yəhudiləri yerləşdirirdi. Dağ yəhudilərinin danışdıqları tat dili də həmin dövrdən miras qalmışdır.

Hər halda deyə bilərik ki, dağ yəhudiləri Azərbaycana sasanilərin siyasəti ilə bağlı olaraq 15 əsr bundan qabaq gəlmiş, imperiyanın təhlükəsizliyini təmin etmək məqsədilə sərhəd məntəqələrində yerləşdirilmiş, yerli əhali ilə sıx təmasda olsalar da, dinlərini, adət-ənənələrini, həyat və düşüncə tərzlərini qoruyub saxlamışlar. Dağ yəhudiləri əqidə məsələlərində əşkinazi yəhudilərlə müqayisədə daha ortodoksaldırlar.

Hazırda Bakıda, Oğuzda, Qubada dağ yəhudilərinin bir neçə sinaqoqu fəaliyyət göstərir. Qubadakı Krasnaya Slobada qəsəbəsi bütün postsovet məkanında dağ yəhudilərinin kompakt yaşadıqları yeganə yerdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra buradakı yəhudi icmaları daha da fəallaşmış, beynəlxalq yəhudi təşkilatları ilə əlaqələrini möhkəmlətmiş, öz dini məktəblərini,

mədəniyyət mərkəzlərini, cəmiyyətlərini, klublarını və qəzetlərini yaratmışlar. 2003-cü il martın 9-da Bakıda Avropada ən böyük yəhudi sinaqoq açılmışdır.

Yəhudi dininə mənsub insanlar təkcə Azərbaycanda yox, dünyanın əksər ölkələrində yaşayırlar və məlum məsələdir ki, onlara münasibət hər yerdə eyni deyil. Amma Azərbaycanda bu dinin mənsublarına bütün tarixi dövrlərdə münasibət birmənalı olub, hansısa yəhudi nə vaxtsa özünü "ögey övlad" kimi hiss etməyib, əksinə, böyük bir ailənin bərabərhüquqlu üzvü kimi həmişə onun rifahı və inkişafı üçün çalışıb. Ümumiyyətlə, yəhudilərə göstərilən münasibətə görə Azərbaycan yalnız İsraillə müqayisə oluna bilər. Bu fikir təkcə azərbaycanlıların və bu ölkədə yaşayan yəhudilərin yox, həm də başqa dövlətlərin, o cümlədən İsrail vətəndaşı olan yəhudilərin təsdiqlədikləri həqiqətdir.

**Xristianlıq.** Xristianlıq Azərbaycan ərazisinə yeni eranın ilk əsrlərində, hələ İsa Məsihin həvariləri dövründə Qafqaz Albaniyası vasitəsilə nüfuz etmişdir. 70-ci ildə Yerusəlimin (Qüdsün) süqutundan sonra yəhudilərin Qafqaza köçürülməsi güclənir. Gələnlər İsanın göstərdiyi möcüzələrdən danışırlar. Bu cür təbliğin təsiri altında bölgədə ilk xristian icmaları yaranır. Albaniyada xristianlığın yayılmasında bu dövr *həvari dövrü* adlanır və həvarilərdən Varfolomey və Faddeyin adları ilə bağlıdır. Həvari Faddeyin şagirdlərindən olan Yelisey Yerusəlimin birinci patriarxı Yəqubun xeyir-duası ilə yeni dini təbliğ edə-edə Aqvan diyarına gəlib çıxmış və Kiş adlı yerdə kilsə tikmişdir. Bu kilsə Ermənistandakı birinci xristian kilsəsindən qabaq tikilmişdir.

313-cü ildə Roma imperatoru Konstantin xristianlığa etiqad üzərindən qadağanı götürəndə Alban hökmdarı Urnayr xristianlığı dövlət dini elan edir. Bu vaxtdan etibarən Azərbaycanda xristianlığın yayılmasının *qrekofil dövrü* adlanan yeni dövrü başlanır. Akademik Z.Bünyadov göstərir

ki, Urnayr, II Vaçe və III Vaçaqan ölkədə xristianlığı yaymaq üçün mübarizə aparmışlar. IV-V əsrlərdə ruhanilik və kilsə iyerarxiyası təşəkkül tapır. Katolikosun göstərişi ilə feodallar öz ərazilərində kilsə üçün xüsusi yerlər ayırırdılar. Bölgədə kilsələr tikilir, dini kitablar süryani, arami və yunan dillərindən Alban dilinə tərcümə edilirdi.

Azərbaycan tarixinin xristianlıqla bağlı məqamları təkcə İslamdan öncəki dövrə aid deyil, əksinə, İslam Azərbaycanda aparıcı dinə çevrildikdən sonra da bu ərazilərdə xristianlar yaşayıb və ümumi mədəniyyətimizin formalaşmasında yaxından iştirak ediblər. Üstəlik müəyyən tarixi dövrlərdən başlayaraq bu dinin müxtəlif qolları - pravoslavlıq, katoliklik və protestantlıq, eləcə də lüteranlıq ölkəmizdə yayılıb və yaşamaq hüququ qazanıb.

Azərbaycanın ikiyə bölünməsindən və Rusiya işğalından sonra bölgədə fərqli dini mühit formalaşıb ki, onun təsiri hələ də davam edir. Çünki Rusiyanın işğalından sonra xristianlığın pravoslav və lüteran qoluna mənsub xeyli sayda insan kütləvi şəkildə Şimali Azərbaycana köçürüldü və ölkədə əhalinin istər din, istərsə də məzhəb baxımından tərkibi xeyli dəyişdi. Şübhəsiz, XIX əsrin ikinci yarısında Bakıda neft sənayesinin inkişafı nəticəsində işləmək üçün müxtəlif ölkələrdən Azərbaycana gələn insanların sayı xeyli artdığından əhalinin dini tərkibi daha da zənginləşdi. Bunu həmin dövrdə Bakının dini xəritəsi də təsdiqləyir. 1913-cü ilin məlumatına görə, Bakıda 76 min 927 xristian, 9 min 592 yəhudi, 3 min 801 lüteran, 2 min 902 katolik, 4 min 496 sektant, 262 nəfər təriqətçi yaşayıb və həmin dövrdə Azərbaycanda məscidlər, pravoslav baş kilsələri, kiçik kilsələr, kirxa və sinaqoqlar, məbədlər və s. fəaliyyət göstərib. Məhz bu dövrdə Roma-katolik, lüteran və bir sıra protestant icmaları formalaşıb. Bütün bunlar onu göstərir ki, tarixən çox konfessiyalı ölkə olan Azərbaycanda tolerantlıq prinsiplərinin qorunması üçün

münbit şərait olub və təkcə ölkənin yerli əhalisi yox, hətta əcnəbilər də bu mühitdən maksimum bəhrələniblər.

**Alban-udi xristian kilsəsi.** Azərbaycanda xristianlığın tarixi Alban kilsəsindən başlayır. Qədim qaynaqlar sübut edir ki, Alban kilsəsi nəinki Qafqazda, hətta bütün xristian dünyasında ən qədim kilsələrdən biridir və apostol mənşəlidir. Alban kilsəsinin qədimliyini təkcə tarixi faktlar yox, həm də mövcudluğunu dövrümüzə qədər qoruyub saxlamış qədim alban məbədləri təsdiqləyir.

Alban katolikosunun iqamətgahı Çoqay şəhərində yerləşirdi. 552-ci ildə iqamətgah Bərdəyə köçürülmüşdür. İslam fütuhatlarından, xüsusilə Alban məlikliyinin süqutundan sonra ölkədə xristianlığın rolu zəifləmiş, kilsələrdə ibadət erməni dilində aparılmış, Alban dili sıxışdırılmışdır. VIII-IX əsrlərdə Azərbaycan ərazisində müstəqil dövlətlər yarananda Alban kilsəsi yenidən avtokefal kilsə statusunu bərpa etmişdir.

Xristianlıqla bağlı araşdırmalar aparan tədqiqatçıların ümumi qənaətinə görə, Şəkidə yerləşən, "Şərq kilsələrinin anası" sayılan və günümüzə qədər qorunub saxlanılan Kiş kilsəsi Qafqazda ilk xristian məbədidir. Əslində dövrümüzə qədər gəlib çatmış və böyük əksəriyyəti Qarabağ, Qəbələ-Şəki-Zaqatala bölgəsində yerləşən alban abidələri xristian Azərbaycan türklərinin xristian mədəniyyətinə, ümumilikdə, bəşəriyyətin mədəni dəyərlər xəzinəsinə ən böyük töhfəsidir.

Təəssüf ki, Azərbaycana qarşı işğalçılıq siyasəti aparan təcavüzkar Ermənistan Azərbaycan xalqının tarixində böyük bir mərhələni təşkil edən alban abidələri saxtalaşdırılaraq qriqoryanlaşdırılmışdır. Ermənistan işğal etdiyi ərazilərdə saxtalaşdırdığı alban məbədlərini dünyada erməni abidələri kimi qələmə vermişdir. Halbuki, həm tikilişinə, həm memarlıq xüsusiyyətlərinə, həm də dini atributlarının formasına görə alban abidələri erməni kilsələrindən fərqlənir və alban ənənələri erməni kilsəsi ilə müqayisədə alban kilsəsinin daha qədim olduğunu təsdiqləyir.

Çar Rusiyası tərəfindən Qarabağa köçürülən ermənilərin hiyləsinə uyan Rusiya çarı 1836-cı ildə fərman imzalayaraq Alban kilsəsini ləğv edir, Alban məbədləri, kilsəyə aid olan bütün avadanlıq və sənədlər erməni apostol kilsəsinə verilir. Bu şəraitdə udilər ya qriqoryanlığı qəbul edib erməni olmalı, yaxud dinsiz insanlara çevrilməli idilər. Lakin onlar misilsiz qəhrəmanlıq göstərib 160 ildən çox bir dövrdə öz adət-ənənələrinə, dininə, tarixi vətəninə sadiq qalmış, erməniləşməmiş, əksinə 1836-cı ildə həyata keçirilən tarixi ədalətsizliyi həmişə aradan götürməyə çalışmışlar. Udili ziyalıların təşəbbüsü ilə 2003-cü ildə Alban-Udi xristian icması yaradılmış və müvafiq qaydada dövlət qeydiyyatından keçmişdir. İcmanın qeydiyyatı Alban apostol avtokefal kilsəsinin dirçəldilməsi, ümumiyyətlə, tarixi ədalətsizliyin aradan qaldırılması yolunda ilk addımdır. Azərbaycan hökumətinin dəstəyi ilə Şəki rayonunun Kiş kəndində yerləşən və Qafqazda kilsələrin anası hesab olunan apostol Yelisey kilsəsi bərpa edilmiş, 2006-cı ildə isə udilərin kompakt halda yaşadığı Qəbələ rayonunun Nic qəsəbəsindəki "Çotari" Alban-udi kilsəsinin rəsmi açılışı olmuşdur. Təbii ki, Alban-udi xristian icmasının dirçəldilməsi və alban abidələrinin bərpası tarixi ədalətsizliyin aradan qaldırılması, ölkəmizdəki tolerantlıq mühitinin qorunub saxlanılması baxımından təkcə Azərbaycan deyil, həm də bütün dünya tarixində mühüm əhəmiyyət kəsb edir.

Alban-udi xristian dini icmasının qeydiyyat alınması formal olaraq digər icmaların qeydiyyatından fərqlənməsə də, xarakter, məzmun, dini və siyasi əhəmiyyət baxımından çox əlamətdar bir hadisədir. Bu gün Udi etnosuna mənsub olan insanların sayı dünyada 10.000-ə qədərdir ki, onların 6000-i Azərbaycan ərazisində, o cümlədən 4.400-ü kompakt şəkildə Qəbələ rayonunun Nic kəndində yaşayır.

**Pravoslavlıq.** Azərbaycana XIX əsrin əvvəllərindən etibarən rus çarizminin bölgədə yeritdiyi "köçürmə siyasəti" çər-

çivəsində nüfuz etməyə başlamışdır. Bakıda ilk pravoslav kilsəsi 1815-ci ildə fəaliyyətə başlamışdır.

Rus pravoslav kilsəsində baş verən parçalanmanın ağır nəticələrindən sığortalanmaq üçün sektant xristianların Qafqaza sürgünü başlanır. Azərbaycanda ilk rus köçkünləri 1834-cü ildə Şamaxı qəzasında Altı-Ağac kəndini, 1838-ci ildə Lənkəran qəzasında Vel kəndini, 1842-ci ildə Yelizavetpol quberniyasında Borisı - Ruslar, 1844-cü ildə isə Slavyanka kəndlərini salırlar. 1868-ci ildə Bakı quberniyasının ərazisində 21 sektant kəndi var idi ki, burada 13 min sektant yaşayırdı.

Pravoslavlığın Azərbaycanda yayılmasında, yeni kilsə və ibadət evlərinin inşasında Azərbaycanlılar da fəal iştirak etmişlər. Məsələn Bakıda yeni "Aleksandr Nevski" kafedral kilsəsinin tikilməsinə həm müsəlmanlar, həm də yəhudilər maliyyə yardımı etmişlər. Müsəlman ruhanilər dindarları kilsənin tikintisinə yardım göstərməyə çağırmış, hətta müsəlman qadınlar öz gümüş zinət əşyalarını metal zənglərə əlavə olunması üçün kilsəyə bağışlamışlar. Başqa bir fakt: Arxangel Mixail məbədi yanan zaman bir çox müsəlman onun bərpasına kömək göstərmişdir. Pravoslav ruhanilər bunun səbəbini soruşduqda isə belə cavab veriblər: "Tanrının evi yanan şəhərə müsibət üz verər".

**Katoliklik.** Azərbaycanda xristianlığın yayılma tarixində katoliklik ayrıca səhifə təşkil edir və bu səhifənin yaşı əsrlərlə ölçülür. Azərbaycanda hələ orta əsrlərdən yayılmağa başlayan katoliklik XIV əsrin əvvəllərindən etibarən, xüsusilə, XVII-XVIII yüzilliklərdə geniş yayılıb, hətta Azərbaycanın ən iri şəhərlərində katolik monastrları, missiya və məktəbləri fəaliyyət göstərib.

Tarixi sənədlər katolik missionerlərin çoxsaylı xeyriyyə, tərcümə və tibb fəaliyyətlərindən, yerli əhaliyə göstərdikləri yardımlardan xəbər verir. Xüsusilə, XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində - neft bumu dövründə Bakıya çoxsaylı

katoliklər köçmüş və Azərbaycanda katolik kilsəsinin həyatında yeni mərhələ başlamışdır.

Bakıda ilk Roma-katolik prixodu XIX əsrin 50-ci illərində rus ordusu tərəfindən hərbçi katoliklərin Qafqaza sürgün edilməsi ilə əlaqədar olaraq yaradılmışdır. Prixod Tetri-Skarodakı (Gürcüstan) Roma-katolik hərbi prixoduna tabe idi. 1882-ci ildə Bakı prixodu müstəqilləşir. 1895-ci ildə Müqəddəs Məryəmin Bakirə Hamiləliyi şərəfinə kilsə, 1903-cü ildə isə Bakı qəbiristanlığında Müqəddəs Xaç kilsəsi tikilir. 1909-1912-ci illərdə Bakının gözəl memarlıq abidələrindən sayılan yeni Müqəddəs Məryəmin Bakirə Hamiləliyi kilsəsi qotik üslubda inşa edilir. Sovet dövründə kilsə dağıdılmışdır. 1999-cu ildə Bakıda Roma-katolik icması yenidən bərpa olunur. 2001-ci ildə icma öz ibadət evini yaradır. 22-23 may 2002-ci ildə Roma-katolik kilsəsinin sabiq başçısı Papa İoann II Pavel Bakıda rəsmi səfərdə olmuşdur. 2008-ci ildə Bakıda Roma-katolik kilsəsi üçün inşa olunmuş yeni binasının açılışı olmuşdur. Tədbirdə dövlət rəsmiləri və xarici qonaqlar iştirak etmişdir.

**İslam.** Azərbaycanın islamlaşması hicrətin 18-ci ilindən (639-ci il) başlanmışdır. Həmin dövrdə ərəblər Ərdəbil, Təbriz, Naxçıvan, Beyləqan, Bərdə, Şirvan, Muğan və Arranı fəth edir, Xəzər sahili boyunca Dərbəndə kimi irəliləyirlər. Tarixçi Bəlazurinin məlumatına görə, artıq xəlifə Əli bin Əbu Talibin hakimiyyəti dövründə (656-661) Azərbaycan əhalisinin əksəriyyəti islamı qəbul etmişdi. Şimalda bu proses bir qədər uzun çəkmişdir. Ərəblər fəth etdikləri ərazilərdə əhali üzərinə vergi qoyur, sülh müqaviləsi bağlayıb yürüşlərini davam etdirir, sonra yenə geri qayıdırdılar. Yerli əhali vergiləri verməkdən imtina etdikləri halda hücumlar başlanırdı.

İslam fütuhatları çox yerdə sülh yolu ilə, bəzi yerlərdə isə silah gücünə həyata keçirilirdi. Fəth edilmiş ərazilərdə bütpərəst əhaliyə islamı qəbul etmək təklif olunurdu, qəbul

edənlərə toxunulmurdu. İslamı qəbul etməyən yəhudi və xristianlar cizyə ödəyir və müsəlmanların himayəsi altında olurdular. İslamı qəbul etməkdən imtina edənlər müsəlmanlarla döyüşməli olurdular. Sərhəd məntəqələrində ancaq müsəlmanlar yaşayırdılar. Bu məntəqələri möhkəmlətmək üçün Xilafətin müxtəlif vilayətlərindən gələn müsəlmanlar burada yerləşdirilir, islamı qəbul etməyən yerli əhali bir qədər kənara köçürülürdü.

Azərbaycanda islamlaşma prosesini bir neçə mərhələyə bölmək olar. Birinci mərhələ kimi VII əsrin ortalarından VIII əsrin əvvəllərinə qədər davam edən islam fütuhatları dövrünü götürmək olar. Bu mərhələ 705-ci ildə Alban dövlətinin süqutu və Alban kilsəsinin öz müstəqilliyini itirməsi ilə bitir. Bu mərhələnin sonunda islam Azərbaycanda hakim din olur, onu öz imtiyazlarını qorumaq üçün ilk növbədə və qeydsiz-şərtsiz yuxarı silk adamları qəbul edirlər. Yeni din tacir və sənətkarlar arasında yayılırdı, çünki ərəblər bu siniflərə güzəştlər edirdilər. Bu mərhələdə məscidlər tikilmir, qədim məbədlər və islamlaşma nəticəsində istifadəsiz qalmış kilsələr məscidlərə çevrilir, qəbilə-tayfa şüurunun dini şüurdan üstünlüyü qorunub saxlanılırdı.

İkinci mərhələ VIII əsrin əvvəllərindən Qərbi İranda və İraqda Büveyhilərin hakimiyyətə gəlməsinə qədərki dövrü əhatə edir. Azərbaycan ərazisində müstəqil Şirvanşah Məzyədilər və Səcdilər dövlətləri yaranır. Bütpərəstlik, zərdüştilik əhəmiyyətini itirir, yəhudilik mövcudluğunu qoruyub saxlayır, Alban kilsəsi müstəqilliyini bərpa edir, amma nüfuz dairəsi zəiflədiyindən ayinlər erməni dilində aparılır, ardıcılları erməniləşir. Bu dövrdə islama mənsubluq şüuru güclənir, amma etnik köklərlə bağlı şüur tamamilə itib getmir. Bunu Abbasilərin hakimiyyətinin ilk dövrlərindən başlanan şüubilik hərəkatında izləmək mümkündür. Babək hərəkatı (816-838) buna ən parlaq misaldır. Sərhəd məntəqələrində islam

təsəvvüfü təşəkkül tapır. Dağ rayonlarında ifrat şiəlik fəallaşır.

Üçüncü mərhələ Büveyhilərin hakimiyyəti dövrünü (935-1055) əhatə edir. Bu dövrdə mötədil şiəlik Azərbaycanda yayılmağa başlayır və Dərbəndə qədər gedib çıxır. Sünni hənəfi və şiə imami məzhəbləri aparıcı məzhəblər olurlar. Sufilik də özünə xeyli ardıcıl tapır.

Dördüncü mərhələ Səlcuqilər dövrü (XI əsrin ortaları - XIII əsrin ortaları) ilə bağlıdır. Bu mərhələdə sünnilik bölgədə güclənir, şiəliyin mövqeləri zəifləyir. Şafii məzhəbi aparıcı məzhəbə çevrilir,sufi təriqətləri geniş yayılır. Azərbaycan Atabəyləri və Şirvanşahları islamı xristianlığın təzyiqindən qoruya bilirlər.

Beşinci mərhələ monqol istilaları dövrünü (XIII əsrin I yarısı - XV əsrin II yarısı) əhatə edir. Bu dövrdə sufilik geniş yayılır, hürufilik güclənir. Onun banisi Fəzlullah Nəimi (vəfatı-1394) idi. Əbülhəsən Əliyyül-Əla və şair Nəsimi (vəfatı-1417) hürufiliyin ən nüfuzlu nümayəndələri kimi şöhrət tapmışlar. Bu dövrdə sufi xəlvətiyyə təriqətinin ikinci piri Seyyid Yəhya Şirvani Bakuvi Xəlvəti (vəfatı-1464) çox məşhur olmuşdur. Ağqoyunlu hökmdarı Uzun Həsənin qardaşlarından biri xəlvətiyyə şeyxi Dədə Ömər Rövşəninin (vəfatı-1487) ardıcıllarından idi. İbrahim bin Məhəmməd Gülşəni (vəfatı-1534) XV əsrin ikinci yarısında xəlvətiyyənin bir qolu kimi gülşəniyyə təriqətinin əsasını qoyur. Sonralar bir çox sufi təriqətləri, o cümlədən nəqşbəndiyyə Azərbaycana və Azərbaycan vasitəsilə Şimali Qafqaza nüfuz etmişdir.

Altıncı mərhələ Səfəvilərin (1501-1786) və XVI əsrdən etibarən Osmanlıların (1281-1924) hakimiyyəti dövrü ilə bağlıdır. Səfəvilər şiəliyi təbliğ edir və başlarına 12 şiə imamının şərəfinə 12 qırmızı zolaqlı əmmamə bağlayırdılar. Buna görə də onlar "qızılbaşlar" adlanırdılar. Çaldıranda Səfəvilərə qalib gələn Osmanlılar Azərbaycanda sünni hənəfi məzhəbini yayırdılar.

Tarixi faktlar təsdiqləyir ki, İslamın Azərbaycanda yayıldığı dövrdə xalqın narazılığını əks etdirən etirazlar və qiyamlar baş verib, amma bu etirazlar dinə yox, siyasi hakimiyyətə qarşı yönəlib. Digər tərəfdən, əgər İslam qılınc gücünə yayılsaydı, onun Azərbaycanda ömrü bu qədər uzun olmaz və ümumxalq dininə çevrilməzdi. Dini birlik şüuru etnik və ya milli birlik şüurundan daha güclü və əhatəli olduğundan İslam yeni müsəlman sivilizasiyasının təməlində durdu və türk xalqları bu dini qəbul etməklə nəinki daha əhatəli və zəngin bir sivilizasiyaya qoşuldular, həm də bu sivilizasiyanın təşəkkülündə, inkişafında, zənginləşməsində mühüm rol oynadılar.

Çünki on beş əsr boyunca bu coğrafiyada yaşamış və yaratmış insanlar İslam mədəniyyətinin çiçəklənməsi üçün əllərindən gələni əsirgəməmiş və bu mədəniyyətin layiqli və görkəmli nümayəndələrinə çevrilmişlər. İslam mədəniyyətini azərbaycanlılarsız təsəvvür etmək mümkün olmadığı kimi, Azərbaycan mədəniyyətini də İslamsız təsəvvür etmək qeyri-mümkündür. Əgər mədəniyyətimizdən bir anlığa İslamı və onun izlərini silsək, bu zaman Azərbaycan tarixini və mədəniyyətini inkar etmiş olarıq. Azərbaycanda İslamla bağlı önəmli məqamlardan biri də odur ki, bu din Qafqazda ölkəmiz vasitəsilə yayılmışdır. Bunun məntiqi nəticəsidir ki, hazırda Azərbaycan Qafqaz regionunda yaşayan bütün müsəlmanlar üçün dini mərkəz rolunu oynayır və bu fakt istər elmi, istərsə də dini dairələr tərəfindən qəbul edilir.

## MÖVZU 13

## Müasir Azərbaycanın dövlətçilik təcrübəsində multikulturalizm həyat tərzi kimi

Artıq müstəqilliyimizin bərpa edilməsinin 27-ci ildönümünü qeyd edirik. 27 il dövlətçilik tarixi baxımından qısa bir dövr olsada, qazandığı tarixi nailiyyətlərin miqyasına, uğurların sayına görə çox böyük əhəmiyyət kəsb edən müddətdir. Bir çox Avropa ekspertləri etiraf edirlər ki, onların dövlətləri 50-60 ildə keçdiyi inkişaf yolunu gənc müstəqil Azərbaycan dövləti cəmi 26 ilə qət edib. Avropalılar nəyi nəzərdə tuturlar? Əlbəttə, öncə vətəndaş cəmiyyətinin formalaşmasını, cəmiyyətin daha da demokratikləşməsini, əsas insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunmasını, multikulturalizm və tolerantlıq şəraitində yaşayan xalqlara verilən önəmin miqyasını və s. Xüsusilə sonda qeyd etdiyimiz nailiyyətləri daha yüksək qiymətləndirirlər. Azərbaycan müstəqilliyi bərpa etdikdən sonra milli mədəniyyətimizin inkişafında da yeni dövr başlandı. Müstəqillik illərində Azərbaycan mədəniyyəti dünyaya inteqrasiya yoluna qədəm basdı. Sovet dövrünün mədəniyyəti yeni məzmun kəsb etməyə başladı. Azərbaycan Respublikasının yeni mədəniyyət siyasətinin düzgün və daha effektiv, milli maraqlarımıza uyğun təşkili əsas istiqamətə çevrildi. Xalqın tərəqqisində tarixi, milli-mədəni köklərə bağlılıq, qarşılıqlı anlaşma, milli birlik, yaradıcı münasibət, müasirlik və s. yaradıldı. Heydər Əliyev mədəniyyəti xalqın böyük sərvəti hesab edirdi. Məhz onun hakimiyyəti illərində mədəniyyətə, milli-mənəvi dəyərlərə münasibət köklü şəkildə dəyişdi və ölkəmizdə mədəniyyətin inkişafında yeni dövrün başlanğıcı oldu. Müstəqillik illərində mədəniyyət siyasətinin həyata keçirilməsi daha çevik xarakter aldı. Azərbaycan mədəniyyəti dünyada daha geniş şəkildə tanınmağa başladı, mədəniyyətin inkişafına həsr olunmuş yüzlərlə sərəncam və dövlət proqramları qəbul olundu.

Möhtərəm prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Müstəqillik illərində Azərbaycan xalqının mənəvi potensialı daha da zənginləşmiş, milli mədəniyyət və incəsənət, azərbaycançılıq məfkurəsi əsasında inkişaf etmişdir".

Dövlətimizin apardığı uğurlu mədəniyyət siyasəti nəticəsində İçərişəhər, Şirvanşahlar Saray Kompleksi ilə birgə, Qobustan, muğam və aşıq sənətimiz YUNESKO-nun maddi və qeyri-maddi mədəni irs siyahısında öz yerlərini tutmuşlar. Azərbaycan mədəniyyətinin bu maddi və mənəvi abidələri bəşəriyyətin yaratdığı çox dəyərli əsərlər siyahısına salınmaqla ölkəmizin qədim mədəniyyət diyarı olduğu bir daha təsdiqlənmişdir. Müasir dövrdə dünya dövlətlərinin qarşısında duran ən başlıca vəzifələrdən biri müxtəlif din və mədəniyyətlərə mənsub insanların sülh və əmin-amanlıq şəraitində yaşamasının təmin edilməsidir. Müasir dövrdə dünyanın müxtəlif bölgələrində baş verən hadisələr mədəniyyətlərin müxtəlifliyini qəbul etməyən, digər din və mədəniyyətlərin nümayəndələrinin adət-ənələrinə, həyat tərzinə, əqidə və düşüncəsinə hörmətlə yanaşılmayan cəmiyyətlərdə davamlı sabitliyə və inkişafa nail olmağın qeyri-mümkün olduğu aşkar görünür. Bu səpkidə qarşıdurma və münaqişələrin baş verməməsi üçün insanlarda digər mədəniyyətlərə qarşı dözümlülük və hörmət xüsusiyyətləri gücləndirilməlidir. Danılmaz faktdır ki, Azərbaycan xalqının tarix boyu digər mədəniyyətlərə dözümlü münasibəti onun təbiətindən, insanpərvərliyindən və xoş məramlığından irəli gəlir. Azərbaycan qədim zamanlardan müxtəlif dinlərin, dini cərəyanların yayıldığı, qovuşduğu, qarşılıqlı anlaşma şəraitində yaşadığı və əməkdaşlıq etdiyi bir məkandır. Mədəni, etnik, dini və s. müxtəlifliklər düzgün tənzimlənmədikdən cəmiyyətin inkişafında natarazlıq baş verir. Bu müxtəlifliklərin tənzimlənməsinin düzgün modellərindən biri multikulturalizmdir. Multikulturalizm fərqli mədəniyyətlərin yanaşı və ya birgə yaşayış tərzidir və azsaylı xalqların öz etnik-mədəni dəyərlərini qorumaq üçün azadlıq verməklə

yanaşı onların yaşadıqları cəmiyyətin bütün sahələrində fəal iştirak etmələri üçün hər cür şəraitin yaradılmasıdır. Multikulturalizm tərcümədə çoxmədəniyyətlilik deməkdir. Çoxmədəniyyətlilik dedikdə isə ilk növbədə etnik, irqi, dini və mədəni müxtəlifliklər, bu müxtəlifliklərin əsasını təşkil edən dəyərlər nəzərdə tutulur. Multikulturalizm 1960-cı illərin sonunda Kanadada meydana gəlsədə, termin kimi 1970-ci illərdə əks olunur. The Harper Colins sosiologiya lüğətində (1991) Multikulturalizmin belə bir tərifi verilir: “Multikulturalizm – bir çox cəmiyyətlərin xüsusiyyəti kimi plüralizmin mövcudluğunun etiraf olunması və inkişafı deməkdir. Multikulturalizm mədəni müxtəlifliyin, azlıqların mədəniyyətinin müdafiəsi məsələsini öz qarşısına qoyur. Eyni zamanda o, azlıqların mədəniyyəti ilə əsas mədəniyyətin qeyri- bərabər münasibətlərini nəzərdə saxlayır”

Yeni düşüncə tərzinin formalaşması, düşüncə böhranının aradan qaldırılmasının uğuru yalnız yüksək mədəniyyət, multikulturalizmdir. N.Tusi “Əxlaqi-Nasiri” əsərində elmlə əməlin əlaqəsindən yazaraq qeyd edir ki, “bunların vəhdəti olmadan inkişaf və kamillik qeyri-mümkündür”. Mədəniyyətlərin dialoqonu qurmaq üçün başqa mədəniyyətlərin mahiyyətini, xüsusiyyətlərini, tarixini və nailiyyətlərini öyrənmək mütləqdir. Samuil Hantunqton “Sivilizasiyaların toqquşması və dünya düzəminin yenidən qurulması” adlı kitabında qeyd edir: “Yeni dünyada xalqlar arasında əsas fərqlər ideoloji, siyasi, iqtisadi deyil, mədəni fərqlər və müxtəlifliklərdi. Öz tarixinə, dininə, dilinə, mənəvi dəyərlərinə müraciət edən xalqlar, öz kimliklərini müəyyən edirlər”.

Müstəqilliyin 26-cı il dönümündə Azərbaycanda “Multikulturalizm ili” elan edilməsi bir neçə obyektiv səbəblərdən qaynaqlanır. Birincisi, Azərbaycan əsrlər boyu mədəniyyətlərin qovuşduğu məkanda yerləşməklə dinlər və sivilizasiyalararası anlaşmada aparıcı rol oynayıb. İkincisi, Azərbaycanda bütün xalqlar, toplumlar, fərqli dil və din

mənsubları ortaq məxrəcə gələ bilir. Azərbaycan tarix boyu müxtəlif xalqların azad, sərbəst və heç bir maneə ilə rastlaşmadan yaşadığı bir məmləkətdir. Ötən əsrin 70-ci illərində ABŞ və Avropada multikulturalizm siyasəti aparılmasına təkan verildi. Multikulturalizm siyasəti yürüdülərkən bir tərəfdən mədəniyyətlərə azadlıq təmin edilsə də, digər tərəfdən dövlətin əsas məqsədi mədəniyyətlərin inteqrasiyasına nail olmaq və vahid ideya ətrafında cəmiyyət qurmaqdır. Lakin 2010-cu ildən sonra Britaniya, Almaniya və Fransa kimi dövlətlər multikulturalizm siyasətinin uğursuzluğa düçar olduğunu və bu siyasətdən imtina etdiklərini bildirdilər. Bu ölkələrdə multikulturalizmin böhranının səbəbi onunla bağlı oldu ki, mədəniyyətlərarası təbii inteqrasiya prosesində miqrantların gətirdiyi mədəniyyət daha güclü oldu. Bu zaman Avropa iki problemlə qarşılaşdı: Birinci, müsəlmanlar yerli mədəniyyətlə inteqrasiyaya getmədi. Əksinə avropalılarda islama yönəlmə prosesi başlandı. İkinci problem isə get-gedə ağ dərili irqin azalması və təbii artım hesabına qaradərililərin sayının durmadan artması idi. Bu tendensiya perspektivdə Avropada ağ dərili irqin yoxa çıxması təhlükəsini yaratdı. Avropa dövlətlərində ailə planlaşdırılması, qadın kişi bərabərliyi, cinsi azlıqların hüquqları, gender problemləri, qadının cəmiyyətdə rolunun artması və s. kimi məsələlər əslində doğum səviyyəsinin aşağı düşməsi hesabına yaranır. Lakin etnik qruplar bu dəyərləri istənilən səviyyədə mənimsəmədikləri üçün nəticədə yerli əhali azalmağa, etnik qrupların sayı isə artmağa başladı. Bu isə qərb mədəniyyətinin get-gedə assimilyasiya olmasına gətirib çıxarır. Bu səbəbdən Avropa ölkələrin bir çoxunun multikultural cəmiyyətdən imtina etmələri səbəb olmuşdu. Multikulturalizmdən imtina etmək yaxşı heç nə vəd etmir, çünki bu, təəssüf ki, bütün dünyada getdikcə artan anlaşılmazlığa, qarşıdurmaya, milli və dini münaqişələrə aparıb çıxaran yoldur. Bakı Humanitar Forumunda iştirak edən Y.Jdanov Azərbaycanda multikultu-

ralizmin inkişafı barədə belə fikir söyləmişdir: “Planetdə başqa elə bir bölgə yoxdur ki, buradakı kimi onlarla xalq çox uzun müddətə və birlikdə yaşamış olsun. Bu füsunkar çoxçalarlılıq bütün bəşəriyyətin dəyərli xəzinəsi hesab oluna bilər”. Sevindirici haldır ki, Azərbaycan dünyada məscid, kilsə və sinaqoqun bir arada olduğu, eləcə də müxtəlif din mənsublarının heç bir ayrıseçkilik halı ilə qarşılaşmadıqları nadir ölkələrdən biri, bəlkə də, birincisidir. Rum patriarxı I Varfolomey 2003-cü ildə Azərbaycanda rəsmi səfərdə olarkən ölkəmizdəki tolerantlıq haqqında belə söyləmişdi: “Mən buradakı tolerantlığın səviyyəsindən məmnunam. Azərbaycanda hər kəs istədiyi dinə etiqad edir, istədiyi kimi ibadət edə bilir”. Bu ilin oktyabr ayında Bakıda səfərdə olan Roma Papası Fransisk öz çıxışlarının birində belə demişdi: “İnanıram ki, Şərq ilə Qərb arasında qapı olan Azərbaycan hər zaman özündə insanlara sülh və insanın parlaq gələcəyi üçün möhkəm zəmin yaratmaq baxımından əsas təşkil edən açıq olmaq mədəniyyətini inkişaf etdirib”. Bunu da qeyd edim ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Vatikan başçısının Azərbaycana ikinci səfəridir. Vatikan başçıları adətən əhalisinin əksəriyyəti müsəlman olan ölkələrə səfərlər etmirlər. Azərbaycan isə istisnadır. Buna baxmayaraq, Roma Papasının müsəlman Azərbaycana səfəri Azərbaycanın dini və etnik tolerant dövlət olduğunu bir daha sübut etdi. Hazırda ölkəmizdə müsəlmanlarla yanaşı, pravoslav, Roma-katolik konfessiyaları, protestanlığın müxtəlif cərəyanları olan Yevangel-lüteranlar, Yevangel xristian baptistləri, Molokan ruhani xristianları, Alban-udi xristian dini icmaları, Avropa yəhudiləri-əşkinazilər, dağ yəhudiləri olan sefartlar, gürcü yəhudiləri, ənənəvi olmayan din qruplardan olan krişnaçılar, bəhailər və sair dinlərin mənsubları birlikdə yaşayır və öz dini etiqadlarını rahatlıqla yerinə yetirirlər. Yer kürəsində yaşayan xalqların sayı mövcud dövlətlərin sayından dəfələrlə çoxdur. Ayrı-ayrı mənbələrdə, təxminən, 3500-dək xalq, millət və

etnik qrupun yaşadığı və onların sayının 7, hətta, 10 min olması məlumatlarına rast gəlinir. Onlar 200-dən bir qədər çox dövlətdə məskunlaşıblar. Bir sıra araşdırmaçıların fikrincə: “millət”, “xalq”, “azsaylı xalq”, “milli azlıq”, “etnik azlıq” terminləri müxtəlif dövrlərdə ayrı-ayrı tayfaların xalq, ayrı-ayrı xalqların tədricən millət kimi formalaşması prosesi nəticəsində meydana gəlmişdir. Beynəlxalq aləmdə “azlıq” anlayışı XVI-XVII əsrlərdə Avropada yaşanan protestant-katolik qarşıdurması ilə ortaya çıxmışdır. 1598-ci ildə Fransa kralı IV Henri tərəfindən qəbul edilən Nant Fərmanında və 1648-ci il Vestfal Sülh Sazişində protestant vətəndaşlarını əhatə edən hökmlərdə azlıq hüquqlarına da yer verilmişdir. “Etnik” sözünün etimologiyasından bəhs edən Ronald Cakson qeyd edir ki, “etnik” sözü yunanca “ethnikos”dan törəmiş və cəmiyyətdə xarici qrup, yaxud, milliyyət mənasını ifadə edir. Azərbaycanda tarixən müxtəlif xalqların nümayəndələri bir-birinə çox yaxın qonşuluq şəraitində yaşamışdır. Lakin tarixdə heç bir zaman indiki kimi bu ərazidə məskən salan müxtəlif xalqların nümayəndələrini birləşdirən vahid dövlətçilik ideyası olmamışdır. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsində: “Mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarına hörmət təmin olunmalıdır”. Bununla yanaşı, qəbul edilən bir cox qanunlarda Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə təminat verildi. “Mədəniyyət haqqında” qanunun 11-ci maddəsi ilə Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə önəm verdiyini bir daha sübut etdi. Eləcə də “Təhsil haqqında” qanunda hər kəsin öz dilində təhsil almaq hüququ və ayrı-seçkiliyə yol verilməməsi məsələsi öz əksini tapdı. Bu məqsədlə milli azlıqların məskunlaşdığı Azərbaycanın bir sıra rayonlarında təhsil müəssisələri açıldı, ölkənin radio və televiziya kanallarında milli azlıqların dillərində verilişlər yayımlanması ənənəsi qoyuldu. Həmin ərazilərdə yerli

telekanallar fəaliyyət göstərməyə başladı. Milli azlıqların dilində qəzet və jurnallar nəşr olunmağa başladı.Lakin bütün bunlarla yanaşı, dövlətimizin ən başlıca sərvəti əsrlərdən bəri bu torpaqda yaşayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər də zəngin olar. Hələ 1897-ci ildə Rusiya imperiyasında aparılmış əhalinin ilk ümumi siyahıyaalınması məlumatlarında Şimali Azərbaycan ərazisində onlarla müxtəlif millətlərin, xalqların, etnik qrupların nümayəndələrinin yaşadığı qeydə alınmışdır. İndiki Azərbaycan Respublikasının o vaxtkı ərazisində yaşamış əhalinin 60,5 faizini azərbaycanlılar, yerdə qalanını isə ruslar, ermənilər, tatlar, talışlar, yəhudilər, ukraynalılar, gürcülər və b. millətlər və xalqlar təşkil etmişdir. 1926-cı ilin ümumittifaq siyahıyaalınmasının yekunlarınına görə Azərbaycanda xalqların sayı 95 olmuşdur. 1989-cu ildə SSRİ-də aparılmış sonuncu ümumittifaq əhali siyahıyaalınması məlumatlarına əsasən Azərbaycanda yaşayan millətlərin, xalqların və etnik qrupların sayı əvvəlki illərə nisbətən nəinki azalmamış, əksinə, xeyli çoxalaraq 115-ə çatmışdır .

1999-cu ildə keçirilmiş müstəqil Azərbaycan Respublikası əhalisinin ilk milli siyahıyaalınması məlumatlarına əsasən Azərbaycan əhalisinin milli tərkibi azərbaycanlılarla yanaşı onlarla digər millət və xalqlardan ibarət olmuşdur. 2009-cu ilin siyahıya alınmasına görə ölkə əhalisinin 8,4 faizini milli azlıqlar, azsaylı xalqlar və etnik qrupların nümayəndələri təşkil etmişdir. Dövlətimiz milli azlıqların müdafiəsi ilə bağlı 50-dən çox beynəlxalq konvensiyaya qoşulmuşdur, milli azlıqların məsələləri ilə məşğul olan 50-yədək qeyri-hökumət təşkilatı, mədəniy-yət mərkəzləri, xeyriyyə cəmiyyətləri və s. ictimai birliklər fəaliyyət göstərir. Azərbaycanda yaşayan etnik qrupların dilində 15-dən, rus dilində isə 30-dan çox qəzet və jurnal nəşr olunur. Telekanallarda, milli azlıqların etnik-mədəni həyatı, etnoqrafiyası

barədə müntəzəm materiallar hazırlanır. Milli azlıqların sıx yaşadığı 5 bölgədə isə yerli teleradio kanalları fəaliyyət göstərir. Eyni zamanda, təlim yalnız rus dilində olan 19 və təlim yalnız gürcü dilində olan 6 orta ümumtəhsil, 345 beynəlmiləl orta məktəb fəaliyyət göstərir. Respublikamızda 380-dən artıq dini icmanın mövcud olması və onlara eyni münasibətin göstərilməsi Azərbaycanı dünya miqyasında tolerant ölkə kimi bir daha təsdiqləyir. YUNESKO-nun 2005-ci ildə qəbul etdiyi "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya"ya uyğun olaraq ölkəmizdə yaşayan milli azlıq və etnik qrupların mədəniyyəti Azərbaycan mədəniyyətinin tərkib hissəsi kimi qorunur və inkişaf edir. Bu xalqların milli mədəniyyətinin, incəsənətinin, adət- ənənələrinin və dilinin qorunub saxlanılması üçün işlər aparılır. Əsrlər boyu Azərbaycanda 80-dən çox etnosun nümayəndəsi yerli etnos olan azəri türkləri ilə yanaşı yaşayır. Bu tarixi təcrübə azsaylı etnosların və etnik qrupların yoxa çıxması təhlükəsinin aradan qaldırılmasına səbəb olmuşdur. Azərbaycanda bir dəfə də olsun dini və etnik ədavət, sayından asılı olmayaraq, etnik azlıqlarla münasibətdə ayrıseçkilik faktları qeydə alınmayıb, çünki Azərbaycan dövləti onların hər birinə eyni dərəcədə qayğı göstərir. Azərbaycanda yaşayan xalqların və etnik qrupların maddi və bədii mədəniyyət nümunələri, milli məişəti dünya ictimaiyyətinə çatdırır. Etnik azlıq və qrupların mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi məqsədilə iki ildən bir azsaylı xalqların incəsənəti festivalı keçirilir. Azsaylı xalqların adət-ənənəsini, mətbəxini, folklorunu əhatə edən filmlər və verilişlər ingilis dilinə tərcümə olunaraq Avropa tamaşaçılarına təqdim edilir. Milli azlıqlar öz milli mərkəzlərini, assosiasiyalarını və digər qurumlarını yaratmaq hüquqlarından tam istifadə edirlər. Hazırda Azərbaycanda onlarla milli mədəniyyət mərkəzi fəaliyyət göstərir. Onların arasında "Birlik" cəmiyyəti, rus icması, slavyan mədəniyyət mərkəzi, Azərbaycan-İsrail icma-

sı, Ukrayna cəmiyyəti, “Ronai” kürd mədəni mərkəzi, “Samur” ləzgi milli mərkəzi, Azərbaycan-slavyan mədəniyyət mərkəzi, tat mədəniyyət mərkəzi, Azərbaycan-tatar cəmiyyəti, “Turqan-tel” tatar mədəniyyət cəmiyyəti, “Yaşlıq” tatar mədəniyyət mərkəzi, “Krım” Krım tatarları cəmiyyəti, gürcü cəmiyyəti, Azərbaycan gürcülərinin humanitar cəmiyyəti, ingiloy icması, çeçen mədəniyyət mərkəzi, Ahıska türklərinin “Vətən” cəmiyyəti, Ahıska türk qadınlarının “Sona” cəmiyyəti, talış mədəniyyət mərkəzi, avar cəmiyyəti, dağ yəhudilərinin icması, Avropa yəhudiləri (Aşkenazi) icması, gürcü-yəhudi icması, yəhudilərin qadın humanitar assosiasiyası, “Kapelhaus” alman mədəniyyət icması, “Polonia” polyak mədəniyyət mərkəzi, “Mada” Beynəlxalq talış assosiasiyası, “Avesta” talış assosiasiyası, “Orain” udi mədəniyyət mərkəzi, “Buduq” mədəniyyət mərkəzi, saxur mədəniyyət mərkəzi də vardır. Milli azlıqların sıx yerləşdiyi ərazilərdə həvəskar cəmiyyətlər, milli və dövlət teatrları, həvəskar assosiasiyalar və maraq qrupları fəaliyyət göstərir. Məsələn, Qusar rayonunda ləzgi, Qax rayonunda isə Gürcü Dövlət teatrları, Astara və Lənkəran rayonlarında talış folklor qrupları fəaliyyət göstərir. Dövlət Radio stansiyası tərəfindən mütəmadi olaraq, kürd, ləzgi, talış, gürcü və rus dillərində verilişlər hazırlanır. Balakən rayonunda avar dilində, Xaçmaz rayonunda isə ləzgi və tat dillərində, Qusar və Xaçmaz rayonlarında yerli televiziyada ləzgi dilində verilişlər yayımlanır. Bakıda rus, kürd, ləzgi və talış dillərində qəzetlər nəşr olunur. Azərbaycan türkləri mehriban, qonaqpərvər və humanist olduğu üçün respublikamızda yaşayan digər xalqlar özlərini hərtərəfli ifadə edə bilirlər. Azsaylı xalqların hüquqları hər zaman qorunub və onlara ana dilini, mədəniyyətini, dinini yaşatmaq üçün şərait yaradılıb.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində:


1. Abdulla K. Azərbaycan multikulturalizminin siyasi banisi /Kamal Abdulla //Azərbaycan. 2015. 1 may. S.3.
2. Abdullayev K. Azərbaycan multikulturalizmi bu gün: Portuqaliyadan İndoneziyayadək... /Kamal Abdullayev //Xalq qəzeti. 2016. 6 yanvar. S.4.
3. Abdullayev K. Azərbaycanda multikultural təhlükəsizlik prinsipləri /Kamal Abdullayev//Yeni Azərbaycan. 2015. 24 iyun. S. 4.
4. Abdullayev K. Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir /Kamal Abdullayev// Azərbaycan. 2014. 23 iyul. S.7.
5. Azərbaycan həmişə tolerantlığın yüksək səviyyədə qorunduğu ölkə olub //Azərbaycan. 2014. 28 noyabr. S.5.
6. "Azərbaycan multikulturalizmi: din və dil siyasətinin inkişaf perspektivləri" adlı beynəlxalq konfransın materialları: Bakı – 8-9 sentyabr 2016 .
7. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun, 2016, 90 s.
8. Azərbaycanda dini mədəniyyətin, tolerantlığın, dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 yanvar 2014-cü il /İlham Əliyev /Azərbaycan. 2014. 19 yanvar. 3s.
9. Azərbaycanda ənənəvi din (A.Şirinov və b); red. N.Məmmədov; elmi red. A.Şirinov; ön söz müəl.

M.Qurbanlı; Azərbaycan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi.- Bakı, Elm və təhsil, 2014., 442 s.
10. Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları /elmi red. Abdulla Kamal; tərt.: M.Nağısoylu, F.Ələkbərli, Ə.Bağırov, İ.Quliyev; rəy. T.Kərimli, N.Qasımzadə/-Bakı, BBMM, 2016. Kitab I., 288 s. (Azərbaycan multikulturalizminin qaynaqları seriyası).
11. Azərbaycanda tolerantlığın möhkəm təməl sütunları var //Azərbaycan. 2014. 15 noyabr. S.5.
12. Babaoğlu. H.Əliyev irsinin polotiloji aspektləri. Bakı, MSA.,2013, 455s.
13. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 15 may 2014-cü il /İlham Əliyev//Azərbaycan. 2014. 16 may. S.1.
14. Cavid. Azərbaycanda multikulturalizm /Cavid //Xalq cəbhəsi. 2016. 14 yanvar. S. 13.
15. Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru: Beynəlxalq konfransın materialları. Bakı, 6-7 noyabr 2009: /red. ön söz. müəl. Hacı A.İsgəndərov; nəşrə məsul Hacı S.Musayev; red. heyəti Q.Cavadlı və b.; rəyç. V.Məmmədəliyev; T.Bünyadov. Bakı, 2010, 200 s.
16. Əhədova S. Müasir dünyada mədəniyyətlərarası münasibətlər: (monoqrafiya) /S.A.Əhədova; elmi məsl. A.Mustafayeva; elmi red. İ. Hüseynova (ön söz). Bakı, Elm, 2014. 347s.
17. Ələkbərzadə S. Multikulturalizm dəyərləri: Azərbaycandan dünyaya /S.Ələkbərzadə //525-ci qəzet. 2015. 20 oktyabr. S.5.

18. Əmirəliyeva İ. Ali məktəb tələbələrində tolerantlığın formalaşdırılması: ped. ü.f.d. elmi dərəcə almaq üçün dissertassiyanın avtoreferatı:5804.01 /İ.B.Əmirəliyeva; AR Təhsil Nazirliyi, ADPU. Bakı, 2015.- 27 s.
19. Həsənov A. Müasir şəraitdə Azərbaycanda dini-mədəni dəyərlərin inkişaf xüsusiyyətləri:(monoqrafiya) /Anar Həsənli; elmi red. S.Hüseynov; ön söz İ.Rüstəmov. Bakı,NurArt, 2014,143 s.
20. Həsənov Ə. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti (dərslik). Azərbaycan, 2005, 751 s.
21. Həvilov H.A. Azərbaycan etnoqrafiyası. Bakı, 1991., 253s.
22. Həvilov H.A. Dünya xalqlarının etnoqrafiyası. Bakı,1999. 508 s.
23. Hüseynov S. Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik /S.Y.Hüseynov; elmi red. A.Əlizadə. Bakı,Təknur, 2012, 175, s.55
24. Məmmədli M. Multikulturalizmanaseya yoxsa alternativ, Bakı, 2016, 186 s.
25. Məmmədov L. "Dözümlülük" və "tolerantlıq" anlayışlarının nisbəti /L.Məmmədov //Zaman. 2015. 24 yanvar. S.13.
26. Məmmədzadə İ. Cəmiyyətin həyatında multikulturalizm və inteqrasiya: Forum sonrakı düşüncələr /İ.Məmmədzadə //Xalq qəzeti. 2014. 4 noyabr. S.3.
27. Məsimoğlu İ. Haputlular /İldırım Məsimoğlu; red. E.Məsim. Bakı, Şəms, 2010, 84 s.
28. Milli azlıqların hüquqları: Beynəlxalq aktlar və Gürcüstan qanunvericiliyi /lay. müəl. G.Hacıbəyli; red. K.Ramazanlı; çevirən.: A.Əlləzoğlu, N.Nəsibov, E.Mustafaoğlu. Bakı, Adiloğlu, 2008., 368 s.

29. Mirzəzadə R. Multikulturalizm siyasəti və şərq-qərb müxtə-lifliyi: Gender, din və mənəviyyat /R.R.Mirzəzadə; elmi məsl. İ.Məmmədzadə; AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu.Bakı, Təknur, 2012. 159 s.
30. Mirzəzadə R. Multikulturalizm siyasəti: Din və gender dia-loqunda /R.R.Mirzəzadə; elmi məsl. İ.Məmmədzadə; AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İn-tu. Bakı,Təknur, 2013.167 s.
31. "Multikulturalizmin müqayisəli tədqiqləri: nəzəriyyədən humanist təcrübəyə doğru" mövzusunda dəyirmi masanın proqramı: 03 oktyabr 2014-cü il. Bakı, 2014, 44 s.
32. Mustafa Ə. Azərbaycandakı tolerantlıq və multikulturalizm beynəlxalq aləmdə rəğbətlə qarşılanır /Ə.Mustafa//Zaman.- 2015. 17 aprel. S.13.58 Müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında əlaqə-lərin dərinləşdirilməsində multikulturalizm siyasəti mühüm rol oynayır // Azərbay-can.- 2015. 14 fevral. S.4.
33. Mustafayev A. İngiloyların maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat) Azərbaycan Respublikası Təhsil Nazirliyi; Bakı Dövlət Universiteti; AMEA; Azərbaycan Beynəlxalq münasibətlər İnstitutu; elm. red. Q.Cavadov; rəyçilər: Q.Cavadov; H.Məmmədov; Ş.Əliyev. Bakı, Çaşıoğlu, 2005. 224 s.
34. Müasir dövrdə Azərbaycanda sosial-iqtisadi və mənəvi inkişafın harmoniyası: I virtual dəyirmi masa, 2014: IV Bakı Beynəlxalq Humanitar Forumu ərəfəsində /Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi; (red.: K.Abdullayev və b.) Bakı, Mütərcim, 2015. 74 s.

35. Mükərrəmoğlu M. Azərbaycan dünyada sivilizasiyalararası dialoq və multikulturalizm mərkəzinə çevrilmişdir /M.Mükərrəmoğlu //Xalq qəzeti. 2014. 12 aprel. S. 6.
36. Mürvətqızı S. Kamal Abdullayev: "Prezidentin Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq təşəbbüsü real həllini tapacaq:" Multikulturalizm həyat tərzimizdir /S.Mürvətqızı //525-ci qəzet. 2015. 20 mart. S.21.
37. Nəbiyev V. Azərbaycan Xalq Cümhuriyyəti dövründə multi-kulturalizm siyasəti /V.Nəbiyev //Zaman. 2015. 23 oktyabr. S.13.
38. Nəsibov E. İnkişaf və sülh ideyaları /E.Nəsibov; elmi red. C.Cabbaroğlu. Bakı, Elm və Təhsil, 2014. 169 s.
39. Nəsirov E. Multikulturalizm ölkələrin həyat tərzinə çevriləcəkmi? /E.Nəsirov //Xalq qəzeti. 2015. 4 iyun. S.8.
40. Nəsirov E. Multikulturalizm və tolerantlıq ideyalarının təntənəsi /E.Nəsirov //Xalq qəzeti. 2015. 25 dekabr. S.8.
41. Niftiyev N. Azərbaycanda birgəyaşayış və multikulturalizm /N.Niftiyev; ön söz E.Nəsirov; elmi red. İ.Abbasov; (Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi). Bakı, 2015. 407.56 s
42. Ömərov V. Azərbaycan cəmiyyətində insan hüquqları və multikulturalizm /V.Ömərov //Səs. 2015. 1 oktyabr. S.15.
43. Ömərov V. Multikulturalizm vətəndaş cəmiyyətinin əsas xüsusiyyətidir /V.Ömərov //Səs. 2014. 8 avqust.S.15.
44. Sadıqova X. Azərbaycan multikulturalizm siyasətində nümunəvi modeldir /X.Sadıqova//Zaman. 2015. 20 yanvar. S.13.

45. Sarıyeva İ. Azərbaycan multikulturalizmin əsas məkanlarından biridir /İ.Sarıyeva //Bakı xəbər. 2014. 24 fevral. S.12.
46. Teatr sənətinin multikulturalizm-universal dəyərlər sistemində yeri: III Bakı Beynəlxalq teatr konfransı: 5-6 noyabr, 2014-cü il (Azərb. Resp., Mədəniyyət və Turizm Nazirliyi; Ön söz Ə.Qarayev) Bakı, 2014. 256 s.
47. Turqut T. Azərbaycan sabitlik, inkişaf və multikulturalizm məkanıdır /T.Turqut //İki sahil. 2015. 24 noyabr. S.5.
48. Vahabov T. Multikulturalizm təhlükəsizliyin və inkişafın mühüm dayaqlarından biridir /T.Vahabov //Azərbaycan. 2015. mart. S.59
49. 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 11 yanvar 2016-cı il //Azərbaycan. -2016.- 12 yanvar. S.6; Mədəniyyət. 2016. 13 yanvar. S.2.
50. "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 11mart 2016-ci il/İlham Əliyev// Azərbaycan. 2016.12 mart. S.2.57
51. 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı: Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 mart tarixli Sərəncamı ilə təsdiq edilmişdir //Azərbaycan. 2016. 12 mart. S.6.

**Rus dilində:**

1. Первая Всеобщая перепись Российской империи 1897 года. Под редакцией Н.А.Тройницкого.т. LXIII. Тифлис, 1904. Стр.60, 63
2. Рзаева Р. Постмодерн и мультикультурализм: междисциплинарный дискурс. Р.Рзаева; науч. ред. М.И.Билалов. Баку: Елм и тахсил, 2015. 298 с.
3. Хыналыг. Этнотуризм в Азербайджане: (пособие для туристов) М-во культуры и туризма Азер. Респ.; авт. текста Э.Эюбов; фото. Ш.Муршудлу; дизайнер А.Багирова. Баку: Golden book, 2013. 18 с.

**MULTİKULTURALİZMƏ GİRİŞ**
**FƏNNİNDƏN MÜHAZİRƏLƏR TOPLUSU**
**(Dərs vəsaiti)**

**Tərtib edənlər:**
**Cəlal Qasımov**
**Kəminə Həvilqızı**
**Könül Şıxiyeva**

| | |
|---|---|
| **Baş redaktor:** | **Fuad Salayev** |
| **Texniki redaktor:** | **Vəfa Camalova** |
| **Texniklər:** | **Aruz Məmmədli**<br>**Sevinc Məcidova** |

Format 60x84/16, şərti çap vərəqi 14,75
Sifariş № 227, tiraj 70, səhifələrin sayı 236

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının “İctimai-siyasi fənlər” kafedrasının kompüterində yığılmış və Nəşriyyat-poliqrafiya mərkəzində nəşr edilmişdir.